AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

MUSTAFAYEV ABDULLA NƏRİMAN OĞLU

# ERMƏNİSTANIN SOYQIRIM VƏ DEPORTASIYA SİYASƏTİNDƏ NAXÇIVAN

Naxçıvan Dövlət Universiteti
Elmi Şurasının 19 fevral 2013-cü il
tarixli (protokol №5 ) qərarı ilə çapa
tövsiyə edilmişdir

B A K I – 2013

**Elmi redaktor:** **İsmayıl Muxtar oğlu Hacıyev**
AMEA – nın həqiqi üzvü

**Rəyçilər:** **Ataxan Paşayev**
Tarix elmləri doktoru

**Zəhmət Şahverdiyev**
Tarix elmləri doktoru

**Fəxrəddin Cəfərov**
Tarix elmləri doktoru

**İbrahim Kazımbəyli**
Tarix üzrə fəlsəfə doktoru ,dosent

**Elçin Zamanov**
Tarix üzrə fəlsəfə doktoru, dosent

**Mustafayev Abdulla Nəriman oğlu. Ermənistanın soyqırım və deportasiya siyasətində Naxçıvan. ADPU-nun nəşriyyatı, Bakı 2013, 194 səhifə**

*Monoqrafiyada XX əsr boyu Qərbi Azərbaycan (indiki Ermənistan) və Naxçıvan ərazisində ermənilərin aborigen əhali olan azərbaycanlılara qarşı həyata keçirdikləri soyqrım və deportasiya siyasətu, Azərbaycanlı qaçqınların Naxçıvana gəlmələri və onlara kömək göstərilməsi arxiv materialları əsasında araşdırılmışdır.*



Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmış, respublikada cərəyan edən ictimai siyasi proseslərə öz müsbət və həlledici təsirini göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılmasına və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir

**Heydər Əliyev**
**Azərbaycan xalqının ümummilli lideri**



Azərbaycandan qismən təcrid olunmuş vəziyyətdə blokada şəraitində yaşamaq məcburiyyətində qalan, tez-tez bədnam qonşuların ərazi iddiaları obyektinə çevrilən Naxçıvanın tarixinin hələ də tədqiq edildiyinə ehtiyacı olan səhifələri açılmalı, Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan bu diyarın tarixi dolğun, obyektiv şəkildə xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**



İstər XIX əsrdə, istərsə də XX əsrin əvvəllərində Naxçıvana ermənilərin yerləşdirilməsi prosesi davam etdirilsə də, ermənilər tərəfindən Naxçıvanda qırğınlar törədilsə də, Naxçıvan əhalisi heç vaxt azadlıq əzmini itirməmiş, həmişə öz sözünü deməyi bacarmış, düşmənin layiqli cavabını vermiş, hətta naxçıvanlıların qəhrəmanlığı ermənilərin tarixi sənədlərində öz əksini tapmışdır.

**Vasif Talıbov**
**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisin sədri**

# GİRİŞ

Bu gün Azərbaycan tarix elminin qarşısında duran ən mühüm vəzifələrdən biri ermənilərin öz təcavüzkar ideyalarını reallaşdırmaq üçün xalqımıza qarşı həyata keçirdikləri soyqırım, deportasiya, ərazi iddialarının köklərini, mərhələlərini açıb göstərmək, erməni şovinizminin nəinki bizim xalqımız, eləcə də qonşu xalqlar, bütün bəşəriyyət üçün hansı təhlükələr yaratdığını dünya ictimaiyyətinə çatdırmaqdan ibarətdir.

Son iki əsr ərzində Azərbaycan xalqına qarşı soyqırım və terror siyasəti həyata keçirən erməni millətçiləri öz hərəkətlərinə qarşı dünya birliyinin biganəliyindən, bəzi dövlətlərin isə bilavasitə dəstəyindən istifadə edərək daha da azğınlaşmış və 1988-ci ildə Azərbaycana qarşı işğalçılıq müharibəsinə başlayaraq onun əzəli torpağı olan Dağlıq Qarabağı və ətraf rayonları zəbt etmiş, Azərbaycan torpaqları hesabına yaratdıqları Ermənistan Respublikasından son nəfərinə qədər azərbaycanlı əhalisini deportasiya etmişlər.

«1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi sürətdə deportasiyası haqqında» Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 1997-ci il tarixli fərmanında qeyd edildiyi kimi, son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandıralan ərazidən, min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir (4, 1997, 19 dekabr)

Çox təəssüf ki, indiyə qədər dünya ictimaiyyətinin ermənilərin insanlığa qarşı yönəlmiş bu zidd hərəkətləri haqqında məlumatı kifayət qədər çox olsa da, erməni təbliğatının və

ermənipərəst mətbuatın səyləri nəticəsində onların «əzabkeş millət» obrazı yaradılmışdır.

Ümumilli lider Heydər Əliyevin 2001-ci il martın 28-də "31 mart – Azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciəti"ndə deyilir: "Erməni millətçiləri və şovinistləri "Böyük Ermənistan" xülyalarını həyata keçirmək üçün lap əvvəldən xalqımıza və ölkəmizə qarşı ustalıqla və davamlı surətdə informasiya və təbliğat müharibəsi aparmışlar. Total qarayaxma kompaniyası, çirkin təbliğat müharibəsi bu gün də davam edir. Ən müxtəlif üsul və vasitələrdən istifadə edən erməni şovinistləri dünya ictimaiyyətini çaşdırır, Azərbaycanın və bütün Qafqazın tarixini saxtalaşdırır, azərbaycanlılara qarşı mənəvi təcavüz kompaniyası aparır, dünya ictimaiyyətinin nəzərində "əzabkeş, məzlum erməni xalqı" obrazı yaradırlar. Erməni icmaları, erməni lobbisi bu istiqamətdə onilliklər boyu ardıcıl iş aparır. Nəticədə ermənilərin Azərbaycan xalqına qarşı bu gün törətdiyi işğal və soyqırım faktlarına biganə qalan dünya dövlətlərinin parlamentləri guya 100 il əvvəl baş verdiyi iddia edilən hadisələr barədə yanlış, siyasi konyunkturaya uyğunlaşdırılmış qərarlar qəbul edir, öz hərəkətləri ilə təcavüzkarı şirnikləşdirirlər. Öz müvəqqəti və ardıcıl uğurlarından vəcdə gəlmiş erməni siyasətçiləri və ideoloqları, bütöv xalqlara nifrət ideologiyasının açıq və maskalanmış daşıyıcıları beynəlxalq hüquq normalarına meydan oxuyur, planetimizdə bərqərar olmuş, sivil birgəyaşayış normalarını kobudcasına pozurlar".

Bu gün dünya miqyasında deportasiya və soyqırıma məruz qalmış xalqların hüquqlarının bərpası üçün bir çox işlər görülür. Deportasiya və soyqırım konkret xalqa yox, bütün bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirilir, BMT səviyyəsində deportasiya olunmuş xalqların anım günü qeyd olunur. Keçmiş SSRİ-də 1956-59, eləcə də 1989-cu illərdə deportasiya olunmuş xalqlara münasibətdə tarixi ədalətsizliyi aradan qaldırmaq üçün müəyyən qərarlar qəbul edilmiş, onların müəyyən qismi öz doğma torpaqlarına qaytarılmışdır. Çox təəssüf ki, XX əsr ər-

zində 2 milyona yaxın azərbaycanlının Ermənistandan deportasiya edilməsi faktına dünya birliyi ciddi münasibət bildirmir.

Bütün bunlar, eləcə də Azərbaycan xalqına qarşı həyata keçirilmiş deportasiyanın hərtərəfli araşdırılması, bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi zəruriliyi tədqiqatın aktuallığını şərtləndirir.

Müraciət etdiyimiz mövzunun aktuallığı ilə bağlı digər məsələ ermənilərin Naxçıvana qarşı ərazi iddiaları ilə bağlıdır. Məsələ ondadır ki, öz cəzasızlıqlarından ruhlanan bədnam qonşularımız növbəti planlarında Naxçıvanın ələ keçirilməsi məqsədini gizlətmir, bu məqsədlə müxtəlif hərəkatlar, qurumlar yaradır, dünya dövlətlərinə saysız-hesabsız müraciətlər göndərərək «tarixi ədaləti» bərpa etməyi və «əzəli erməni vilayəti olan Naxçıvanı onlara qaytarmağı» tələb edirlər.

Tarix boyu digər ərazilərimizdə olduğu kimi Naxçıvanda da ermənilər Rusiya hakimiyyətinin bilavasitə dəstəyi ilə bir çox qırğınlar törədərək, burada etnik üstünlüyü ələ keçirmək üçün türk- müsəlman əhalisini deportasiyaya məruz qoymuşlar. Lakin Naxçıvan əhalisinin erməni təcavüzünə qarşı XX yüzilliyin əvvəllərindən başlayan və bu gün də davam edən qətiyyətli mübarizəsi onların bu planlarını həyata keçirilmələrinə imkan verməmişdir. Bu isə erməni millətçilərini daim narahat edir və onlar əlverişli məqam gözləyirlər. Böyük Ermənistan xülyası ilə yaşayan Ermənistanın Naxçıvanla bağlı iddialarına biganə qalmaq olmaz.

Mövzunun aktuallığı ilə bağlı belə bir amil də yaddan çıxarılmamalıdır ki, tarix boyu Naxçıvan qədim Azərbaycan torpaqları – İrəvan, Zəngəzur, Vedibasar, Dərələyəz, Sürməli və b. ərazilərlə vahid siyasi, etnik-mədəni, iqtisadi məkan təşkil etmiş, həmin ərazilərdə baş verən tarixi-ictimai hadisələr Naxçıvana da birbaşa təsir göstərmişdir. Deportasiya ilə bağlı hadisələr də buraya daxildir. Bundan əlavə, ermənilər bütün cənub-qərbi Azərbaycanda olduğu kimi, Naxçıvanda da etnik təmizləmə siyasətinə uyğun şəkildə qanlı cinayətlər törətmişlər.

Eyni zamanda, erməni millətçilərinin İrəvan quberniyasında, Zəngəzurda, sonra isə Ermənistan Respublikasında və Ermənistan SSR-də həyata keçirdikləri deportasiyanın nəticəsində on minlərlə Azərbaycan türkü öz doğma torpaqlarını tərk edərək Naxçıvana pənah gətirmiş və burada məskunlaşmışlar.

Azərbaycanlıların Ermənistan adlanan ərazidən deportasiyası XIX əsrin əvvəllərindən - bölgənin Rusiya tərəfindən işğalı dövründən XX əsrin sonlarına qədər-təqribən iki əsr ərzində mərhələlərlə həyata keçirilmiş bir faciə olsa da, uzun müddət ərzində bu faciə gizlədilmiş, səylə ört-basdır edilmiş, bir növ bu mövzuya qadağa qoyulmuşdur. Keçmiş ittifaq və respublika mətbuatında, tarixə dair ədəbiyyatlarda bu məsələ haqqında bircə kəlmə də yazılmamışdı.

Ümumiyyətlə, sovetlər dönəmində ermənilərlə azərbaycanlılar arasında münasibətlərin tarixi birtərəfli işıqlandırılmışdır. Əgər Ermənistanda tarixi əsərlərdə, dərsliklərdə, mətbuat səhifələrində, bədii ədəbiyyatlarda bu mövzu hətta kommunist ideologiyasının sərt senzurası şəraitində əsas mövzuya çevrilmişdisə, Azərbaycanda bu barədə yazmağa imkan verilməmişdir.

Yalnız Azərbaycan müstəqillik qazandıqdan sonra milli tariximizin bütün problemlərini, o cümlədən azərbaycanlıların başına gətirilmiş faciələrin tarixi köklərini, mərhələlərini və nəticələrini hərtərəfli və obyektiv şəkildə araşdırmaq üçün geniş imkanlar yarandı.

Bu istiqamətdə aparılan elmi tədqiqatların nəticələrini özündə əks etdirən əsərlərdə bizim tədqiqat obyektimizə bilavasitə aidiyyatı olan məsələlərə (İrəvan quberniyasında, Naxçıvan və Zəngəzurda azərbaycanlılara qarşı zorakılıqlar, onların deportasiyası və s. məsələlər) diqqət yetirilmişdir.

Ermənistan azərbaycanlılarının tarixi, onların soyqırımı və tarixi torpqalarından deportasiyası 90-cı illərin əvvəllərindən başlayaraq bir çox tədqiqatların araşdırma obyekti olmuş, bu məsələyə dair bir sıra ümumiləşdirilmiş əsərlər həsr edilmişdir.

Bu sıraya ilk növbədə Z.Bünyadovun, İ.Məmmədovun, S.Əsədovun, Ə.Ələkbərlinin, Ə.Əliyevin, S.Eloğlunun, A.Mənsurovun, A.Paşayevin, İ.Vəlizadə və B.Muradovun və b. müəlliflərin əsərləri daxildir (37; 38; 39; 41;42; 43;46;76;78; 125; 130; 155;157;164;202). Həmin əsərlərdə azərbaycanlıların Ermənistandan deportasiyası mərhələləri və nəticələrinə aid bir çox məqamlar öz əksini tapmışdır.

B.Nəcəfovun üç hissədən ibarət monoqrafiyasında (192) XIX əsrin sonu – XX əsrin əvvəllərində Cənubi Qafqazda erməni millətçiliyinin kökləri və inkişaf prosesi izlənilmiş, başlıca erməni partiyalarının anti-türk fəaliyyəti təhlil edilmişdir. Kitabda ermənilərin azərbaycanlılara qarşı soyqırımı və deportasiya siyasəti tarixi sənədlərə əsaslanmaqla aşkara çıxarılmışdır. Əsərdə M.S.Ordubadiyə istinad edilməklə Cənub Qafqazda, o cümlədən Naxçıvanda 1905-1907-ci illərdə baş vermiş erməni-müsəlman münaqişəsi geniş təhlil edilmişdir.

İ.Musayevin kitabında (87) Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində 1917-21-ci illərdəki siyasi vəziyyət və xarici dövlətlərin həmin bölgələrlə bağlı siyasəti, ermənilərin bölgələrə dair ərazi iddiaları və s. məsələlər geniş təhlil edilmişdir. Kitabda Naxçıvanda qaçqınlar problemi ilə bağlı bəzi məsələlər öz əksini tapmışdır.

XX əsrin 90-cı illərinin birinci yarısında bilavasitə deportasiya haqqında A.Paşayevin respublika qəzetlərində məqalələri nəşr olunmuş və bu məqalələrin əsasında onun «Köçürülmə» kitabı işıq üzü görmüşdür (115). Bu kitabda azərbaycanlı əhalinin 1948-1953-cü illərdə Ermənistan SSR-dən deportasiyası ilə əlaqədar sovet hakimiyyət orqanlarının qəbul etdikləri qərarların siyahısı və onların mahiyyəti yığcam şəkildə verilmişdir. Əsərin əsas çatışmazlığı istinad edilmiş mənbələrin adının çəkilməməsi, deportasiyanın səbəb və köklərinin geniş təhlildən kənarda qalmasıdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra ictimai hə-

yatın bütün digər sahələrində olduğu kimi sosial-siyasi elmlərin inkişafında da dönüş baş verdi. Azərbaycan tarixinin yenidən, obyektiv yazılması zərurətini əsas vəzifə kimi qarşıya qoyan ulu öndər Heydər Əliyev XX əsrdə başımıza gətirilən faciələrin dərindən araşdırılması, xalqımıza qarşı törədilən tarixi cinayətlərə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə bir sıra fərmanlar və sərəncamlar imzaladı. Onun imzaladığı tarixi sənədlər sırasında «1948-1953-cü illərdə Azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi sürətdə deportasiyası haqqında» 18 dekabr 1997-ci il tarixli fərmanı, «Azərbaycanlıların soyqırımı haqqında» 26 mart 1998-ci il tarixli fərmanı, eləcə də Azərbaycan Xalq Cumhuriyyətinin 80 illik yubileyinin qeyd edilməsi ilə bağlı 30 yanvar 1998-ci il tarixli sərəncamları, «Naxçıvan MR-nın 75 illiyi» ilə bağlı sərəncamı və başqa sənədlər mühüm yer tutur.

Bu sənədlərin qəbul edilməsindən sonra azərbaycanlıların soyqırımı və deportasiya tarixinə bir sıra samballı tədqiqat işləri həsr edildi. Bu əsərlər sırasına həm ayrı-ayrı müəlliflərin əsərləri (1; 2; 3; 26; 40; 42; 52; 63; 67; 72; 74; 79; 80; 86; 88; 109; 124; 125; 130; 152; 156), həm də müxtəlif məcmuələr, məlumat kitabları, sənədlər və materiallardan ibarət toplular daxildir (14; 27; 30; 32; 34; 85; 86; 158; 166; 184; 199).

Adı çəkilən əsərlər arasında T.Köçərlinin «Qarabağ» adlı monoqrafiyasında (67) 1905-1907, 1918-1920 və sonrakı dövrlərdə Cənubi Qafqazın müxtəlif ərazilərində, o cümlədən İrəvan quberniyasında, Naxçıvanda və Zəngəzurda ermənilərin azərbaycanlılar əleyhinə fitnəkar hərəkətləri sənədlər əsasında işıqlandırılmış, regionda ermənilərin etnik üstünlüyə malik olmaları üçün çarizmin həyata keçirdiyi köçürmə siyasəti konkret faktlarla təhlil edilmişdir.

B.Nəcəfovun monoqrafiyasında (112) 1948-1953-cü illərdə azərbaycanlı əhalinin Ermənistandan deportasiyası zəngin

arxiv materiallarından istifadə edilməklə, tarixi hadisələr kontekstində təsvir edilmişdir.

Mifik «Böyük Ermənistan» planının növbəti mərhələsinin tərkib hissəsi olan və ermənilərin XX əsrin sonlarında başladığı Dağlıq Qarabağ avantürası, bu avantüranın həyata keçirilməsi nəticəsində azərbaycanlıların son nəfərinədək Ermənistan Respublikası ərazisindən qovulması adı çəkilən əsərlərdə və digər tarixi-publisistik əsərlərdə geniş əks olunmuşdur (1; 2; 14; 27; 30; 32; 38; 40; 66; 67; 77; 78; 80;125; 130; 152; 156;199).

«Azərbaycanlıların deportasiyası və Naxçıvan» problemi ilə bağlı bəzi məqamlar Naxçıvan tarixinə həsr edilmiş kitab və məcmuələrdə öz əksini tapmışdır (21; 43; 44; 45; 46; 51; 52; 59; 68; 90;92;107;108; 129).

Türk tarixçisi İbrahim Ethem Atnurun "Muxtariyyət ərəfəsində Naxçıvan" adlı əsərində 1917-1921-ci illərdə Naxçıvanda və ətrafında baş verən siyasi-hüquqi hadisələr geniş təsvir edilmiş, bölgədə qaçqınlar probleminə dair bəzi faktlara aydınlıq gətirilmişdir.

1988-1993-cü illərdə Ermənistanın Naxçıvana qarşı təcavüzkarlıq hərəkətləri, bu hərəkətlər nəticəsində Muxtar Respublikada yaranmış mürəkkəb ictimai-siyasi şərait, eləcə də Ermənistanda yaşayan azərbaycanlıların bir hissəsinin Naxçıvana pənah gətirmələri bir sıra əsərlərdə öz əksini tapmışdır (52;61; 70; 72; 73; 90; 107; 108; 120; 127).

Eyni zamanda bir sıra türk tarixçilərinin əsərlərində (134-149) ermənilərin türk-müsəlman əhalisinə qarşı törətdikləri vəhşiliklər, soyqırım və deportasiya siyasəti ətraflı araşdırılmışdır.

Bütövlükdə götürdükdə problemin tarixşünaslıq cəhətdən təhlili bizə belə qənaətə gəlməyə imkan verir ki, azərbaycanlıların Ermənistan deyilən ərazidən deportasiyası müəyyən qədər araşdırılsa da, deportasiyanın Naxçıvanla bağlı məqamlarına, xüsusən Naxçıvandan azərbaycanlı əhalinin deportasiyası cəhd-

ləri, Ermənistandan qovulmuş əhalinin Naxçıvanda məskunlaşması prosesinin mərhələlərinə, nəticələrinə hələ də tam aydınlıq gətirilməmişdir.

Monoqrafiyada əsas məqsəd konkret tarixi faktlara əsaslanmaqla təqribən bir əsr ərzində azərbaycanlıların öz etnik-tarixi torpaqlarından deportasiyası tarixini, deportasiyanın Naxçıvana etnososial, tarixi-siyasi təsirini müəyyənləşdirməkdir.

Bu məqsədi reallaşdırmaq üçün aşağıdakı vəzifələrin həlli vacib sayılmışdır:

- erməni millətçiliyinin və erməni ekspansianizminin tarixi köklərini açıb göstərmək, Cənub Qafqazda etnik üstünlüyə malik olmaq üçün rus hakimiyyətinin bilavasitə dəstəyi ilə ermənilərin həyata keçirdikləri siyasəti təhlil etmək;
- öz məqsədlərinə - «Türksüz Ermənistan» yaratmaq məqsədinə çatmaq üçün istifadə etdikləri metodların -terror, soyqırım, başqa xalqların torpaqlarını ələ keçirmək, yerli əhalinin deportasiyası və s. əsl mahiyyətini açıb göstərmək;
- XX əsrin əvvəllərində Cənubi Qafqazın müxtəlif bölgələrində, o cümlədən İrəvan quberniyasında, Naxçıvan və Zəngəzur qəzalarında ermənilərin müsəlman əhaliyə qarşı həyata keçirdikləri soyqırım və deportasiya siyasətini sübut etmək;
- 1918-1920-ci illərdə erməni millətçilərinin öz ərazi iddialarını həyata keçirmək üçün süni sürətdə yaradılmış Ermənistan Respublikasında azərbaycanlıların soyqırımını, on minlərlə dinc əhalinin yurd-yuvalarından didərgin salmalarını açıb göstərmək, həmin illərdə azərbaycanlıların kütləvi deportasiyası ilə əlaqədar Naxçıvan bölgəsində yaranmış ictimai-siyasi şəraiti təhlil etmək;
- II dünya müharibəsindən sonra erməni diasporunun və Ermənistan SSR rəhbərliyinin azərbaycanlı əhalisini Ermənistan ərazisindən qovmaq üçün həyata keçirdikləri siyasətin mahiyyətini açmaq, həmin dövrdə onların Naxçıvana qarşı ərazi iddialarının tendensiyasını müəyyənləşdirmək;

- 1948-1956-cı illərdə azərbaycanlıların Ermənistandan deportasiyasının Naxçıvanla bağlı məqamlarına diqqət yetirmək;

- XX əsrin sonunda ermənilərin həyata keçirdikləri növbəti ərazi işğalları, soyqırımı və deportasiya nəticəsində Naxçıvanda yaranmış hərbi-siyasi, iqtisadi vəziyyəti təhlil etmək, Ermənistandan qovulmuş əhalinin Naxçıvanda qəbulu, yerləşdirilməsi ilə bağlı həyata keçirilmiş tədbirlərin təhlili və s..

Monoqrafiyada ilk dəfə olaraq böyük bir tarixi zaman kəsiyində mərhələlərlə həyata keçirilmiş deportasiya və soyqırım hadisələrinin Naxçıvanda təzahürü öyrənilmiş, eləcə də bu faciələrin bölgənin taleyinə təsiri müəyyənləşdirilmişdir.

Monoqrafiyada yer tutan bir çox qaynaqlar ilk dəfədir ki, elmi dövriyyəyə daxil edilmişdir. Çoxsaylı tarixi sənədlər və statistik materiallar əsasında sübut olunmuşdur ki, çarizmin köçürmə siyasəti azərbaycanlıların sonrakı deportasiyası üçün zəmin yaratmışdır.

# I FƏSİL

# I FƏSİL. XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ QƏRBİ AZƏRBAYCAN VƏ NAXÇIVANDA SOYQIRIMLAR

## 1.1. Qərbi Azərbaycanda etno-siyasi proseslər və erməni ekspansianizminin başlanması

XX əsrin əvvəllərində Azərbaycan xalqının sonrakı taleyinə təsir göstərmiş mühüm hadisələr baş verdi. Məhz bu dövrdə Cənubi Qafqaz bölgəsində gələcək millətlərarası münaqişələrin birinci mərhələsi başlandı. Apogeyi 1905-1907-ci illərə təsadüf edən etnik təmizləmə və soyqırımı zamanı Cənubi Qafqazda siyasi hakimiyyəti ələ almaq və hegemonluğa nail olmaq niyyətini güdən silahlı erməni quldurları minlərlə Azərbaycan türkünə divan tutmuş, onları öz doğma torpaqlarından qovmağa cəhd göstərmişdilər. «Azərbaycanlıların soyqırımı haqqında» Azərbaycan Respublikası Prezidentinin 26 mart 1998-ci il tarixli fərmanında qeyd edildiyi kimi, «Böyük Ermənistan» yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki azərbaycanlılar yaşayan kəndləri əhatə etdi» (4, 1998, 27 mart).

Aydındır ki, Azərbaycan xalqının həmin dövrdə rastlaşdığı fəlakətlər yalnız bir neçə ay, hətta bir-iki ilin ərzində cərəyan edən hadisələrin nəticəsi deyildi. Bu qanlı hadisələrin arxasında onilliklər boyu ermənilərin Azərbaycanın tarixi torpaqlarına, zəngin təbii sərvətlərinə hakim olmaq, ərazilərimizi işğal etmək istəkləri dayanırdı.

Cənubi Qafqazın, o cümlədən Azərbaycanın işğalına başlayarkən Rusiya imperiyası ermənilərə böyük ümidlər bəsliyirdi. Ermənilərin Qafqazda müsəlman torpaqlarında yerləşdirilməsi xətti I Pyotrun vaxtında götürülmüşdü və onun Qafqaz siyasətinin əsas tərkib hissələrindən biri idi. 1724-cü ildə

Bakıya general Matyuşkinə və Levaşevə göndərilən fərmanda deyilirdi: «Bütün vasitələrlə ermənilər və başqa xristianları Rusiya qoşunlarının tutduqları İran vilayətlərinə: Gilan, Mazandaran, Bakı, Dərbənd və digər əlverişli yerlərə köçməyə çağırmaq lazımdır, onları nəvazişlə qəbul etmək, lütfkarlıqla saxlayıb qorumaq, onlara yaxşı yerlərdə əlverişli torpaq ayırmaq, şəhər və kəndlərdə boş olan evləri və avadanlıqları onlara vermək lazımdır. Düşmənçilik edən, yaxud şübhə doğuran müsəlmanları qovub rədd edin, onların yerini xristianlar tutsun»(163, I hissə, 67-68).

XIX əsrin əvvəllərində rusların Türkiyə və İranla apardığı uğurlu müharibələr I Pyotrun strateci planlarını reallaşdırmağa şərait yaratdı. Cənubi Qafqazı xristian əhali ilə məskunlaşdırmaq üçün ruslar hələ əsrin ilk illərində köçürmə kompaniyasına başlamışdılar. Köçürülmə işinə bilavasitə Qafqazdakı rus qoşunlarının baş komandanı general P.Sisyanov başçılıq edirdi. 1803-cü ildə çar hökumətinin Rusiyaya köçmək təklifinə cavab olaraq Bəyazit erməniləri yazırdılar: İrəvan rus ordusu tərəfindən tutulduqdan sonra bütün ermənilər Rusiyanın himayəsi altına keçərək İrəvan əyalətinə köçməyə hazırdılar. (Aktı, sobranie Kavkazskim arxeoqrafiçeskom komissiey), (150, t 111, 631, dok. 1265).

Rusiya-İran (1826-1828) və Rusiya-Türkiyə (1828-1929) müharibələrinin uğurla başa çatması ilə ermənilərin Cənubi Qafqaza köçürülməsi üçün geniş imkanlar açıldı.

Rusların Azərbaycan torpaqlarının, xüsusən İrəvan və Naxçıvan xanlıqlarını işğal etməsində ermənilər xüsusi fəallıq göstərmişdilər. Erməni kilsəsi, arxiyepiskop Nerses rus qoşunlarının canlı qüvvə, ərzaq və silahla təchiz edilməsində bilavasitə iştirak edirdi. (170, XIX-XXIII).

Erməni silahlı dəstələri hərbi əməliyyatlarda rus qoşunlarının tərkibində çıxış edirdilər.

1828-ci ilin fevralın 29-da general Paskeviç göstəriş verdi ki, ermənilər başlıca olaraq İrəvan və Naxçıvan vilayətlərində

və qismən Qarabağda yerləşdirilsin, bir sıra müsəlman kəndləri dindaşlarının ən çox məskunlaşdığı yerlərə köçürülsün və həmin yerlər ermənilərə verilsin. (183, 103). Əslində bu azərbaycanlıları öz doğma torpaqlarında deportasiya edilməsinə istiqamət verilməsi demək idi. Veliçkonun yazdığı kimi bu göstəriş, Zaqafqaziyanın bəzi hissələrinin ermənilər tərəfindən müstəmləkələşdirilməsinin başlanması idi (210,123). Paskeviçin başqa bir direktivi belə idi: Xristianları Naxçıvan və İrəvan vilayətlərinə getməyə razı salmaq lazımdır. Bu vilayətlərdə xristian əhalisini nə qədər mümkündürsə, çoxaltmaq lazımdır. (183, 103) Erməniləri Azərbaycan torpaqlarında kompakt şəkildə yerləşdirməklə, Rusiya özünün müstəmləkə, imperiya siyasətinin əsas məqsədini-işğal edilmiş, din, dil, etnik-mədəni cəhətdən ona yad bir ölkədə öz gələcək hökmranlığı üçün etno-konfissional dayaq yaratmaq məqsədini reallaşdırmağa çalışırdı. Qarşıya qoyulmuş məqsədi həyata keçirmək üçün xüsusi köçürmə komitəsi təşkil edilmiş, bu komitəyə ermənilərdən ibarət «ayrıca dairələr və mahallar yaratmaq» tapşırığı verilmişdi. (204, 159).

Ermənilərin Cənubi Qafqaza köçürülməsinin əsas təşəbbüskarı A.S.Qriboyedov, bu işə bilavsitə rəhbərlik edən isə erməni əsilli rus polkovniki X.E.Lazarev idi (150, t. VII, s.603, sənəd 501).

1828-ci ilin fevralın 10-da Türkmənçay sülhünün bağlanması ilə 1826-1828-ci illər Rusiya-İran müharibəsinə son qoyuldu. Bu müqavilə ilə İrəvan və Naxçıvan xanlıqları Rusiyanın ərazisinə qatıldı. Martın 20-də çar I Nikolay bu müqaviləni təsdiq etdi və ertəsi gün həmin ərazilərdə «Erməni vilayəti»nin yaradılması haqqında fərman verdi (150, I hissə, 178-179). Yeni yaradılmış inzibati ərazi İrəvan və Naxçıvan əyalətlərindən və Ordubad dairəsindən ibarət idi.

1829-cu ildə Paskeviçin göstərişi ilə İ.Şopen yeni yaradılmış vilayətdə kameral siyahıyaalma keçirdi. Siyahıyaalmaya görə İrəvan vilayətində 521 kənd (Naxçıvanda 179, Ordubad

dairəsində 52) mövcud idi. Müharibə nəticəsində vilayətin ərazisində 359 kənd, o cümlədən İrəvan əyalətində 310, Naxçıvan əyalətində 42, Ordubad dairəsində isə 6 kənd dağıdılmış, əhalisi qaçqın düşmüşdü (209, 442-446). Siyahıyaalmanın nəticələrinə görə, vilayətdə 81.749 müsəlman və 25.131 erməni qeydə alınmışdı. Siyahıyaalmanın üstün cəhəti onda idi ki, İrandan və Türkiyədən köçürülən ermənilərin sayı və onların hansı yaşayış məntəqələrində məskunlaşdırılması dəqiq göstərilmişdi. Belə ki, 1828-1829-cu illər ərzində İrandan Şimali Azərbaycana köçürülmüş ermənilər 6.946 ailə və 35.560 miqrant təşkil edirdi. (209, 539). Köçürülən ermənilərdən 23.568 nəfər (8599 ailə) İrəvan əyalətinin 129 kəndində, 10.562 nəfər (2137 ailə) Naxçıvan əyalətinin 61 kəndində, 1340 nəfər isə (250 ailə) Ordubad dairəsinin 12 kəndində yerləşdirildi. 1828-1829-cu illər Rusiya-Türkiyə müharibəsindən sonra vilayətin ərazisinə 21.666 nəfər erməni, 324 nəfər yezidi kürdü köçürüldü və onlar vilayətin 129 kəndində yerləşdirildi (209, 636-642).

Ermənilərin İrəvan vilayətinə köçürülməsi sonrakı illərdə də davam etdirilirdi.

Ümumiyyətlə, Türkmənçay və Ədirnə müqavilələrinin bağlanmasından sonra Erməni vilayətinə (İrəvan və Naxçıvan xanlıqlarına) 57.266 nəfər erməni köçürülmüşdü. Halbuki köçürülmədən əvvəl həmin ərazidə cəmi 25.151 erməni yaşayırdı. Qalan əhalinin 81.749-u türk, 324-ü kürdlərdən ibarət idi (169, t.VIII, № I, 92). Kütləvi köçürmələrdən sonra ermənilər 82.397, müsəlmanlar isə 81.749 nəfər təşkil edirdi (209, 642). Beləliklə, keçmiş İrəvan quberniyası ərazisində ermənilər ilk dəfə olaraq sayca üstünlük qazanmışdılar. Göstərilən ərazilərdə türk-müsəlman əhalisinin üstünlük təşkil etdiyini erməni müəllifləri də təsdiq edirlər. V.A.Parsamyan rus işğalına qədər Qafqaz Ermənistanının etnik tərkibindən danışarkən göstərirdi ki, oradakı 169 min əhalinin 57.368 (34 %) ermənilər, 84.500 (50 %) türklər, 27.040 (16%) kürdlər təşkil edirdi (196, 12). Q.Qaloyan

isə XIX əsrin əvvəllərində İrandan Rusiya sərhədləri daxilinə 40 min, Türkiyədən 90 min ermənінin köçürüldüyünü qeyd edir (182,12). Göründüyü kimi, erməni müəllifləri də Cənubi Qafqazda erməni əhalisinin sayının mexaniki hərəkət (köçürülmə) sayəsində artdığını etiraf edirlər.

İlk mənbələrdə ermənilərin Naxçıvan əyalətində və Ordubad dairəsində məskunlaşdırılması haqqında da dəyərli məlumatlar vardır. Yuxarıda qeyd edildiyi kimi oraya İrandan 13. 632 erməni (2.558 ailə) köçürülmüşdü (185, 125-127). Rusiyanın işğalına qədər Naxçıvan və Ordubadda cəmi 434 erməni ailəsinin yaşadığını nəzərə alsaq (185, 31), nəticədə Naxçıvan əyalətində ermənilərin xüsusi çəkisinin 7 dəfə artdığını (2.992 ailə) (590 %) görərik.

Bütün bunlar ermənilərin Cənubi Qafqaza, ilk növbədə Azərbaycana kütləvi və məqsədəuyğun şəkildə köçürülməsinin başlanğıcı idi. Bölgədə etnik-dini şəraitin dəyişdirilməsinə yönəldilmiş rus müstəmləkə siyasətinin praktik surətdə həyata keçirilməsi prosesi fasiləsiz olaraq XX əsrin əvvələrinə qədər getmiş, Sovet dövründə bu siyasət daha incə formada davam etdirilmişdi. Bunu rus müəllifləri Dubrovin, Ezov, Qriqoryev, Veliçko, Qriboyedov, Şavrov və başqaları da təsdiq edirdilər.

N.Şavrov Rusiyanın Cənub Qafqazdakı müstəmləkəçilik siyasəti haqqında yazırdı: «Biz müstəmləkəçilik fəaliyyətimizə Zaqafqaziyada rusların deyil, bizə yad olan xalqların yerləşdirilməsindən başladıq. 1828-ci ildən 1830-cu ilədək Zaqafqaziyaya 40 min İran və 84 min Türkiyə ermənilərini köçürmüş və onları Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı dövlət torpaqlarında yerləşdirmişdik ki, orada erməni əhalisi cüzi idi....Nəzərə almaq lazımdır ki, 124 min rəsmi köçürülən ermənilərlə yanaşı qeyri rəsmi köçənlər də çoxdur və ümumiyyətlə köçənlərin sayı 200 min nəfərdən artıqdır». (208,63).

XIX əsrin II yarısında ermənilərin Cənubi Qafqaza miqrasiyası daha da sürətləndi. 1853-56-cı illər Krım, 1877-1878-ci illər rus-türk müharibələri bu prosesə təkan verdi. 1873-cü ilin

göstəricilərinə görə, İrəvan quberniyasında 221.191 erməni, 1886-cı ildə 375.700, 1897-ci ildə 439.926 erməni var idi. XX əsrin əvvəllərində də quberniyada onların sayı artmaqda davam etmiş və 1917-ci ildə 669.871 nəfər təşkil etmişdi (207, T.2, 160-170; 175, 533; 167, 58-59; 12, s.1, iş.232, v.9-10).

Y.Veydenbaumun məlumatına görə XIX əsrin II yarısında quberniyanın əhalisinin 67,4%-ni artıq ermənilər təşkil edirdi (111, 78).

Azərbaycanın digər bölgələrində də ermənilərin sayı mexaniki surətdə artmış, süni xarakterli «demoqrafik partlayış» baş vermişdi. N.Şavrov yazır ki, ermənilərin köçməsi 1893-1894-cü illərdə Türkiyədəki erməni ixtişaşlarından sonra daha da genişlənmiş və Q.Qolitsinin 1897-ci ildə Qafqaza canişin təyin olunmasına qədər gəlmə ermənilərin sayı artıq 1884-cü ildəki kimi 100 min deyil, 900 minə yaxın idi. Onların hamısı rus təbəəliyini qəbul etmiş və əvvəllər buraya köçürülmüş erməni əhalisinin içində itib-batmışdılar. N.Şavrov qeyd edir ki, XX əsrin əvvəllərində Zaqafqaziyada yaşayan 1.300 min erməninin 1 mln-dan çoxu yerli ermənilər deyil, rusların vasitəsilə məskunlaşmış ermənilərdir. (208, 63-64).

Beləliklə, rusların simasında möhkəm arxa tapan ermənilər hər vasitə ilə Cənubi Qafqazda hakim millətə çevrilmək üçün çalışırdılar. Rus ordusunda və Qafqaz administrasiyasında çalışan Lazerev, Loris-Melikov, Qukasov, Mədətov, Behbudov, Ter-Qukasov və başqa erməni generalların və məmurların sayəsində onlar istədiklərinin çoxusuna nail ola bilmişdilər. Ermənilərin kütləvi sürətdə Azərbaycan torpaqlarına köçürülməsi, İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində qondarma erməni vilayətinin yaradılması və Rusiya çarının çoxsaylı titullarına onun erməni vilayətinin hakimi titulunun də əlavə edilməsi artıq Qafqazda güclü bir erməni ekspansiyasının başlanmasının ilk əlamətləri idi.

V.Veliçkonun qeyd etdiyi kimi ermənilər diyarda real qüvvəyə çevrilmiş, ermənilərin tuzları (nüfuzlu adamları –

M.A.) maneəsiz olaraq bütün həyat mənbələrini-bazarları, bankları hətta qulluqçu insanların taleyini öz əllərinə keçirmiş və tam cəzasızlıqdan sui-istifadə edirlər. Ermənilərin Qafqazda azğınlığı o dərəcəyə çatmışdı ki, hətta V.Veliçko «Qafqazın ermeniləşdirilməsinə qarşı radikal ölçülər götürmək zəruriliyindən» bəhs etmişdi. (210, 59).

Çar hakimiyyət orqanlarının bilavasitə havadarlığı ilə köçmə ermənilər yerli azərbaycanlıları sıxışdırmağa başladılar. Qriboyedovun özü etiraf edirdi ki, «müsəlman mülkədarlarının torpaqlarında yerləşdirilmiş» erməni köçkünləri müsəlmanları sıxıntılı vəziyyətə salır və müsəlmanlar ehtiyat edirlər ki, ermənilər bir dəfə buraxıldıqları torpaqlara həmişəlik yiyələnəcəklər (184, 54).

Onun dedikləri həqiqət oldu. Gəlmə ermənilərin məskunlaşdırıldığı ərazilərdən azərbaycanlı əhalinin sistematik şəkildə sıxışdırılıb çıxarılmasına başlanıldı.

İndiki Ermənistan ərazisindən Azərbaycan türklərinin ilkin deportasiyası XIX əsrin ilk əvvəllərində - Rusiyanın Cənubi Qafqazı ilhaqına başlaması ilə üst-üstə düşür.

Ruslara tabe olmaqdan imtina edən Pəmbək türkləri Rəhimbəy və Səid bəyin başçılığı ilə bölgəni tərk edərək Qars paşalığına sığınmağa məcbur olmuşdular (150, II cild, 1867-1869 sənədlər).

Rus qoşunları Şörəyeli tutduqdan sonra həmin ərazidə yaşayan yerli qarapapaq tayfasının bir hissəsi (təqribən 26 ailə) də Qarsa mühacirət etməli olur (150, III cild, 437-ci sənəd). I Rusiya-İran müharibəsi nəticəsində Şörəyelin kəndləri dağıdılmış, əhalisi isə qaçqın düşmüşdü. Sonralar həmin kəndlərdə Türkiyədən gələn ermənilər məskunlaşmışdı (150, IV cild 1442 və 681-ci sənədlər). Müharibə dövründə 500 ailəlik İrəvan Qarsa köçməsi haqqında məlumat mövcuddur (150, III cild, sənəd 917).

Rus ordusu İrəvan xanlığını zəbt etdikdən sonra həmin ərazidə yaşayan köklü türk əhalisinin bir hissəsi məcburi olaraq

öz doğma torpaqlarını tərk edərək Türkiyə və İrana köçməli oldular. Paskeviçin Qraf Nesselorda göndərdiyi 27 iyul 1828-ci il tarixli məktubunda qeyd edilirdi ki, Qarapapaq tayfasından 100 ailə, ayrımlardan 300 ailə Qarsa, Uluxanlı tayfasından 600 ailə Bəyazidə, müsəlman cəlalı kürdləri Muşa qaçmışdır. Qarapapaqlardan digər 800 ailə isə Arazı keçərək Həsən xanın (İrəvan xanı Hüseyn xanın qardaşı) dəstəsinə qoşulmuşlar. Onlarla birgə 700 ailədən ibarət Cəmədinli kürdləri, 400 ailə birukilər, 400 ailə dovmanlılar, 200 ailə çobankərəlilər, 1000 ailə zilanlı kürdü Türkiyəyə keçmişdilər. (150, VII cild, sənəd 512.)

Ümumiyyətlə, 1826-1828-ci illər Rus-İran və 1828-29-cu illər Rus-Türk müharibələri nəticəsində İrəvan və Naxçıvan xanlıqlarının ərazisindən yerli müsəlman əhalisinin xeyli hissəsi qaçqın düşmüş, orada yalnız 81.749 nəfər (17078 ailə) müsəlman qalmışdı (209, 642).

Ermənilər Azərbaycan torpaqlarına köçürüldükdən sonra əhalinin 80 %-ni təşkil edən yerli azərbaycanlıların İrəvan qubemiyasında (1849-cu ildən) sayı getdikcə azalır və onlar burada azlığa çevrilirlər. Məsələn, təmiz Azərbaycan türklərindən ibarət Kavar kəndi 1830-cu ildən sonra Bəyaziddən gəlmiş ermənilərin hesabına məskunlaşdırılır və o Yeni Bəyazid adını alır. XIX əsrin 50-ci illərində burada 2.560 erməni yaşayırdı. Yeni yaradılmış Yeni Bəyazid qəzasında 23.038 erməni, 8.207 (36 %) azərbaycanlı yaşayırdı (175, na 1855 q., otd. III, 412-413). Oxşar şərait Aleksandropol qəzasının Pəmbək, Şorayel sahələrində də yaranmışdı. Beləliklə, keçmiş İrəvan xanlığının ərazisində yerli azərbaycanlılarla gəlmə ermənilərin nisbəti sonuncuların xeyrinə dəyişməyə başlamışdı.

İ.Şopenin göstərdiyinə görə, İrəvan əyalətində 2.984 müsəlman ailəsindən cəmi 847 (28%) qalmış, onların sayı təqribən 3 dəfə azalmışdı. Onlar əsasən qonşu dövlətlərə-Türkiyə və İrana köçmüşdülər (209,541). Əlbəttə müsəlmanların İrəvan qubemiyasından mühacirəti təkcə qonşu dövlətlərə deyildi. Ermənilərin üstünlük təşkil etdiyi ərazilərdən köçən azərbay-

canlılar əsasən müsəlmanların çoxluq təşkil etdiyi qonşu vilayətlərə-Elizavetpol, Bakı quberniyalarına köçməli olurdular (194, 224).

Yerli azərbaycanlıların öz torpaqlarında sayının azalması prosesi Naxçıvanda da özünü göstərirdi. V.Qriqoryevin məlumatına görə 1827-28-ci illərdə Naxçıvan xanlığında 4.600 ailədən 4.170 ailə azərbaycanlılardan ibarət idi (90 %). 1832-ci ildə köçürülmə siyasəti nəticəsində onların sayı 2.791-ə düşmüş, təqribən 60 % azalmışdı (185, 31). Akademik T. Köçərli isə 1828-ci ildə Naxçıvan, Ordubadda 4.149 azərbaycanlı ailəsinin (83,6 %) və 810 erməni ailəsinin olduğunu, iki ildən sonra erməni ailələrinin sayının 3.321-ə çatdığını qeyd edir (66, 239). Çox təəsüf ki, müəllif bu məlumatın mənbəyini göstərməmişdir. Lakin ermənilərin və rusların bütün cəhdlərinə baxmayaraq Naxçıvan diyarında etnik vəziyyəti ermənilərin xeyrinə dəyişdirmək mümkün olmamışdır. Belə ki, ermənilərin buraya kütləvi köçürülməsinə baxmayaraq 1897-ci ilin siyahıya alınması göstəricilərinə görə Naxçıvan və Şərur-Dərələyəz qəzalarında yalnız 55 min 398 nəfər erməni, 125 min 712 nəfər azərbaycanlı yaşayırdı (66, 239).

Bu faktlar XIX əsrdə və XX əsrin əvvəllərində guya Naxçıvan əhalisinin əksəriyyətini ermənilərin təşkil etdiyi barədə uydurmaları bir daha təkzib edir və diyarın əzəli türk torpağı olduğunu təsdiqləyir.

Rusiya imperiyasının birbaşa himayəsi altında Cənubi Qafqazda möhkəmlənən ermənilər bütün vasitələrdən istifadə edərək yerli əhalini- azərbaycanlıları sıxışdırıb çıxarır, bu zaman bütün dünyaya özlərinin guya müsəlmanlar tərəfindən qırılan əzabkeş millət kimi qələmə verməyə çalışırdılar. Çox təəsüf ki, onlar bəzən öz istədiklərinə çatır, rus və qərb ictimai şüurunda Qafqazda yeganə «dinc, mədəni xristian xalqı» olduğunu sübut etdirməyə nail olurdular. Müsəlmanlara isə əksinə, ögey münasibət bəslənilirdi. V.Veliçko yazırdı ki, mətbuatda və praktikada bizdə (ruslarda-V.V.) müsəlmanlara qarşı heç də

ədalətli münasibət yoxdur, onlara tez-tez və əsassız olaraq sübut etdirməyə çalışırlar ki, onlar ögey övladlardır. Nə üçün öz vətənlərində onlar (müsəlmanlar) şübhəli və çox zaman qcndarma, gəlmə xristian olan ermənilərlə bütün hüquqlarla bərabər deyildir? Nəyin xətrinə Qafqaz mətbuatında müsəlmanların müqəddəs etiqadları açıq şəkildə ələ salınır, erməni fitnəkarlarını ifşa etmək isə çox çətindir (210, 177). Veliçko daha sonra yazırdı ki, Zaqafqaziyanın müsəlman əyalətlərində yerli əhalinin (azərbaycanlılar-M.A.) Türkiyə və İrana köçürülməsindən tez-tez danışırlar və qismən köçürülmə fasiləsiz gedir. Burada gəlmə ermənilərlə əvəz etmək üçün rus xidmət adamlarının əli ilə müsəlman əhalisi yaşadıqları yerlərdən sistematik şəkildə sıxışdırıb çıxaran erməni fitnəkarlarının günahı az deyildir (210, 178-179). Məhz bu yolla təmiz müsəlman-türk torpaqlarında ermənilərin sayca üstünlüyü təmin olunurdu.

Ələ keçirdikləri ərazilərdə ermənilər demoqrafik vəziyyəti öz xeyirlərinə dəyişdirməklə bərabər, bu ərazilərin erməniləşdirilməsinə başladılar. Bütün Azərbaycanda, xüsusən İrəvan quberniyasında islam maddi mədəniyyət abidələri genosidə məruz qalır, türk toponimlərinin dəyişdirilməsinə cəhdlər edilir, qədim alban abidələri ermənilərin adına çıxarılırdı.

XIX əsrin ikinci yarısında Osmanlı imperiyasının hərbi-siyasi qüdrətinin zəifləməsindən istifadə edən Britaniya, Fransa və Rusiya onun geniş ərazilərini ələ keçirmək üçün rəqabətə girişdilər. Krım müharibəsi bu rəqabətin əsil təzahürü oldu. Rusiyanın müharibədə məğlubiyyəti osmanlı ermənilərinin Cənubi Qafqaza, birinci növbədə İrəvan quberniyasına yeni axınına səbəb oldu.

Krım müharibəsində uğursuzluq Rusiya ticarət-sənaye kapitalının Qaradəniz yolları və boğazları ələ keçirmək niyyətini aradan qaldırmadı. Rusiya imperiyası öz məqsədlərini həyata keçirmək üçün «xristian qardaşlarının müsəlman zülmündən azad edilməsi uğrunda mübarizə» şüarından fəal istifadə etməyə çalışırdı. 1877-78-ci illər Rusiya-Türkiyə müharibəsi Tür-

kiyə ermənilərinin Rusiyapərəst mövqeyini bariz nümayiş etdirdi. Müharibənin sonlarında, San-Stefano danışıqlarında onların nümayəndələri qərb dövlətlərindən «ermənilərin əzablarına diqqət yetirməyi» xahiş edir. Rusiya erməniləri isə Qafqaz canişininə müraciət edərək Rusiyanın «türk əsarəti altında olan xristian qardaşlarını himayəyə götürməyə» çağırmışdılar. Bundan istifadə edən Rusiya San-Stefano sülhünə əsasən ermənilərlə məskunlaşmış Şərqi Anadolunun çox hissəsinin onlara verilməsini, eləcə də Sultan hökumətindən erməni vilayətlərində zəruri islahatların həyata keçirilməsini tələb edir, o vaxta qədər isə rus qoşunlarının işğal edilmiş Türkiyə torpaqlarında qalacağını nəzərdə tutan xüsusi bənd (816) salınmasına nail oldu (75, 435).

Ermənilərin bu xəyanətləri Sultan hökuməti və erməni icması arasında münasibətlərin kəskinləşməsinə gətirib çıxardı. Lakin bu müqavilə şərqdə rus təsirinin güclənməsindən ehtiyat edən Avropa dövlətlərinin, birinci növbədə İngiltərənin kəskin etirazına səbəb oldu. Onların təzyiqi ilə Rusiya San-Stefano sülhünün şərtlərinə yenidən baxmağa razılıq verməli oldu. Berlin konqresinin yekunlarına görə Rusiya ələ keçirdiyi torpaqların bir hissəsindən məhrum oldu. Türkiyənin daxili işlərinə qarışmaq üçün Avropa dövlətləri Türkiyə hökumətinə xristian əhalisinin, o cümlədən ermənilər yaşayan ərazilərdə idarəetmə sahəsində islahatlar keçirməyi, xristianları müsəlmanlarla bərabər hüquqlarla təmin etməyi tələb edən 61-ci maddəni Berlin müqaviləsinə daxil etməyə nail oldular. Nəticədə «erməni məsələsi» deyilən qondarma məsələ beynəlxalq hüquq obyektinə çevrildi. Qərbi-Avropa siyasi xadimləri öz məqsədlərinə nail olmaq üçün ermənilərə onların Türkiyədə vəziyyətlərinin ağır olması və bu vəziyyətdən yalnız Avropanın köməyi ilə çıxmaq imkanı olması haqqında fikirlər təlqin edirdilər (174, 151).

Ermənilər arasında millətçi və şovinist əhval-ruhiyyənin qızışdırılmasında ingilis diplomatiyası daha fəal rol oynayırdı.

Bu son məqsədə çatmaqda əsas vasitə kimi Türkiyədə bir sıra qarışıqlıqlar yaratmaq və bununla da ermənilərin Türkiyədə qəddar təqiblərə məruz qalmaları barədə Avropanı inandırmaq idi (174,152). Halbuki, «bu dövrdə ermənilər arasında nə milli ideyalar, nə də müstəqillik ideyaları mövcud idi». Yalnız Avropaya səpələnmiş mühacirlərin məktublarında belə ideyalara rast gəlmək olardı... 1885-ci ildə Avropada ilk dəfə olaraq erməni hərəkatının başlanması haqqında xəbər yayılır (174, 154). Beləliklə Avropa dövlətlərinin səyi nəticəsində ortaya atılmış «erməni məsələsi» sonralar Şərqi Anadoluda ermənilər üçün muxtariyyət əldə etmək və «Böyük Ermənistan» yaratmaq üçün bir vasitəyə çevrildi. Türkiyənin özündə 90-cı illərin əvvəllinə qədər «erməni məsələsi» mövcud deyildi, ermənilər, türklər, kürdlər arasında hər hansı anlaşılmazlıqlar baş vermirdi. Rus Qafqazşünası N.Şavrov yazırdı ki, Osmanlı hökuməti bütün təəbələlərinin, o cümlədən ermənilərin qayğısına qalırdı (208, 114-116). 1877-ci ilə qədər Osmanlı imperiyasında ermənilər nəinki təqib olunmur, hətta onları ən görkəmli dövlət vəzifələrinə irəli çəkirdilər (75, 435). Rusiyanın Türkiyədəki konsulu V.Mayevski də təsdiq edirdi ki, Osmanlı hakimiyyəti altında yaşayan xristian əhali özlərinin yaşam şəraitindən heç vaxt şikayət etməyiblər (183, 26).

Beləliklə, böyük dövlətlər öz məqsədləri naminə erməni məsələsini ortaya ataraq, ermənilərdən öz geosiyasi oyunlarında xırda pul kimi istifadə etməyə başladılar.

1880-1890-cı illərdə Osmanlı imperiyasının şimal-şərqində ermənilərin separatist hərəkətləri yeni vüsət alır. Vanda, Muşda, Ərzurumda, Zeytunda, Sasunda türk hakimiyyəti orqanlarına qarşı silahlı qiyamlar baş verdi. Ermənilərin millətçi-separatçi hərəkatına rəhbərlik etmək üçün həm Rusiya, həm də Türkiyə ərazisində gizli dərnəklər, cəmiyyətlər yaradılır. Qərb diplomatiyasının təsiri altında Türkiyə erməniləri arasında «müstəqil Erməni dövləti» yaratmaq ideyasının yayılması bu dərnəklərin əsas məqsədi idi. Lakin erməni millətçiliyinin fəal-

laşması dərnəklərlə məhdudlaşmadı. XIX əsrin sonlarında Qnçak, Daşnaksütyun partiyaları yaradıldı. Osmanlı ermənilləri üçün azadlıqlar tələb edən bu partiyalar Türkiyəni parçalamaq məqsədi güdən, Anadolunun altı şərq vilayətində «erməni muxtariyyəti» şüarını təbliğ etməyə başladılar. Məhz bu təbliğatın nəticəsi olaraq 1895-1896-cı illərdə Türkiyənin ermənilər yaşayan bir sıra bölgələrində - Ərzurumda, Sasunda, Vanda, Zeytunda, Trapezunda, Bitlisdə və s. erməni ekstremistlərinin hərəkətləri, kütləvi terror təkcə hakimiyyət orqanlarına deyil, sadə türk əhalisinə qarşı yönəlmişdi.

Ermənilər, eyni zamanda qərb və Rusiya mətbuatında türklərin vəhşilikləri, ermənilərin soyqırımı haqqında geniş kampaniyaya başladılar. Bu zaman belə bir faktın üstündən sükutla keçirdilər ki, qanlı toqquşmaların və qırğınların əsas baiskarları ermənilərin özləri idilər. Onlar bu iğtişaşlarda guya on minlərlə ermənin qətlə yetirildiyini bütün dünyaya car çəkirdilər.

Həmin hadisələrin saxtalaşdırılmasında erməni müəllifləri və tarixçiləri daha irəli gedərək «Sultan hökumətinin erməniləri qırma proqramını hazırladığını, bunun nəticəsində 300 min ermənin qətlə yetirildiyini» iddia etmiş, bu sərsəm iddia bütün tarix dərsliklərində özünə sonralar yer tapmışdı.

Təbiidir ki, ermənilərin bu azğın hərəkətlərinin qarşısını almaq üçün Türkiyə hökuməti bir sıra cavab tədbirləri görməli oldu. Mayevskinin qeyd etdiyi kimi «Türk hakimiyyəti erməni təbliğatçılarının Türkiyə dövlətinin əsaslarını dağıtmağa yönəlmiş hərəkətlərinə bəs necə münasibət göstərməli idi. Hadisələrin bilavasitə şahidi olmuş Mayevski yazırdı ki, türkləri hər hansı vəhşilikdə ittiham edirlər etsinlər, lakin mən bir şeyi deyəcəyəm: Türkiyənin müxtəlif şəhərlərində ermənilərlə müsəlmanlar arasında toqquşmalar barədə mənim bildiklərim, məni belə bir qənaətə gətirir ki, qanlı işlər hər yerdə məhz ermənilərin özlərinin təşəbbüsü ilə başlamışdı (119, 17). Beləliklə «Asiya Türkiyəsində öz qardaşlarının qatili» olan daşnakların

sayəsində «ermənilər öz bədbəxtliklərinə səbəb oldular» (168, 44-46). Çünki 1895-1896-cı illərdə baş vermiş üsyanlar yatırıldıqdan sonra on minlərlə erməni Cənubi Qafqaza köçüb gəlməli oldu. Lakin bu ermənilər türklərdən yox, öz terrorçularından qaçmalı oldular (210, 99). V.Mayevski isə qeyd edirdi ki, erməni məsələsinə dair yalanın yayılması bütün erməni millətini yalan yola saldı, ola bilsin onun ən yaxşı nümayəndələrinin ağlını korladı, yüzlərlə ermənini yoldan çıxardı, minlərlə ermənini faydalı işdən ayırıb, Asiya Türkiyəsini erməni kəndlilərinin məruz qaldıqları və sonra Zaqafqaziya ermənilərinin də əzab çəkdikləri sonu görünməyən fəlakətlər yaratmağa yönəltdi.

Türkiyədə erməni separatist-millətçi hərəkatı məğlub olduqdan sonra, bu hərəkatın ağırlıq mərkəzi Zaqafqaziyaya keçdi. Karibi çox doğru deyir ki, Daşnak partiyasının mübarizəni Zaqafqaziyaya keçirməsi, əhalisi sülh və dostluq şəraitində yaşayan diyarın tariXarici İşlər Naziriiidə ən bədbəxt məqam sayılmalıdır...Burada dinc əhali heç zaman milli zəmində qanlı münaqişənin nə olduğunu bilməmişdir. Daşnaklar Ermənistanın gələcək muxtariyyatı üçün başdan-başa erməni ərazisi yaratmaq moizəsi ilə gəldilər, bununla Zaqafqaziya kəndinin patriarxal həyatına milli ədavət və nifrət hissləri soxuldu (22,159).

Türkiyədəki məlum hadisələrdən sonra Zaqafqaziyaya gələn yarım milyon erməni dərhal öz qara əməllərini göstərməyə başladılar. (167,8) «Novoe vremə» qəzetinin müxbiri Qriqoryevin yazdığına görə İrəvan quberniyasında törədilən cinayətlərin 80 %-i Türkiyədən gəlmiş ermənilər tərəfindən törədilirdi. (210, 137). Ermənilər bu dəfə «azadlıq» ideyalarını gerçəkləşdirmək üçün Azərbaycan ərazisini dayaq seçdilər.

Erməni xadimlərinin siyasi-millətçi fəaliyyətindən narahat olan Rusiyanın rəsmi hakimiyyəti orqanları erməni qaçqınlarını geri qaytarmaq isətəsələr də, buna nail ola bilmədilər.

Ermənilərin bölgədə üstünlük qazanmaları artıq təhlükəli hala çevrildiyindən Qafqazın rus adminstrasiyasının ermənilərə münasibətindəki siyasətində müəyyən dəyişikliklər baş verdi. Eçmiədzin kilsəsinin nəzarətsiz təsirini məhdudlaşdırmaq, millətlərin antiimperiya, separatist fəaliyyətinin, xüsusən erməni gənclərinin tərbiyəsi işində fəaliyyətinin qarşısını almaq məqsədi ilə erməni kilsə məktəblərinin Rusiyanın xalq maarif nazirliyinin tabeliyinə verilməsi haqqında (1898-ci il) qanun, daha sonra isə erməni-qriqoryan kilsəsinin əmlakının idarə edilməsinin yeni qaydaları (1903) qəbul edildi. Bütün bunlar erməni millətçilərinin etirazına, erməni terrorizmin genişlənməsinə, antitürk, antimüsəlman əhval-ruhiyyəsinin qızışmaına səbəb oldu. Erməni kilsəsi Üçkilsədə, İrəvanda, Qarsda, Eçmiədzində bu qanunlar əleyhinə qiyamlar təşkil etdi (210, 139-162). Eyni zamanda erməni katalikosu II Nikolaya müraciət edərək 12 iyun 1903-cü il tarixli qaydanı ləğv etməyi tələb etdi. Lakin Qafqaz canişini Q.Qolitsin sekvestrin ləğvinə qarşı çıxdı. Erməni kilsəsindən başqa, hökumətə qarşı Daşnaksütyun partiyasının fəalları da çıxış edirdilər. Buraxdıqları intibahnamələrdə onlar çar hökumətinin ermənilərin qəddar düşmən olduğunu bildirir, ona qarşı silahlı mübarizəyə çağırırdılar. Ermənilər təkcə yazılı etirazlarla kifayətlənməyib açıq terrora əl atdılar (18, s.8, v.4-5, 9-11, iş. 79, v-71-89; iş 37 a). 1903-cü ildə «Yeni zaman» erməni terrorçu təşkilatı knyaz Qolitsinə qarşı sui-qəsd təşkil etdi.

Çar hakimiyyəti ermənilərin terror hərəkətlərindən vahiməyə düşərək, eləcə də I Rus inqilabının başlanması ilə əlaqədar 1905-ci ilin avqustunda sekvestr haqqında qanunu ləğv etməli oldu. Eçmiədzin yenidən erməni-qriqoryan kilsəsinin əmlakını tam nəzarətlə ələ keçirdi (175, na 1906 qod, 220-221).

Hadisələrin gedişi göstərdi ki, Qafqazda antitürk ovqatını qızışdırmaqda erməni kilsəsi ilə daşnak partiyası əlbir çıxış edir, öz fəaliyyətlərini əlaqələndirirdilər. Əsrin əvvəllərində erməni terrorçuları təkcə Qafqazdakı rus hakimiyyəti orqanlarına

qarşı deyil, yerli müsəlman əhalisinə qarşı təxribatçılıq hərəkətlərini genişləndirirdilər. Belə ki, Bakı polis departamentinin gizli sənədlərindən birində xəbər verilirdi ki, 1904-cü ilin martında müsəlmanların şahsey-vahsey (məhərrəmlik) günlərində ermənilər müsəlmanlar arasına bomba atmaq və bunu polisin və candarmaların üstünə yıxmaq istəyirlər (18, s 8. İş 90, v.2).

1903-cü ildən başlayaraq Daşnak partiyası və digər erməni ekstremist təşkilatları fəal hərəkətlərə başlayırlar. Bu zaman onlar bütün mümkün vasitələrdən-kütləvi ixtişaşlar, nümayişlər, boykot, şantac, zorakılıq vasitələrindən istifadə edərək, həm hakimiyyət orqanları, həm də müsəlman əhali arasında vahimə yaratmağa çalışırdılar. Lakin onların ən sevimli metodu kütləvi terror idi. Onların terror obyekti təkcə yüksək çinli çar məmurları deyil, həm də daşnaklarla əməkdaşlıq etməkdən imtina edən sadə erməni vətəndaşları oldu.

Erməni terroru eyni zamanda Azərbaycan və gürcü əhalisinin torpaqlarını ələ keçirməklə müşayiət olunurdu (210, 131).

Erməni terrorizminin tüğyan etdiyi dövrdə Zaqafqaziyanın bir çox hökumət nümayəndələri-general Əlixanov, Bakı qubernatoru Nakaşidze, Elizavetpol vitse-qubernatoru Andreyev, qəza rəisləri Boquslavskiy, Şmerlinq, Neşanskix, Pavlov və daha onlarla məmur, polis və candarm işçisi erməni millətçilərinin qurbanı oldular (7, s.1. iş 57, v.3).

Cənub Qafqazın ermənilərin daha çox məskunlaşdığı ərazilərdə, xüsusən İrəvan quberniyasında erməni millətçiləri rəsmi hakimiyyət nümayəndələrindən istifadə edərək bir sıra qəzalarda faktik olaraq hakimiyyəti ələ keçirmiş, öz məqsədlərini gerçəkləşdirmək üçün inzibati vasitələrdən geniş istifadə etməyə başlamışdılar.

Məqsəd isə aydın idi: «Zaqafqaziyanın ərazisini müsəlmanlardan təmizləmək, onların torpaqlarını Türkiyə və İrandan daşnakların köməyi ilə köçürülmüş erməni qaçqınlarına vermək. Son 5-6 ildə sayı 0,5 mlyona çatan bu qaçqınlardan 200

mini rus hakimiyyətinin razılığı ilə Rusiya təbəəliyinə keçmişdir. Təkcə 1902-1904-cü ildə Türkiyə ərazisindən 70-80 min erməni qaçqın Cənubi Qafqaza gəlmişdi (190, 65).

Elizavetpol, İrəvan və Qars vilayətlərində öz canlarını qaçmaqla qurtaran müsəlmanların torpaqlarını ermənilər ələ keçirmişdi. Erməni müəllifi A.İsaakyants etiraf edirdi ki, Daşnaksütunun sayəsində Qafqazda rus hökumətinin necə acınacaqlı vəziyyətdə olduğunu göstərən minlərlə fakt göstərmək mümkündür. Öz məqsədlərini həyata keçirmək üçün erməni millətçiləri geniş, əhatəli, yaxşı silahlanmış hərbi-terror təşkilatlarına (deli, özünümüdafiə, zinvorlar, xumblar və s.) malik idilər (7, s.1. iş 57, v.4-6). Hətta Stolıpin etiraf edirdi ki, Daşnaksütyun partiyası öz üzərinə polis funksiyası götürübdür. Daşnaksütyun komitəsi məhkəmə, inzibati hakimiyyəti əlində cəmləşdirib. Bu təşkilat diyarda (Cənubi Qafqazda-A.M.) açıq fəaliyyət göstərir və hakimiyyət bunu bilir (153, 63).

Lakin Daşnaksütyunun hakimiyyəti ələ keçirmək, azərbaycanlıları öz torpaqlarından qovub çıxarmaq və bu torpaqlarda müasir «Böyük Ermənistan» yaratmaq planlarının həyata keçməsində bu təşkilatlar kifayət etmədiyindən, partiya 1900-cu illərin əvvəllərindən başlayaraq nizami ordu yaratmağa başladı. Müxtəlif mənbələrə görə 1905-ci ildə daşnak ordusunun sayı 100.000-ə çatırdı (153, 7).

1903-cü ilin əvvəllərindən başlayaraq ermənilər azərbaycanlılara qarşı silahlı toqquşmalara başladılar (153, 6-7). O, dövrün sənədlərində artıq qeyd olunurdu ki, İrəvan quberniyasında, xüsusən Sürməli qəzasında əhalinin əhval-ruhiyyəsi nigaran və narahatdır. Erməni əhalisinin müsəlmanlara qarşı əhval-ruhiyyəsi son vaxtlar sonunculara hücumlarda, onların talan edilib döyülməsində özünü göstərir (18, s.8, iş-11, v. 16). Daşnaksütyun partiyası da öz sənədlərində əsas hədəfin azərbaycanlılar olduğunu gizlətmirdi: Hökumətlə müharibəni daha əlverişli olmaq üçün Tiflisə, hətta Peterburqa da keçirmək olar,

ancaq tatarlarla (azərbaycanlılarla) müharibəni başqa yerə keçirmək olmaz (18, s.8, iş 256, v.52).

Beləliklə, bütün bunlar bir daha sübut edir ki, erməni millətçiləri azərbaycanlılara qarşı çox böyük dəqiqliklə işləyib hazırladıqları planları yaxın gələcəkdə uğurla həyata keçirmək üçün bütün hərbi, siyasi, iqtisadi, təşkilati və ideoloci hazırlıqlara malik idilər.

Lakin çox təəsüf ki, yaxınlaşan real erməni təhlükəsini dəf etmək üçün azərbaycanlılar heç bir siyasi strukturlara, kifayət qədər iqtisadi-hərbi imkanlara malik deyildilər. Belə bir şəraitdə 1905-1906-cı illəri əhatə edən və tarixə «erməni-müsəlman münaqişəsi» adı ilə düşən qanlı faciələr baş verdi. Bu faciələr iki millətin nümayəndələri arasında baş vermiş təsadüfi toqquşmaların məcmusu deyil, ermənilərin planlı şəkildə Azərbaycan torpaqlarında yerləşdirilməsinin məntiqi nəticəsi idi.

## 1.2 İrəvan quberniyasında və Naxçıvanda ermənilərin azərbaycanlı əhaliyə qarşı həyata keçirdikləri qırğınlar.

Ermənilərin müsəlman əhalisinə qarşı təcavüzkar hərəkətləri barədə Qafqazın müxtəlif qəzalarından çar hakimiyyət orqanlarına çox saylı məlumatlar gəlsə də, sonuncular öz imperiya siyasətinə sadiq qalaraq ermənilərin hərəkətlərinin qarşısını almaq üçün heç bir tədbir görmək istəmirdilər. Vorontsov- Daşkov bu mövqeyi onunla əsaslandırırdı ki, Qafqazda bütün mətbuat ermənilərin əlindədir və daşnakların özlərinin də dedikləri kimi, ona nəzarət edən hökumət orqanlarının verdiyi azadlıqlardan və göstərdikləri himayədən istifadə edirlər (18, s. 8. iş 265, v-60).

Arxiv sənədləri də təsdiq edir ki, çar hakimiyyəti ermənilərin hazırlıqları haqqında kifayət qədər informasiyaya malik idilər. Bu sənədlərdən birində deyilirdi ki, qəzalarda ermənilər arasında müsəlmanlara qarşı güclü hərəkat və düşmən əhval-

ruhiyyəsi hiss olunur, ancaq müsəlmanların onlarınkı kimi ciddi təlim görmüş qoşunları, hətta silahı belə yoxdur. Ermənilərin buraxdıqları proklamasiyalar yerli hakimiyyət orqanlarına-prokurora və qubernatora, sonra da canişinə çatdırılırdı, eyni zamanda erməni ehtiyat qüvvələri tərəfindən gənclərə hərbi təlimlərin keçirilməsi, ümumiyyətlə yaxşı silahlanmış və təlim görmüş erməni bandalarının müsəlmanlara hücum etməyə hazırlaşdıqları barədə müsəlmanlar məlumatlar verir, canişinə teleqramlar göndərərək hərbi vəziyyət elan olunması və general-qubernator təyin edilməsi xahiş edilirdi (18, s.8, iş.463, v.10-12). Göründüyü kimi rəsmi dairələr ermənilərin fəaliyyətinə göz yummaqla hesab edirdilər ki, erməni-müsəlman münaqişəsi başlansaydı, «Daşnaksütun» partiyasının inqilab zamanı hansı rol oynayacağı məlum olmayacaqdı (18,s.8, iş 259, v.98).

Beləliklə, çarizmin cinayətkar fəaliyyətsizliyindən, bəzi hallarda hətta millətlərarası düşmənçiliyin qızışmasında maraqlı olmasından istifadə edən ermənilər 1905-ci ilin ilk günlərindən öz əsas məqsədlərini - azərbaycanlıların öz torpaqlarından qovub çıxarmağı gerçəkləşdirməyə başladılar. Ermənilərin kompakt yaşadıqları ərazilərdə - Bakıda, İrəvanda, Qarsda, Şuşada, Naxçıvanda, Zəngəzurda azərbaycanlıların kütləvi döyülməsi və qırğını baş verdi.

1905-ci ilin qanlı faciələrinin əsası fevralın 2-də daşnaklar tərəfindən Bakı şəhərində Ağarza adlı bir azərbaycanlının öldürülməsi ilə başlandı. Lakin M.S. Ordubadinin qeyd etdiyi kimi, müsəlman başçılarından intiqam üçün hökm verilmədi (113, 12).

Fevralın 6-da azğınlaşan ermənilər mühafizə altında istintaqa aparılan Babayevi düz küçənin ortasında qətlə yetirdilər. Nəticədə «süni və çoxdan bəri hər iki millətin zatına qondarılmış iğtişaş bombası partladıldı və bütün Qafqaz aləmi bu bombanın təsir müddətindən yanıb yaxıldı (113, 13). Fevralın 7-də ermənilər ümumi hərbi qiyama başladıqlarından müsəl-

manlar da müdafiə məqsədilə silahlanmağa başladılar. Fevralın 6-dan 10-a qədər davam edən münaqişədə ermənilər acınacaqlı məğlubiyyətə uğradılar. Ordubadinin qeyd etdiyi kimi, ermənilərin əvvəlki təşəbbüs və tədarüklərinə rəsmən məğlub olmalarının əsas səbəbləri onların özləri idi. Belə ki, müharibədən qabaq bir sıra xırda-para işlərlə müsəlmanları duyuq salıb özlərinin nə xəyalda olduğunu layiqincə islamlara bildirdilər. Müsəlmanlar da ermənilərin bu fikrini başa düşüb, özlərinin mühafizəsi qayğısına qaldılar (Bakıda 1905-i ildə baş vermiş azərbaycanlı-erməni münaqişəsi haqqında bax ətraflı 66;113; 188; 192; 212 və s.).

Bakı hadisələrindən sonra Zaqafqaziyanın bütün ərazisində ermənilərlə azərbaycanlılar arasında münasibətlər daha da kəskinləşdi. (Bakıda və Azərbaycanın digər bölgələrində, Tiflisdə baş verən münaqişə bu tədqiqatın obyekti olmadığından biz yalnız İrəvan quberniyasında, Naxçıvanda və Zəngəzurda baş verən hadisələri təhlil etməyi məqsədəuyğun hesab etdik).

Bakıda uğradıqları məğlubiyyətin əvəzini çıxmaq üçün ermənilər Naxçıvanda və İrəvan quberniyasının digər yerlərində azərbaycanlılara qarşı təcavüzkar hərəkətlərə başladılar. Çox təəsüf ki, ermənilərin adı çəkilən ərazilərdə törətdikləri qanlı hadisələr haqqında bir-iki qəzet məqaləsi və arxiv sənədi istisna edilməklə çox az material mövcuddur. Bu gün bizim əlimizdə 1905-07-ci illərdə baş vermiş hadisələrin tarixi haqqında ən obyektiv və ümumiləşdirilmiş mənbə görkəmli yazıçı M.S.Ordubadinin «Qanlı illər» adlı sənədli kitabıdır. Bu əsər hadisələrin qızğın çağında, çoxsaylı şahid ifadələri və 245 müxbir məktubları əsasında, «hər cür şəxsi və milli qərəzdən uzaq olub hər nöqtədə üz vermiş facié və hadisələr olduğu kimi» yazılmışdır (113,6). Kitabı yazmaqda müəllifin əsas məqsədi «müsəlman və ermənilərin iki il ərzində törətdiklərini söyləmək», «müsəlmanların elmsizlik və anlaşılmazlıq səbəbindən bu bəlalara düşdüyünü deyib, ermənilərin də bir para yazıçıların xam xəyallarına qurban olduqlarını onlara bildirməkdir». Buna

görə də o ümid edirdi ki, hər iki millət öz səhv və xətasını düşünmək üçün, hörmətli erməni yazıçıları bu bitərəfanə olan əsəri rus yainki erməni dilinə tərcümə edib, vətən övladlarına bir intibah gül dəstəsi olaraq əmanət qoyacaqlar (113,71).

Kitab 1912-ci ildə nəşr edilsə də, sonralar sovet dövründə bir daha işıq üzü görməmiş, hətta belə bir kitabın mövcudluğunu yaddan çıxartmağa çalışmışlar. Çünki erməni millətçilərinin və onların havadarlarının iç üzünü açan faktlar rəsmi ideologiyanın qanunlarına, «erməni və azərbaycanlıların çoxəsrlik dostluğu» haqqında cəfəng konsepsiyaya uyğun gəlmirdi. Kitab yalnız 80 ildən sonra, 1991-ci ildə yenidən nəşr edilmişdir.

Hadisələrin baş verməsinin əsas səbəbələri barədə Rusiya və Qafqaz mətbuatı ilə yanaşı, Avropa və Amerika mətbuatında bir-birinə zidd, təzadlı fikirlərin olduğunu göstərən M.S.Ordubadi milli münaqişələrin və qan tökülməsinin dörd əsas səbəbini göstərir: Birinci, «Daşnaksütyun partiyasının müstəbid bir idarə üsulunu təşkil etməklə Qafqazda bir sıra qanlı teatrların oynanılmasıdır». İkinci, «Məhəlli hökumət məmurlarının müharibə zamanlarında etinasızlığıdır. Böyük Rusiya inqilabına görə mərkəzi hökumətin başı özünə qarışdığından xırda məmurlar erməni-müsəlman ixtişaşlarının sakitləşməsi üçün bir tədbirdə bulunmadılar». Hətta, ermənilərin terrorları qorxusundan bir tərəfdən əldə saxlayıb, digər tərəfdən növbənöv vicdansızlıqlar etməkdə idilər. Üçüncü səbəb isə müsəlmanların elmsizliyi, silahsız olması və müasir işlərdən xəbərsizliyidir. Nəhayət faciənin dördüncü səbəbi ermənilərin avtonomiya-idarə muxtariyyəti kimi əsassız xəyallarıdır. Erməni başbilənləri və onların havadarları müsəlmanları təzyiq ilə baba yurdlarından qovmaq, erməni və müsəlmanı müharibə səbəbinə bir-birindən ayırmaq niyyəti ilə Bakı quberniyasının və Gəncə quberniyasının aran yerlərini müsəlmanlara verib, İrəvan quberniyasının, Gəncə quberniyasının yaylaq və dağbasar ölkə-

lərini ermənilərə verib, bunları da Qars sancağı ilə birləşdirib, erməni səltənəti təşkil etmək idi (113,8-11).

Ermənilərin bu qara niyyətlərinin həyata keçirilməsində əsas maneə əhalisinin əksəriyyətini türklər təşkil etdiyi Naxçıvan bölgəsi idi. Ümumiyyətlə bu bölgə əlverişli coğrafi-siyasi mövqeyə, zəngin təbii ehtiyatlara, bol taxıl mənbələrinə malik bir diyar kimi ermənilərin əsassız muxtariyyat iddialarının əsasında dayanırdı. Bakıda acınacaqlı məğlubiyyətlə üzləşən daşnaklar əsas diqqətlərini Naxçıvana yönəldib, burada etnik, hərbi-siyasi vəziyyəti öz xeyirlərinə dəyişmək üçün fəal hərəkətlərə başladılar. Bu məqsədlə «Daşnasütyun» partiyasının gizli təşkilatları bölgədə erməni əhalisi arasında geniş təbliğat və pozuculuq işləri aparır, İrəvandan silah-sursat gətirərək, onları sürətlə silahlandırır, yerli əhaliyə qarşı təhrik edirdilər. Bakıdakı fevral hadisələri Naxçıvanda da geniş əks-səda doğurmuşdu. Əhalini sakitləşdirmək və mümkün toqquşmaların qarşısını almaq məqsədi ilə İrəvandan arximandrit Haregin Satunyan və Böyük xan İrəvanlı Naxçıvana gələrək, ermənillərlə-azərbaycanlılar arasında sülh yaratmaq məqsədilə bir sıra görüşlər keçirmişdilər. Qarşıdurmanı aradan qaldırmaq məqsədi ilə şəhərdə Cəfərqulu xan Naxçıvanskinin başçılığı ilə hər iki millətin nümayəndələrindən ibarət komissiya yaradılmışdı (198, 1906, 25 fevral, № 44).

1905-ci il may ayının 5-də Cəhri kəndinin üç nəfər azərbaycanlı sakini Şıxmahmud kəndindən keçərkən orada yaşayan ermənilər tərəfindən ağır yaralandılar. Bu xəbər Naxçıvan şəhər əhalisini həyəcana gətirdi. Mayın 7-də əhalinin cəmi üçdə bir hissəsinin ermənilər təşkil etdiyi Tumbul kəndində bir müsəlman qətlə yetirildi. Mayın 8-də İrəvan vitse-qubernatoru Baranovski, İrəvan şəhər rəisi Melik-Ağamalov Naxçıvan şəhər rəisi Cəfərqulu xan Naxçıvanski ilə Naxçıvana gəldikdən sonra azərbaycanlı əhali onların yanına gələrək ermənilərin hərəkətlərindən şikayət etsələr də hakimiyyət orqanları onların müdafiəsi üçün heç bir əməli addım atmadılar. Cəzasızlıqdan ruhla-

nan ermənilərin təxribatları daha artırdı. 9 may 1905-ci ildə naxçıvanlı Fətulla Hacı Bayramoğlu Əliabad erməniləri tərəfindən gecə vaxtı yeddi güllə yarası ilə qətlə yetirildi. Bu xəbər də şəhərdə böyük dəhşətlərə səbəb oldu. «Kaspi» qəzetinin 25 fevral 1906-cı il tarixli sayında «Naməlum» (Neizvestnıy) imzası ilə Naxçıvan hadisələrinə həsr edilmiş yazıda isə Əliabad kəndinin erməniləri tərəfindən Fətulla Hacı Bayram oğlunun mayın 6-sı qətlə yetirilməsi, Tumbulda isə qətlin ayın 9-da baş verməsi qeyd olunurdu. Həmçinin göstərilirdi ki, İrəvan vitse-qubernatoru ilə Cəfərqulu xan Naxçıvana ayın 10-u gecə gəlmiş, ertəsi gün səhəri isə arximandrit Karapet və Melik- Ağamalov Naxçıvana gəlmişdilər (198, 1906, 25 fevral, №44). İki gün sonra Kültəpə kəndində Xaçatur adlı bir varlı sakin erməni fədailəri tərəfindən ailəsiylə qətlə yetirildi. Ermənilər bu cinayəti azərbaycanlıların üstünə yıxmaq istəsələr də buna nail ola bilmədilər. Həmin gün ermənilər bütün şəhəri atəşə tutdular. Atışma bütün gecəni davam etdi. Azərbaycanlılar ermənilərə tək-tək atəşlə cavab versələr də onlar arasında tələfat olmadı. 12 mayda azərbaycanlılar vitse qubernatordan əncam çəkməsini tələb etdikdə, o «əgər onlar (ermənilər-A.M.) sizə atəş açır, siz də tutub onların tapançalarını aliniz» cavabını vermişdi. Azərbaycanlılar ermənilərdən silahları almağa cəhdlər göstərsələr də, erməni fədailəri bunun cavabında bazarda müsəlmanları güllə-baran etməyə başladılar. Hadisə yerinə gələn vitse-qubernator, Cəfərqulu xan, Ağamalov, pristav Mehdi xan Ordubadskini də ermənilər atəşə tutmağa basdılar. Atışmalar zamanı beş nəfər azərbaycanlı ölmuş, bir neçəsi yaralanmış, ermənilərdən də tələfat olmuşdu.

Lakin həmin gün Naxçıvanda baş verən hadisə Qafqaz mətbuatında tam təhrif olunmuş şəkildə verilmişdi. Məsələn «Kavkaz» qəzeti yazırdı ki, şəhər rəisi Rəhim xan Naxçıvanski və digər nüfuzlu tatarların ehtiyat üçün bütün tədbirlərin görülməsi haqqında vədlərindən sonra ermənilər dükanlarını açdıqda, müsəlman əhalisi bircə anda hər tərəfdən berdan-

kalarla onların üstünə atılaraq bazardakı bütün ermənilərı qırıblar. Bəzilərini diri-diri yandırıblar. Bütün erməni kəndləri talan və qarətə məruz qalmışdır (180, 1905, 20 may №93). Lakin bir sətir sonra məlumat verilirdi ki, «ətraf kəndlərdə zərər çəkmiş ermənilər öz mülklərini buraxaraq Naxçıvan şəhərinə köçürlər(!)». Əgər doğrudan da ermənilər Naxçıvan şəhərində qırğına məruz qalırdılarsa, nə üçün yenə bu şəhərə üz tuturdular, məlum deyil. Toqquşmalar gecə və ertəsi gün də davam etmiş, müsəlmanlara qarşı qırğın və qarətlər səngiməmişdi.

Naxçıvanda may ayı ərzində baş vermiş hadisələri tədqiq etmək üçün xüsusi istintaq qrupu yaradılmışdı (180, 1905, 4 iyun №104). İstintaq 12 may tarixdə Naxçıvan bazarında baş verən hadisələr haqqında maraqlı məlumatlar əldə edə bilmişdi. Məlum olmuşdu ki, həmin gün bazarda baş verən müxtəlif qanunsuzluqlar Mixail və Aleksandr Manaserovlar qardaşlarının Dəmirçilər cərgəsindən açdıqları atəşin nəticəsində baş vermişdi. İstintaq belə nəticəyə gəlmişdi ki, kütləvi ixtişaşların əsas günahkarları da məhz ermənilər olmuş, azərbaycanlılar isə yalnız sonrakı hadisələr zamanı onlara cavab verməli olmuşdular (180, 1906, 25 fevral №44).

Naxçıvan qəza rəisi Angil bu cinayətlərin başında duraraq fitnəkar hərəkətləri ilə əhalini daha da qızışdırırdı. Şəhərdə olan hökumət qoşunları isə asayişi bərpa etmək əvəzinə əhalini təhqir edir, qarətlə məşğul olurdular.

Lakin Naxçıvanda baş verən hadisələr haqqında erməni nümayəndələri müxtəlif mətbuat orqanlarına, hakimiyyət instansiyalarına göndərdikləri teleqram və məlumatlarda dezinformasiya və böhtanlar yayır, hadisələrin əsil mahiyyətini təhrif edərək, bütün günahları azərbaycanlıların üstünə yıxmağa çalışırdılar. Bu istiqamətdə xüsusən «Baku», «Novoe obozrenie» «Tiflisskiy Listok», «Russkoe slovo», «Kavkaz» qəzetləri xüsusilə fərqlənirdilər. Həmin qəzetlərdə may ayında Naxçıvanda baş vermiş hadisələr haqqında yalnız ermənilərin mövqeyini əks etdirən materialar verilir, erməni əhalisinin kütləvi

qırğına məruz qaldığını «sübut» edən rəqəmlər, faktlar göstərilir və bütün bunların hamısını «qaniçən və vəhşi müsəlmanların» əlinin işi olduğu ictimaiyyətə təlqin edilirdi. Bu təəcüblü deyildi. Çünki adı çəkilən qəzetlər «Daşnaksütun» partiyası, erməni biznes dairələri ilə sıx əlaqədə idi. Məsələn «Baku» qəzetinin redaktoru Enqibarov idi, erməni milyonçularından Qukasov, Yüzbaşev, Xatisov, Vermişev bu qəzetin maliyyələşdirilməsində və fəaliyyətində yaxından iştirak edirdilər. Bu qəzetlərə məlumatları da Naxçıvandan məhz ermənilər göndərirdilər. Tiflis şəhər rəisinə erməni X.Vermişevə göndərilən teleqramlardakı məlumatlar sonralar onun vasitəsilə Qafqaz rus hakimiyyətinə ötürülürdü.

1905-ci il 14 may tarixdə X.Vermişevin adına Naxçıvandan göndərilən məktubda iddia olunurdu ki, «Naxçıvanda artıq üç gündür ki, ermənilərin qırğını gedir. Talan və yanğınlar dəhşətli dərəcədədir. Öldürülmüş, yaralanmış və yandırılmış ermənilərin sayı saysız-hesabsızdır». Azərbaycanlılardan isə yalnız iki nəfərin öldüyünü bildirən məktub müəllifləri erməni ailələrinin xilası üçün tədbirlər görməyi (əslində onların tərəfində çıxış etməyi-A.M.) hakimiyyət orqanlarından tələb edirdilər. A.Melikyan adlı Naxçıvan ermənisinin Vermişevə göndərdiyi teleqramda isə şəhərdə beş gün ərzində ermənilərin kütləvi qırılmasından, erməni kilsələrinin talan edilməsindən bəhs edilir, qoşun hissələri göndərilməsi tələb edilirdi. Eyni məzmunlu teleqramı arximandrit Karapet yepiskop Haregin Satunyana göndərərək Tumbul kəndində 20 erməninin öldürüldüyünü və yaralandığını göstərmişdi. «Kavkaz» qazetində isə bu kənddə ölənlərin sayının 40-a qədər olduğu göstərilirdi. Arximandrit Tovma isə Vermişevə göndərdiyi teleqramda guya azərbaycanlıların erməni kəndlərini bombaladıqlarını (maraqlıdır görəsən necə və nə ilə - A.M), kazaklarsız onu dayandırmağın mümkünsüzlüyünü bildirir və canişinə bu barədə xəbər veməyi xahiş edirdi (180, 1905, 20 may, № 93).

Naxçıvanda öz fitnəkar hərəkətləri nəticəsində tam məğlub olacaqlarından qorxan ermənilər və onların İrəvandakı, Tiflisdəki, Bakıdakı liderləri Qafqaz canişininin köməkçisi N.A.Sultan-Krım-Gireyə, Qafqaz şeyxülislamına, Cəfərqulu xan Naxçıvanskiyə, Naxçıvanın digər nüfuzlu şəxslərinə müraciət edərək «müsəlman əhalisinə təsir göstərməyə» və qarşıdurmanı aradan qaldırmağa çağırırdılar (180, 18 may, 20 may №91).

Naxçıvanda asayişi bərpa etmək üçün Qafqaz canişini Vorontsov-Daşkov general Əlixanov-Abarskini Naxçıvana göndərmiş, onunla birlikdə Şeyxülislam və İrəvan qazisi, erməni yeparxiyasının başçısı mayın 15-də şəhərə gəlmişdilər. Elə həmin gün şeyxülislam, İrəvan, Şərur və Naxçıvan qaziləri, İrəvan arximandriti Karapet və Cəfərqulu xan Qaraxanbəyli, Tumbul və Qoşadizə kəndlərində görüşlər keçirmişdilər. Şeyxül-islamın xahişi ilə ermənilərin yaşadıqları Qaraxanbəyli kəndində görüşdə qonşu Qaraçuq və Bulqan kəndlərindən müsəlman əhali ilə onlar arasında gərginlik həll edilmiş, digər kəndlərdə də sakitlik bərpa edilmişdi. Şeyxül-islamın gəlişi ilə Naxçıvanın digər yerlərində-Culfada, Şərurda, Ordubadda, Əylisdə, Nehrəmdə sabitlik yaranmışdı. Bu məqsədlə İrəvandan Uluxanlı-Culfa yolu ilə Naxçıvan qəzasına general Əlixanovun rəhbərlik etdiyi 700 piyada, 23 zabitdən ibarət batalyon göndərilmişdi (180, 1905, 20 may №93). Şeyxülislam və digər nümayəndələr Şıxmahmuda da gedərək ermənilərlə söhbət aparmışdı.

May ayının 17-də şeyxül-islamın, arximandritın iştirakı ilə Naxçıvan şəhərində erməni və azərbaycanlı əhalinin yürüşü keçirilmişdi. General Əlixanovun Naxçıvandan N.A.Sultan-Krım Gireyə göndərdiyi teleqramda da bölgədə asayişin bərpa olunmasında Şeyxülislamın və digər dini rəhbərlərin rolu yüksək qiymətləndirilirdi ((180, 1905, 22 may, № 95).

Şeyxül-islam «Novoe obozrenie» qəzetinə verdiyi müsahibədə Qafqaz qəzetlərində Naxçıvan və İrəvan quberniyasında

baş verən hadisələrin mahiyyətinin təhrif edilməsindən, onunla da vəziyyəti daha da qızışdırılmasından şikayət etmişdi.

Ermənilər bu barışıqdan sonra da öz vəhşiliklərini davam etdirərək azərbaycanlılar yaşayan İtqıran kəndini dağıtmışdılar. 200-ə qədər erməni səhər tezdən əhali yuxuda olarkən kəndə hücum etmiş, bütün əhalini qılıncdan keçirmiş, hətta saman tayasında gizlənmiş uşağa belə rəhm etməmişdilər (180, 1905, 15 may, № 12). Özü də bu hadisə İrəvan quberniyasına yenicə təyin edilmiş general-qubernator prins Lui-Napaleon Naxçıvanda olduğu müddətdə olmuşdu.

28 avqust 1905-ci il tarixdə Naxçıvanda vitse-qubernator knyaz Candinerinin iştirakı ilə yenidən barışıq imzalandı. Ümumiyyətlə, noyabrın 26-a qədər müsəlmanlar və ermənilər bir neçə dəfə də sülh bağlamağa səy göstərsələr də, hər dəfə erməni tərəfinin fitnəkarlığı ucbatından bu səylər bir nəticə vermirdi. Noyabrın 26-da Çeşməbasar kəndinə gələn kazaklar Hacı Nəsir Hacı Nağı oğlunun evini qarət etmiş, bu vaxt Hacının onlara mane olan oğlunu yerindəcə öldürmüşdülər. Hacı oğlunun bu müsibətinə dözməyib kazaklara bir güllə atmış, elə buna görə də ailəsi ilə birlikdə qətlə yetirilmişdi. Bu hadisənin əsas günahkarları kazak dəstəsinin komandiri polkovnik Kazakov və qəza rəisi Angil idi. Faciə naxçıvanlıların qəzəbinə səbəb olmuş, onlar bunu hökumətin hiyləsi olduğunu bildirmişdilər. Azərbaycanlı əhalini qorxutmaq üçün kazaklar və ermənilər əlbir olub şəhərdə atəş açmış, müsəlman bazarını qarət edib yandırmışdılar. Bu zaman dəmiryolu vağzalında olan gürcülər müsəlmanlara köməyə gəlsələr də artıq iş-işdən keçmişdi.

Noyabrın 27-30 arası 85 dükan, 75 anbar yandırılmış, aclıq baş vermişdi. Noyabrın 30-da ermənilər və kazaklar tərəfindən Cəhri kəndi yandırıldı. Faciə ilə əlaqədar əhali Naxçıvana gələn İrəvan general-qubernatoru Paskeviçə şikayət etsələr də qubernator boş sözlər vəd edərək heç bir tədbir gör-

mədi. Əksinə, o Naxçıvanda olduğu müddətdə kazaklar şəhərin ikinci hissəsinə də od vurub yandırmışdılar (113, 18-22).

Beləliklə, Naxçıvanda 1905-ci ildə baş verən hadisələrdə əsasən azərbaycanlılar zərər çəksələr də, ermənilər onları qorxuda bilmədilər. Bölgədə «qabaqca müharibə tələb etmiş» ermənilər nəhayət «büsbütün məğlub olaraq milli səhifələrinə qara bir xətt çəkdirdilər (113, 23).

Erməni tərəfinin yalanları o dərəcəyə çatmışdı ki, hətta 1906-cı ilin fevralında Tiflisdə keçirilən erməni-müsəlman qurultayında onların nümayəndəsi A.Xatisov çıxış edərək utanmadan «Naxçıvanda 45 erməninin və 1 müsəlmanın öldürüldüyünü, ermənilərin hücum edən tərəf olmadığını» söyləmişdi (188,41). Lakin M.S.Ordubadinin həmin hadisəyə dair geniş və obyektiv təsviri, «Kaspi» qəzetində göstərilən faktlar bir daha sübut edir ki, Naxçıvanda da aranı qızışdıran, ilk atəş açan və bununla da azərbaycanlıları cavab tədbirləri görməyə vadar edən erməni tərəfi olmuşdur.

Bu baxımdan ARSPİH Dövlət Arxivində saxlanılan bir sənəd diqqəti cəlb edir. Daşnaksütyun partiyasının Naxçıvan yerli təşkilatının 1905-ci il noyabrın 13-dən 20-dək keçirilmiş iclasının protokolu olan bu sənəddə erməni siyasi təşkilatların əsil mahiyyəti üzə çıxarılır.

Müsəlmanlarla münasibətləri müzakirə edən iclas iştirakçıları öz taktikalarında yalnız terrora və qəfil hücuma üstünlük verdiklərini göstərirdilər. «Hücum qələbənin ən başlıca şərtidir... Əgər istəmiriksə bizi qırıb məhv etsinlər, biz birinci hücum etməli və sarsıdıcı zərbə vurmalıyıq». Qəbul edilmiş qərarda bu və ya digər orqana rayon iclasının göndərdiyi şərtlərə uyğun olaraq müstəqil surətdə hücum etmək hüququ verilirdi. Azərbaycanlıların həyatına zərər vurmaq üçün daşnaklar onları yay vaxtı yaylaqlara köçməsinə imkan verməmək üsuluna əl atmağı məsləhət görürdülər. Eyni zamanda daşnaklar azərbaycanlıların üstünlük təşkil etdikləri ərazilərdə daha mülayim siyasət yeritməyi, əksinə onların sayca az olduqları yerlərdə isə

hücum taktikasına üstünlük verməyi tövsiyə edirdilər. Məsələn, Cəhrini özləri üçün əlverişli yer sayan ermənilər, oradan tatarları (azərbaycanlıları-A.M.) müharibə yolu ilə çıxartmaq lazım olduğunu göstərirdilər. Terrorla bağlı qəbul edilmiş qətnamədə qeyd olunurdu: «Erməni-tatar məsələsində bizim üçün (ermənilər üçün- A.M.) zərərli rol oynayan, dərəcəsindən və vəzifəsindən asılı olmayaraq rəsmi və qeyri rəsmi şəxslərə qarşı terrora əl atmaq və terroru «erməni terrorçu orqanı» adı altında həyata keçirmək» (16, s. 8,.iş 52; 163, 207-210).

Naxçıvan hadisələri də, Cənubi Qafqazın bir sıra başqa yerlərində baş vermiş bütün digər münaqişələr də ermənilərin bais olduqları Bakı hadisələrinin bilavasitə nəticəsi idi. Mayevskinin qeyd etdiyi kimi «bu hadisələr qeyri tipik hadisə idi və sübut etdi ki, çox hallarda heç bir günahı olmayan kənd əhalisi zərər çəkmişdir. Naxçıvan hadisələri başqa heç nəyi sübut edə də bilməz (188, 41-35).

Naxçıvanda uğradıqları acı məğlubiyyətdən qəzəblənən ermənilər bu məğlubiyyətin əvəzini İrəvan şəhərində və onun ətrafında yaşayan Azərbaycan türklərindən çıxmaq üçün dərhal təcavüzkar hərəkətlərə başladılar. Düzdür, hələ Naxçıvan hadisələrindən əvvəl də İrəvanda müsəlmanlarla-ermənilər arasında münasibətlər gərgin idi. Xüsusən Bakı hadisələrinin təsiri nəticəsində 1905-ci ildə 20, 21, 22, fevral tarixlərində İrəvan şəhərində iki millət arasında baş vermiş toqquşmalar nəticəsində hər iki tərəfdən ölən və yaralananlar olmuşdu. Lakin hər iki millətin ziyalılarının, din xadimlərinin birgə səyləri nəticəsində müvəqqəti sakitlik yaranmışdı. Həmin günlərin xronikası bütün detalları ilə Eynəli Sultanovun «Kaspi» qəzetində çap etdirdiyi «İrəvan hadisələri» adlı yazıda öz əksini tapmışdı (180, 1905-ci il, I, 2, 3 mart).

Naxçıvanla müqayisədə İrəvan qəzasında ermənilər həm say, həm silah-sursat, həm də mütəşəkkillik cəhətdən daha çox üstünlüyə malik idilər. 1905-ci ildə İrəvan quberniyasında 860 müsəlman-türk kəndi var idi. Bu isə «Türksüz Ermənistan»

yaratmaq məqsədləri güdən erməni millətçilərini rahat buraxmır, bu əraziləri erməniləşdirmək üçün onlar ən qatı murderlıqlardan, vəhşiliklərdən istifadə etməkdən çəkinmirdilər (79, 290-292). M.S.Ordubadinin qeyd etdiyi kimi İrəvan müsəlmanları Naxçıvan qələbəsini özlərinin qələbəsi sayıb xəyalsız dolanmaqda ikən, ermənilər müharibə etmək üçün bütün tədarüklərini görüb hadisənin başlanmasını gözləyirdilər.

1905-ci il mayın 23-də ermənilərin Qarsaçay baxçasında üç azərbaycanlını döyməsi vəziyyəti yenidən gərginləşdirmiş, şəhər bazarında atışma başlanmışdı. Gecə sakit keçsə də ertəsi gün saat 9-da ermənilər bazar-dükanı açmağa gələn müsəlmanlara atəş açaraq yenidən aranı qızışdırmağa nail oldular. Lakin bu atəş müsəlmanlara deyil, ermənilərə dəyib, onları yaraladı. Əsgərlər erməniləri sakitləşdirə bilsələr də saat 2 radələrində ermənilər yenidən atəş açmağa başladılar. Hadisələritn belə gedişinə əsla hazır olmayan azərbaycanlıların əlində cəmi bir neçə köhnə ov tüfəngi var idi ki, bununla ermənilərin qabağını almaq əsla mümkün deyildi. Əsgərlərin mühafizəsi altında şəhərin erməni hissəsində yaşayan azərbaycanlı ailələrin müsəlman hissəsinə köçürmək mümkün olsa da, atışma nəticəsində köçə bilməyən müsəlmanlardan 4 qadın, 2 uşaq və 5 kişi həlak oldu. Belə olduqda müsəlman könüllüləri silah götürərək ermənilərin üstünə yürüş etdilər. Hökumət qoşununun köməyi ilə onlar erməni hissəsində qalmış 30-40 müsəlman ailəsini də oradan çıxarmağa müvəffəq oldular.

İxtişaşın beşinci günündən tərəflər arasında başlanan mövqe döyüşlərində ermənilər daha çox tələfat verirdilər. Hərçənd ki, ermənilərin əksəriyyəti təlim görmüş, müasir silahlarla silahlanmışdı, onlar «bal mumundan qayrılmış müqəvva kimi olub tuf edən kimi məhv olurdular». M.S.Ordubadi bunun səbəbini erməni əsgərlərinin spirtli içkilər içməklə lovğalıq edərək, ara-sıra bir güllə atıb «bir islam vurdum» deyib, bir rumka konyak tələb etməkdə görürdü: «Bu səbəbə ermənilərin gülləleri büsbütün boşa gedib erməniləri tamaşaçı millətlər

yanında bir məsxərə nümunəsi qayırdılar ki, indi də dillərdə İrəvan müharibəsi deyilir» (113, 23-27).

Həmin gün ermənilər müsəlmanlar yaşayan evə iki bomba ataraq 10 nəfəri qətlə yetirdilər. Şəhərdə bütün hökumət idarələri, mağazalar bağlanmış, müsəlman əhali şəhəri tərk edərək kəndlərdə gizlənməyə məcbur olmuşdu. Qubernatorun əmri ilə şəhərdə hərbi vəziyyət elan olunmuş, qayda-qanun yaratmaq üçün general Şvedov əlavə qüvvələr gətirməyə əmr vermişdi (180, 1905, 28-29 may, № 99-98). Mayın 25-də öz evlərində gizlənən müsəlmanlara atılan bomba nəticəsində 8 nəfər həlak olmuşdu.. Rəsmi xəbərlərə görə üç gün ərzində - 23, 24, 25 mayda İrəvanda 31 nəfər həlak olmuş, onun 9-u erməni, 21-i azərbaycanlı, 1nəfəri isə aysor idi (180, 1905, 3 iyun №103).

«Baku» qəzetinin 1905-ci il 3 iyun tarixli (№ 103) nömərsində İrəvanda həmin gün baş vermiş hadisələr tamamilə ermənipərəst mövqedən işıqlandırılsa da həlak olanların çoxunun məhz azərbaycanlılar olduğu təsdiq olunurdu (həlak olmuş 15 nəfərin 13-ü azərbaycanlı, 1 erməni, 1-i aysor olduğu göstərilirdi –M.A.).

Ermənilərin rəsmi orqanları İrəvanda baş vermiş toqquşmaların əsas səbəbini azərbaycanlıların üstünə atsalar da bu hadisələrə çoxdan hazırlaşdıqlarını gizlətmirdilər.

M.Tsenatsi (Kitayets) adlı müəllifin «Qnçak» qəzetində getmiş məlumatında (Qnçak, 1906, № 6) etiraf olunur ki, «ermənilər toqquşmanın birinci günündə gözlədikləri silahı əldə etdilər, sanki hərəkətə keçmək üçün məqam gözləyirdilər. Ən çətin mövqelər bizim (ermənilərin-M.A.) adamlar tərəfindən tutulmuş və bütün şəhər görürdü ki, qnçakçılar dəstəsi necə şəhəri qoruyurdu və türkləri necə yaxşı qırırdılar. Mənzərə kədərli olsa da, biz erməni cəmiyyəti qarşısında təmiz vicdanla durduq. Silahlarla birgə aldığımız 192 müxtəlif növ tapançaları, xalqa payladıq» (180,1905, 3 iyun №103).

İxtişaşçılar şəhərdən qəzanın kəndlərinə yayılmış, dəmiryolunda hərəkət tamamilə pozulmuşdu. May ayının 26 və 27-də əlavə qüvvələr hesabına güclənən ermənilər azərbaycanlılar üzərinə yenidən hücuma keçmişdilər. «Tifliskiy listok» qəzetinə göndərilmiş və mayın 26-da baş vermiş hadisələrdən bəhs edən məlumatda deyilirdi ki, hər tərəfdən qəbirstanlığa meyidlər, əsasən də tatarların meyidləri gətirilir. Ölənlər və yaralananlar çoxdur... Bombalarla partladılmış tatar evində 24-ə yaxın insan ölmüş və yaralanmışdır»( 180, 1905, 1 sentyabr №168).

Tatarların yaşadığı Təpəbaş rayonunda evlər bombalarla dağıdılmış, çoxlu insan qırılmışdır. Zəngi dərəsində də az itki olmamışdır. Axşam çağı bəzi ermənilər küçələrə çıxsalar da, tatarlar çıxmağa cürət etmirlər.

Qubernatorun yanında hər iki millətin nümayəndələrindən ibarət qarışıq komissiya yaradılmış qırğınların qarşısını almaq məqsədilə tədbirlər müəyyənləşdirilmişdi (180, 1905, 1 sentyabr,№168).

Hökumət dairələri tərəfindən şəhərə dəvət edilən Qafqaz şeyxülislamı, İrəvan qazisi və yepiskopu (onlar Naxçıvanda idilər-M.A.) iyunun 1-də camaata moizə və nəsihətlə müraciət etdilər.

Maraqlıdır ki, şeyxülislam öz çıxışında hər iki milləti barışığa çağırsa da, arximandrit Karapet Azərbaycan dilində çıxış edərək ixtişaşları başlamaqda azərbaycanlıları günahlandırmış və onları qorxudaraq qeyd etmişdi ki, əgər siz barışmaq istəyirsinizsə, gedin sakitcə öz işinizlə məşğul olun və öz sülhsevərliyinizlə bizi inandırın ki, bir daha qırğın və ictimaiata bəhanə verməyəcəksiniz. Onda əmin olun ki, bir erməni sizə toxunmayacaq, əks təqdirdə ermənilər bütün üsullarla özlərini müdafiə etməli olacaqlar (180, 1905, 5 iyun, № 105).

Şeyxülislam İrəvan müsəlmanları adından Sultan-Krım-Gireyə teleqram göndərərək İrəvan quberniyasında hərbi vəziyyət elan etmək barədə canişin qarşısında məsələ qaldır-

mağı xahiş etmişdi. Teleqramı İrəvan qazisi axund Qazızadə, quberniya məclisinin üzvü Ə.Qaziyev, İsmayılbəy Qaziyev, Ələkbər İsmayılov, Hacıbəylinski, Mirsadıqov, Hacıİsmayıl Mirzəbirbəyov Kəngərlinski imzalamışdılar (180, 1905, 8 iyun №106).

Tezliklə buna cavab olaraq İrəvan quberniyasında hərbi vəziyyət elan edilmiş, general-mayor Lüdovik Napaleon general-qubernator təyin edilmişdi (180, 1905, 9 iyun, № 107). Lakin bu tədbirlər də ermənilərin azğın hərəkətlərinin qarşısını ala bilmədi. Əksinə, İrəvanda müvəqqəti sülhün bərpa olunmasından istifadə edən daşnaklar müsəlman kəndlərinə hücum etmək üçün fürsət əldə etdilər. Qarabulaq sahəsinin və ona qonşu olan kəndlərin erməniləri ətrafdakı on müsəlman kəndinə silahlı hücum edərək yandırmış və talan etmiş, əhalini qırmışdılar. Sağ qalan müsəlman əhali isə açıq səma altında acından ölmək təhlükəsi ilə yaşamağa məcbur olmuşdu (180, 1905, 3 iyun №103). Bu zaman İrəvanın müsəlman əhalisinin başbilənləri camaatı dairələrə ayırıb, hakimiyyəti bölməklə məşğul idilər. «Öz canlarını, malını vətəninidən üstün tutan» bəzi imkanlı adamlar mümkün qədər tez aradan çıxmağa çalışarkən ətraf kəndlərdə günahsız insanların qanı sel kimi axırdı (113, 28-29).

Qarabulaq mahalında sayca üstünlük təşkil etmələrindən istifadə edən ermənilər buradakı müsəlman kəndlərinə divan tutmaq üçün ayın sonlarından başlayaraq fəal hərəkətə girişdilər. Qonşu Tirtabat kəndindən hücum edən ermənilər Gözəcik kəndinin əhalisini öz doğma yurdlarını tərk edib Mənkus kəndinə pənah aparmağa məcbur etdilər. Ermənilər bu kəndi də mühasirəyə aldıqda azərbaycanlılar yenidən qaçmaq istəsələr də, kənd ağsaqqalı Novruz Kazım oğlu onların qabağına keçərək ermənilərə qarşı mübarizəyə çağırsa da, bunun xeyri olmadı. Təkbaşına ermənilərlə döyüşə atılan Novruz kişini ermənilər əsir götürərək başını kəsmiş, onun başı min beş yüz müsəlman sərkərdəsinin başıdır» deyə əvvəlcə Aleksandropol,

sonra isə Bakı şəhərinə göndərmişdilər (113, s.303). İyunun 2-də ermənilərin 10 minlik qoşunu kəndi ələ keçirdikdən sonra, onun əhalisi Təzəkəndə qaçmalı oldu. Bu kənddə dağıdılmış 12 müsəlman kəndinin əhalisi də toplanmışdı. Bir gün sonra ermənilər Güllücə kəndinə hücum etdilər. Silahsız azərbaycanlılar kəndi tərk edərək qonşu Tutya, Damagirməz, Kamal kəndində sığınmalı oldular. Lakin bu kəndlər də erməni hücumuna məruz qaldığından, onların camaatı da, Təzəkəndə pənah aparırlar. Ələ keçirdikləri kəndlərdə ermənilər heç kimə, qocalara, uşaqlara, qadınlara aman verməmiş, hər şeyi talayıb apardıqdan sonra, kəndlərə od vurub yandırmışdılar. «Mişak» müxbiri də təsdiq edirdi ki, İrəvan qəzasının şərq hissəsində yerləşən müsəlman kəndlərindən olan Güzəncədə 20 ev, Güllücədə 50 ev, Mənkusda 50 ev, Kamalda 50 ev, Tutyada 60 ev talan edilərək yandırılmışdı (180, 1905, 5 iyun, № 105).

Eçmiədzin (Üçkilsə) qəzasında da ermənilər xüsusi qəddarlıqlar törətmişdilər. İyunun 3-də Şoragöl Pəmbək, Aleksandropol erməniləri birləşərək Uşu adlı azərbaycanlılar yaşayan kəndə hücuma keçdilər. 8 saatlıq döyüşdən sonra ermənilər çoxlu tələfat verib qaçmağa məcbur oldular. Kənd hər tərəfdən mühasirəyə alınmışdı. İyunun 5-də ermənilərin kəndə yeni hücumu da bir nəticə vermədi, baxmayaraq ki, onlar sürətlə atəş açan beşaçılan tüfənglərdən istifadə edirdilər yalnız üç gündən sonra, müsəlmanların silah-sursatı qurtardıqdan sonra ermənilər kəndə yaxınlaşa bildilər. Qüvvələr qeyri-bərabər olsa da azərbaycanlılar 180 nəfər ermənini öldürmüş, bir o qədər də yaralamışdılar. Lakin bu müharibədə «tüfənglə vuruşan ermənilərə qarşı xəncərlə vuruşan azərbaycanlılar» kəndi boşaltmağa məcbur oldular. Pərsi, Nəzrəvan, Kurukənd, Kötüklü, Qoşabulaq, İrku, Əngircək kəndləri də ermənilər tərəfindən ələ keçirilərək yandırıldı. İyunun 9-da Təkyə kəndini ələ keçirmiş erməni quldurları müsəlmanların müqəddəs kitablarını yandırmış, kənd məscidini güllələbaran etmişdilər. İyun ayının 19-da ermənilər daha 9 kəndi dağıtmış, hökumət isə azərbay-

canlı əhalinin müdafiəsi üçün heç bir tədbir görməmişdi (113, 33-35).

Ermənilərin azğınlığı o dərəcəyə çatımşdı ki, onların hərbi dəstələri hətta hökumət qoşunları ilə münaqişəyə girməkdən çəkinmirdilər. Məsələn, iyunun 6-da Eçmiədzin qəzasının ikinci sahəsində kazaklar 150 nəfərlik erməni bandası ilə qarşılaşmış, atışmada 4 erməni öldürülmüş, 31-i tutulmuşdu (180, 1905, 14 iyul, № 19).

Sentyabrın 19-da İrəvan şəhərində ermənilər barışığı qəflətən pozaraq atəş açmış, nəticədə 8 azərbaycanlı öldürülmüş, 3-ü isə yaralanmışdı (180, 24 sentyabr, 1905, № 186). Həmin günlərdə kazakların gözü qarşısında ermənilər daha 13 azərbaycanlını qətlə yetirmişdilər (180, 22 sentyabr, №184).

Nəhayət, 1906-cı il fevralın 14-ü İrəvan şəhərində qubernator Tizenqauzenin iştirakı ilə azərbaycanlılarla ermənilər arasında münaqişənin aradan qaldırılması barədə 9 bənddən ibarət müqavilə imzaladılar. Müqaviləni azərbaycanlılar adından Pənahxan Makinski, K.Məmmədəliyev, Ağaxan İrəvanski, Mirabbas Mirbabayev, Ələkbər İsmayılov, Abbasqulubəy Hacıbəyov imzalamışdılar (180, 1906, 19 fevral, № 39).

Münaqişəli məsələlərin həlli üçün hər iki tərəfin nümayəndələrindən ibarət komissiyanın yaradılması nəzərdə tutulmuşdu. Bir neçə gündən sonra, fevralın 20-də Tiflisdə öz işinə başlanan erməni-müsəlman qurultayında İrəvan azərbaycanlılarını İrəvanski, A.Hacıbəyov, Şahqulu Mirzə, Naxçıvanı Eynəlibəy Sultanov, Məmmədağa Şahtaxtinski, Surməli qəzasını Əliağa Akimov, Zəngəzur qəzasını Cəlilbəy Sultanov təmsil etdilər (180, 1906, 23 fevral, № 42).

Lakin bu tədbirlər də ermənilərin ağzınlığının qarşısını ala bilmədi. 1906-cı ilin mayın sonu-iyunun əvvəllərində İrəvanda, Surməlidə ermənilər azərbaycanlılara hücum edərək qətl və qarətlər törətdilər (161, 1906, 9 iyun, №123, 18 iyun №131).

Erməni azğınlığına məruz qalan kəndlər arasında Şərur-Dərələyiz qəzasının Hors kəndinin taleyi daha faciəli oldu. Eçmiədzin qəza rəisinin 30 oktyabr 1906-cı ildə verdiyi məlumata əsasən 800 nəfərlik erməni quldur dəstəsi kəndə hücum edərək onu dağıtmışdı. Hücum nəticəsində 53 adam öldürülmüş, 27-si yaralanmış, 255 ev yandırılmış, bütün mal-qara, əmlak talan edilmişdi. Bəzi mənbələrə görə isə bu kənddə 400 azərbaycanlı öldürülmüşdü (180, 6 noyabr 1906, №156).

1897-ci ildə İrəvan quberniyasında azərbaycanlıların sayı 313.176 nəfər olduğu halda, 10 ildən sonra, 1907-ci ildə bu rəqəm 302.965 təşkil etmişdi. Hətta on il ərzində əhalinin təbii artımını nəzərə almasaq belə, azərbaycanlıların sayının 10 min nəfərdən çox azaldığını görərik. İrəvanda nəşr olunmuş «Erməni-turk münasibətləri» adlı kitabda da erməni müəllifləri İrəvan quberniyasında 1301 kənddən 959-nun azərbaycanlılara məxsus olduğunu göstərir. Bu dövrdə 252 kəndin dağıldığı, 10 min azərbaycanlının öldürüldüyü qeyd edilirdi (79, 211, 471).

İrəvan quberniyasında öz məqsədlərinə nail olan ermənilər Qarabağda, Gəncə ətrafında və başqa yerlərdə də qırğınlar törətməyə başladılar. İyunun 1-dən başlayan erməni hücumları nəticəsində Cəbrayıl-Qaryagin bölgəsində Veysəlli, Qacar, Çəmənli, Arış, Qışlaq, Məzrə kəndləri darmadağın edildi. Avqustun 16-21-də Şuşada da öz çirkin əməllərini həyata keçirmək üçün ermənilər azərbaycanlıları məhv etmək üçün şəhərdə yerləşən kazak dəstələrinin bilavasitə iştirakı, general-qubernator Qalaşapovun fəal dəstəyi ilə geniş əməliyyatlar həyata keçirmişdilər. Lakin azərbaycanlıların rəşadəti düşmənə öz niyyətlərini həyata keçirməyə imkan vermədi. Əksinə, həm 1905-ci ilin avqustunda, həm də 1906-cı ilin yayında baş vermiş hadisələrdə ermənilər on qat artıq itki verdilər (113, 62-63).

1905-ci ilin yayından başlayaraq ermənilər yenidən Bakıda, Gəncədə, Cavanşir, Qazax, Zəngilan qəzalarında, Tiflis

şəhərində ixtişaşlar törədərək on minlərlə azərbaycanlını qətlə yetirdilər.

Erməni müəllifi S.Zavaryanın verdiyi məlumata görə həmin dövrdə Şuşa qəzasında 1, Cavanşir qəzasında 15, Cəbrayıl qəzasında 5, Zəngəzur qəzasında 43 müsəlman kəndi dağıdılmışdı (213, 61).

Daşnak partiyasının planlarında Zəngəzur qəzası xüsusi yer tuturdu. Bu planların gerçəkləşməsində əsas maneə heç şübhəsiz qəzada azərbaycanlıların üstünlük təşkil etməsi idi. Bölgənin etnik mənzərəsini öz xeyirlərinə dəyişmək üçün 1905-ci ildə fürsət əldə edən ermənilər İrəvan quberniyasının müxtəlif yerlərindən buraya hərbi qüvvə və silah-sursat göndərir, burada üstünlüyü ələ keçirmək üçün müxtəlif planlar cızırdılar. Lakin İrəvandan Zəngəzura gedən yol əsasən azərbaycanlılar yaşayan kəndlərdən keçdiyindən, erməni komandirləri birinci növbədə bu kəndləri ələ keçirmək istəyirdilər.

Hökumət qoşunları ilə əlbir olan ermənilər Xanlıqlar, İtqıran, Cəhri kəndlərində faciə törədib, Zəngəzura aşmaq üçün Ordubadın Dırnıs, Unus, Pəzməri kəndlərini dağıda bilməyib, onları mənəvi sarsıntıya məruz qoydular. Ermənilər Zəngəzurun açarı sayılan Oxçu, Şabadək, Pirdavdan, Atqız kəndlərini ələ keçirmək üçün geniş hərbi hazırlıqlara başladılar. Onlar bir tərəfdən Qafan dairəsində öz qüvvələrini toplayır, digər tərəfdən isə İrəvan, Aleksandropol, Abaran, Şuragöldən gətirilmiş könüllülərə Ordubadın ermənilər yaşayan Əylis, Kələki, Danaqırt kəndlərində təlimlər keçirdilər. Eyni zamanda Şuşada məğlub olmuş nizami erməni qüvvələri də Tatar istiqamətində toplanmışdılar. Nəhayət, İrəvandan aldıqları əmrə əsasən Əylisdəki erməni qüvvələri ilə Qatardakı erməni qüvvələri 1906-cı il avqust ayının 8-də Panusluda birləşərək Azərbaycan kəndlərini mühasirəyə aldılar.

Oxçu kəndinin əhalisi dörd gün ərzində layiqli müqavimət göstərərək erməniləri Gicəvan kəndinə qədər qovmuş və bu kəndi ələ keçirmişdilər. Lakin avqustun 14-də Qatardan gələn

erməni əsgərlərinin və ətraf erməni kəndlərindən yığılmış könüllülərin hesabına ermənilər Oxçu-Şəbadək dağlarını işğal edə bildilər. Ətraf kəndlərin əhalisi əvvəlcə Saqqarsuya çəkilir, sonra isə tam məhv olmaq təhlükəsi altında Ordubad mahalına pənah gətirməli olurlar. Ordubadlılar qaçqınları yerləşdirdikdən sonra ələ keçirilmiş kəndlərdəki insanları xilas etmək, həlak olanları basdırmaq üçün könüllülərdən ibarət dəstə yaratdılar. Saqqarsu ətrafında ordubadlılar dəhşətli mənzərə ilə rastlaşdılar. Daşlar arasında 62 nəfər qadın və uşaq cənazəsi qalaq-qalaq tökülmüşdü. Ertəsi gün meşənin içində bir qadın və onun oğlunun doğranmış cəsədləri, bir qədər aralıda isə palazın içindən 15 nəfər başı kəsilmiş körpə bədəni tapıldı. Cənub səmtdə də həddən artıq qadın uşaq bədənləri tökülmüşdü.

Ermənilər Pirdavdan kəndində yerləşən Həzrəti Davud pirini dağıtmış, oradakı müqəddəs kitabları və əşyaları odlamışdılar.

İyunun əvvəllərindən avqustun sonuna qədər ermənilər Zəngəzurda Xələc, Karxana, Qatar, İncəvar, Daşnov, Çöllü, Yeməzli, Saldaşlı, Mollalar, Batuman Oxçu, Şəbadək, Atqız, Pürdavud, Zurul, Güman, İyilli, Sənalı, Minənəvur, Fərcan, Qalaboynu, Əcəbli, Buğacıq kəndlərini (ümumilikdə 48 kənd) talan etmiş, 100-ə qədər azərbaycanlını qırmışdır (113, 136).

Oxçu-Şəbadək faciəsinin qurbanları Ordubad əhalisi arasında böyük həyəcan yaratmışdı. Ordubadlılar İrəvan və Gəncə general-qubernatorlarına 100-ə qədər teleqram göndərərək ermənilərdən şikayət etmişdilər. Həmin teleqramlardan sonra Ordubada bir rota draqun süvarisi gələrək qaçqınları öz kəndlərinə aparmağa cəhd göstərmişdilər. Lakin ermənilər bütün Qafan dairəsini ələ keçirdiklərindən müsəlmanların geri qayıtmasına mane olmuş, hətta süvarilərin gözü qarşısında iki azərbaycanlını öldürmüşdülər.

Ordubadda bu qədər qaçqının olması mahalın özündə çoxlu problemlər yaratmışdı. Qarabağla əlaqələr kəsildiyindən ticarət işləri tənəzzülə uğramış, qaçqınları təmin etmək üçün

ərzaq çatışmırdı. Digər tərəfdən qaçqınların Ordubadda öz mal-qaralarını saxlamaları üçün şərait yox idi. Qabaqdan isə qış gəlirdi. Düzdür ordubadlılar qaçqınlar üçün bütün əllərindən gələn köməkləri edirdilər. Lakin qaçqınların öz doğma yurdlarına dönmək fikrində qəti olduqlarını yəqin etdikdən sonra, ordubadlılar qaçqınların qayıtmasını öz öhdələrinə götürdülər. Çünki rəsmi hakimiyyət dairələrinin erməniləri cəzalandırmaq niyyətlərinin olmamasını yaxşı başa düşürdülər. Nəhayət, erməniləri öz yerlərində oturtmaq üçün səfər tədarükünə qərar verildi. Tezliklə Ordubadlılardan və qaçqınlardan ibarət 1800 nəfərlik könüllü ordu yaradıldı. Ordu bölüklərə bölünməklə baş komandanlığa tabe etdirildi. Əməliyyatın uğurla başa çatdırılması üçün hərbi plan hazırlanmış, kəşfiyyat və əlaqə dəstələri yaradılmışdı. Sentyabr ayının 16-da orduya iki istiqamətdə hərəkət edərək Girdəkan və Panuslu erməni kəndini ələ keçirmək tapşırığı verildi. 500 nəfərlik üçüncü bölük isə Lec və Təştin dağlarında mövqe tutub Meğri və digər erməni kəndlərindən köməyə gələn ermənilərin yolunu kəsməli idi.

Sentyabrın 16-da səhər tezdən komandanlığın əmri ilə Girdəkan kəndi atəşə tutuldu. Dörd-beş dəqiqə sonra Panuslu yaxınlığında olan bölük də döyüşə başladı. Dörd saatlıq şiddətli döyüşdən sonra ermənilər hücuma keçib bizim bölüklər arasında rabitəni kəsməyə cəhd etsələr də Atqız kəndində ehtiyatda saxlanan dəstənin hücumu ilə onlar dəf edildilər.

On iki saata qədər davam edən döyüşdən sonra müsəlman kəndləri azad edildi. Yalnız beş yüz nəfərlik hökumət qoşununun gəlməsi xəbərindən sonra azərbaycanlılar geriyə-ümumi qərargahları olan Saqqarsuya çəkildilər. Hökumət qoşunları gəldikdən sonra Oxçu-Şəbadək camaatı öz kəndlərinə qayıtdı. Beləliklə, 1906-cı il sentyabrın 16-da Panuslu-Girdəkan döyüşlərində uğradıqları məğlubiyyətdən sonra ermənilərin Oxçu-Şəbadəyi ələ keçirmək planları alt-üst edildi. M.S.Ordubadinin qeyd etdiyi kimi «Ordubad və mahal camaatının bu dərəcədə

olan qeyrətləri milli səhifələrimizə qızılı qələm ilə qırmızı bir xətt çəkib onu bəzədi və qiymətə mindirdi (113, 140).

Ermənilərin Zəngəzur qəzasında vəhşiliklərə məruz qalan kəndlər arasında Bayandur, Gorus, Eyvazlar, Davudlu kəndləri də var idi. Onlar daşnaklar tərəfindən planlaşdırılmış və xumbalar tərəfindən həyata keçirilmiş planlar nəticəsində tamamilə talan edilmiş, əhalisi isə qaçqın düşmüşdü (180, 1906, 15 aprel, 15 avqust).

Mayevski adı çəkilən əsərində Cənubi Qafqazda həmin illərdə baş verən hadisələrin səbəbələrini araşdıraraq belə nəticəyə gəlir ki, «baş vermiş bəlalar», həm «hakimiyyətin cinayətkar fəaliyyətsizliyi», həm də «nifaqın başlıca xadimlərinin-Daşnaksütyunun cinayətkar fəaliyyəti» nəticəsində baş verə bilərdi. Bu iki səbəbdən hansı əsas səbəb olmuşdur? soruşan müəllif cavab verir: şübhəsiz, ikinci səbəb (188, 28).

İki ildən sonra – 1908-ci ildə o məqaləsinə aşağıdakı fikirləri də əlavə edib: ... «Mən böyük təkidlə deyirəm ki, «Daşnaksütyun» və ona oxşar cəmiyyətlər həm Türkiyədə, həm də Qafqazda erməni xalqının bədbəxtliklərinin başlıca mənbəyidir. Bu təşkilatların indən belə mövcudluğu erməni əhalisini yeni-yeni fəlakətlərlə daim hədələyəcəkdir» (188, 44). 1915-ci ildə kitabça çapa hazırlananda Mayevski ona bir əlavə də edir. Əgər Daşnaksütyun və onun kimi cəmiyyətlər olmaysaydı, erməni milləti necə də firəvan həyat surərdi, necə də parlaq mövqe tutardı (188, 145).

Vorontsov-Daşkovun Vitteyə ünvanladığı məruzədə də etiraf edilirdi ki, daşnaklar Qafqazda tamamilə müsəlmanlara qarşı mübarizənin təşkili ilə məşğuldurlar (153, 63).

Bu fikri Mayevski bir daha təsdiq edərək qeyd edir ki, «Qafqazda erməni-tatar qırğınının başlıca səbəblərini araşdırarkən qəti qeyd edirəm ki, bu qırğının günahkarları «taleyin hökmü ilə» öz fəaliyyətlərini Qafqaza köçürən həmin gizli təşkilatlar (daşnaksütyun və b –M.A.) olub (188, 27).

Qərbi Azərbaycanda həmin dövrdə gedən proseslər, erməni təcavüzkarlığının artması, xüsusən 1905-1906-cı illərdə baş vermiş hadisələr bölgənin etno-demoqrafik vəziyyətinə ciddi təsir göstərmişdi.

Yerli əhalinin-azərbaycanlıların soyqırımı və deportasiyası burada onların sayının əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxardı.

İrəvan quberniyasının ayrı-ayrı qəzalarında azərbaycanlıların sıxışdırılması nəticəsində ermənilərin sayı süni surətdə artdı. Bunu İrəvan quberniyasının etnik tərkibinə dair 1886, 1897, 1908 və 1915-ci ilin göstəriciləri əyani sübut edir (11, s.1. iş 232, v.1-2). Məsələn, İrəvan qəzasında müsəlmanlar 1886-cı ildə 59,9 %, 1897-ci ildə 57,2 % təşkil etdikləri halda, 1915-ci ildə onlar əhalinin cəmi 45,5 %-i təşkil edirdilər. 1886-cı ildə əhalisinin cəmi 38,3%-ni təşkil edən ermənilər isə 1915-ci ildə artıq 52 % idilər. Eçmiədzin qəzasında azərbaycanlı əhalinin nisbəti 35,7 %-dən, 31 %-ə enmiş, erməni əhalisinin isə 63,7 %-dən 68,8 %-ə qalxmışdı. Bütövlükdə quberniya üzrə azərbaycanlılar 1886-cı ildə 41,2 % təşkil etdikləri halda, 1915-ci ildə cəmi 35,2 % təşkil edirdilər (11, s.1. iş 232, v.1-2). 1917-ci ilə dair Qafqaz təqvimində 1.120.242 nəfərdən ibarət quberniya əhalisinin 423.123-ü azərbaycanlı (37,77), 669. 871-i erməni (59,79 %), 27.248-i digər millətlərin nümayəndələri (2.44 %) təşkil edirdi (11, s.1. iş 232, v.9-10). Lakin kənd yerlərində azərbaycanlıların sayı yenə də kifayət qədər çox idi. 1908-ci ilin göstəricilərinə görə Quberniya kənd cəmiyyətlərinin ümumi əhalisi 807.360, ermənilər 366.088 (47,8 %), azərbaycanlılar 383.151(45,1%), digər əhali isə 58.121 (0,7 %) idi. İrəvan qəzasında isə azərbaycanlılar 55,1% təşkil edirdi (11, s.1. iş 232, v.17- 18).

Nəhayət, 1905-1907-ci illərdə baş vermiş erməni qırğınlarının Naxçıvanın etno-demoqrafik vəziyyətinə təsiri haqqında.

Düzdür, faktik materiallar olmadığından bu təsirin dərəcəsi və keyfiyyəti haqqında konkret ümumiləşdirmələr aparmaq çətindir. Lakin bu qırğınlar nəticəsində İrəvan quberniyasından, eləcə də Zəngəzur qəzasından Naxçıvana çoxlu sayda qaçqınların gəlməsi, eləcə də Naxçıvan qəzasının özündə erməni talanlarından xilas olmaq üçün azərbaycanlıların kütləvi şəkildə Arazın cənubuna köçmələri barədə mətbuat səhifələrində, memuar ədəbiyyatda və hadisələrin şahidi olmuş insanların xatirələrində çoxlu məlumatlar vardır.

Qeyd edildiyi kimi, əhalinin I Ümumrusiya siyahıyaalınmasının materiallarına görə, 1897-ci ildə Naxçıvanda 125.712 azərbaycanlı və 55.398 nəfər erməni yaşamışdır. (66, 418-419).

1886, 1897, 1908, 1915-ci il siyahıyaalmalarının nəticələrinə görə azərbaycanlılar Naxçıvan qəzasında 1886-cı ildə 57,6 %, 1897-ci ildə 64,3 % təşkil etmiş, 1905-1907-ci il hadisələrinin təsiri altında bu rəqəm 1908-ci ildə 57,2 %-ə enmişdi. Yalnız sonrakı illərdə onların sayı bir qədər artaraq 1915-ci ildə 59 %-ə çatmışdı. Ermənilərin sayı isə 1897-ci ildə 33,2–dən 1908-ci ildə 41,9 %-ə çatmışdır. Şərur-Dərələyəz qəzasında isə azərbaycanlılar 1897-ci ildə 71,7 %, 1908-ci ildə 70,3 %, 1915-ci ildə isə cəmi 66,6 % idilərsə ermənilər müvafiq olaraq 27,6, 29,0 %, 32,3 % təşkil edirdilər (11, s.1. iş. 232,). Çar hakimiyyətinin bu rəsmi sənədləri də sübut edir ki, erməni ideoloqlarının iddialarının əksinə olaraq, Naxçıvandan ermənilərin qaçmaları və ya deportasiyası haqqında söhbət gedə bilməz. Əksinə bu bölgədən azərbaycanlıların planlı surətdə, tədricən sıxışdırılması prosesi gedirdi. Lakin çarizmin erməniləri Naxçıvana kütləvi şəkildə köçürməsinə baxmayaraq, bölgədə azərbaycanlılar ermənilərdən iki dəfə çox olmuşdur. 1897-1917-ci illər ərzində Naxçıvan əhalisinin tərkibində yeni ciddi dəyişikliklər baş vermişdi. 1917-ci il üçün azərbaycanlıların sayı cəmi 12,6 min artaraq 148 min təşkil etmiş, ermənilərin sayı isə 25 min nəfər artaraq 80 minə çatmışdı (66, 419).

1917-ci ilin Qafqaz təqviminə əsaslanan başqa sənəddə isə (11, s. 1., iş. 230, v.9 və arxası) Naxçıvan və Şərur-Dərələyəz qəzalarında birlikdə 161. 991 azərbaycanlı (62,5 %), 83,374 erməni (36,7 %) yaşayırdı. Baxmayaraq ki, azərbaycanlılarda təbii artım həmişə ermənilərdən çox olmuşdur, ermənilərin belə sürətlə artması həm onların buraya kütləvi köçürülməsi siyasətinin davam etdirilməsi, həm də bölgədə baş verən etnosiyasi hadisələrin, xüsusən 1905-1907-ci illlərdə, eləcə də I Dünya müharibəsi dövründə baş verən hadisələrin nəticəsi sayılmalıdır.

Lakin ermənilərin sayının qeyri-təbii amillər hesabına artmasına baxmayaraq, Naxçıvan bölgəsi etnik cəhətdən türk diyarı kimi qalmaqda davam edirdi.

# II FƏSİL
# 1918-1920-Cİ İLLƏR DEPORTASİYASI VƏ NAXÇIVAN

## 2.1. 1918-1920-ci illərdə azərbaycanlıların Qərbi Azərbaycan ərazisindən zorla qovulması

1918-1920-ci illər Azərbaycan xalqının tariXarici İşlər Naziriiidə ən mürəkkəb və ziddiyyətli dövrlərdən biridir. Həmin dövrdə yenicə yaranmış gənc Azərbaycan dövləti bir tərəfdən bolşeviklərin və keçmiş çar generallarının, digər tərəfdən bədnam qonşumuz Ermənistanın təcavüzkarlıq siyasətinin qarşısını almaq, öz ərazi bütövlüyünü və torpaqlarının təhlükəsizliyini qorumaq üçün gərgin mübarizə aparırdı.

Birinci dünya müharibəsinin gedişində «Daşnaksütyün» partiyası başda olmaqla erməni millətçiləri özləri üçün yaranmış əlverişli şəraitdən istifadə edərək «Böyük Ermənistan» xülyalarını reallaşdırmağa başladılar.

Ermənilər Qafqaz cəbhəsində Türkiyəyə qarşı rus ordusu ilə birlikdə vuruşur və yeni torpaqlar ələ keçirməklə öz ərazisini genişləndirməyə çalışırlar. Məhz bu məqsədlə də Rusiya imperiyasında yaşayan ermənilər rus ordusuna 250 min əsgər vermişdilər. Bütün bunlarla kifayətlənməyən erməni millətçi dairələri Türkiyədəki ermənilərə müraciət edərək Türk ordusuna qarşı vuruşmaq üçün silahlı könüllü dəstələr yaratmağa çağırdılar. İngiltərə və ABŞ ordularında da 50 mindən çox erməni vuruşurdu (79, 303).

Müttəfiq dövlətləri həm Türkiyə, həm də xaricdəki erməniləri .silahlandırıb onlara müstəqillik vəd etməklə Osmanlı dövlətini məhv etmək üçün onlardan bir vasitə kimi istifadə edirdilər. Digər tərəfdən isə «Daşnaksütyün» partiyası və onun komitələri, erməni kilsəsi «Müstəqil Ermənistan»ın yaradılması üçün ələ düşmüş bu fürsətdən istifadə etmək istəyirdilər.

Birinci dünya müharibəsinin əvvəllərində qnçakçılar tərəfindən dərc edilmiş çağrışda göstərilirdi ki, «Türkiyədə ermə-

nilərin azad olunmasını qarşısına məqsəd qoyan «Qnçak» sosial-temokratik komitəsi indiki siyasi hadisələrin təsri ilə Tavr dağlarından, Ermənistan hüdudlarından aşağı enib döyüş meydanına çıxır. Osmanlıları qanda boğmaq üçün müharibə və inqilab şeypurunu çalır... Üçlər ittifaqı (Antanta), xüsusilə də rusiyalı döyüş qardaşlarımız öz müttəfiqləri ilə fəaliyyət göstərib, bütün siyasi və inqilabi imkanlarını Ermənistanda və Kilikiyada, Qafqazda və Azərbaycanda qəti qələbəyə yönəldəcəklər...» (44,29).

Erməniləri gələcəkdə muxtariyyət vədlərilə aldadaraq Osmanlı dövlətinə saldıran dövlətlər arasında Rusiya əsas yer tuturdu. Eçmiəzdin katalikosu rus çarı II Nikolayı «ermənilərin hamısı» elan edərək «Ararat» qəzetinin 1916-cı il avqust nömrəsində «Bütün ermənilərin mal və canları ilə rus ordularına yardım etməyin vacib oluduğunu» bildirmişdi (135, 65). Rus çarı da öz növbəsində ermənilərə müraciət edərək onların «beş əsirlik istibdaddan sonra hürriyətə sahib olacaqlarını» vəd edir, bu məqsədlə «qan qardaşları» (ruslar – A.M.) ilə sıx birləşməyə çağırırdı. Rus imperatoru II Nikolay tərəfindən Türkiyə ermənilərinə verilmiş rəsmi vədi təsdiqləyən sənəddə göstərilmişdir ki, Şərqi Anadoluda Erməni dövləti yaradılacaq və İrəvan quberniyası ona birləşdiriləcək (44,27).

Çarın bu müraciətindən sonra ermənilərin bir hissəsi türklərə qarşı müharibə aparan rus ordularına qoşulmuş, bir hissəsi də mal və mülklərini sataraq yardım etmişlər. Rusiya həmçinin erməniləri silah və sursat ilə də təmin etmiş, Türkiyə daxilində qiyam qaldırmaq üçün onlara 242.900 rubl ayırmışdı (139, 66).

Rusiyada 1917-ci il oktyabr çevrilişindən sonra ölkədə yaranmış xaos və anarxiyanın nəticəsi olaraq Qafqaz cəbhəsi dağılmış və rus qoşunları bölgəni tərk etməyə başlamışdır. Rusiyada vətəndaş müharibəsi davam etdiyinə görə bolşeviklər Zaqafqaziya məsələsi ilə yaxından məşğul ola bilmirdilər.

1918-ci il yanvarın 6-da Ümumrusiya Müəssislər Məclisi Sovet hökuməti tərəfindən qovulduqdan sonra Müəssisələr Məclisinə Zaqafqaziyadan seçilmiş nümayəndələr fevralın 10-da toplaşaraq özlərinin qanunverici orqanını – Zaqafqaziya Seymini yaratdılar. Lakin Seymin bütün fəaliyyəti fraksiyaların mübarizəsi bir-birinə qarşı ərazi iddiaları şəraitində keçirdi. Xüsusən ermənilərin Azərbaycana qarşı ərazi iddiaları daha da genişlənmişdi. 1918-ci ilin mayında Zaqafqaziya Seymində fraksiyalar arasındakı ixtilaflar son həddə çatdı. Ermənilərin İrəvan quberniyasında müsəlmanlara qarşı həyata keçirdikləri soyqurum siyasəti Azərbaycan nümayəndələrinin kəskin etirazına səbəb olmuş, onlar Seymdən ermənilərin bu hərəkətərini dayandırmaq tələbi ilə çıxış etmişdilər.

1918-ci il mayın 26-da gürcülər Seymdən çıxıb Gürcüstanın müstəqilliyini elan etdilər. Həmin gün müsəlman fraksiyasının nümayəndələri Azərbaycan Milli Şurasını yaratdılar. Mayın 28-də Milli Şura İstiqlal bəyannaməsini qəbul edərək müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin yarandığını elan etdi. Cənubi Qafqazda, qədim Azərbaycan torpaqlarında öz cumhuriyyətlərini yaratmış ermənilər və onların aparıcı qüvvəsi olan «Daşnaksütyun» partiyası ilk günlərdən başlayaraq Böyük Ermənistan yaratmaq üçün Azərbaycana və Gürcüstana qarşı əsassız ərazi iddiaları irəli sürərək onlarla müharibəyə başladı.

1918-ci ilin sentyabrında ermənilər hücum edərək Gürcüstanın Borçalı mahalının Lori adlanan cənub torpaqlarını tutdu. Ermənilər həmçinin Axalkələkdəki müsəlman kəndlərinə soxularaq onların əhalisini qırmağa başladılar.

Ermənilər əhalisinin əksəriyyəti azərbaycanlı olan Azərbaycanın Göyçə mahalına, Zəngəzur, Sürməli, Naxçıvan qəzalarına qarşı da ərazi iddiaları qaldırmışdılar. Həmin dövrdə adı çəkilən ərazilərin etnik tərkibində azərbaycanlıların üstünlük təşkil etdiyini aşağıdakı cədvəldən də görmək mümkündür.

| № | | Cəmi: | Müsəlmanlar | Ermənilər |
|---|---|---|---|---|
| 1 | Göyçə | 88,718 | 66.653– 74,3% | 22.065 – 25,7% |
| 2 | Naxçıvan | 393,747 | 238.169– 60,5% | 155.578 – 39,5% |
| 3 | Sürməli | 99,056 | 66.370 – 63,6% | 32.686 – 31,2% |
| | Cəmi | 584,256 | 368.192 – 63% | 216.064 – 37% |

(102, siy. 5, iş 72, v. 122-123).

İrəvan şəhəri və İrəvan qəzasında da əhalinin böyük əksəriyyətini azərbaycanlılar təşkil edirdi. 1896-cı ildə İrəvan şəhərində 14,7 min nəfər əhalidən 7,2 min nəfəri (49%) azərbaycanlılar, 7,1 min nəfəri (48%) ermənilər. İrəvan qəzasındakı 99 min nəfər əhalidən 52,8 min nəfəri (53,5%) azərbaycanlılar, 36,4 min nəfəri (46,4%) ermənilər idi. Birinci dünya müharibəsinin gedişində bölgənin erməni və azərbaycanlı əhalisi arasındakı nisbət müəyyən qədər dəyişsə də, yenə də əhalinin əsas hissəsini azərbaycanlılar təşkil etmişdir. Belə ki, İrəvan qəzasında 74,2 min nəfər (48%), Zəngəzur qəzasında 129,5 min nəfər (53,3%), Sürməli qəzasında 41,3 min nəfər (26,6%), Yeni Bəyazid qəzasında 50,7 min nəfər (29,2%) azərbaycanlı yaşayırdı (114, 159). Hətta ermənilərin məqsədli şəkildə köçürülərək Azərbaycan ərazilərində yerləşdirilmələrinə baxmayaraq, qəzaların əksəriyyətində etnik nisbət yerli əhali olan azərbaycanlıların xeyrinə olmuşdur.

1919-cü ilin aprel ayında ingilis missiyasının rəhbəri Temperleyin Ermənistan hökümətinə 1914-cü ilə qədər Rusiya daxilindəki hansı torpaqları özlərinin «şəriksiz» hissəsi hesab etmələri haqqında suala Ermənistan hökümətinin nümayəndəsi həyasızcasına belə cavab vermişdir. «1) Bütün İrəvan quberniyası; 2) Bütün Qars vilayəti; 3)Tiflis quberniyasının Axalkələki qəzasının hər iki tərəfi, Borçalı qəzası; 4)Yelizavetpol quberniyasının bir hissəsi – buraya daxildir: Qazax qəzasının cənub hissəsi – Qulp-Uzuntala və Gilani sərhəddən cənubda qalmaqla, Cavanşir qəzasının cənub hissəsi – Tərtər Ermənistanda qalmaqla, Şuşa qəzasının qərb hissəsi – Ağdam və Qacar Ermənistanda qalmaqla, Qaryagin qəzasının bir hissəsi – qəzanın

cənub-qərb hissəsində yerləşən Kirset dağları, Şahverdilər kəndi və Ağbil stansiyası istisna olmaqla...» (102, siy. 5, iş, 33, v. 8-9).

Hər zaman olduğu kimi, 1918-ci ildə də daşnakların ərazi iddiaları Cənubi Qafqaz xalqları arasında qanlı qırğınlara, qaçqınlığa gətirib çıxardı. Ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırım 1918-ci ilin mart ayında Bakıda başlayaraq Azərbaycanın Şamaxı, Quba, Göyçay, Qarabağ, Zəngəzur, Naxçıvan, Şəki, Lənkəran, xüsusilə də, bu gün bir nəfər də olsun azərbaycanlılnın qalmadığı İrəvan quberiniyasını əhatə etmişdi.

Azərbaycanlıların Ermənistandan kütləvi sürətdə qovulması və təqiblərə məruz qalması barədə Zaqafqaziya Seyminə yüzlərlə məktub və teleqram göndərilirdi. Seymin nümayəndə heyəti fevral ayında İrəvana gedərək vəziyyətlə tanış olmuşdu. Zaqafqaziya Seyminin 7 mart 1918-ci il tarixli iclasında nümayəndə heyətinin üzvü Qeorqadze məruzə ilə çıxış edərək vəziyyət haqqında Seymə məlumat vermişdi.

Məruzədə İrəvan quberniyasında erməni nizami hissələrinin azərbaycanlı əhaliyə qarşı törətdikləri vəhşiliklər etiraf olunur, Qəmərli, Uluxanlı, Dəvəli kəndləri (ümumilikdə 21 kəndin) onlar tərəfindən dağıdılaraq məhv edilməsi, müsəlmanların öz doğma yurdlarından qovulması faktı diqqətə çatdırılırdı (102, siy. 5, iş. 68, v. 34-44).

Həmin nümayəndə heyətinin tərkibində olan İbrahimovun verdiyi məlumata görə İrəvan vilayətində 212 müsəlman kəndi yerlə-yeksan edilmiş, qaçqınların sayı yüz min nəfərə çatmışdı (118, 35).

AXC-nin təsis etdiyi Fövqəladə İstintaq Komissiyasının topladığı sənədlər ermənilərin azarbaycanlılara qarşı törətdikləri vəhşilikləri tam üzə çıxarır. Həmin sənədlərdə 1918-1920-ci illərdə AXC hakimiyyət orqanlarına İrəvan, Zəngəzur, Naxçıvan, Ordubad və başqa yerlərdən göndərilən yüzlərlə

məktub və teleqramlarda daşnak ordusunun azərbaycanlılara qarşı törətdikləri soyqırım haqqında geniş məlumatlar vardır.

1918-ci ilin mayında qədim Azərbaycan torpaqları olan İrəvan quberniyası ərazisində Ermənistan dövləti yaradılan zaman onun paytaxtının hansı şəhər olacağı məlum deyildi. Azərbaycan hökuməti milli münasibətlərə son qoyulması məqsədilə mayın 29-da İrəvan şəhərinin paytaxt elan edilməsi üçün ermənilərə güzəştə getdiyini bəyan etdi.

İrəvan şəhəri müsəlmanlarının Milli Şurasının üzvləri Mir Hidayət Seyidov, Bağır Rzayev, Nəriman bəy Nərimanbəyov bu qərara etiraz etsələr də Erməni Milli Şurasının arzusuna əməl olundu (79, 57).

Ən maraqlı cəhət odur ki, gürcülərin və azərbaycanlıların öz müsətqil dövlətlərini qurmaq üçün əraziləri olduğu halda, ermənilərin belə bir imkanı yox idi. Çünki, Ermənstan Respublikasının əhatə edəcəyi ərazilər dəqiq müəyyənləşdirilməmişdi.

Azərbaycan Cümhuriyyətinin baş naziri F.X.Xoyski mayın 29-da Xarici İşlər Naziri Məmmədhəsən Hacınskiyə yazdığı məktubda İrəvanın ermənilərə güzəştə getməklə ümid edirdi ki, ermənilərlə bütün mübahisəli məsələlr həll ediləcək və ermənilər müharibəni qurtaracaqlar.

Lakin hadisələrin sonrakı gedişi göstərdi ki, İrəvan quberniyasının ermənilərə güzəşt edilməsi nəinki milli münaqişələrə son qoydu, əksinə, ermənilərin iştahını daha da artırdı. İrəvan quberniyasını ələ keçirdikdən sonra ermənilər burada yaşayan azərbaycanlıları sıxışdırmağa, yurd-yuvalarından qovmağa başladılar.

Qeyd etdiyimiz kimi, birinci dünya müharibəsinin gedişində Antanta dövlətlərinin əlaltısına çevrilən Ermənistan öz planlarını həyata keçirmək üçün Türkiyəyə qarşı müharibədə iştirak edirdi. Gürcüstandan və Azərbaycandan fərqli olaraq Ermənistan Respublikasının hökuməti Denikin ordusu ilə də sıx əlaqə saxlayırdı. İrəvanın siyasi xadimlərindən birinin dediyi

kimi, «Ermənistan Respublikası öz qüvvələri ilə birlikdə Denikinin ordusunun 7-ci korpusu»nu təşkil edirdi (75, 14).

Cənubi Rusiyanın Silahlı Qüvvələrinin baş komandanı kimi general Denikinin 1919-cu il noyabrın 9-da verdiyi əmrdə Ermənistanla sıx əlaqəsinin olduğu bir daha sübut edilir. Əmrdə göstərilirdi, «Azərbaycan hökümətinin rus ordusuna qarşı düşmənçilik münasibətini və Azərbaycan ordusunun Ermənistan ərazisinə xaincəsinə qəsdini nəzərə alaraq Azərbaycan ordusunda olan bütün rus zabitlərinə əmr edirəm ki, onun sıralarını tərk etsinlər» (6, siy. 9, iş 601, v. 347).

1918-ci ilin yanvar ayından türk qoşunlarının İrəvan quberniyasına daxil olmalarına qədərki olan dövrdə ermənilər burada 300-dən çox kəndi dağıtmış, əhalisini qovmuşlar. Türk ordusu İrəvan quberniyasını tutduqdan sonra digər qəzalardan qovulmuş azərbaycanlılar türklərin nəzarəti altında olan əraziyə toplaşmışdır. Beləliklə, burada 500.000 nəfər müsəlmanlardan ibarət olan geniş bir ərazi əmələ gəlmişdi (11, siy. 1, iş 15, v. 9).

Erməni millətçiləri türklərin irəliləməsindən və erməni vəhşiliklərinin intiqamını alacaqlarından qorxuya düşmüşdülər. Ona görə də fəal qnçakçılardan biri olan, sonralar Sovet Xarici İşlər Komissarının müavini vəzifəsində işləmiş L.Karaxanyan G.Çiçerinin qılığına girərək türklərin hücumlarının qarşısının alınması üçün onun Tiflisdəki alman konsuluna müraciət etməsinə nail olmuşdu.

Türk qoşunlarının komandanı Xəlil paşa 1918-ci il mayın 27-də Kaçaznuni və Xatisovla görüşündə türklərin Qafqazda Ermənistan dövlətinin yaradılmasının əleyhinə olmadığını, dinc əhalinin kütləvi qətliamı dayandırılması şərti ilə ermənilərlə sülh müqaviləsinin bağlanmasına razı olduqlarını Ermənistan Milli Şurasına çatdırmağı xahiş etdi.

1918-ci ilin qanlı yaz hadisələrindən sonra doğma yurdlarını tərk etmək məcburiyyətində qalan və sonralar geri qayıdan azərbaycanlılar daha acınacaqlı vəziyyət ilə qarşılaşmış-

dılar. Onlar bütün var-dövlətini itirmiş, torpaqlarının bir hissəsi Türkiyə ermənilәri tərəfindən tutulmuş, digər hissəsi isə Ermənistan hökümәti tərəfindən icarəyə verilmişdir. Geri qayıdan müsəlmanlar yenidən qarət edilirdilər. 1918-ci il iyunun 4-də Türkiyə ilə Ermənistan arasında Batumda sülh müqaviləsi imzalandı. R.Kaçaznuni, A.Xatisov və M.Papacanovun imzaladıqları müqavilədə Ermənistan hökümti Azərbaycana qarşı ərazi iddiasında olmadığını bildirmişdi (58, 92; 38, 24).

Lakin I dünya müharibəsində Türkiyənin məğlubiyyəti ilə daşnaklar Qars vilayətinin, İrəvan quberniyasının bir hissəsini ələ keçirərək Ermənistanın ərazisini 17.500 ingilis kv. milinə, əhalisini 1 mln. 510 min nəfərə çatdırdılar (795.000 erməni, 575.000 müsəlmanlar, 140.000 başqa millətlər). Onlar bununla kifayətlənməyib heç bir əsas olmadan Gürcüstanın Axalkalək və Borçalı, Azərbayanın Qarabağ və Naxçıvan diyarını, Yelizavetpol quberniyasının cənub htssəsini tələb etməyə başladılar (75, 14).

Hələ 1918-ci il mart ayına qədər İrəvan qəzasında 199 kənd dağıdılmışdı. Belə ki, İrəvan qəzasının 1-ci milis sahəsində 10, 2-ci milis sahəsində 8, 3-cü milis sahəsində 13 kənd; Sürməli qəzasının 1-ci milis sahəsində 36, 2-ci milis sahəsində 12, 3-cü milis sahəsində 19, 4-cü milis sahəsində 30 kənd; Yeni Bəyazid qəzasının 1-ci milis sahəsində 1, 2-ci milis sahəsində 6 kənd dağıdılmışdır. Bu kəndlər üzrə 53581 kişi, 47045 qadın – cəmi 100626 nəfəri təmsil edən 15.155 təsərrüfat dağıdılmışdı (10, siy. 1, iş. 78, v. 44047). 1919-cu ilin son iki ayı ərzində isə Eçmiədzin qəzasında 62, Sürməli qəzasında 34 azərbaycanlılar yaşayan kənd ermənilər tərəfindən darmadağın edilərək əhalisi didərgin salındı (11, siy. 1, iş. 240, v. 6).

1918-ci il avqustun 12-də Andranikin və «Yapon»un başçılığı altında erməni dəstələri Dərələyəz mahalının Cul, Martiruk, Genişkənd və Hakaza kəndlərinə hücum etdilər (47, 77). Andranikin və onun terrorçu dəstəsinin törətdikləri qırğınlar nəticəsində azərbaycanlılar öz yurd-yuvalarını tərk edirdilər.

Andranik Zəngəzur qəzasının bir hissəsini işğal edərək Azərbaycan sərhədlərinin içərilərinə doğru irəlilədi və Şuşa yolunu tutdu. 1918-ci il avqustun 15-də Nazirlər Kabinetinin sədri F.X.Xoyski Azərbaycan Respublikasının Tiflisdəki diplomatik nümayəndəsi Cəfərova teleqram göndərərək ondan Ermənistan hökümətinə ən kəskin etiraz bildirməyi və «iki qonşu respublika arasında dostluq münasibətlərinin qorunub saxlanması naminə bu hərbi hissələrin Azərbaycan sərhədlərindən geri çəkilmələri üçün təcili tədbirlər görmələri tələbini irəli sürdü (10, siy. 1, iş 12, v. 192). Lakin Ermənistan hököməti məsuliyyətdən yaxa qurtarmaq üçün Andranikin dəstəsinin Ermənistan ordusuna aidiyyatı olmadığı haqqında əsassız bəyanət verdi.

Bəzi erməni tarixçiləri erməni terrorçu təşkilatı olan «Daşnaksütyün» partiyasının faşist xarakterini etiraf etməyə məcbur olublar. Belə ki, tədqiqatçı A.Lalayan Andranikin həqiqi simasını göstərərək yazırdı: «Daşnak hərbi hissələri, başda qana susayan xmbapetlər (Andranik, Amazasp və b.) türk qadın və uşaqlarının, qoca və xəstələrinin qırılmasında, məhv edilməsində maksimum «fədakarlıq» göstərmişlər. Daşnak hərbi hissələri tərəfindən tutulan müsəlman kəndləri canlı insanlardan təmizlənir, xarabalığa çevrilir, eybəcər hala salınmış meyidlərlə doldurulur» (199, s. 95).

1918-ci ilin payızında beynəlxalq vəziyyət Antantanın, o cümlədən onun quyruğunda gedən Ermənistanın xeyrinə dəyişdikdən sonra onun Azərbaycanın bir sıra ərazilərinə, o cümlədən Zəngəzur qəzasına qarşı iddiaları daha kəskin xarakter aldı. Ə.M.Topçubaşov Azərbaycanın mövqeyini bildirərək qeyd edirdi ki, «Ermənilərin ortaya atdıqları Qarabağ məsələsi beş və ya on kənd məsələsi deyil, mübahisə bütöv 4 sancaq – Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur üstündədir. Bu elə bir xanlığın ərazisidir ki, ... burada ermənilərin mütləq çoxluğu barədə danışmağa əsas yoxdur. Özü də onlar buranın yerli əhalisi deyildilər. Rusiya ilə müharibədən sonra Türkiyədən buraya köçənlərdir. Nəzərə almaq lazımdır ki, erməni respublikasına

daxil olan İrəvan vilayətinin sancaqlarında 100 mindən çox musəlman əhalisinin qalmasına baxmayaraq, onların məskunlaşdıqları torpaqlara biz göz dikməmişik...» (50, 190).

Alman-türk blokunun məğlubiyyəti ilə əlaqədar türk ordusu Mudros sülhünün şərtlərinə əsasən Qafqazdan, o cümlədən Azərbaycandan çıxmağa məcbur oldu. 1918-ci il noyabrın 3-də Ə.M.Topçubaşov Azərbaycan hökuməti adından Mudros barışığının Azərbaycana aid maddələrinə etiraz etdi. Türklərin çıxdıqları əraziləri erməni ordusu işğal etməyə başladı. İlk növbədə Gərnibasar rayonu işğal edildi. Türklərin bu əraziləri tutduqları vaxt evlərini tərk edən ermənilər geri qayıtdıqca yerli müsəlman əhaliyə divan tutmağa başladılar. Müsəlmanların şikayətlərinə yerli hakimiyyət belə cavağ verirdi: «Siz türkləri buraya çağırdınız, ona görə də sizi doğramaq lazımdır». Məcburiyyət qarşısında qalan müsəlmanlar tədricən Vedibasar və Aralığa köçməyə başladılar.

İrəvan quberniyasının müsəlman əhalisi ermənilərin yenidən qırğınlar törədəcəklərini bildiklərindən bunun qarşısını almaq üçün general Tomsona 1918-ci il noyabrın 19-da memorandum göndərərək erməni hökümətinin türk ordusunun boşaltdığı əraziləri tutmaq və bu ərazilərə Türkiyədən gələn qaçqınları yerləşdirmək planlarını ona çatdırmış, müsəlman əhalisinin ermənilərin yeni zorakılıqlarından canlarını qurtarmaq üçün öz doğma kəndlərini tərk etməyə məcbur olduqlarını və müxtəlif yerlərə dağıldıqlarını qeyd edərək, «əgər əhalinin mal və can təhlükəsizliyi qorunmazsa, 450 mindən çox əhalinin öz doğma yurdlarını ataraq açlıqdan və soyuqdan məhv olacaqlarını» göstərmişlər (265, siy. 5, iş 33, v. 17-18).

İrəvanda azərbaycanlıların vəziyyəti daha faciəfi şəkil almışdı. Ermənilər azərbaycanlılara qarşı təcavüzkar hərəkətlər edir, etiraz edənləri yerindəcə güllələyirdilər. Ermənistan hökuməti bütün bunlara göz yumur, minlərlə ac, xəstə müsəlmanın açıq səma altında yaşamasına etinasız yanaşırdı.

Ermənilərin təcavüzkarlığı ilə əlaqədar həmin yerlərdən Azərbaycan hökümətinə çoxlu müraciətlər və teleqramlar daxil olurdu. Bu müraciətlərdə ermənilərin soyqırım siyasəti konkret faktlarla əsaslandırılır, bu siyasətin qarşısının alınması üçün Azərbaycan hökümətindən əməli tədbirlər görülməsi tələb edilirdi. Ordubad Milli Komitəsinin sədri Mirhidayət Seyidzadə 22 dekabr 1918-ci il tarixli teleqramında türk qoşunlarının bölgəni tərk etməsindən sonra Naxçıvan, Zəngəzur, İrəvan qəzalarında ermənilərin müsəlman əhalisinə qarşı azğınlıqlarından bəhs etmiş, Zəngəzurun 20-yə yaxın müsəlman kəndinin əhalisinin öz yurdlarını tərk edərək İrana, Qarabağa, Ordubada qaçdıqları göstərilirdi. Ermənilərin əsas məqsədlərinin göstərilən qəzaları müsəlmanlardan təmizləməklə, gələcək sülh konfransında bu yerlərə olan hüquqlarını sübut etmək olduğunu göstərən müəllif Azərbaycan hökumətini, eləcə də dünya xalqlarını bu torpaqlarda yaşayan müsəlmanların taleyinə biganə qalmamağa, erməni vəhşiliklərinin qarşısını almağa çağırırdı (30, 73).

1919-cu ilin yanvarında erəmənilər Vedibasar mahalına hücum edərək Kərkab, Ataşbəyli, Keşişdağ, Dəgənzə, Qaraarxaç, Qədili, Şahablı və Çəmənkənd kəndlərinin 20 mindən artıq müsəlman əhalisini doğradılar (47, 105-106).

1919-cü il yanvarın 23-də Ermənistanın daşnak hökümətinin qoşunları Göyçə mahalının 22 kəndini darmadağın etdi. Alçalı, Çamurlu, Yarpızlı, Qanlı, Kərkibaş, Çaxırlı və Böyük Məzrə kəndlərini yandırdılar. Bu kəndlərin əhalisinin bir hissəsi qırılmış, bir hissəsi isə, qaçmaqla canlarını qurtarmışdı. Ermənilərin bu vəhşi hərəkətlərinə etiraz olaraq Ermənistan hökümətinə və Müttəfiqlərin Ali Komandanlığına Azərbaycan höküməti adından nota göndərilsə də, onun heç bir əhəmiyyəti olmadı (11, siy. 1, iş. 41, v. 60). Əksinə, 1919-cü il aprelin 12-13-də Göyçənin dinc əhalisi üzərinə hücuma keçən ermənilər 60 min nəfərdən artıq əhalisi olan 21 kəndi dağıtdılar (11, siy. 7, iş. 5, v. 16). Ararat Respublikası qarşısına qoyduğu məqsədə

nail olmuş, Göyçə mahalında artıq müsəlman qalmamışdı. Yeni Bəyaziddə 84 müsəlman kəndi dağıdılmışdı ki, bunların da 22-si aprelin 13-20-də dağıdılmışdı (11, siy.7, iş 41, v.18-19). Erməni əsgərləri arasında amerikalı və ingilis əsgərləri də döyüşürdülər.

Ermənilər Yeni Bəyazid qəzasının Paşakənd kəndinə hücum edərək 300 nəfəri yaralamış, 17 nəfəri əsir alaraq Yelenovka kəndinə aparmışdılar. Əsir alınanlardan 2 nəfər qaçmaqla canlarını qurtarmış, qalanlarını isə doğramışdılar. Həmin gün Eçmiədzin qəzasının 600 nəfərdən ibarət olan Taxt kəndinin əhalisini tamamilə qırdılar (19, s. 12, iş 58, v. 25).

Ermənilərin bu vəhşi hərəkətləri barədə Azərbaycanın Xarici İşlər Naziri Cəfərov bütün dünyaya məlumat yaydı və o Haskelə təcili tədbir görməsi barədə müraciət etsə də, nəticəsiz qaldı.

Daşnak dəstələri tutduqları türk kəndlərindən azərbaycanlıları tamamilə təmizləmək üçün xüsusi «qəhrəmanlıqlar» göstərirdilər. Yeni Bəyaziddən olan bir erməni öz «qoçaqlığını» belə təsvir edirdi: «Mən Basarkeçərdə heç nəyi nəzərə almadan türk əhalisini qırdım. Lakin bəzən gülləyə hayıfım gəlirdi. Bu itlərə qarşı ən yaxşı üsul odur ki, döyüşdən sonra salamat qalanların hamısını su quyusuna doldurub, üstündən ağır daşları tökəsən ki, onlardan əsər-əlamət qalmasın. Mən elə də etdim: bütün kişiləri, qadınları, uşaqları öldurub doldurdum quyuya və üstünü də daşla doldurdum» (39, 273-274).

1919-cu il fevralın 28-də daşnak ordusunun polkovniki Sulikovun başçılığı altında ermənilər Basarkeçər rayonunun Zod kəndinə soxularaq əhalidən 750 pud taxıl və 100 sentner ot tələb etdi. Tələb olunanları vermək iqtidarında olmayan əhali rədd cavabı verdikdən sonra polkovnik Sulikovun dəstəsi əhalinin xeyli hissəsini qılıncdan keçirdi. Qəzəblənən əhali başda polkovnik Sulikov olmaqla 44 nəfər zabiti və 15 nəfər erməni əsgərini öldürdülər. Bu hadisədən sonra ermənilərin əhaliyə qarşı qəddarlığı daha da artdı. Basarkeçər rayonunda 6

erməni kəndi istisna olmaqla qalan 31 azərbaycanlı kəndlərinin hamısı erməni ordusu tərəfindən darmadağın edildi. Novruz bayramı ərəfəsində ermənilər Şişqaya kəndinin əhalisinə olmazın divan tutdular, 640 nəfəri bir evə toplayaraq od vurub yandırdılar (19, s.12,iş 58,v.28-29). Həmin günlər Kiçik Məzrə, Daşkənd və Hüsyenquluağalı kəndlərində xeyli dinc azərbaycanlı əhali erməni vəhşiliyinin qurbanı oldu.

Daşnakların Vediyə silahlı basqınları ara vermirdi. Ermənilər A.Şadlinskini və Cüvə kəndinin müdafiəsinə başçılıq edən Balobəy Vəkilovun başına küllü miqdarda pul qoymuşdular. 1919-cu ilin yayından Vedibasar azərbaycanlılarının vəziyyəti olduqca ağırlaşdı. Burada yaşayan azərbaycanlıların əksəriyyəti qırıldı, sağ qalanlar qaçqınlara çevrildilər.

Vedibasarın Qədili, Qaraarxaç, Dəhnəz, Ağasıbəyli, Şahablı kəndlərinin müsəlman əhalisindən ibarət xalq döyüşçü dəstələri təşkil edilir və bu dəstələr ermənilərə qarşı mərdliklə vuruşurdular. Qərargah Böyük Vedi kəndinin Şadlı küçəsində yerləşirdi (30, 259). Lakin xarici dövlətlərdən müasir hərbi texnika və maliyyə yardımı alan nizami erməni ordusunun qarşısında yalnız ov tüfəngləri ilə silahlanan yerli müsəlman əhali lazımi müqavimət göstərə bilmirdi.

Polkovnik Doluxanovun komandanlığı altında erməni qoşunları Dəvəli, Seyid-Kətanlı, Xaraba-Kətanlı və Şahablı kəndlərinə od vurub yandırmış, əhalisinin bir hissəsini rəhm etmədən qılıncdan keçirmiş, əhalinin bir hissəsini isə xüsusilə də qadınları əsir aparmışdılar.

İrəvan quberniyasının Vedibasar və Milistan rayonları üzrə səlahiyyətli nümayəndəsi Məhərrəm Əliyevin 1919-cu il martın 10-da Azərbaycan Respublikası Nazirlər Kabinetinin sədrinə göndərdiyi məlumatdan bəlli olur ki, əsir alınmış qadınları xilas etmək məqsədilə İrəvana nümayəndə heyəti göndərilmiş, Ermənistan parlamenti qarşısında onların azad edilməsi məsələsi qoyulmuşdu. Parlament əsir qadınları azad etməyə söz versə də, buna əməl etmədi… İngilis missiyasından əsir qadın-

ların azad edilməsinə kömək etmələri üçün müraciətlər olsa da, onlar buna nail ola bilmədilər... (130«a», s. 370-371).

1919-cu il martın 21-də Xarici İşlər Naziri əvəzi Ziyadxanov Azərbaycanın Tiflisdəki diplomatik nümayəndəsi Cəfərov və Ermənistandakı diplomatik nümayəndəsi Təkinski vasitəsi ilə müttəfiqlərin Tiflisdəki Ali Komandanlığından və Ermənistan hökümətindən erməni hərbi hissələri tərəfindən İrəvan qəzasının Qaraarxaç, Qədili, Qarabağlar, Ağasıbəyli, Dəhnəz, Şahablı kəndlərinin bir neçə yüz müsəlman qadın və qızlarının azad edilməsi üçün mühüm addımlar atmalarını tələb etmişdi. (11, siy. 1, iş 41, v. 18). Martın 28-də Cəfərovun general Biçeraxov ilə görüşündə də ondan bu məsələnin həlli üçün təcili tədbir görülməsi xahiş edilmişdi (11, siy. 1, iş. 41, v.27).

Ermənilərin hücumlarının mütəmadi davam etməsi ilə vəziyyətin daha təhlükəli olduğunu hiss edən soyulmuş, talan edilmiş Gərnibasar azərbaycanlıları Vedibasara axışırdılar. Bu qaçqınların ilk dəstəsini qəbul edən vedililər əhalinin qırılmasını və qadınlara təcavüz edilməsini eşitdikdən sonra ermənilərə tabe olmamaq qərarını verdilər. Ermənistan höküməti bu haqda xəbər tutduqdan sonra həmin əraziləri silah gücünə tabe etmək üçün xüsusi sərəncam verdi.

Polkovnik Doluxanov Böyük Vediyə hücumu müvəqqəti olaraq dayandırdı və Şərur-Dərələyəz, Naxçıvan istiqamətində hücuma keçdi. Lakin bu istiqamətdə məğlubiyyətə uğrayan Doluxanov Dəvəliyə geriyə çəkildi. 1919-cu ilin noyabrında Dərələyəz erməni hərbi hissələri tərəfindən dağıdıldı (8, s.2, iş 58, v.136).

. 1919-cu ilin yanvar ayında ingilis generalı Gibbon Vedibasara gələrək burada neytral zona müəyyən etmiş, ermənilərə və müsəlmanlara bildirmişqdi ki, yenidən düşmənçilik hərəkətlərinin başlanması müttəfiq dövlətlərə qarşı düşmənçilik aktı kimi qiymətləndiriləcək. Lakin Gibbonun verdiyi xəbərdarlıqdan 8-10 gün keçməmiş ermənilər Dəvəlidən bir qədər aralıda yerləşən Avşar kəndinə hücum etmiş, bütün əhalini evlərə dol-

duraraq yandırmışdılar. Sonra ermənilər Xalisa, Cadqıran, Şirazlı, Qaralar kəndlərinə hücuma keçmişdidər.

Daşnaklar hakimiyyəti əldə saxlamaq üçün ingilislərin hərbi qüvvələrinə bel bağlayır, onlardan hərtərəfli hərbi yardım alırdı. İngilislər isə müsəlumanları dilə tutub ermənilərə tabe olmağa çağırırdılar. Onlar daşnakların Vedibasara qanlı divan tutmaq üçün plan hazırladıqlarından xəbərdar olsalar da, bunun qarşısını almaq üçün heç bir tədbir görmürdülər.

Daşnakların hərbi qüvvələri Qəmərlidə mərkəzləşmişdi. Burada 1200 piyada əsgər, bir süvari alayı, 2 pulemyot dəstəsi, 2 top vzvodu, 1 zirehli qatar vardı.

1919-cu ilin iyulun əvvəllərində polkovnik Aprasimovun komandanlığı altında erməni qüvvələri Böyük Vedini ələ keçirmək üçün yenidən hücuma keçdilər. İki istiqamətdən başlanan ilk hücumun qarşısını alan vedililər erməniləri böyük itkilərə məruz qoydular. İkinci dəfə hücuma keçən ermənilərin qarşısını A.Şadlinskinin rəhbərliyi altında öüzünümüdafiə dəstələri uğurla almış, ermənilər 8 zabit və 400 əsgər itirmişdilər. Ermənilər bu məğlubiyyətin əvəzini Şidli, Xalisa, Avşar, Cadqıran, Kisik Vedi, Şıxlar, Alməmməd kəndlərini yandırmaqla çıxdılar. İyulun 5-də daha böyük qüvvə ilə hücuma keçən ermənilər yenə də uğur qazana bilməmiş, 1000 nəfərdən çox canlı qüvvə, xeyli silah-sursat itimişdilər (47, 127-148). Ertəsi gün Dronun başçılığı ilə erməni nizami qoşunları və mauzeristlər dəstəsi Böyük Vediyə növbəti hücum təşkil etdilər. Düşmənlə bu dəfə kəndin özündə döyüşə girən A.Şadlinskinin dəstəsi böyük qəhrəmanlıq göstərərək onu geri çəkilməyə məcbur etdi. Ermənilər bu dəfə döyüş meydanında 1500 meyid qoydular. Yalnız ingilislərin qarışmasından sonra tərəflər arasında döyüşlər müvəqqəti dayandırıldı (10, siy. 1, iş. 78, v. 39).

Sülh danışıqları aparmaq üçün Dro ilə Azərbaycanın İrəvandakı diplomatik nümayəndəsi Təkinski arasında Vedibasarda görüş keçirilsə də heç bir nəticə əldə olunmadı (47, 148).

Vedibasar hadisələrindən sonra Dro Eçmiədzin və Sürməli qəzalarının rəisi təyin olundu. Xüsusi qəddarlığı, qaniçənliyi ilə seçilən Dronun rəhbərliyi ilə bu qəzalarda 60-dan çox müsəlman kəndi talan edilmiş və yandırılmış, əhalisinin böyük hissəsi qırılmış, qalanı isə yurd-yuvalarından qovulmuşdu. Zəngəzurdakı bütün erməni qüvvələrinin rəhbəri də Dro idi. Onun köməkçisi əvvəlcə Bakı hadisələrinin «qəhrəmanı» general Kazarov, sonra isə polkovnik Samoylenko təyin edilmişdi (10, siy. 1, iş 78, v. 22). Bunlardan başqa xumbapetlərdən (başkəsənlərdən) Artaş, Yapon və Dəli Qazar «fərqlənirdilər».

1919-cu il iyulun 10-da ermənilərin artilleriya qoşunları Böyük Vedi, Çaykənd, Qaşlı, Giləvan və digər kəndləri mühasirəyə alaraq toplardan atəşə tutdular. Lakin ətraf kəndlərin əhalisinin köməkliyi sayəsində ermənilər geri oturduldular. Ermənilər döyüş meydanında 10 nəfər meyid, 2 top və 8 pulemyot qoyaraq geri çəkildilər (102, siy. 5, iş. 74, v. 190-191).

Ermənilər ingilis missiyasına məlumatlar göndərərək onu aldadırdılar ki, guya Sasun polku vedililərin razılığı ilə kəndə daxil olmuş və atəşlə qarşılaşmışdılar. Vedililərə isə türk əsgərləri kömək edirlər. Bununla əlaqədar olaraq Britaniya hərbi nümayəndəsi iyulun 12-də Azərbaycanın diplomatik nümayəndəsi Təkinsikiyə nota verdi (102, s. 5, iş. 74, v. 192). Bu notadan açıq-aydın görünürdü ki, erməniləri müdafiə edən ingilis missiyası hər vəchlə Böyük Vedinin Ermənistana tabe olmasına çalışır.

1919-cu il iyulun 12-də Azərbaycanın Gürcüstan Respublikasındakı diplomatik nümayəndəsinin müavini F.Vəkilov general Koriyə göndərdiyi etiraz notasında Azərbaycan hökümətinin İrəvan quberniyasında yaşayan müsəlmanlara qarşı Ermənistan höküməti tərəfindən təqiblərin artması, müsəlman kəndlərinə göndərilən nizami erməni qoşunlarının qadınlara, uşaqlara rəhm etmədən bütün əhalini qırması və evlərindən qovması, yüzlərlə qaçqının Gürcüstan ərazsindən keçərək Azə-

baycana pənah aparması haqqında xəbərlərdən narahatçılığını bildirmişdi (136, s. 552-553).

1919-cu il iyulun 18-də Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəsi Bekzadyanın Azərbaycan Respublikasının XARİCİ İŞLƏR NAZİRİİİ-nə göndərdiyi məktubdan göründüyü kimi Ermənistan hökuməti Böyük Vedidə törədilmiş cinayətləri öz üzərindən atmaq üçün onların hamısının naməlum qüvvələrin əməli olduğunu iddia etmişdi (102, siy. 5, iş 74, v. 200-203)..

Erməni hökümətinin müsəlmanlara qarşı təcavüzkar hərəktləri İrəvandakı ingilis nümayəndəliyi tərəfindən nəinki dəstəklənir, hətta Azərbaycanın Ermənistandakı nümayəndəsi M.X.Təkişinskinin bu hərəkətləri dayandırmaq üçün etdiyi çoxsaylı müraciətlərini ingilislər etirazla qarşılayaraq bunu Azərbaycanın Ermənistanın daxili işlərinə qarışması kimi qiymətləndirirdi. (11, s. 1, iş 54, v.12; 95, f. 314, s. 5, iş 74, v. 208). Ermənilər ingilislərin bu mövqeyindən istifadə edərək öz azğınlıqlarının coğrafiyasını daha da genişləndirərək, İrəvanda, Zəngibasarda, Gərnibasarda, Vedibasarda yaşayan müsəlmanlara qarşı təqibləri gücləndirirdidər.

Ermənistan hökuməti ingilis polkovniki Plautonun və Amerika missiyasının onları müdafiə etmələrindən istfadə edərək ümumi səfərbərlik keçirmişdi (102, s. 5, iş 74, v. 209).

İrəvan quberniyasının bütün qəzalarında müsəlmanlara qarşı soyqırımı tətbiq edildiyi halda, Ermənistan Respublikasının Xarici İşlər Naziri Tiqranyan hələ 1919-cu ilin fevral ayının 2-də Parisdəki erməni nümayəndəliyinə teleqram göndərək, guya Cənubi Qafqaz müsəlmanları tərəfindən erməni xalqını təhlükə gözlədiyini bildirmiş, erməni nümayəndəsi isə öz növbəsində Tiqranyanın teleqramı əsasında memoranudm hazırlamış və bu memorandum fransız curnalı «De-deba»-da nəşr olunmuşdu (19, siy. 2, iş 31, v. 4-5).

Təxribat məqsədi daşıyan bu memorandumla bağlı Parisdəki Azərbaycan nümayəndəliyi xüsusi bəyanatla çıxış

etmiş, eyni zamanda Azərbaycan Xarici İşlər Naziriii Ermənistan hökümətinə etiraz notası göndərmişdi.

Azərbaycan hököməti Ermənistanda müsəlmanlara qarşı yönəldilmiş vəhşiliklər haqqında məlumatları dünya birliyinə çatdırmaq üçün müttəfiq dövlətlərin, Azərbaycan və Ermənistanın nümayəndələrindən ibarət komissiyanın yaradılmasını təklif edirdi. (102, siy. 5, iş. 74, v. 215-220). Bu barədə Azərbaycan hökümətinin 1919-cu ilin iyun ayında keçirilən iclasında Nazirlər Şurasının sədri N.Yusifbəyli Xarici İşlər Nazirliyinə xüsusi göstəriş vermişdi. 1919-cu ilin sentyabr ayında Azərbaycan Respublikası Xarici İşlər Naziri tərəfinən Təkinskiyə göndərilən məktubda ondan xarici dövlətlərin nümayəndələrinə göndərmək üçün İrəvan quberniyasında və Qars vilayətində müsəlmanlara dəymiş zərəri, o cümlədən zərərçəkənin adı, familiyası və atasının adını, öldürülmüş, yaralanmış, əsir alınmış kişi və qadınların adlı siyahısını, dağıdılmış və yandırılmış kəndlərin, bağların, aparılmış heyvanların və s siyahısının hesablamaq üçün statistik məlumat toplamağı xahiş olunurdu (11, siy. 1, iş 15, v. 16).

M.X.Təkinskinin yardımı ilə İrəvan Müsəlman Milli Şurası təcili olaraq İrəvan quberniyasında yaşayan azərbaycanlıların dözülməz vəziyyəti haqqında məlumat hazırlayıb Azərbaycan Xarici İşlər Nazirliyinə göndərdi. Xarici İşlər Nazirliyi isə həmin məlumatı Versalda olan Azərbaycan nümayəndələyi vasitəsi ilə Avropa və Amerika dövlətlərinin Parisdəki nümayəndələrinə çatdırmışdı. Göstərilən məlumatda mübahisəli əraziləri nəzərə almadan Ermənistan əhalisinin yarısını təşkil edən müsəlmanların ən elementar insani hüquqlarının olmaması, erməni silahlı quldur dəstələri tərəfindən müsəlamanlara qarşı yeridilən təcavüzkarlıq hərəkətindən bəhs edilir və təəssüf hissi ilə qeyd edilirdi ki, Avropa və Amerikanın mövcud olmayan erməni soyqırımı haqqında məlumatı olsa da, İrəvan quberiniyasında müsəlmanların başına gətirilən müsibətlərdən, yüzlərlə müsəlman kəndinin dağılması, 150 mindən çox qaç-

qının Azərbaycana qovulmasından xəbəri yoxdur. Ermənilər tərəfindən boşaldılmış müsəlman kəndlərinin siyahısı əlavə edilmiş məlumatın sonunda deyilirdi: «Əgər vəziyyət belə davam etsə, Ermənistanda yaşayan müsəlmanların məhvə məhküm olması gün kimi aydındır. Ona görə Ermənistanda yaşayan bütün müsəlmanlar həqiqət, ədalət və insaniyyət naminə Sizə, böyük dövlətlərə müraciət edib Ermənistanda yaşayan müsəlmanların vəziyyətini nəzərə almağı, onların hüquqlarının müdafiəsinə qalxmağı və onlara yardım əli uzatmağı xahiş edir» (58, 234).

İngilis missiyası erməni-müsəlman münaqişəsinin qarşısını almaq üçün bir sıra təkliflər: hər iki tərəfin ordusunun əvvəlki mövqelərinə çəkilməsi; İrəvan-Culfa dəmiryolunun təcili açılması və hər iki tərəfin dəmiryolunun öz ərazilərindən keçən hissəsində təhlükəsizliyi təmin etməsi; bir tərəfdən digər tərəfə gediş-gəlişin sərbəst olması, hər iki tərəf arasında ticarətin sərbəst olması; teleqraf xətlərinin bərpa edilməsi; Arazdəyən-Culfa dəmiryolunun istismarının müvəqqəti olaraq İngiltərə hökümətinə keçməsi və s. irəli sürsələr də (18, siy. 9, iş 13, v. 7-8) ermənilər bunlarla razılaşmayaraq əraziləri işğal etmək üçün qırğınları davam etdirdilər. Artıq 1919-cü ilin son iki ayı ərzində Eçmiədzin qəzasında 62, Sürməli qəzasında 39 kənd, İrəvan qəzasında isə Zəngibasardan başqa bütün müsəlman kəndləri darmadağın edilmişdi (10, siy. 1, iş 78, v. 43). Vedi rayonunun ərazisində olan 87 azərbaycanlı kəndinin əhalisinin bir hissəsi qırılmış, salamat qalanları İrana, Türkiyəyə və Azərbaycana qaçmışdılar. Bu cür dağıdılmış, viran qoyulmuş kəndlərdən təkcə Yeni Bəyazid, Eçmiədzin və İrəvan qəzalarından 150 mindən artıq azərbaycanlı yurd-yuvalarından didərgin salınmış və onların evləri Türkiyədən gələn ermənilər tərəfindən zəbt edilmişdi.

Eçmiədzin qəzası xüsusilə ağır zərər çəkmiş, burada bir kənd belə salamat qalmamışdı. Sürməli qəzasında isə ermənilər cəmi 3 kəndə – Dizə, Cənnətabad və Kərimbəyli kəndlərinə

toxunmamışdılar (10, siy. 1, iş 78, v. 27). Bütün bu talanlarda erməni ordusu yerli erməni əhalisi ilə birlikdə fəaliyyət göstərirdi.

1919-cu ilin payızında Eçmiədzin, Sürməli, Yeni Bəyazid qəzalarında azərbaycanlıların vəziyyəti daha da ağırlaşdı. Dekabr ayında Sasun polku bu əraziyə hücum edərək əhalidən Ermənistan hökümətinə tabe olmalarını, əllərində olan silahları təhvil verməlerini tələb etdi. Ermənilərin silahları təhvil verəcəkləri təqdirdə həyatı və mülkləri erməni ordusu tərəfindən qorunucağı barədə vədlərinə inanan müsəlman əhali bütün silahları təhvil verdikdən sonra ermənilər müsəlman kəndlərinə hücum edərək xüsusi qəddarlıqla azərbaycanlıları qırdılar. Bu cinayətlər haqda Azərbaycan höküməti Ermənistana etiraz notası göndərsə də heç bir nəticə vermədi.

1918-1920-ci illərdə ermənilər İrəvan quberniyasının Eçmiədzin qəzasına daxil olan Zəngibasar rayonunda 60-dan çox kəndi məhv etdilər. 1919-cu il dekabrın 27-də Azərbaycan Respublikası Xarici İşlər Naziri F.X.Xoyski Ermənistan Respublikası Xarici İşlər Nazirliyinə göndərdiyi teleqramda Ermənistan hökümətinin dekabrın 21-də Zəngibasar rayonunun müsəlmanlarına qarşı hərbi əməliyyata başlayaraq Qarabazar kəndini dağıtdıqlarını və talan etdiklərini, dekabrın 22-də bu halın Uluxanlı kəndində təkrar olduğunu, döyüşlərin Çobankərə və Qaraqışlaq kəndlərində getdiyini, bütün bunların Ermənistan hökümətinin 1919-cu il noyabrın 23-də əldə olunmuş razılığı kobud surətdə pozduğunun sübutu olduğu qeyd edilirdi (136, 641).

Eçmiədzin və Sürməli qəzalarında 60-dan çox kənd ermənilər tərəfindən darmadağın edildikdən sonra Zəngibasar böyük təhlükə altında qalmışdı. Zəngibasar düyü yetişdirilən bir ərazi olduğu üçün ac erməni əsgərləri üçün böyük əhəmiyyət daşıyırdı. Zəngibasar İrəvanın 8-10 verstliyində yerləşdiyinə görə şəhərə gedib-gəlmək azərbaycanlılar üçün təhlükəli idi. Zəngibasar əhalisi özlərini müdafiə etmək üçün bir sıra

tədbirlər görməyə məcbur idilər. 1919-cu il iyulun 19-da ermənilər Zəngibasarı işğal etdikdən sonra əhalisinin bir hissəsini öldurmuş, 1500-ə yaxın uşaq və qadını suda boğmuşdular (138, 798).

Ümumiyyətlə, ermənilər bu rayonda Ağhəmzəli, Ağcaqışlaq, Arbat, Aşağı Necili, Aşağı Qulubəyli, Böyük Çobankərə, Qaraqışlaq, Qulucan, Dəmirçi, Zəngilər, Zəhmət, Yengicə, Yuxarı Qulubəyli, Yuxarı Çarbax, Göy Kümbət, Rəhimabad, Rəncbər, Sarıcalar, Seyidkənd, Sarvanlar, Uluxanlı, Xaraba Gilanlı, Xaraba Sarvanlar, Xarratlı, Şorlu və b. kəndlərdə dəhşətli qırğınlar törətmiş, əhalisini yurd-yuvalarından qovmuşdular. Bu kəndlərin əhalisi İrana, Türkiyəyə və Azərbaycanın müxtəlif bölgələrinə, o cümlədən Naxçıvana pənah gətirmişdilər.

Ermənilərin bu vəhşilikləri hətta onların özlərini də dəhşətə gətirmişdi. Sosial-demokrat partiyasının Ermənistan parlamentində olan üzvləri Daxili İşlər Nazirinə, son üç həftə ərzində Ermənistan Respublikasının ərazisindən: İrəvan, Eçmədzin və Sürməli qəzalarının azərbaycanlılar yaşayan kəndlərindən, o cümlədən Paşakənd, Təkərli, Qorux-gün, Ulalık, Ağverən, Purnus, Əlibəy, Canfid, Kərim-arx, İydəli, Ağcar, Qarxun, Kolanı-Aralıx və digər kəndlərin müsəlmanlardan təmizlənməsi, soyğunlar, talanların olması, yerli hökümətin bunlara nəinki mane olması, hətta özlərinin bu soyğun və talanlarda iştirak etmələri barədə sorğu vermişdilər (11, siy. 1, iş 57, v. 120).

Yurd –yuvalarından didərgin düşmüş azərbaycanlı əhali arasında xəstəlik geniş yayılmışdı. 1919-cu ildə təkcə İrəvanda 19 min nəfər azərbaycanlı səpmə-yatalaq xəstəliyinə tutulmuş, Talin nahiyəsinin 8 kəndində 12.237 nəfər əhalinin 5940 nəfəri acından və cürbəcür xəstəliklərdən tələf olmuşdu (46, 10).

1918-1920-ci illərdə erməni vəhşiliklərindən ən çox ziyan görmüş bölgələrdən biri də Zəngəzur qəzası olmuşdur. Yelizavetpol quberniyasının tərkibinə daxil olan 9800 $km^2$ əraziyə

malik Zəngəzur qəzasının inzibati-ərazi bölgüsünə Sisyan (Qarakilsə), Mehri, Qafan, Gorus rayonları daxil idi. Zəngəzur qəzasına, eləcə də Azərbaycanın Zəngilan, Qubadlı və Laçın rayonları daxil idi. Zəngəzur qəzasının əhalisinin əksəriyyətini azərbaycanlılar (200 mindən artıq) təşkil edirdi (19, siy. 2, iş 43, v. 12).

Azərbaycan Cümhuriyyətinin yeni yarandığı vaxtlar ölkənin həm iqtisadi, həm də hərbi cəhətdən zəif olmasından, eyni zamanda Gəncə qubernatorunun bu ərazilərlə əlaqələrinin zəifliyindən istifadə edən ermənilər həmin əraziləri Azərbaycandan qopararaq Ermənistana birləşdirməyə çalışdılar. 1919-cu ilin yanvarında Azərbaycan Daxili İşlər Nazirliyində keçirilən iclasda Xəlil bəy Xasməmmədovun məruzəsində qeyd edildiyi kimi, «Rusiyadakı inqilabi çevrilişdən sonra Zəngəzur, Şuşa və qonşu qəzaların erməni əhalisi daşnak təbliğatının təsiri altında inzibati-ərazi vahidlərini yaratmağa, Azərbaycanın hakimiyyət orqanlarına tabe olmamaq haqqında bəyanatlar verməyə, qərəzli adamların təsiri altında bu ərazilərin müsəlman hissəsinə qarşı ehtirasları da süni surətdə qızışdırmağa başlamışdılar. Azərbaycan müstəqillik əldə etdikdən sonra daşnakların təbliğatı altında həmin ərazilərin erməni əhalisinin Azərbaycandan ayrılmaq cəhdləri açıq şəkil almışdır (116).

Öz hərbi dəstələri ilə buraya gələn və vəziyyəti daha da gərginləşdirən Andranik açıq şəkildə həmin qəzaları Ermənistana birləşdirmək məqsədi daşıdığını bildirmişdi. Buraya gəlişi zamanı onun dəstəsində əvvəlcə 450-500 adam var idisə tez bir zamanda burada yaşayan ermənilərin hesabına dəstəsinin sayı xeyli artır.

«Şeypur» curnalı Andanikin məqsədləri ilə bağlı yazırdı ki, Ermənistan hökümətinin baş komandanı Andranik yenə Qarabağda baş qaldırıb müsəlmanları qırmağa başlamışdır... Bu hökümət deyir ki, Qafqazda Gürcüstan və Azərbaycan ola bilməz. Burada ancaq bir Ermənistan ola bilər (39,77).

Xəlil bəy Xasməmmədovun məruzəsində göstərilirdi ki, Andranikin silahlı dəstələri tərəfindən 150-yə yaxın müsəlman kəndi dağıdılmış və qarət olmuşdu, həmin ərazilərdə olan azərbaycanlı əhali kütləvi surətdə Ağdam və başqa yerlərə qaçmaqla canlarını qurtarmışdılar. Bu ərazilərin Gəncə quberniyasına tabe olduğunu və quberniya mərkəzinin bu yerlərdən uzaq olduğunu nəzərə alaraq ermənilərin yaratdıqları təhlükələri aradan qaldırmaq üçün təcili tədbir görülməsi, bu məqsədlə həmin ərazilərdə mərkəzi hökümətə tabe olan hakimiyyət orqanının yaradılması təklif olunurdu (116).

Azərbaycan hökümətinin 1919-cu il yanvarın 15-də keçirilmiş iclasında Daxili İşlər Naziri Xəlil bəy Xasməmmədovun yuxarıda göstərilən məruzəsini müzakirə edərək Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzaları ərazilərinin hüdudlarında müvəqqəti general-nubernatorluq təsis etmək haqqında qərar qəbul etmiş, yanvarın 29-da isə Xosrov bəy Sultanov həmin qəzaların müvəqqəti general qubernatoru təyin olunmuşdu. Onun apardığı gərgin iş nəticəsində ermənilər yaşayan 8 kəndin – Sarov, Seyidsüzən, Maralyan, Həsən-qaya, Yarmaca, Aşağı Çaylı, Yuxarı Çaylı, Merkuşevan kəndlərinin əhalisi Azərbaycan hökümətinə müraciət edərək onu tanıdıqlarını bildirmişdilər (19, siy. 2, iş 43, v. 12). Ermənistan Xarici İşlər Naziri Tiqranyanın Azərbaycanın qəzalarda general-qubernatorluq yaratmaq barədə etirazına ADR-in Xarici İşlər Naziri Ziyadxanov 1919-cu il yanvarın 31-də Ermənistan Respublikasının Xarici İşlər Nazirliyinə 206 saylı məktubunda Ermənistanın etirazlarının əsassız olduğunu bildirmişdi (11, s.1, iş 152, v.1). Ermənistan hököməti dəfələrlə Azərbaycan hökümətinə nota göndərərək X.Sultanovun və Azərbaycan ordusunun Qarabağdan çıxarılmasını tələb etsə də bu tələblər Azərbaycan hökümətі tərəfindən qətiyyətlə rədd edildi.

Ermənistanın bütün cəhdlərinə baxmayaraq müttəfiq dövlətləri də X.Sultanovu general-qubernator kimi tanımış, bu

mövqelərini Ermənistan hökümətinə bildirmişdilər (18, siy. 5, iş 4, v. 2-3).

Lakin bütün bunlara baxmayaraq erməni hökümətinin fəal yardımına, ingilislərin loyal münasibətinə arxalanan Andranik göstərilən ərazilərdə azərbaycanlılara qarşı qanlı qırğınlar törətməkdə, onları yurd-yuvalarından qovaraq orada Türkiyədən gələn erməniləri yerləşdirməkdə davam edirdi. General Biçeraxov da Andraniklə sıx əlaqə saxlayır, ondan maliyyə dəstəyi alırdı. Andranikin özünə isə ingilislər pul yardımı göstərir, bununla da ona ordusunu möhkəmləndirməsinə şərait yaradırdı. Nəticədə Zəngəzurda 192 kənd talan edilmiş, bu kəndlərdə təxminən 37 min əhalidən təqribən 30%-i həlak olmuşdu (19, siy. 2, iş 43, v. 12-12). Rəsmi arxif sənədlərinə əsasən Zəngəzur qəzasında 125 müsəlman kəndi dağıdılmışdı. Həmin kəndlərdə 3257 kişi, 2276 qadın, 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın, 485 uşaq yaralanmışdır. Bütün qəza üzrə 10.068 nəfər müsəlman əhalisi öldürülmüş və şikəst edilmişdir (78, s. 42-43).

1918-ci ilin yazında və payızında Zəngəzurun kəndlərində 4501 nəfər kişi, qadın və uşaq öldürülmüş, 599 nəfər yaralanmışdı. Salamat qalan əhali zorla yurd-yuvalarından didərgin salınmışdır (13, siy. 1, iş 8, 10, 13, 17-20, 30, 32-36, 42-44, 48, 50-51, 54-55, 57-59, 61-66, 75-77, 86, 82, 88-89).

Ermənilərin Zəngəzurda azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər müttəfiqlərin gözləri qarşısında baş verirdi. Andranikin müttəfiqlərlə sıx əlaqəsinin olmasını mayor Gibbonun 1918-ci il dekabrın 8 göndərdiyi məktubu da təsdiq edir. Məktubda bildirilmişdi ki, «Müttəfiq ordularının komandanı general Tomsonun tam və qəti qərarına görə Əkərə qalasından Gorusa qədər yolun, habelə Zəngəzur qəzasının bütün sahələrinin mühafizəsi Andranikin sərancamı və rəhbərliyi altında həyata keçirilsin... (8, siy. 4, iş 65, v. 44-45).

1919-cu il noyabrın 23-də Tiflisdə Ermənistan Azərbaycan höküməti başçıları Xatisov və Yusifbəyli arasında münaqi-

şənin dayandırılması ilə bağlı görüş keçirildi. Tərəflər hər cür toqquşmanın dayandırılması, Zəngəzurda yaşayan əhaliyə ərzaq və digər malların çatdırılması üçün yolların bərpası, sərhəd məsələlri də daxil olmaqla bütün mübahisəli məsələlərin noyabrın 26-da Bakıda və dekabrın 4-də Tiflisdə keçiriləcək konfransda müzakirə olunması barədə razılığa gəldilər.

1919-cu il noyabrın 23-də əldə olunmuş razılığa əsasən Azərbaycan və Ermənistan hökümətləri öz ordularını Zəngəzurdan geri çəkməli idilər. Azərbaycan öz qoşunlarını Zəngəzurdan geri çağırsa da Ermənistan höküməti nəinki bunu etmədi, əksinə oradakı ordularını hərbi sursatla gücləndirərək, qəzanı azərbaycanlı əhalidən təmizləməyə başlamışdı.

Azərbaycan höküməti Ermənistan tərəfinin razılığı pozduğu haqda 1920-ci il yanvarın 17-də Müttəfiqlərin Ali Komissarı polkovnik Haskelə etiraz məktubu göndərsə də, heç bir nəticəsi olmadı (10, siy. 1, iş 31, v. 12). Əksinə, Gəncə qubernatorunun 1919-cu il yanvarın 6-da ADR-in DİN-nə göndərdiyi teleqramda deyildiyi kimi, ingilis və fransız missiyasının Gorusa gəlməsinə və onların ermənilərə etdiyi xəbərdarlığa, azərbaycanlılara verdikləri vədə baxmayaraq, erməni silahlı dəstələrinin müsəlman kəndlərini yandırması, əhalisini qırması və kütləvi surətdə qovması davam edirdi (87, 10).

Andranikin hərbi hissələrinin Zəngəzurun müsəlman əhalisinə qarşı törətdikləri vəhşiliklər göstərilən bütün səylərə baxmayaraq, 1919-cu ilin martınadək davam etdi və bu müddətdə belə əməliyyatların coğrafiyası daha da genişlənərək «Həkəridən Araza, Minkənddən Bazarçaya və Naxçıvan qəzasının sərhəddinə uzanan ərazini bürüdü» (86, 122). 1919-cu ildə qəzada özbaşınalıqlar edən daşnak quldur dəstələrinə hərbi yardım gücləndirildi, Andranikin htssələrinin müxtəlif mənbələrdən maliyyələşdirilməsi işi xeyli yaxşılaşdırıldı. Bütün bunların nəticəsində, 1919-cu il aprel ayının 2-də Zəngəzur və Sisyan erməniləri Gorusda ümumi qurultay çağıraraq bu ərazilərdən bütün azərbaycanlıları silah gücünə çıxartmaq haq-

qında qərar qəbul etdilər (18, siy. 9, iş 1, v. 10). Bu barədə M.Ə.Təkinski 1919-cu il iyulun 2-də Azərbaycan Parlamentinin sədrinə və Xarici İşlər Nazirinə göndərdiyi teleqramda məlumat vermişdi (19, siy.2, iş 57, v. 57).

Azərbaycan Respublikasının Xarici İşlər Naziri M.Cəfərov Təkinskinin bu teleqramı ilə bağlı iyulun 4-də Bakı şəhərində yerləşən ingilis qüvvələrinin Ali Baş Komandalığına müraciət edərək ondan təcavüzün qarşısının alınması üçün Ermənistan hökümətinə təsir göstərməyə çağırırdı (19, siy. 2, iş 57, v. 571). General-qubernator Sultanov da Azərbaycan dəfələrlə teleqram göndərərək ermənilərə qarşı real kömək istəmişdir (11, siy. 1, iş 62, v. 62).

İngilislər Ermənistanı daha açıq şəkildə müdafiə etməyə başlamışdılar. 1919-cu il iyulun 5-də polkovnik Haskel Paris sülh konfransının qərarı ilə Ermənistana ali komissar təyin edilmiş və Ermənistan hökümət nümayəndələri ilə görüşündə o, «Ermənistanı və harada yaşamalarından asılı olmayaraq bütün erməniləri qoruyacağına» söz vermişdi (58, s. 262). Avqust ayında daşnak parlamentində çıxış edən Haskel ermənilərin ərazi iddialarını müdafiə, Azərbaycanı isə şərtləri pozmaqda ittiham etmişdi (102, siy. 5, iş 33, v. 6).

Avqustun 28-də polkovnik Haskel Bakıya gələrək baş nazir Yusifbəyli və Xarici İşlər Naziri Cəfərov ilə görüşdü. Gərgin müzakirələrdən sonra Haskel Qarabağın və Zəngəzurun Azərbaycanın ayrılmaz hissəsi olduğunu, İrəvan quberniyasının cənub hissəsində – Naxçıvan və Şərur-Dərələyəzdə isə neytral zona yaradılması və bu yerlərin Amerika nümayəndəsi tərəfindən idarə olunacağını bəyan etdi ( 102, siy. 5, iş 33, v. 4-5). Əslində isə bu həmin ərazidə silah gücünə də olsa öz hakimiyyətini qura bilməyən Ermənistana Amerika layihəsi vasitəsi ilə həmin əraziləri ilhaq etmək məqsədi daşıyırdı.

Lakin həmin qəzaların azərbaycanlı əhalisinin güclü müqaviməti bu planın həyata keçməsinə mane oldu. Hətta ingilis komandanlığı müvəqqəti olaraq Naxçıvanın idarəçiliyini

Ermənistana versə də daşnak hökuməti bu qərarı həyata keçirə bilmədi.

1919-cu il sentyabrın ortalarında Haskel Naxçıvan, Şərur və Ordubad əhalisinin nümayəndələri Əli Səbri Qasımovu və Ələsgərovu qəbul edərək polkovnik Edmond Delinin Naxçıvana qubernator təyin edilməsi və oktyabrın 23-də öz vəzifəsinə başlayacağı haqqında məlumat verdi. Əvəzində Naxçıvan əhalisinin 10 maddədən ibarət olan tələbləri Haskelə təqdim edildi. Bu tələblərdə əhali Ermənistan hökumətinə tabe olmayacağı və lazım gələrsə, öz istiqlaliyyətini silah gücünə qoruyacağı göstərilirdi. (19, siy. 2, iş 57, v. 73-74). Naxçıvan Milli Şurasının və bütün Naxçıvan əhalisinin təkidi ilə polkovnik Deli Naxçıvanda general-qubernator kimi deyil, Amerika Ali Komissarının nümayəndəsi kimi qaldı.

Azərbaycan hökuməti Ermənistan ilə bütün mübahisəli məsələlri sülh yolu ilə həll edilməsi üçün bütün vasitələrə əl atırdı.Azərbaycan hökumətinin səyləri nəticəsində 1919-cu il dekabrın 14-də mübahisəli məsələlərin həlli üçün Bakıda Azərbaycan-Ermənistan konfransı öz işinə başladı. Lakin bu dəfə də Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi danışıqların nəticəsiz qurtarmasına səbəb oldu. Ermənilərin müsəlmanlara qarşı qırğınları isə yenə də davam edirdi

Erməni millətçilərinin Zəngəzur qəzasında azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər 1920-ci ildə özünün kulminasiya nöqtəsinə çatdı. Azərbaycan parlamentinin üzvü Cəlil Sultanov 1920-ci il yanvarın 21-də parlamentin sədrinə göndərdiyi teleqramında bildirirdi ki, «Zəngəzur qəzasına 4-cü gündür ki, erməni nizami qoşunlarının hücumu davam edir... Bədbəxt əhali adından xahiş edirəm ki, kağız üzərində etiraz etməkdən fəal işə keçəsiniz və Azərbaycanın gözəl guşəsini məhv olmaqdan xilas edəsiniz. Zəngəzurdan sonra növbə Qarabağındır...» (8, siy. 4, iş 129, v. 10).

Ermənilər bir həftə ərazində - 1920-ci il yanvarın 19-dan 26-a kimi Zəngəzurda 51 kəndi dağıtmış və əhalisini qırmış,

salamat qalanlar canlarını bir təhər qurtararaq Azərbaycanın müxtəlif bölgələrinə pənah gətirmişdilər (ARMDA f. 898, siy. 4, iş 129, v. 40-41). C.Sultanovun parlamentin sədrinə göndərdiyi 23 yanvar 1920-ci il tarixli teleqramında on minlərlə Zəngəzur qaçqının Cəbrayılda açıq havada, ac və lüt halda olduqları bildirilirdi. Eyni zamanda göstərilirdi ki, «erməni meyitlərinin içərisində ingilis əsgərlərinin də meyitləri tapılıb...» (19, siy. 1, iş 69, v. 46).

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra da ermənilərin təcavüzü davam edirdi. 1920-ci il iyul ayının 2-də Azərbaycan SSR Xarici İşlər Naziri M.D.Hüseynov Kirova teleqram göndərərək münaqişələrin həll edilməsi üçün Tiflisdə Ermənistan – Azərbaycan konfrasının çağırılmasını təklif etdi (18, siy. 9, iş 62, v. 4-5). Azərbaycan tərəfi konfransın çağırılmasının ilkin şərti kimi, Azərbaycanda əsir olan daşnakların buraxılması müqabilində Ermənistanda həbs olunan bolşeviklərin buraxılmasını, əsirlərin güllələnməməsi və əziyyət verilməməsini irəli sürürdü. Əsirlərin dəyişdirilməsi Qazax və Karvansara arasında və ya neytral zona kimi, Gürcüstan hökümətinin razılığı ilə Tiflisdə həyata keçirilməli idi. (95, siy. 5, iş 12, v. 24). Lakin Ermənistan yenə də işğalçılıq siyasətini davam etdirirdi. 1920-ci il iyulun 6-da Azərbaycan Respublikasının Xarici İşlər Naziri Hüseynovun Ermənistanın Xarici İşlər Nazirliyinə, Rusiyanın Xarici İşlər Naziri Çiçerinə, Ermənistanın Gürcüstandakı diplomatik nümayəndəsi Kirova göndərdiyi teleqramda erməni hərbi hissələrinin Zəngibasarı dağıtdıqdan və oranı müsəlmanlardan təmizlədikdən sonra Naxçıvan-Şərur üzərinə hücuma keçdiyini, digər erməni hərbi hissələrinin isə Qazax qəzasına hücum edərək iyulun 5-də Qaraqışlaq kəndini tutduqları haqqında məlumat verir, Ermənistan rəhbərliyinin bu cür addımları bütün mübahisəli məsələlrin sülh yolu ilə həll edilməsi sahəsində əldə edilmiş razılığı təhlükə altında qoyduğu bildirilirdi (102, siy. 5, iş 12, v. 26-27).

Ermənistan Azərbaycanla arasındakı mübahisəli məsələlərin həllində Sovet Rusiyasının vasitəçiliyini istəyir və bu yolla Zəngəzuru və Qarabağı ələ keçirməyə çalışırdı. Nəhayət, Sovet Rusiyası vasitəçilik missiyasını həyata keçirməyə başladı. RSFSR Xalq Xarici İşlər Komissarlığının müavini, milliyyətcə erməni olan Qaraxanyan mayın 15-də İrəvana və Bakıya göndərdiyi teleqramında Ermənistanın Rusiyanın vasitəçilik etməsi barədəki təklifinin qəbul edildiyi və Azərbaycanın da buna razılığını bildirməsi göstərilirdi.

Lakin danışıqların gedişində Ndenin başçılığı ilə erməni ordusu Gorusa hücum edərək iyulun 30-da oranı tutdu. Bu hücumlar zamanı ingilislər və amerikalılar daşnaklara hər cür yardım edirdilər. Belə ki, 1920-ci ilin iyun ayında İngiltərə 40 min nəfərlik daşnak ordusu üçün hərbi geyim, Fransa 10 min tüfəng və 10 mln mərmi göndərmişdir (102, siy. 5, iş 78, v. 22). Bu yardımları etməkdə İngiltərə, Fransa və ABŞ-ın məqsədi Qafqazı, xüsusən də onun neft sərvətlərini öz təsiri altında saxlamaq idi. Ona görə də həmin dövlətlər daşnak ordusunu nəqliyyat vasitələri, hətta təyyarələr ilə təchiz edirdilər. Qarsdakı silah zavodu və Aleksandropoldakı patron zavodu amerikalılar tərəfindən maliyyələşdirilirdi. 1920-ci ilin iyulunda ABŞ Ermənistana 50 min əsgər üçün ərzaq, silah və döyüş sursatı göndərmişdi...» (72, 161). İtaliyadan 15 yeni zirehli maşın gətirilmişdi (120, s. 37). Bundan istifadə edən daşnaklar iyulun 10-da Vedibasar və Şərur istiqamətində hücuma keçdilər. Eyni zamanda onlar Dərələyəz istiqamətində hücuma keçərək Aşağı və Yuxarı Danzik kəndlərini tutdular (102, siy. 5, iş 78, v. 23 ).

1920-ci ilin sentyabrında daşnak hökuməti Türkiyəyə qarşı hərbi əməliyyata başlasa da biabırçı məğlubiyyətə uğradı. 1920-ci il noyabrın 18-də türk komandanlığı ermənilərin sülh bağlamaq haqqındakı xahişlərini nəzərə alaraq atəşi dayandırdı. Noyabrın 25-də Gümrüdə türk və erməni nümayəndələri arasında sülh danışıqları başlandı və dekabrın 2-də 18 maddədən

ibarət müqavilə imzalandı. Gümrü anlaşmasına görə, Ermənistanın daşnak hökuməti Sevr müqaviləsinin qüvvədən düşdüyünü qəbul etdi və Türkiyəyə qarşı torpaq iddiasında olmadığını bildirdi.

Lakin bu müqavilə imzalanmamışdan əvvəl Qızıl Ordu İrəvana daxil oldu və noyabırn 29-da Ermənistanda sovet hökuməti quruldu. Sovet hakimiyyətinin onlara qarşı isti münasibətindən istifadə edən ermənilər Azərbaycan torpaqları hesabına öz ərazilərini genişləndirməyə başladılar.

1918-ci ilin iyun ayında imzalanmış Batum sülh müqaviləsinə görə cəmi 9 min kv. kilometrlik əraziyə malik olan Ermənistan 1920-ci il noyabrın 29-da Sovet hökuməti qurulduqdan sonra 11 min $km^2$-lik əraziyə malik idi (35, 61). Sovet hökumətinin isti münasibətindən istifadə edərək Azərbaycanın Zəngəzur, Göyçə, Dərələyəz və s. ərazilərini öz tərkibinə qataraq 29,8 min $km^2$ –lik bir Ermənistan dövləti yaratdı. 1920-ci ildə 113.895,97 $km^2$-lik ərazisi olan Azərbaycan Demokratik Respublikası isə torpaqlarını itirərək 86,8 $km^3$-lik bir əraziyə malik oldu (49,27).

Ermənilər azərbaycanlıları yurd-yuvalarından qovduqdan sonra onların geri qayıtmalarına imkan vermədi və müxtəlif yerlərdən gətirilən erməniləri burada yerləşdirdilər. N.Nərimanovun Leninə yazdığı məktubda göstərdiyi kimi, «... həmişə Denikini muüdafiə edən Ermənistan müstəqillik qazanır və əlavə olaraq Azərbaycan torpaqlarını alır. Zaqafqaziya respublikaları arasında hamıdan əvvəl özünü Rusiyanın ağuşuna atan Azərbaycan isə həm müstəqilliyini, həm də ərazisini itirir...» (133).

Beləliklə, 1918-1920-ci illərdə indiki Qərbi Azərbaycan ərazisində yaşayan 575 min nəfər azərbaycanlının 565 mini qırıldı və ya doğma torpaqlarından qovuldu (38, 35). Onlardan yalnız 1922-ci ildə cəmi 60 min nəfər öz doğma yurdlarına qayıda bildi.

## 2.2. Qaçqınların Naxçıvanda yerləşdirilməsi və onlara yardım göstərilməsi

Ermənistan adlanan Qərbi Azərbaycan torpaqlarından azərbaycanlıların qaçqınlıq dövrünün yeni bir mərhələsini 1918-1920-ci illər təşkil edir. Bu illərdə İrəvan quberniyasının Eçmiədzin, Sürməli, Yeni Bəyazid, Yelizavetpol, Zəngəzur və digər qəzalarından yüz minlərlə azərbaycanlı öz doğma torpaqlarından didərgin düşərək qaçqınlıq həyatı yaşamağa məcbur oldu.

Qeyd edildiyi kimi, hələ 1918-ci ilin əvvəllərində türk qoşunları qarşısında məğlub olaraq geri çəkilən ermənilərin İrəvan quberniyasında törətdikləri qırğınlar nəticəsində qaçqınların sayı 80 min nəfəri keçmişdi (11, siy. 1, iş 1, v. 29).

İlk əvvəllər İrəvan quberniyasının qəzalarından qovulan azərbaycanlılar İrəvan şəhərinə toplaşırdılar. 1918-ci il aprelin 15-də İrəvan şəhərində beş minə qədər qaçqın azərbaycanlı var idi. Onlar məscidlərdə yaşayır və aclıqdan ölürdülər. Ermənistan hökuməti Müsəlman Milli Şurasına çox baha qiymətə – puduna 200 manat olmaqla hər gün cəmi 5 pud çörək buraxırdı ki, bu da cəmi 1600 nəfərə çatırdı. M.X.Təkinskinin və Milli Şuranın səyləri nəticəsində Ermənistan hökuməti onlara buraxılan çörəyin 10 puda çatdırılmasına söz vermişdi (11, siy. 1, iş 54, v. 59).

Eçmiədzin və Sürməli qəzalarının 50-dən artıq müsəlman kəndinin dağıdılması və talan edilməsi ilə əlaqədar 1918-ci ilin avqustunda onların əhalisi doğma yurdlarından qaçqın düşdülər. Əhalinin əsas hissəsi İrəvan şəhərinin yaxınlığında yerləşən Zəngibasarda toplaşmışdır. Qaçqınların böyük əksəriyyəti isə müxtəlif yerlərə səpələnmişdilər və onların hara getmələri barədə dəqiq məlumat yox idi. Talin rayonundan qaçqın düşən beş min nəfər azərbaycanlı Arpaçayı keçərək Naxçıvana gəlmişdi (17, siy. 2, iş 58, v. 69).

Qaçqınlar problemi ilə məşğul olmaq üçün hələ 1918-ci ilin martında Zaqafqaziya Seymi müsəlman fraksiyası yanında qaçqınlar şöbəsi yaradılmışdı və bu məsələ dəfələrlə seymin müsəlman fraksiyasında müzakirə edilmişdi. 1918-ci ilin aprel ayında bu məsələyə iki dəfə baxılmışdı.

Müzakirələr zamanı müsəlman fraksiyası Çxengeli höküməti qarşısında aşağıdakı tələbləri qoymuşdu:

1) Daxili İşlər Nazirliyinə tapşırılsın ki, müsəlmanlara kömək üçün xüsusi komissiya göndərilsin;

2) Bütün müsəlman qaçqınları öz yerlərinə qaytarılsın;

3) Ərzaq Nazirliyinə tapşırılsın ki, qaçqınlara təcili yardım göstərsin;

4) Azğınlıq edən erməni hərbi hissələri buraxılsın;

5) Müsəlman qaçqınlarının sayı və vəziyyəti öyrənilsin, onlara əlavə yardım göstərilsin (11, siy. 1, iş 1, v. 27).

Azərbaycan fraksiyasının apardığı gərgin iş nəticəsində Transqafqaz hökuməti bu məsələni öyrənmək üçün komissiya yaratdı və ilk addım kimi, qaçqınların ən zəruri ehtiyaclarını ödəmək üçün bir milyon manat vəsait buraxdı.

1919-cu il aprelin 3-də F.X.Xoyskinin Müttəfiq Qüvvələrin komandanı general Tomsona göndərdiyi məktubda İrəvan quberniyası müsəlmanlarının xahişini nəzərə alaraq hökümətin erməni-müsəlman toqquşması nəticəsində zərər çəkənlərə və qaçqın düşənlərə kömək üçün 1 mln. manat vəsaitin ünvana çatdırılması və qaçqınların vəziyyətini ətraflı aydınlaşdırmaq üçün T.Makinski, R.B.İsmayılov və doktor Qənizadədən ibarət nümayəndə heyətinin Naxçıvan rayonuna, Şərura, Sürməliyə, Vedibasar və Milistana göndərilməsinin nəzərdə tutulduğu bildirilirdi. Məktubda komissiyanın maneəsiz olaraq göstərilən rayonlara getməsi və qayıtması, yerlərdə mühafizəsi və fəaliyyəti üçün ingilis komandanlığından şərait yaradılması xahiş edilirdi.

Lakin 1919-cu il 12 aprel tarixli cavab məktubunda Tomson adı çəkilən rayonların Britaniya qubernatorunun idarəçi-

liyində olduğunu və təklif edilən nümayəndə heyətinin hər hansı bir xeyir gətirəcəyinə şübhə etdiyini, qaçqınların öz yerlərinə – Naxçıvan və s. rayonlara qaytarlımasının nəzərdə tutulduğunu, bu işin Britaniya komandanlığının rəhbərliyi altında milliyətindən, dini mənsubiyyətindən asılı olmayaraq həyata keçiriləcəyini, qaçqınların tamamilə yerləşdirildikdən sonra Naxçıvan və s. rayonların idarəçiliyini doktor Sultanovun Qarabağ general-qubernatoru vəzifəsini icra etidiyi eyni şərtlər əsasında Ermənistan hökümətinin nümayəndəliyinə veriləcəyini bildirimşdi. Sonda o, qaçqınların yerləşdirilməsi işinə kömək etmək istəyənlərə İrəvanda general Deviyə müraciət etmələrini qeyd edərək dəmir yolundakı vəziyyətlə əlaqədar nəzərdə tutulan nümayəndə heyətinə yardım göstərməyin mümkün olmayacağını göstərmişdi (11, siy. 3, iş 4, v. 13).

Buna baxmayaraq, nümayəndələr qeyd edilən ərazilərə gedərək müsəlmanların vəziyyəti ilə yaxından tanış ola bildilər. Onlarla birgə yerli əhalinin nümayəndələri Bağır Rzayev, Məhərrəm Əliyev, Əli Əşrəf Kazımov, Hüseyn Cavid, Əsəd Manafov, Bəhramxan və Əziz xan Naxçıvanski Bakıya gələrək müsəlman qaçqınlarının vəziyyəti barədə hökümətə məlumat vermişdilər (136, s. 369).

Seym dağıldıqdan sonra onun nəzdində yaradılmış Qaçqınlar şöbəsinin müsəlman fraksiyasına aid olan və Tiflis Dövlət Bankında saxlanılan 968.463 manat 29 qəpik vəsaiti və Qaçqınlar şöbəsinin bütün əmlakı Azərbaycan Respublikası Himayəçilik Nazirliyinin sərəncamına keçmişdi. Lakin bu vəsaitii almaq mümkün olmurdu. Həmin vəsaiti almaq məqsədilə himayəçilik naziri R.X.Xoyski Tiflisə getsə də, məqsədinə nail olmamışdı. Buna görə də 1919-cu il iyulun 16-da Xarici İşlər Nazirliyinə müraciət olunaraq həmin vəsaitin alınmasına köməklik göstərilməsi xahiş olunmuşdu. (10, siy. 1, iş 40, v. 31).

AXC hökümətı hələ Gəncədə fəaliyyət göstərdiyi dövrdə Səhiyyə və Himayəçilik Nazirliyi yaradılmış, Xudadat bəy Rəfibəyov nazir təyin edilmişdi. Hökümət Bakıya köçdükdən

sonra nazirlik iki yerə – Səhiyyə və Himayəçilik Nazirliyinə bölünmüşdü. Himayəçilik Nazirliyi əsasən iki mühüm vəzifəni – Qaçqınlar və himayəçilik məsələlərini yerinə yetirməli idi. Bu nazirlik Ermənistandan olan azərbaycanlı qaçqınları qəbul edir və onları zəruri ərzaq və qida məhsulları ilə təmin edir, qaçqınları imkan daxilində işlə təmin edir, yetimxanalar və düşərgələr təşkil edir, eyni zamanda kasıblar üçün ucuz qiymətə yeməkxanalar, qida məntəqələri açırdı. Bütün bu vəzifələri həyata keçirmək üçün nazirlikdə himayəçilik, qaçqınlar və təsərrüfat şöbələri yaradılmışdı. Bu nazirliyin fəaliyyəti nəticəsində 1919-cu ildə qaçqınlar, kimsəsizlər və qocalar üçün Azərbaycanın bir sıra yerlərində yetimxanalar açılmışdı.

Ermənistan hökuməti müsəlmanlara heç bir köməklik göstərmirdi. Yurdlar, xəstəxanalar, həmçinin yetimxanalar ancaq ermənilər üçün təşkil olunmuşdu. Ermənilərə hər cür şərait yaradılır, onlar azərbaycanlıların evlərində yerləşdirilir və köməklik göstərilirdi. Minlərlə müsəlman küçələrdə baxımsız qalmışdır. 1919-cu ilin avqustunda Azərbaycan Respublikasının Baş Nazirinin Sülh Konfransının sədrinə yazdığı məktubda gündə 500 nəfərə qədər adamın məhv olduğu, aclıq və sərt soyuqlar nəticəsində onların tam qırılmaq təhlükəsi altında olduqları və təcili tədbirlər görülməsinin zəruriliyi bildirilirdi (78. 34).

Azərbaycan Respublikasının Ermənistandakı diplomatik nümayəndəsi M.X.Təkinsi tərəfindən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə göndərilən məktubda da müsəlman qaçqınlarının vəziyyətinin ağır olduğu, Ermənistan hökumətinin müsəlmanların ermənilərlə vuruşduqlarını bəhanə edərək onları öz kəndlərinə buraxmadıqlarını, buna görə də müsəlmanların hər gün açıq səma altında aclıqdan və tif xəstəliyindən öldüyü, Ermənistanda ermənilərə məxsus çoxlu xəstəxana, düşərgələr, qida məntəqələri olduğu halda, müsəlmanlar üçün isə İrəvanda 2300 nəfər müsəlman üçün 2 qida məntəqəsindən başqa heç nəyin olmaması bildirilmiş, Azərbaycan Himayəçilik

Nazirliyindən isə vaxt itirmədən qaçqınlara yardım üçün böyük miqdarda pul ayırması xahiş edilmişdi. (102, siy. 5, iş 74, v. 193-196).

İrəvan Milli Şurası «Avropa və Amerikanın böyük dövlətlərinin nəzəri-diqqəti üçün» bir müraciət hazırlayaraq Ermənistan Respublikasında yaşayan müsəlmanların ağır vəziyyəti, qaçqınların öz kəndlərinə buraxılmamaları və s. barədə məlumat vermişdi (11, siy. 1, iş 200, v. 7).

1919-cu il mayın 20-də Zaqafqaziya Konfransının Qaçqınlar Komitəsi öz işinə başladı. Azərbaycanı burada R.X. Xoyski, D.B.Sultanov təmsil edirdilər (11, 1 iş 73, v. 1). İclasda qaçqınlar məsələsinin həlli üçün ilk növbədə onların əvvəlki yaşayış yerlərinə qayıtmaları, təhlükəsizliklərinə təminat verilməsi və dağıdılmış təsərrüfatlarını bərpa etmək üçün maddi köməklik göstərilməsi barədə razılıq əldə olunmuş, qaçqınların öz doğma yurdlarına qayıtmalarını təmin etmək üçün qaçqınlarla iş üzrə Dövlətlərarası komissiyanın yaradılması təklifi irəli sürülmüşdü. Azərbaycan tərəfi təklif etdi ki, hər respublikadan bir nümayəndə daxil edilməklə, onlara geniş səlahiyyətlər verilməli, qaçqınların öz yerlərinə köçürülməsi işini təşkil etmək üçün bütün hökümət və ictimai təşkilatlar Komissiyaya tabe edilməli və bu komissiya bütün işlərə nəzarət etməlidir (10, siy. 1, iş 74, v. 50-51). Təklifdə həmçinin dövlətlərarası komissiyanın qəbul etdiyi bütün qərarların respublikalar üçün vacib sayılması nəzərdə tutulurdu. Lakin Ermənistanın nümayəndəsi A.İ.İvanyan bununla razılaşmadı.

Ermənistanda yaşayan müsəlmanların, xüsusilə də qaçqınların vəziyyətinə dair materiaalırn toplanmasında, Azərbaycan hökümətinə, müttəfiq dövlətlərin missiyasına çatdırılmasında Təkinskinin rolu böyük olmuşdu. 1918-ci ili dekabr ayından Azərbaycanın Ermənistanda diplomatik nümayəndəsi təyin edilən Təkinski Ermənistanda azərbaycanlıların hüquqlarının qorunmasında, qaçqınlara yardım göstərilməsində böyük işlər görmüşdür (10, siy. 1, iş 42, v. 24).

Azərbaycan hökuməti Ermənistandakı müsəlman qaçqınlarına köməklik etmək üçün 1919-cu il iyunun 7-də Himayəçilik Nazirliyinin müvəkkili vəzifəsini yaratmağı qərara aldı və iyulun 8-dən Zülfüqar bəy Makinski müvəkkil kimi İrəvanda fəaliyyətə başladı (2, s. 102). Onun göndərdiyi məlumat əsasında qaçqınlara yardım etmək üçün Parlament 3 mln. manat vəsait ayırdı ki, bu vəsaitlə də 15 vaqon un, taxıl, arpa alınaraq Ermənistana göndərildi.

Azərbaycan hökuməti qaçqınlar problemini həll etmək üçün Azərbaycan və Ermənistan nümayəndələrindən ibarət birgə qarışıq hökümət – parlament komissiyası yaratmaq məqsədilə 1919-cu il iyunun 23-də Ermənistan rəhbərliyinə müraciət etdi (10,s.1, iş 74,v. 57). Komissiyanın tərkibinə hər iki tərəfdən hərəsindən 2 nəfər daxil olmalı idi. Azərbaycan tərəfi Ermənistanın razılığı ilə bu komissiyanın tərkbinə Avropa və Amerikanın da nümayəndələrinin daxil edilə biləcəyini bildirdi. 1919-cu il iyunun 25-də Ermənistanın Xarici İşlər Naziri Tiqranyan komissiyanın yaradılmasına tərəfdar olduğunu bildirdi. İyulun 6-da Ermənistanın Bakıdakı nümayəndəsi N.Yusifbəyli və M.Cəfərov ilə görüşərək erməni-azərbaycanlı münasibətlərinə dair məsələni müzakirə etdi və Ermənistanda azərbaycanlıların, Azərbaycanda isə ermənilərin vəziyyətini öyrənən komissiyanın yaradılmasına razılıq verilməsi barədə Ermənistan hökumətinin qərarını onlara çatdırdı. Lakin sonralar Ermənistan tərəfinin komissiyanın üzvlərinə lazımi şərait yaratmaması üzündən komissiyanın fəaliyyəti nəticəsiz qaldı.

Xarici dövlətlər, o cümlədən Amerika bütün sahələrdə olduğu kimi, qaçqınlara yardım məsələsində də Ermənistana böyük köməklik göstərirdi. Belə ki, Ermənistan Amerikadan 1 mln. puddan çox buğda və un almışdı. Təkcə Yeni Bəyaziddə yerləşdirilən ermənilərə min furqon un və buğda verilmişdi. Hər ay 1 nəfər erməniyə 1 pud un, 1 erməni ailəsinə 1 öküzün yarısını və əkin üçün toxumluq buğda verirdilər. Bundan əlavə hər bir erməniyə Dilican qəza rəisi ayda 400 manat pul verirdi.

Ermənistana hər gün Qazax vasitəsilə böyük miqdarda buğda daşınırdı (19, siy. 2, iş 83, v. 56-57). Azərbaycana isə yardım göstərilmirdi. 1919-cu il iyulun 28-də Qafqaz qaçqınlarına Amerika Komitəsinin köməyi ilə Yelizavetpolda məskən salan və aclıq çəkən aysor qaçqınlarına 2 vaqon un göndərilmişdi (10, siy. 1, iş 40, v. 29). Bu dövrdə müharibə ilə əlaqədar olaraq Şərqi Anadoludan, Balkanlardan və b. münaqişə ocaqlarından Bakı quberniyasına minlərlə qaçqın pənah gətirmişdi. Bu qaçqınların əksəriyyətini qeyri-müsəlman təşkil edirdi. Bakı şəhər rəisinin Petroqrada, eyni zamanda xarici dövlətlərə göndərdiyi məlumatlarda müsəlman qaçqınlarını yardımdan məhrum etmək məqsədilə onlar haqqında məlumat verilmirdi. Ona görə də xarici dövlətlər müsəlman qaçqınlara yardım etmirdilər.

1919-cu il avqustun 11-də Azərbaycan hökümətinin müvafiq qərarına əsasən qaçqınların işləri üzrə Mərkəzi Komissiyaya tapşırlmışdı ki, qaçqınların yerləşdirilməsinə dair layihə hazırlasın və onların təmintaları yaxşılaşdırılsın (9, siy. 9, iş 40, v. 5).

1919-cu il oktyabrın 1-nə olan məlumata əsasən Azərbaycan sərhədlərində Ermənistandan gələn 5848 tüstü və ya 30741 nəfər azərbaycanlı qaçqın var idi. Onlardan Gəncə və onun ətrafında 500 tüstü (2500 nəfər), Gəncə quberniyasının Xaç-Bulaq rayonunda 1620 tüstü (7100 nəfər), Gədəbəy rayonunda 500 tüstü (2500 nəfər), Qazax rayonunda 1200 tüstü (5500 nəfər), Şuşa qəzasında 1461 tüstü (8340 nəfər), Cavanşir qəzasında 415 tüstü (2423 nəfər), Zəngəzur qəzasında 98 tüstü (573 nəfər), Cəbrayıl qəzasında 84 tüstü (448 nəfər), Şamaxı qəzasında 270 tüstü (1357 nəfər) yaradılmışdır(10,.siy. 1, iş 74, v. 87-91).

Hesablamalara görə, bütün azərbaycanlı qaçqınların yerləşdirilməsi üçün 68715531 manat vəsait tələb olunurdu. (10, siy. 1, iş 74, v. 87-91). 1919-cu ildə Zəngəzur qəzasının himayəçilik müfəttişliyinə 18 mln. manat kredit ayrılmışdır. Lakin bu kredit parlament tərəfindən gec təsdiqləndiyindən qaçqınlara

yardım üçün 200 min manat avans buraxıldı (18, siy. 9, iş 12, v. 74).

1919-cu il sentyabrın 4-də Xarici İşlər Naziri Cəfərov himayəçilik nazirinə göndərdiyi teleqramda Ermənistandakı diplomatik nümayəndəliyindən 2 sentyabr 1919-cu il tarixdə alınmış 686 saylı teleqrama əsasən, ermənilər tərəfindən dağıdılmış müsəlman kəndlərinin qaçqınlarına yardım üçün İrəvandakı missiyanın ünvanına 20 vaqon un göndərilməsi xahiş edilirdi (18, siy. 2, iş 58, v. 32).

1919-cu il sentyabrın 9-da Himayəçilik Nazirliyinin İrəvandakı səlahiyyətli nümayəndəsinin «Ermənistanda müsəlman əhalisinin iqtisadi və siyasi vəziyyəti haqqında» göndərdiyi məlumatda müsəlman əhalisinin dəhşətli, acınacaqlı bir vəziyyətdə olduğu qeyd edilir və göstərilirdi ki, «... əhalinin əksəriyyəti qaçqın vəziyyətinə düşmüş və respublikadan kənarda – Şərurda, Naxçıvanda və Sürməlidə yerləşmişdir. Ölkənin daxilində isə çox az əhali qalmışdır ki, bunlar da əsasən İrəvan şəhərində və bəzi təhlükəsiz müsəlman kəndlərində yaşayırdılar... Nəinki qaçqınların, hətta çox az sayda qalmış yerli müsəlman əhalinin də vəziyyəti olduqca ağırdır. İrəvanda əhali uzun sürən aclıqdan sonra qırılırlar. Hər cür yardımdan məhrum olan əhali hətta onlara kartoçka sistemi ilə verilən paylardan istifadə edə bilmirlər» (19, siy. 2, iş 58, v. 67-69). Makinski Azərbaycan hökümətindən təcili tədbirlər görülməsini xahiş edirdi. 40-50 min nəfərə ərzaq yardımı göstərməli idi. Hər bir nəfərə 20 funt un paylamaq üçün ayda 20-30 min pud taxıl lazım idi. Nəzərə alınsa ki, 10 ay əhalini yeməklə təmin etmək lazımdır, o zaman 40-45 min aclıq çəkən əhali üçün 200-230 min pud taxıl lazım idi. Doğma yurdlarını tərk edən və burada toplaşan qaçqınların sayı gündən-günə artırdı. Hər bir ailəyə taxıl paylamaq üçün 470 min pud taxıl lazım idi. Bundan əlavə, əhaliyə maddi və tibbi yardım göstərmək üçün İrəvanda 400-500 nəfərlik uşaq düşərgələri, kimsəsiz qadın və kişilər üçün qocalar evi, o cümlədən İrəvan şəhərində bir ambulatoriya

həkim və kəndlərdə həkim məntəqələrinin açılması tələb olundu.

1919-cu il sentyabrın 1-dən etibarən İrəvanda müsəlmanlar üçün ambulatoriya açılmış, 85 nəfərlik uşaq evi təşkil edilmişdi. Sonralar bu uşaq evi Amerikanın Uşaqlara Yardım Komitəsinin sərəncamına verilmişdi. Ermənistandan qaçqın düşən müsəlmanlara yardım göstərilməsi üçün onların keçdiyi yolların üzərində səyyar qida məntəqəlri (pulsuz yeməkxanalar) açılmışdı (2, s. 103-104).

1919-cu il sentyabr ayının əvvəllərinə qədər Zəngibasarda yerləşən qaçqınların hər birinə cəmi 10 funt olmaqla 4500 pud ərzaq yardımı edilmişdi. (19, siy. 2, iş 58, v. 69 və arxası). Lakin tələbat gündən-günə yeni gələn qaçqınların hesabına artır, əlavə isə heç bir şey gəlmirdi. Siyasi vəziyyətin gərginləşməsi ilə əlaqədar gediş-gəliş çətinləşdiyindən qaçqınların vəziyyəti daha da ağırlaşmışdı.

Makinski on minlərlə qaçqın əhalini xilas etmək üçün təcili olaraq 20 vaqon buğda, 75 min manat pul yardımı, Himayəçilik Nazirliyinin Ermənistandakı ştatlarının təsdiqini və s. məsələlərin həll olunmasını xahiş edirdi (11, siy. 1, iş 57, v. 102-104).

1919-cu il sentyabrın 20-də Azərbaycan Respublikası Himayəçilik Nazirliyinin Ermənistandakı səlahiyyətli nümayəndəsinin nazirliyə göndərdiyi məlumatda bir daha Ermənistanda azərbaycanlıların faciəvi vəziyyətinə diqqət yetirilməsi, Yeni Bəyazid, Eçmiədzin və İrəvan qəzalarından 130 minə qədər müsəlman əhalinin doğma ocaqlarından didərgin düşdüyü göstərilirdi. Bu qaçqınlara yardım göstərmək üçün ilk növbədə düşərgələrin təşkil edilməsi, tibb, ərzaq yardımlarının göstərilməsi, qışın gəlməsi ilə əlaqədar olaraq lüt əhalinin isti paltarla təmin edilməsi xahiş olunurdu. Əhalini ərzaqla təmin etmək üçün 100 min pud buğda, 149 min pud arpa tələb olunurdu. 500 nəfər uşağı himayə altına almaq üçün düşərgələr təşkil etmək və hər bir uşağa ayda 500 manat olmaqla 250 min manat,

10 ay müddətində isə 2.500 min manat tələb olunurdu. 100 nəfər yaşlı, kimsəsiz qadın və kişilər üçün qocalar evi təşktl etmək və hər birinə ayda 50 manat olmaqla 500 min manat, 10 ayda isə 5 mln manat lazım idi. İrəvan şəhərində ambulator və səyyar həkimlər saxlamaq üçün ildə 24 min manat tələb olunurdu. Ümumiyyətlə, yuxarıda tələb olunanlar üçün 40 mln 440 min manat tələb olunurdu (136, s. 576).

Daşnak hökümətinin siyasəti nəticəsində Eçmiədzin, Sürməlinin müsəlman kəndlərinin, o cümlədən Qars vilayətinin dağıdılmış 91 kəndinin 25 min nəfər əhalisi Tiflis vasitəsilə Azərbaycana pənah gətirmişdi (11.siy.1-iş 57 vər.102-104),.

Ermənistandan Gürcüstana gələn azərbaycanlı qaçqınların vəziyyəti çox ağır idi. Onları yollarda incidir, əzab-əziyyət verirdilər. Sanaino stansiyasından Sadaxlo stansiyasına qədər olan ərazi «neytral zona» sayılsa da, bədbəxt azərbaycanlı qaçqınlar bu bölgədə də ermənilərin zülmündən yaxa qurtara bilmirdilər.

1919-cu il dekabrın 22-də İrəvandan və Qarsdan gələn qaçqınlar Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəliyinə gələrək yazılı şəkildə bildirmişdilər ki, «... Özümüz ilə götürdüyümüz bir qədər qiymətli əşyaları ermənilər əlimizdən aldılar. Biz onları götürmüşdük ki, yolda acından ölməmək üçün sataraq yemək alaq... Aleksandropol stansiyasında bizi su içmək üçün vaqondan çıxmağa icazə vermədilər. Buna baxmayaraq, su içmək üçün çıxmaq istəyənləri ermənilər döyərək geri qaytarırdılar» (10, siy. 1, iş 40, v. 210).

Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsinin Azərbaycan Respublikasının Himayəçilik Nazirliyinə qaçqınların acınacaqlı vəziyyəti ilə bağlı göndərdiyi məktubda qaçqınlara təcili kömək üçün nazirliyin aşağıdakı məntəqələrdə nümayəndələrinin təyin edilməsi vacib hesab edilirdi: 1)Sanaino stansiyasında – daxil olan qaçqınların qeydə alınması və yola salınması üçün; 2)Aleksandropol stansiyasında – oradan qaçqınların Aleksandropol qəzasına yola salınması üçün;

3) Qars şəhərində – Qars vilayətinin qaçqınları üçün; 4)Uluxanlı stansiyasında Ermənistandakı diplomatik nümayəndə Ə.B.Haqverdiyevin,İrəvan müvəkkilimiz Makinskinin, H. Şeyxovun və digərlərinin verdikləri məlumata görə Uluxanlıların 17 verstliyində 50 mindən çox qaçqınlar toplanıb» (10, siy. 1, iş 40, v. 186-187).

Yolda azərbaycanlıların ərzaqla təmin olunmaları istiqamətində heç bir iş görülmürdü. Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsinin müavini Vəkilov 1919-cu il oktyabrın 3-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə yazdığı məktubda bildirirdi ki, «mənim dəfələrlə Sadaxlo və Sanaino stansiyasında qaçqın müsəlmanlar üçüq qida məntəqələrinin yaradılmasının vacibliyi haqqında fasiləsiz xahişim cavabsız qalıb. İndi mən xəbər almışam ki, Sanaino stansiyasında böyük miqdarda bütün qidalardan məhrum olan qaçqınlar toplaşıb. Onların arasında aclıqdan ölənlərin sayı artıb»... (10, s.1, iş 40, v.93).

Ermənistandan gələn qaçqınların ardı-arası kəsilmirdi. Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəliyi hər vasitə ilə onlara yardım etməyə çalışsa da vəsaitin çatışmamazlığı vəziyyəti ağırlaşdırırdı. Azərbaycan hökümətinin qaçqınları yola salmaq üçün Gürcüstan Respublikası Yollar Nəqliyyatı Nazirliyinə vəsaiti vaxtında ödəmədiyinə görə qaçqınlar burada cəmləşib qalmışdılar (10, siy. 1, iş 40, v. 93-99).

1919-cu il iyulun 9-dan sentyabrın 26-dək Ermənistandan Tiflisə gələn qaçqınların yola salınması üçün 34 vaqon sifariş verilmişdi və bu müddət ərzində 1269 nəfər Gürcüstan vasitəsilə Azərbaycana gəlmişdi (11, siy. 1, iş 40, v. 121). Ümumiyyətlə isə, 1919-cu il ərzində qaçqınların daşınması üçün 171 vaqon sifariş verilmişdir (10, siy. 1, iş 40, v. 1-204).

Naxçıvan Milli Komitəsinin üzvü Mehdi Bağırov Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsinin müavini Vəkilovla görüşmüş, Xosrov bəy Sultanovun məktubunu ona təqdim edərək naxçıvanlıların geri qayıtmalarına köməklik

göstərilməsini xahiş etmişdi. Mehdi Bağırov Naxçıvan qəzasında əhalinin Ermənistan hökümətinin hakimiyyətini devirməyə hazırlaşdığını, Tiflisdə və Bakıda yerləşən naxçıvanlı qaçqınların geri qaytarılmasının buna çox böyük mənəvi təsiri olacağını və əhalinin ruh yüksəkliyinin artmasına səbəb olacağını bildirmişdi (11, siy. 1, iş 54, v. 39-40).

1919-cu il noyabrın 27-də Gürcüstanda qaçqınların yerləşdirilməsi, himayəsi və yola salınması işini təşkil etmək üçün diplomatik nümayəndəlik nəzdində Himayəçilik Nazirliyinin müvəkkili, baş uryadnik Həmid Axundov Sanaino stansiyasına ezam olunur. O, Sanaino stansiyasına getmək üçün Gürcüstandan Ermənistana gedən vaqona mindikdən sonra yolda ermənilər onu aldararaq Ermənistana aparmış, onun bütün sənədlərini, xəncərini, «naqan» tipli silahını, 1800 manat pulunu, apardığı buğda vaqonunun dublikatını almış və 2 gün həbsdə saxladıqdan sonra yalnız xəncərini qaytararaq buraxmışdılar. Apardığı buğda isə müsadirə edilmişdi (10, siy. 1, iş 40, v. 209).

Erməni zülmündən birtəhər canlarını qurtarıb Tiflisə gəlib çıxan azərbaycanlı qaçqınları Gürcüstanın hakimiyyət orqanları saxlayır, sənədləri olmadığına görə Azərbaycana buraxmırdılar (10, siy. 1, iş 40, v. 169).

1919-cu il dekabrın 29-da müvəkkil Topçiyev Himayəçilik Nazirliyinə yazdığı məktubda Ermənistanda baş verən talanlar nəticəsində gün ərzində 10-12 vaqona qədər qaçqının gəldiyini, onların yerləşdirilməsi üçün külli miqdarda vəsaitin lazım olduğunu bildirir, bunun üçün təcili olaraq iki qida məntəqəsinin açılması, 1 vaqon un və ya 1 mln. manat verilməsi xahiş olunurdu (10, siy. 1, iş 40, v. 200).

1918-1920-ci illərdə daşnakların Naxçıvana aramsız hücumlarının nəticəsində bölgənin sosial-iqtisadi və mədəni həyatı ağır vəziyyətə düşmüşdü. Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarında ermənilər 240-dan çox kənd dağıtmışdılar. Digər tərəfdən İrəvandan, Zəngəzurdan, Vedibasardan, Dərə-

ləyəzdən qovulmuş 500 min müsəlman qaçqının böyük bir hissəsinin Naxçıvana pənah gətirməsi vəziyyəti daha da mürəkkəbləşdirmişdi. Qaçqınlar arasında aclıqdan və xəstəlikdən ölənlərin sayı on minlərlə ölçülürdü.

İrəvan quberniyasından qovularaq Naxçıvana pənah gətirən qaçqınların vəziyyəti ilə bağlı çoxlu problemlər var idi. Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi Təkinski mütəmadi olaraq Naxçıvan bölgəsində qaçqınların ağır vəziyyətdə olmaları barədə Azərbaycanın DİN-nə, XİN-nə və digər hakimiyyət orqanlarına məlumat verirdi (11, siy. 1, iş 57, v. 96).

Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəliyi tərəfindən qaçqınlara müxtəlif yardımlar, o cümlədən pul yardımları edilirdi. M.X.Təkinski Naxçıvanda yerləşən qaçqınların, o cümlədən yerli əhalinin vəziyyəti ilə daha yaxından tanış olmaq və imkan daxilində onlara yardım etmək üçün nümayəndəliyin hərbi attaşesini 2 dəfə Naxçıvana göndərmiş və 400 min manat yardım etmişdi. Təkinski XİN-nə yazdığı məktubda bu barədə məlumat verərkən Milli Şuraya 300 min manat veriləcəyini, həmin pulların xərclənməsinin və bölüşdürülməsinin Rəhim xan Naxçıvanlının nəzarəti altında olacağını bildirir və qeyd edirdi ki, Naxçıvan Milli Şurası ona hesabat və smetanı verəcək. Daha sonra Milli Şuranın daha 6-7 mln. manat istədiyini qeyd edən Təkinski müsəlmanların həyatını qorumaq, onların rəğbətini qazanmaq və onların özlərini Azərbaycan hökümətinin vətəndaşları kimi hiss etmələri üçün onlara böyük miqdarda pul yardımı göstərilməsini zəruri hesab etmişdi (102, siy. 5, iş 74, v. 193-196).

Qaçqınlara yardım etmək üçün Naxçıvan, Şərur, Ordubad rayonları üçün Naxçıvan Milli Şurasına 400 min manat verilsə də, bu məbləğ onların ehtiyaclarını ödəmirdi. Ona görə də, Azərbaycan höküməti bu bölgədə toplaşan çoxsaylı qaçqınların imkan daxilində problemlərinin qismən həllinə çalışırdı. Ermənilərin bu bölgəyə hücumları nəticəsində yerli əhalinin onsuz

da ağır olan vəziyyəti daha da ağırlaşmış, çoxsaylı qaçqınların Naxçıvana axını isə dözülməz şərait yaratmışdı.

Ümumiyyətlə, qaçqınların sayı ilə bağlı arxiv sənədlərində və mətbuat səhifələrində müxtəlif rəqəmlərə rast gəlinir. Məsələn, AXC hökumətinin «Qaçqınların yerləşdirilməsi haqqında» məruzəsində 1919-cu il oktyabrın 1-i üçün Azərbaycanın hüdudlarında keçmiş İrəvan quberniyasından qaçqın düşən 39741 nəfər (5858 tüstü) yerləşdiyi qeyd edilirdi (9, siy. 2, iş 3, v. 6). Digər sənəddə bu rəqəm 5848 tüstü və ya 30741 kimi göstərilir (9, s.9, iş 40, v.5). «Azərbaycan» qəzetində isə Vedibasardan Ordubadadək ərazidə təxminən 70 minə qədər qaçqının məskunlaşdığı qeyd olunur («Azerbaydcan» qəzeti 31 oktyabr 1919 il; 84, 188). Qeyd edildiyi kimi Makinskinin 1919-cu il sentyabrın 9-da göndərdiyi «Ermənistanda müsəlman əhalisinin iqtisadi və siyasi vəziyyəti» haqqındakı məlumatında 40-50 min nəfər qaçqına ərzaq, tibbi və s. yardımların göstərilməsi xahiş olunurdu (19, siy. 2, iş 58, v. 67-69).

Naxçıvan Qaçqınlar Komitəsinin sədri B.Şahtaxtinski 1919-cu il dekabrın 3-də bölgə general-qubernatoruna göndərdiyi məktubunda qaçqınların siyahıya alınmasının başa çatdığı və tabeçiliyində olan qəzalardakı qaçqınların sayının 39005 nəfər olduğu bildirilirdi. (8, siy. 10, iş 20, v. 2).

Eyni zamanda B.Şahtaxtinski Naxçıvandakı qaçqınların ağır vəziyyətindən geniş bəhs edərək, qaçqınların vəziyyətinin fəlakətli olduğundan, çoxunun açıq havada gecələdiyi və müxtəlif otlarla qidalandıqlarından, lakin indi soyuqların düşməsi ilə onların bu imkandan da məhrum olduqlarından yazır və qeyd edirdi ki, hər gün 40-a qədər ölüm halları qeydə almaq mümkündür. Xəstələri isə saymaqla qurtarmır. 40 min qaçqının sonsuz bir uçurumun kənarında və qarşısıalınmaz ölüm təhlükəsi qarşısında olduğunu bildirən B.Şahtaxtinski, əgər tezliklə mərkəzdən təcili və real kömək gəlməsə, onların hamısının son nəfərinə kimi məhv olacağını proqnozlaşdırırdı (8, s.10, iş 20, v. 2).

Ermənilərin vəhşilikləri nəticəsində Zəngəzurun qərb hissəsindən Naxçıvan və Ordubad mahallarına pənah gətirən qaçqınların problemləri ilə Azərbaycan Himayəçilik Nazirliyinin nəzdində yaradılmış 6 müvafiq şöbədən biri məşğul olurdu. Zəngəzur qaçqınlarının problemləri ilə bağlı hətta idarələrarası komissiya da yaradılmışdı (18, siy. 9, iş 40, v. 26). Naxçıvanda isə Qaçqınlar Komitəsi yaradılmış, ona əvvəlcə M.Əmirov, sonra isə B.Şahtaxtinski başçılıq etmişdir (87, 188).

Naxçıvan bölgəsində qaçqınların yerləşməsi və təminatlarının ödənilməsi sahəsində müəyyən işlər görülmüşdü. 1919-cu il sentyabrın 15 və 29-da Naxçıvan general qubernatorunun bölgə Qaçqın Komitəsinin sədri M.Əmirova yazdığı məktublarda qaçqınların problemlərinin həllinə dair proqramın hazırlanması, komitənin Şərur və Ordubadda şöbələrinin yaradılması üçün nümayəndələr göndərilməsi göstərilirdi. Şərur-Dərələyəz qəza rəisinin 1919-cu il oktyabrın 1-də M.Əmirova göndərdiyi təliqədə isə qaçqınların Arazdəyən və Dəvəli ərazilərində yerləşdirilməsi imkanları araşdırılırdı (87, 189).

1919-cu il sentyabrın 21-də Şərur qəza rəisinin, sentyabrın 27-də Qaçqınlar komitəsinin Ordubaddakı müvəkilləri M.Ağalarov və Ə.Fəttahovun B.Şahtaxtinskiyə, öz növbəsində bu məktublar əsasında B.Şahtaxtinskinin 1919-cu il dekabrın 3-də general-qubernator S.Cəmillinskiyə göndərdiyi məktubda bölgədəki qaçqınların ağır vəziyyətdə olmaları, Zəngəzurdan və başqa yerlərdən 1500 nəfər qaçqının Ordubada gəlməsi ilə daha da acınacaqlı şəraitin yaranması, həmçinin qaçqınların saxlanması üçün maliyyə-ərzaq imkanlarının çox aşağı səviyyədə olduğu göstərilirdi (87, 189).

Bölgədəki qaçqınların yerləşdirilməsi və təminatı sahəsindəki qüsurlar, qaçqınlar üçün ayrılan maliyyə vəsaitindən sui-istifadə halları vəziyyəti daha da ağırlaşdırırdı. Müvafiq qurumlar arasındakı əlaqəlrin düzgün qurulmaması, onlar arasındakı qarşılıqlı iradlar da qaçqınların problemlərinin həllini gecikdirirdi. 1919-cu ilin oktyabrında S.Cəmillinski tərəfindən

Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsinə göndərdiyi məktubda göstərilirdi ki, «... mahalda aclıq və xəstəlikdən gündə 300 nəfərədək qaçqının öldüyü bir şəraitdə Azərbaycan hökümətinin qaçqınlar üçün hələ qışda ayırdığı 2 mln. manatın gec, yəni apreldə, həm də yalnız 400 mininin buraya çatması, onun da müəyyən hissəsindən sui-istifadə olunması hallarına yol verilməsi» yerlərdəki xoşagəlməz vəziyyətdən xəbər verirdi (87, 190).

Azərbaycan Parlamentinin 1919-cu ilin oktyabrın 14-də keçirilən iclasında Zəngəzur qəzasından millət vəkili M.Sadıxov bölgədəki hərbi-siyasi vəziyyət ilə bağlı məsələlər qaldırmaqla yanaşı 27 min nəfər qaçqının dözülməz şəraitdə yaşamalarından, dövlətin ayırdığı 18 mln. manatdan yalnız çox cüzi hissəsinin qaçqınlara çatmasından, vəsaitin əsas hissəsinin məmurların ciblərinə getməsindən bəhs etmişdir (10, s. 1,iş 74, v. 82).

1919-cu il noyabr ayının axırlarında Ovçu-Şabadin və Kığı dərəsinin 25-dən artıq kəndinin müsəlman əhalisinin öz doğma yurdlarından qovularaq Naxçıvana pənah gətirməsi bölgədəki ictimai-siyasi vəziyyəti daha da ağırlaşdırdı (102, siy. 5, iş 74, vər. 236-237).

1919-cu ilin sonu – 1920-ci ilin əvvəllərində Naxçıvan bölgəsi ətrafında yaranmış vəziyyətdən istifadə edən İran Naxçıvana yiyələnməyə və yaxud buranın ermənilərin əlinə keçməsinə çalışmışdı. M.Mirbabayevin ADR-in XİN-nə göndərdiyi 1919-cu il 20 dekabr tarixli məktubunda göstərilirdi ki, rəsmi Tehran ingilis və ermənilərin təhriki ilə Naxçıvan və onan ətrafındakı 60 mindən çox yerli əhalini İrana köçürməyə, bununla da bölgəni zəiflədib daşnakların planlarının reallaşması üçün münasib şərait yaratmağa çalışırdı. Qeyd olunurdu ki, «... əgər təxminən 60 min qaçqın İrana köçərsə, ermənilər vilayəti ələ keçirib Zəngəzurla birləşərlər və Bakını təhlükə altına alarlar...» (87, 100; 18, s.2, iş 58, v.150).

1919-cu il fevralın 2-də Naxçıvan general-qubernatorunun Naxçıvandakı iranlı casusdan aldığı məlumatdan aydın olur ki, İran hökuməti onun ölkəsinə gəlmək istəyən azərbaycanlı qaçqınları qəbul etmək üçün öz sərhədlərinə xüsusi məmurlar göndərmiş və torpaq sahələrinin ayrılması da daxil olmaqla onlara hər cür yardım göstəriləcəyini bildirmişdi (87, 190).

M.Mirbabayevin ADR-in XİN-nə göndərdiyi məktubunun Naxçıvana aid hissəsində Naxçıvan general-qubernatoruna diyarda qaçqınların müdafiəsi üçün kömək göstərilməsi, İranın ingilislər və ermənilərlə əlaqəyə girərək müsəlman qaçqınları şirnikləşdirib öz ərazisinə köçürmək və bununla da Naxçıvan rayonunu zəiflətmək və daşnaklara bu mahala soxulmaq imkanı yaradılması göstərilmişdi (8, siy. 10, iş 78, vər.23). O, haqlı olaraq Naxçıvan general-qubernatorunun bölgəyə qoşun göndərmək və mahaldakı qaçqınlara yardım göstərilməsi xahişinə tezliklə əməl edilməsini lazım bilirdi.

1920-ci ilin yayında daşnak hökuməti Zəngibasar və Vedibasardan Culfayadək olan ərazilərə hücum edərək bu yerlərdən azərbaycanlı əhalini təmizləməyə çalışırdı. Bu yerlərin əhalisi qaçqınlara çevrilərək müxtəlif yerlərə – Cənubi Azərbaycana, Bakıya, Tiflisə və s. bölgələrə səpələndi. Ermənilərin hücumu zamanı tək Zəngibasarda 816 qaçqın Arazda boğulmuş, 160 min nəfər isə İranda açıq havada qalmışdır (87, 248). 1920-ci il yanvarın 19-da Azərbaycan Respublikasının Dövlət Müdafiə Komitəsi Zəngibasar qaçqınlarına kömək üçün Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəliyinin sərəncamına 2 mln. manat ayırmışdı (11, siy.1, iş 62, vər.58).

Naxçıvanda yerli əhalinin və buraya cəmlənmiş qaçqınların şəraiti ağır olmaqda idi, onların əksəriyyəti aclıq içərisində idi. 1920-ci il sentyabrın 20-də RSFSR XKS Leninin göstərişi ilə Naxçıvana 100 min pud pulsuz buğda və 1 vaqon tibb ləvazimatı göndərilmişdi (102, siy.5, iş 13, vər.16-17).

1920-ci il sentyabrın 22-də 28-ci diviziyanın rəisi Nesterovskinin XI Qızıl Ordunun rəisinə göndərdiyi teleqramda daşnakların törətdikləri qırğından qaçıb Naxçıvanda məskunlaşmış qaçqınların sayının təqribən milyona çatdığını, onların çox ağır şəraitdə, açıq havada, Araz sahilində lüt, ac, taqətdən düşmüş vəziyyətdə yaşadıqları bildirilirdi (78, 33-34).

Azərbaycan İnqilab Komitəsinə göndərilmiş məktubların birində açıqca göstərilirdi ki, əgər Sovet hökuməti gələn məhsul ilinə qədər yardım göstərməzsə, Ordubaddan başlamış Zəngibasara, Vediyə qədər bütün əhali məhv ola bilər (78, 64).

1920-ci il sentyabrın 25-də Naxçıvanda qaçqınlara yadım üzrə Fövqəladə Komissiya yaradıldı. Komissiyaya inqilab komitələrindən 1 nəfər, sosial-təminat, səhiyyə, kommunist özəklərindən, həmçinin Qızıl Ordu hissəsindən 1 nəfər daxil idi. Fövqəladə Komissiya İnqilabi Komitəyə tabe idi. Bununla yanaşı, Fövqəladə Komissiyaya müstəqil olaraq qaçqınların vəziyyətini yüngülləşdirmək üçün müəyyən etdiyi şeyləri əhalidən müsadirə etmək hüququ verildi (99, siy.1, iş1, vər.78). Qaçqınlar və yoxsul kəndlilər natura ilə alınan bütün vergilərdən azad edildilər.

Ermənistan hökuməti qaçqınların öz doğma yurdlarına qayıtmalarına icazə vermirdi. Naxçıvana gələn qaçqınların sayı-hesabı yox idi. Onları yerləşdirmək mümkün deyildi. Bu barədə Ermənistan Daxili İşlər Komissarlığı ilə Naxçıvan Vilayət İcraiyyə Komitəsi arasında yazışmalar aparılsa da, heç bir nəticə vermədi. Zəngəzur qəzasının Xortuz kəndindən didərgin düşmüş 189 nəfər qaçqın doğma yurdlarına buraxılmadıqlarına görə Arınc kəndinə və Culfanın boş səhralarına səpələnmişdilər. Zırnel kəndində 9 tüstü yerləşmişdir (99, s.1, iş 70, vər. 18-25).

Zəngibasar, Şərur, Dərələyəz, Şahtaxtıdan Cənubi Azərbaycana pənah aparan qaçqınların vəziyyəti xeyli ağır idi. Burada toplanmış 45 mindən çox qaçqının əksəriyyəti aclıqdan və xəstəlikdən ölmüşdü.

Azərbaycan İnqilab Komitəsinin əhali arasında təbliğat aparmaq üçün Naxçıvana göndərdiyi nümayəndə heyəti 70 min qaçqının İranda, 400 min nəfərin isə Naxçıvan ətrafında açıq havada qalmasını bildirir, onların öz yaşayış yerlərinə qaytarılmaları üçün təcili tədbirlərin görülməsini xahiş edirdi. Yaranmış vəziyyətdən çıxmaq üçün Naxçıvan İK Təbrizdə Naxçıvanın ticarət nümayəndəliyini yaratmışdı. Lakin maliyyə çətinlikləri onun geniş fəaliyyət göstərməsinə imkan vermirdi (87, 248).

Naxçıvan diyarına İranın irtica qüvvələri xeyli ziyan vururdular. Onlar nəinki diyarın ac əhalisinə çörək satmır, hətta iqtisadi blokadaya almışdılar.

Naxçıvan İnqilab Komitəsi avqust ayının II yarısından başlayaraq sovet quruculuğu sahəsində ilk tədbirlər həyata keçirməyə başladı. Bu tədbirlər sırasında qaçqınların işi ilə daha ciddi məşğul olmaq üçün Naxçıvan İnqilabi Komitəsi nəzdində geniş səlahiyyətlərə malik xüsusi Qaçqınlar Komitəsi yaradılması da var idi.

Naxçıvan İnqilab Komitəsi qaçqınları yerləşdirmək, çörəklə, yaşayış yerləri ilə təmin etmək üçün Azərbaycan hökumətinə, XI Qızıl Ordunun Hərbi Şurasına, RSFSR hökumətinə, Maku sərdarına, Xoy hakiminə müraciət etdi. Lakin əsas məsələ onları öz doğma yurdlarına qaytarmaq və təhlükəsizliklərini təmin etmək idi. Ermənistan hökuməti müxtəlif bəhanələrlə azərbaycanlıların öz doğma yurdlarına qayıtmalarına əngəllər törədirdi. Ermənistan SSR XXİK-nin müavini Karinyanın 1920-ci il iyulun 5-də Naxçıvan mahalının komissarına göndərdiyi teleqramda İranda ticarət agentliyinin müvəkkili Paşa xan Makinskini Culfa vasitəsilə kütləvi surətdə Ermənistan ərazisinə gedən qaçqınlara vəsiqə verdiyi, həmin qaçqınların Zəngibasar, Qəmərli, Qars və digər rayonların əhalisi olduğu qeyd edilir, «qeyri-nizami axının və epidemik xəstəliklərin güclənməsinin qarşısının alınması» bəhanə gətirilərək «müsəlman qaçqınların Ermənistana hərəkətini müvəqqəti dayandırılması

xahiş» edilirdi (102, siy.5, iş 15, vər.3). Naxçıvan Respublikasının XXİK-ı Qədimov Ermənistanın XXİK-na göndərdiyi 6 iyul 1917-ci il tarixli cavab teleqramında qaçqınların Ermənistan ərazisinə hərəkətinin müvəqqəti dayandırılması barədə İran konsulu ilə danışıqlar aparıldığını nəzərə çatdırmış, eyni zamanda Ermənistan hökumətindən Naxçıvan Respublikası ərazisinə də qaçqınların hərəkətinin dayandırılması barədə oxşar göstəriş verməsini xahiş etmişdi (102, s.5, iş 16, v.36). Karinyan 1920-ci ilin sentyabrında eyni məzmunlu xahişlə Azərbaycan SSR XXİK Hüseynova da müraciət etmişdi (102, s.5, iş 16, v.2).

«Qaçqınların axınını dayandırmaq» xahişi təbii ki, məktubda göstərildiyi kimi, «yoluxucu xəstəliklərin qarşısını almaq» məqsədi deyil, daha uzaqgörənliklə işlənib hazırlanmış siyasətin tərkib hissəsi idi. Ermənilər qaçqınların geri qayıtması ilə əhalisinin əksəriyyətini təşkil edən həmin ərazilərdə demoqrafik vəziyyətin yenidən azərbaycanlıların xeyrinə dəyişməsini istəmir, buna görə də qaçqınların geri qayıtmalarına mane olmağa çalışırdılar.

1921-ci il avqustun 13-də Ermənistan XXİK Mravyan Naxçıvan İnqilab Komitəsinin sədrinə göndərdiyi məktubda ondan İrandan gəlib Sovet Ermənistana gedən qaçqınların hamısından Ermənistanın İrandakı qaçqınlarla iş üzrə səlahiyyətli nümayəndəsi Vartanyanın imzası olan vəsiqə tələb edilməsi barədə Culfadakı sərhədlərə göstəriş verməsini xahiş edir, əks təqdirdə göstərilən vəsiqə olmadan heç kimin Ermənistana buraxılmayacağı bildirilirdi (102, s.5, iş 16, v.39).

. RSFSR Baş səfirliyi katibinin 1921-ci il 16 sentyabr tarixli məruzəsində Ermənistana qayıdan qaçqınların Culfada qeydə alındığı, qaçqınların məsələsi ilə məşğul olmaq üçün İnqilab Komitəsinin nümayəndəsi Kəngərlinskinin Culfaya ezam edildiyi, Xoy, Mərənd və digər yerlərdən qaçqınların hər gün dəstə-dəstə Təbrizə gələrək vətənə göndərilməsi üçün yalvardıqları bildirilir və sentyabrın 2-dək Ermənistana daha 626

azərbaycanlı qaçqın göndərildiyi haqqında məlumat verilirdi (78, 341).

1921-ci ilin II yarısında Zəngəzurun bir hissəsini tamamilə ələ keçirmiş Ermənistan hökuməti müxtəlif bəhanələrlə azərbaycanlı qaçqınların öz yerlərinə qayıtmalarına dair əldə olunmuş razılaşmalara nəinki əməl etmədi, eyni zamanda orada qalmış az miqdarda azərbaycanlı əhalini də sıxışdırmağa başladı.

Ermənistan İnqilab Komitəsinin qəbul etdiyi «Qaçqınlar haqqında» qərar azərbaycanlıların öz doğma yurdlarından qovulmasının yeni mərhələsinin əsasını qoydu (12, siy.1, iş 6, vər.1). Qərarda «müxtəlif yerlərdən Ermənistana üz tutan böyük qaçqın axını» «Ermənistanın ərazisinin azalması ilə bağlı bəzi vilayətlərdən köçürülən qaçqınlarla yüklənməsi» və «ölkənin ərzaq, mənzil və nəqliyyat cəhətdən düşdüyü böhranlı vəziyyəti» nəzərə alaraq ərzaq, nəqliyyat və yer məsələləri nizama salınanadək Ermənistana yollanan qaçqınları dayandırmaq xahişi ilə Şimali Qafqazın, Azərbaycanın Sovet hökumətlərinə və Naxçıvan İnqilab Komitəsinə müraciət edilmiş, bütün sərhəd dəstələrinə qaçqınları Ermənistan ərazisinə buraxmamaq tapşırılmışdı (12, s.1, iş 6, v.1).

Ermənistan hökuməti həmin qərarı əsas götürərək noyabrın 16-da Azərbaycan hökumətindən «Zəngəzurun iqtisadi və ərzaq cəhətdən olduqca ağır vəziyyətini nəzərə alaraq, göstərilən şərait dəyişilənədək müsəlman qaçqınların həmin qəzaya göndərilməsini dayandırmağı» xahiş edirdi (5, siy 1, iş 126, vər.69).

Ermənistan rəhbərliyi əsassız bəhanələrlə azərbaycanlı qaçqınları qəbul etmədiyi halda, müxtəlif ölkələrdəki ermənilərin Ermənistanda – azərbaycanlıların tərk etdikləri kəndlərdə yerləşdirilməsinə çalışırdı. Ermənistan hökuməti dünyanın bir sıra ölkələrinin hökumətlərinə müraciət edərək Ermənistana gələn ermənilərə yardım göstərməyi xahiş etmişdir. Buna cavab olaraq Britaniya missiyası Naxçıvan SSR XKS-ə müraciət

edərək İrəvana 2 mln pud arpa, 300 pud buğda, yun və digər malların göndərilməsinə icazə verilməsini xahiş etmişdi. Bu xahişə Naxçıvan SSR XKS-nin 1922-ci il 10 avqust tarixli iclasında baxılmış, çörək məhsullarının və yunun göndərilməsinə icazə verilmiş, duz, pendir və yağ göndərilməsinə isə ümumi qaydada icazə verilməmişdi (100, siy.1, iş2, vər.129).

Müxtəlif ölkələrdən gələn ermənilərin Ermənistanda xüsusən Zəngəzurda yerləşdirilməsi ilə burada yaşayan azərbaycanlıların sıxışdırılması prosesi daha da gücləndi. Hətta 1922-ci ilin aprelində keçirilən II Azərbaycan Sovetlər qurultayı bu prosesdən öz narahatlığını bildirmiş, Zəngəzur qəzasında dinc əhalinin silah gücünə öz yaşayış yerlərindən çıxarılmaları ilə bağlı hansı tədbirlər görüldüyü barədə Azərbaycan hökumətinə sorğu ilə müraciət etmişdi (87, 296).

Bir tərəfdən Ermənistan hökuməti guya qaçqınların talelərinə biganə qalmadığını bildirir, hətta İranda məskunlaşmış azərbaycanlı qaçqınların Ermənistan SSR ərazisinə qaytarılmasını tezləşdirmək üçün bu işlə məşğul olan komissiyaya müraciət edir (136,s.460-461), digər tərəfdən isə qaçqınların öz doğma vətənlərinə qaytarılmasını məhdudlaşdıran siyasət yeridirdi (102, s.5, iş 15, v.3).

N.Nərimanov başda olmaqla Azərbaycan İnqilab Komitəsi Naxçıvanı ağır vəziyyətdən xilas etmək, əhalinin və burada yerləşən qaçqınların çörəyə, ərzaq mallarına olan ehtiyaclarını müəyyən qədər də olsa, ödəmək üçün yollar axtarırdı. Bu məqsədlə N.Nərimanov Çiçerinə və Stalinə müraciət edərək İranın gümüş tümənindən istifadə etməklə Makudan taxıl tədarük etməyi xahiş edirdi (120, 62).

N.Nərimanovun bu məktubuna RK(b)P MK Siyasi Bürosunda baxılmış və Naxçıvan üçün Maku xanlığından ərzaq alınması haqqında qərar qəbul edilmişdi. N.Nərimanov Naxçıvanda olan Ermənistan qaçqınlarının və Naxçıvan əhalisinin ehtiyacları üçün RSFSR Xarici Ticarət Komissarlığının Naxçıvandakı müvəkkilliyinə 5 mln. manat qızıl pul, 70 mln manat

İran gümüş tümənininin göndərilməsinə sərəncam vermişdi (120, 64). İranda taxıla dəyişdirmək üçün Yevlax stansiyası bazasından 2 sistem neft göndərilməsi barədə göstəriş verilmişdi. Naxçıvandakı yerli əhalinin və qaçqınların vəziyyəti isə doğrudan da ağır idi. 1921-ci il martın 8-də Naxçıvan şəhərində keçirilən iclasda İbrahim Şahtaxtinski bildirmişdi ki, «8 gündən artıqdır ki, kazarmalar nəzdində olan qida məntəqələrində bədbəxt qaçqınlara bir misqal da olsun, çörək buraxılmır, baxmayaraq ki, sovet hökuməti yoxsul siniflərin hökuməti hesab olunur (82, siy.5, iş 70, vər.18). 1921-ci il aprelin 29-da Azərbaycan İnqilab Komitəsinin İclasında Şahtaxtinskinin Naxçıvanın siyasi və iqtisadi vəziyyəti barədə məruzəsi dinlənildi (102, s.5, iş 16, v.17-22).

Məruzədə daşnakların hücumu nəticəsində Naxçıvanda yaranmış mürəkkəb vəziyyətin geniş təsviri verilmiş, xüsusən qaçqınların dözülməz şəraitdə yaşadıqları, hər gün minlərlə insanın aclıqdan, xəstəlikdən öldüyü qeyd edilmişdi. Əhalini məhv olmaq təhlükəsindən xilas etmək üçün Sovet Rusiyasına müraciət edilərək İrandan taxıl, əhalinin məşğuliyyəti üçün isə barama toxumu, bostan toxumu almaq üçün qızıl valyuta ilə kömək göstərilməsi xahiş edilirdi (102, s.5, iş 16, v.7-22).

Bu məruzə əsasında Azərbaycan İnqilab Komitəsi İrandan satın olmaq yolu ilə Naxçıvan əhalisinin ərzaq məhsullarına olan tələbatını ödəmək üçün pul vəsaiti ayırdı.

Naxçıvan əhalisinə yardım tək dövlət xətti ilə deyil, tanınmış xeyriyyəçilər tərəfindən də edilirdi. Azərbaycan milyonçusu H.Z.Tağıyev qaçqınların ehtiyacları üçün 5 min manat gümüş pul göndərmişdi.

Naxçıvan Qaçqınlar Komitəsinin sədri vəziyyətin ağır olduğunu nəzərə alaraq əhaliyə müraciət etmişdi. Müraciətdə Naxçıvanda 40 minə yaxın qaçqının cəmləşdiyi, yerli hakimiyyət orqanlarının bu qaçqınlara lazımi səviyyədə kömək etmək imkanına malik olmadıqları qeyd olunur və «özlərinin siyasi yetkinliyini və əyilməz iradəsini dəfələrlə isbat etmiş» Naxçı-

van şəhərinin vətəndaşlarından qaçqınlara yardım göstərməyə dəvət edilirdi.

Lakin bütün bunlara baxmayaraq qaçqınlıq və aclıq problemlərinin aradan qaldırılması mümkün deyildi. 1921-ci ilin quraqlıq keçməsi 1918-1920-ci illərdən yaranmış vəziyyəti daha da kəskinləşdirmiş, Naxçıvanda yerli əhalinin və qaçqınların vəziyyəti daha da ağırlaşmışdı. Qaçqınlar ot ilə qidalanırdılar ki, bu da ölüm hallarının çoxalmasına səbəb olmuşdu. Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin xətti ilə ABŞ nümayəndəliyi Naxçıvanda və onun qəzalarında pulsuz yemək məntəqələri açmış, Naxçıvan qaçqınlarına yardım göstərmək, yetimxanalar, yeməkxanalar, məktəblər və s. təşkil etmək üçün Rusiyanın Qırmızı Xaç Cəmiyyəti özünün Zaqafqaziyadakı nümayəndəliyi vasitəsilə pul, ərzaq və tibbi ləvazimat ayırmışdı. Lakin Gürcüstan hakimiyyət orqanları bu əmlakı və pulu müsadirə etmişdir.

Naxçıvan özünün ağır vəziyyətdə olmasına baxmayaraq İrəvanda qalan azsaylı azərbaycanlılara da yardım edirdi. Belə ki, Naxçıvan Dairəsi İnqilab Komitəsinin 1921-ci il 16 aprel tarixli qərarı ilə Naxçıvana ayrılmış paydan 500 pud toxumluq buğda Vedibasarda acınacaqlı vəziyyətdə yaşayan azərbaycanlılara göndərilmişdi (102, siy.5, iş 9, vər. 120-124).

İrandan Naxçıvana azərbaycanlı qaçqınların yeni-yeni dəstələri gəlməkdə davam edirdi. 1971-ci ilin may ayında 750 nəfər, iyun ayında isə 850 nəfər azərbaycanlı qaçqın Naxçıvana gəlmişdir. Lakin Təbrizdə bir neçə min nəfər azərbaycanlı qaçqın az-susuz, açıq havada qalmışdılar (102, s.5, iş 9, v.120-121).

Zaqafqaziya Diyar Komitəsinin 1921-ci ilin sentyabrından Naxçıvana hər ay 10 min pud taxıl göndərmək haqqında qəbul etdiyi qərar ləng həyata keçirilirdi (100, s.1, iş 13/3, vər.21).

Naxçıvan qəzası özünün bütün ehtiyatlarını qaçqınlara və Qızıl Orduya vermiş, heyvan və ev əşyaları 1920-ci ildə hərbi

vaxtın qanunlarına uyğun olaraq müsadirə edilmişdi. Nəticədə 1921-ci ilin yazında Naxçıvan çıxılmaz və ağır vəziyyətə düşmüşdü. Mahalın İnqilab Komitəsinin bütün qonşu Sovet Respublikalarına ərzaq və maliyyə yardımı üçün etdiyi müraciət cavabsız qalmışdı. Naxçıvan sovet qonşularına pulsuz duz göndərməklə onlardan kömək gözləsə də, heç bir nəticəsi yox idi. Ona görə də, Naxçıvan İnqilab Komitəsi mahalı düşdüyü ağır vəziyyətdən çıxarmaq və onu ölüm təhlükəsindən qurtarmaq üçün Naxçıvan Vilayət Xalq Təsərrüfatı Şurasına duz mədənlərində işi genişləndirməyi, işçilərin sayını 100 nəfərə çatdırmağı, toxunulmaz ərzaq və pul fondunun yaradılmasını təklif etdi. Eyni zamanda, Xarici Ticarət Komissarlığına tapşırdı ki, Ermənistan, Gürcüstan və Azərbaycan İnqilab Komitələri ilə danışıqlar aparıb duzun mübadiləsi yolu ilə ərzaq məhsulları alınsın (100, s.1, iş1, v.62-63).

1921-ci il sentyabrın 20-də RSFSR XKS əhalini və qaçqınları aclıqdan xilas etmək və payız əkinini başa çatdırmaq üçün 100 min ton buğda və 1 vaqon səhiyyə avadanlığı, habelə dərman göndərilməsi haqqında qərar qəbul etdi (102, s. 5, iş 62, v. 84).

1922-ci il iyulun 9-da Naxçıvan SSR və Ermənistan SSR-ə aid olan qaçqınlar məsələsi ZSFSR-in İttifaq Sovetində müzakirə edildi. (102, s.5, iş 74, vər.81-83). İttifaq Soveti qaçqınların Ermənistan SSR-dən Naxçıvana və Naxçıvan SSR-dən Ermənistana yerdəyişməsini qadağan edən birtərəfli qərar qəbul etdi. Bu qərar Ermənistandan olan 28 min nəfər azərbaycanlı qaçqının Naxçıvanda saxlanılmasını qanuniləşdirdi. Məhz bu qanun əsasında Naxçıvanda, o cümlədən Ordubad qəzasında olan qaçqınların öz doğma yurdlarına – Zəngəzur qəzasına qayıtmalarına icazə verilmədi (102, siy.5, iş 74, vər.129-133).

1922-ci il iyunun 9-da qaçqınlarla iş üzrə komissiyanın iclasında, Təbriz şəhərində olan 300 nəfər erməni qaçqının Ermənistana göndərilməsi, 500 nəfər Zəngəzur qaçqınının isə Naxçıvanda yerləşdirilməsi haqqında ziddiyyətli qərar qəbul

olundu. İttifaq Sovetinin nəzdində qaçqınlar məsələsi ilə məşğul olan orqanın yaradılması barədə qərar da qəbul olundu (102, s.5, iş 62, v.49).

1922-ci il martın 28-də Bakı şəhərində Naxçıvanın daimi iqtisadi nümayəndəliyi açıldı (99, s.1, iş 17/7, v.55). Nümayəndəliyin açılmasında məqsəd Naxçıvana yardım etməkdən ibarət idi.

Naxçıvan SSR XKS-nin 1922-ci il aprelin 25-də keçirilən iclasında qaçqınlar məsələsi müzakirə edildi. B.Şahtaxtınskiyə tapşırıldı ki, bütün imkanlardan istifadə edərək qaçqınların yeməklərinin keyfiyyətni artırsın, gündəlik çörək normalarını, onların geyimlərini və tibbi yardım göstərilməsi işini yaxşılaşdırsın. Bu məsələləri həll etmək üçün Şirinov və Y.Naxçıvanski onun sərəncamına verildi. Qaçqınlarla işin təşkilinə nəzarət Hidayət Sultanova tapşırıldı (99, s.1, iş 9a/65, v.1).

Lakin görülən bu tədbirlərə baxmayaraq Naxçıvanda vəziyyət yenə də ağır olaraq qalırdı. Yerli hakimiyyət aclığın qarşısını qismən də olsa, almağa qadir deyildi.

Naxçıvanda yaranmış gərgin vəziyyəti 1922-ci ilin mayında yazılmış hesabat məruzəsindən də açıq-aydın görmək mümkündür. Hesabat məruzəsində dövlətdən yardım alan əhalinin sayı aşağıdakı kimi göstərilmişdi:

1) Ordubad qəzasında yerləşdirilən Zəngəzur qaçqınları – 4 min nəfər;

2) Naxçıvan SSR-dəki düşərgələrdə yerləşdirilən qaçqın uşaqlar – 1000 nəfər;

3) Düşərgələrdə yer çatışmadığına görə kənarda qalmış qaçqın uşaqlar – 2000 nəfər;

4) Qida məntəqələrindən istifadə edən aclar – 1500 nəfər;

5) Aclıq çəkən, məhsul olmadığına görə yoxsulluğun son həddinə çatan yerli əhali: Şərur qəzasında 30.000 nəfər, Ordubad qəzasında 10.000 nəfər, Naxçıvan qəzasında 10.000 nəfər (cəmi 50.000 nəfər);

6) Sovet qulluqçuları ailələri ilə birlikdə, polisi çıxmaq şərtilə – 3000 nəfər;

7) Duz mədənlərinin fəhlələri 60 nəfər və onların ailəsi – hər bir ailə orta hesabla 5 nəfərdən – cəmi 300 nəfər;

8) Naxçıvan Respublikasının xəstəxanalırnda olan xəstələr – 100 nəfər (cəmi 3640 nəfər) (102, siy.5, iş 70, vər.18-25).

Bu rəqəmlər Naxçıvanda əhalinin təqribən 90%-nin aclıq çəkdiyini göstərirdi.

1923-cü ilin yazından başlayaraq Naxçıvanın aclıq çəkən əhalisinə və qaçqınlara paylanmaq üçün buğda və arpa göndərilmiş və diyarın yaşayış məntəqələrinə bərabər paylanmışdı. 1923-cü il mayın 8-də İrandan gəlmiş azərbaycanlı qaçqınların yeni dəstəsi Culfada yerləşdirildi. Onların zəruri mallarla təmin olunmaları üçün 50 mln. manat avans buraxıldı (99, s.1, iş 14/7, v.9, 21, 24-28).

Naxçıvana çörək verilməsi sahəsindəki vəziyyət daha ağır idi. Naxçıvan Respublikasına ayrılması nəzərdə tutulan 50 min pud taxıl əvəzinə cəmi 8 min pud taxıl verilmişdi, bu da Naxçıvan əhalisini aclıqdan çıxarmaq üçün kifayət deyildi (102, s.5, iş70, v.18-25).

1923-cü il mayın 13-də Zəngibasar rayonunun Çobankərə kəndindən qaçqın düşən və ilk əvvəllər Xanlıqlar kəndində yerləşən azərbaycanlı qaçqınlar da Culfanın boş səhralarında yerləşdirildilər (99, s.1, iş 14/7, v.23). Lakin onlar orada yaşamaq istəməyərək, öz doğma yerlərinə qayıtmaq üçün müraciət etdilər. 1923-cü il iyunun 4-də Naxçıvan Vilayət İcraiyyə Komitəsi onların yerinə Xortuz kəndinin qaçqın əhalisini yerləşdirməyi qərara aldı. Lakin Ermənistan hökuməti nəinki Çobankərə, eyni zamanda Zəngibasar rayonunun Kərimarxı kəndinin azərbaycanlı əhalisinin öz yerlərinə qayıtmasına imkan vermədi. Kərimarxı, Çobankərə, Milli Dərəsi, Qulubəyli və s. kəndlərin qaçqın əhalisi Naxçıvanın Əliabad kəndində yerləşdirildi.

Ermənistan hökuməti Ermənistanda az miqdarda qalmış azərbaycanlıları sıxışdırıb çıxarmaqda davam edirdi. Ona görə

də, Naxçıvan Vilayət İcraiyyə Komitəsi ZSFSR İttifaq Sovetinin 1922-ci il 12 iyun tarixli qərarını əsas götürərək Ermənistandan Naxçıvana gələn qaçqınların dayandırılmasını tələb etdi (99, s.1, iş 14/7, v.43). Ermənistanın Qaraçuq kəndindən olan və Naxçıvanın Qaraxanbəyli kəndində yaşayan 10 ailə öz doğma yurdlarına qayıtmaq üçün müraciət etsələr də, onların geri qayıtmasına Ermənistan hökuməti icazə vermədi (94, s.1, iş 2, v.161-143).

Ermənistan nəinki azərbaycanlıların geri qayıtmalarına icazə vermir, hətta Naxçıvandan olan çox az sayda olan erməniləri də qəbul etmək istəmir, onların Naxçıvanda qalmalarına çalışırdı. 1923-cü il avqustun 6-da Naxçıvan MİK-si tərəfindən Ermənistan SSR DİN-nə göndərilmiş məktubda İttifaq Sovetinin 1922-ci il iyulun 9-da qəbul etdiyi qanuna uyğun olaraq İrandan gəlmiş və müvəqqəti olaraq Culfa və Əylisdə yaşayan 300 nəfər erməni qaçqının Sovet Ermənistanına göndərilməsi, Naxçıvanda boş qalmış evlər və torpaqların Zəngəzur, Sisyan və Vedidən gəlmiş azərbaycanlı qaçqınlara paylanması barədə məlumat verilirdi (102, s.5, iş 74, v.68).

Lakin Ermənistan hökuməti həmin qaçqınları Sovet Ermənistanında boş torpaq sahələrinin olmadığını əsas götürərək qəbul etməkdən imtina etmiş, Naxçıvan Vilayət İcraiyyə Komitəsindən onların Naxçıvan Vilayətində yerləşdirilmələrini xahiş etmişdi (102, s.5, iş 66, vər.44).

Naxçıvan Vilayət İK-si erməni qaçqınlarını müvəqqəti olaraq Əylis və Culfada o şərtlə yerləşdirmişdi ki, Ermənistan MİK-si sonradan həmin qaçqınları Ermənistan ərazisində yerləşdirmək üçün yer ayıracaq. Lakin Ermənistan MİK-si bu məsələ ilə bağlı heç bir iş görmək istəmirdi. 1923-cü ilin sentyabr ayında Naxçıvan Vilayət İK-nin Əylisdə və Culfada yerləşdirmiş Zəngəzur qaçqınlarının torpağın azlığı ilə əlaqədar vaxtaşırı şikayətlərinə əsaslanaraq, həmçinin onların iqtisadi vəziyyətlərinin aşağı olmasını nəzərə alaraq Ermənistan hökumətinə Culfa və Əylisdə yaşayan erməni qaçqınlara ərazinin ayrılması

barədə müraciət etmiş və çox təəcüb doğuran bir məqam vurğulanmışdı ki, bu xahiş mənfi cavab alındığı təqdirdə Vilayət İK-si torpağın çatışmamasına baxmayaraq, onları (ermənilləri – M.A.) Naxçıvan ərazisində yerləşdirməyə məcbur olacaq (102, s.5, iş 67, v.47-48). Naxçıvan Vilayət İK-sinin bu addımı həm Ermənistanı, həm də Zaqafqaziya MİK-sini çox təəccübləndirmiş, hətta Zaqafqaziya MİK-nin katib əvəzi Şaverdov 1923-cü il sentyabrın 6-da Naxçıvan Vilayət İK-nə teleqramına göndərərək Təbrizdən Əylis və Culfaya öz yaşayış yerlərinə qayıtmış 300 nəfər erməni qaçqınının yerləşdirilməsi barədə Vilayət İK-nin qərarının olub olmadığını dəqiqləşdirmək istəmişdi (102, s.5, iş 67, v.52).

Ermənistan hökuməti azərbaycanlı qaçqınları öz doğma yerlərinə buraxmadıqları halda, millətlərarası toqquşma zamanı Naxçıvandan Ermənistana və ya İrana gedən azsaylı ermənilər yenidən Naxçıvana qayıdır və əvvəlki yaşayış yerlərində yerləşidirilirdilər. Əylis və Culfa ermənilərindən əlavə, məlum hadisələrdən sonra Təbrizə getmiş Cuğa kəndinin erməni sakinləri Naxçıvan əhalisiinin etirazlarına baxmayaraq, RSFSR-in Təbrizdəki konsulunun və Naxçıvan İnqilab Komitəsinin sədri Qədimovun «köməklikləri» sayəsində öz kəndlərində yerləşdirildilər. Bu kənddə yerləşmiş Dəvəli və Zəngəzurlu qaçqın ailəsi isə Cuğa kəndinin ermənilərinin Naxçıvan İnqilab Komitəsinə yazdıqları şikayət ərizələrinə əsasən oradan çıxarılmış və Şərur rayonunun Xanlıqlar kəndində məskunlaşdırılmışdır (102, işl, iş 67, v.53-55). 1923-cü ilin may ayında Naxçıvan Xalq Torpaq Komissarlığının 50 təsərrüfatdan ibarət Zəngəzur qaçqınlarının Cuğa kəndində yerləşdirməsinə ermənilər yenə də imkan verməmişdilər (102, s.5, iş67, v.53-55).

1923-cü il oktyabrın 1-də Azərb.KP MK-nın Rəyasət heyətinin iclası keçirildi. İclasda Vəlibəyovun Naxçıvan Vilayətində qaçqınlarla işin təşkili vəziyyəti barədə məruzəsindən sonra qaçqınların kənd təsərrüfatı vergilərindən azad edilmələri qərara alındı (15, s.74, iş 133, v.184 və arxası).

1923-cü il sentyabrın 23-də Azərb.KP Naxçıvan Vilayət Komitəsinin iclası keçirildi. İclasda qaçqınlar məsələsi müzakirə olundu. Bu barədə Mahmudbəyov məruzə etdi. Məruzədə Zaqafqaziya XKS-nin 12 iyun 1922-ci il tarixli dekretindən sonra yaranmış qeyri-normal vəziyyətə diqqət yetirildi. Vilayətdə qaçqıqların sayının çox olması ilə əlaqədar torpaqların çatışmaması və s. məsələlər müzakirə edildi (15, s.74, iş 133, v.201).

Naxçıvan SSR-də qaçqınların yerləşdirilməsi, onların torpaqla, təsərrüfat alətləri və toxumla təmin edilməsi məsələsi Naxçıvan SSR Xalq Torpaq Komissarlığına həvalə edilmişdi.

Naxçıvan Yer quruluşu komissiyasının 28 fevral 1924-cü il tarixli iclasında qaçqınlar məsələsinin müzakirəsindən sonra qərara alındı ki, ilk növbədə yerli əhaliyə, sonra isə 1922-ci ilin sentyabrın 1-ə qədər Naxçıvanda yerləşmiş qaçqınlar torpaqla təmin edilsinlər. Torpaqların çatışmaması halında qaçqınların Dövlət fondundan torpaqla təmin edilmələri qərara alındı (81, s.1, iş 37/58, v.3). 1924-cü il martın 5-də Zəngəzurdan olan və Culfanın boş səhralarında və kəndlərində yaşayan azərbaycanlı qaçqınlara torpaq paylandı (99, s.1, iş 37/58, v.6).

1924-cü il fevral ayında Dərələyəz qəzasının Qızılca kəndinin azərbaycanlı əhalisi öz doğma yurdlarından çıxarıldıqlarına görə onlar Ulya Noraşen kəndində yerləşdirildilər (99, s.1, iş 37/58, v.3). Naxçıvan XKS-nin 1924-cü il 9 aprel tarixli qərarı ilə Zəngəzur və Sisyan qaçqınları Güznüt və Nehrəmdə yerləşdirildilər (99, s.1, iş 35/51, vər.12).

1924-cü il sentyabrın 1-də Naxçıvan SSR XKS-nin Rəyasət Heyəti Əliabad kəndində yerləşdirilmiş qaçqınların öz doğma yurdlarına qayıtmaları barədə xahişləri ilə əlaqədar Ermənistan MİK-nə müraciət etdi (99, s.1, iş35/51, v.37). Lakin Ermənistan hər dəfə olduğu kimi, bu dəfə də müraciəti cavabsız qoydu.

Vedibasar qəzasının Şidli kənd sakinləri və Sürməli qəzasının Qaraxanlı kənd sakinləri ermənilər tərəfindən sıxışdırıl-

dıqlarına görə, 1924-cü il sentyabrın 16-da Mərkəzi Torpaq Komissiyasına müraciət edərək onların Naxçıvan Respublikasında yaşamalarına icazə verilməsini xahiş etdilər (99, s.1, iş 39/58, v.8).

Ermənilər təkcə azərbaycanlıları deyil, eyni zamanda digər millətləri də sıxışdıraraq Ermənistandan qovurdular. Məsələn, Ermənistandan qovulan Şavlik tayfasının 65 tüstüdən ibarət olan kürdləri Naxçıvan SSR Xalq Torpaq Komissarlığına 1924-cü il sentyabrın 25-də ərizə ilə müraciət edərək onların Şərur qəzasının Başki və Qanlı Sufat kəndlərində yerləşdirilmələrini xahiş etmişdilər. Yenə də 20 tüstüdən ibarət olan kürdlər ərizə ilə müraciət edərək Şərur qəzasının Sardaştı kəndində yerləşmələrinə icazə verilməsini xahiş etmişlər. Hər iki halda onların yerləşmələrinə icazə verilmişdi (99, s.1, iş 39/58, v.9). Bundan başqa, 300 tüstüdən ibarət olan və məlum hadisələr zamanı qaçqın düşərək Şamaxıya qaçan Ermənistanın Bazarçay kəndinin molokan millətindən olan qaçqınlarının Naxçıvanda yerləşdirilmələri barədə xahişinə də əməl olundu (99, s.1, iş 39/58, v.15). 1924-cü il sentyabrın 25-də Zəngibasar rayonunun Milli Dərəsi kəndinin 30 tüstüdən ibarət olan qaçqınları Naxçıvanda yerləşmək üçün icazə istədilər (99, s.1, iş 39/58, v.13). Onlar Əliabad kəndində yerləşdirildilər.

Ermənistandan gələn qaçqınların hesabına Naxçıvan SSR-in əhalisinin sayı xeyli artdı. Əgər 1925-ci il yanvarın 1-ə olan məlumata görə Naxçıvan SSR-də əhalinin sayı 91.679 nəfər idisə (o cümlədən 15.054 nəfər şəhər əhalisi) qaçqınların yenidən geri qayıtmaları nəticəsində əhalinin sayı artaraq 100 min nəfərə çatmışdır (102, s.5, iş 66, v.16).

Ermənistandan qovulan azərbaycanlıların yerlərində xaricdən gətirilən ermənilər yerləşdirildi. Onlara yüksək səviyyədə şərait yaradılır, hər cür xidmət göstərilirdi. 1925-ci il sentyabrın 21-də Zaqafqaziya MİK-nin Rəyasət Heyəti Yunanıstandan gətirilən erməniləri qəbul etmək üçün ZSFSR XKS, Ermənistan SSR XKS, Acarıstan XKS, XXİK-nın, Sərhəd Müha-

fizəsi və Acarıstan MK nümayəndələrindən ibarət xüsusi komissiya yaratdı (99, s.1, iş 47/104, v.26). Xaricdən gələn ermənilərin qəbulu və yerləşdirilməsi üçün Zaqafqaziya XKS-nin fondundan ermənilərin Batumdan İrəvana qədər xərclərinin ödənilməsi üçün Ermənistan XKS-nə 20 min manat pul buraxıldı (99, s.1, iş 47/104, v.51).

1925-ci il oktyabrın 10-da Türkiyədən gələn ermənilər SSRİ-də yaşamaq üçün icazə istədilər. Artvindən 35, Trapezunddan 16 erməni ailəsi Ermənistanda azərbaycanlıların tərk etdikləri kəndlərdə yerləşdirildilər (99, s.1, iş 31/57, vər.19).

1925-ci il noyabrın 9-da Zaqafqaziya MİK-si ZSFSR daxilində qaçqınlar məsələsini öyrənmək üçün aşağıdakı tərkibdə komissiyanın yaradılması haqqında qərar verdi: A.Şaverdov – sədr, üzvlər – Hüseynov M.D., Lukaşin S., Ximşiaşvili X., Bünyadzadə D., Qeqeçkori A., Boqdatev S. (99, s.1, iş 43/122, vər.32).

Məlum hadisələr zamanı bir sıra yerlərə, o cümlədən Gürcüstana qaçan naxçıvanlı qaçqınlar 1926-cı il iyulun 5-də Zaqafqaziya MİK-nin Rəyasət Heyətinə müraciət edərək öz doğma yerlərinə qayıtmalarını xahiş etdilər. Rəyasət Heyəti bu məsələnin həllini ZSFSR daxilində qaçqınlar məsələsini öyrənən komissiyaya həvalə etdi. Eyni zamanda, komissiyaya 2 ay müddətində vaxt verildi ki, ZSFSR daxilində qaçqınların vəziyyətini öyrənsin və lazımi tədbirlər planı hazırlayıb Zaqafqaziya MİK-nin Rəyasət Heyətinin təsdiqinə versin (99, s.1, iş 43/122, v.32).

Ermənilərin Naxçıvana hücumları ilə əlaqədar Sədərək kəndinin də əhalisi müxtəlif yerlərə səpələnmişdilər. O cümlədən kəndin 14 təsərrüfatı Qutqaşen rayonunun Sabir kəndində yerləşmişdi. Lakin burada yerləşən əhalinin iqlim şəraitinə uyğunlaşa bilməməsi nəticəsində 66 nəfərdən 20-si ölmüşdü. Həmin sakinlər geri qayıtmaq üçün Sədərək kənd sovetinə müraciət etmiş və kənd sovetliyinin 4 noyabr 1933-cü il tarixli qərarı ilə onların Sədərəkdə yerləşmələrinə icazə verilmişdi. Bu

məsələ Naxçıvan MİK-nin Rəyasət Heyətinin 1933-cü il noyabrın 10-da keçirilən iclasında müzakirə edildi, 14 təsərrüfatdan və 46 nəfərdən ibarət sakinlərin Sədərəkdə yerləşdirilmələrinə icazə verildi. Naxçıvan Xalq Torpaq Komissarlığına tapşırıldı ki, 20 gün müddətində onlara torpaq verilisin ki, həmin il əkin əkə bilsinlər. Rayon İK-nin sədri İsmayılovun şəxsi cavabdehliyi altında Şərur rayon İK-nə tapşırıldı ki, 10 gün müddətində onların yerləşdirilməsini təşkil etsin (99, s.1, 166/276, vər.2).

Ermənistan hökuməti nəinki azərbaycanlıları öz doğma yurd-yuvalarından sıxışdırıb çıxardır, hətta tədricən Azərbaycan torpaqlarını hissə-hissə ələ keçirməyə başlamışdı. Sovet hökumətinin onlara bu sahədə böyük yardımından istifadə edən Ermənistan Azərbaycanın, o cümlədən də Naxçıvanın xeyli hissəsini ələ keçirməyə nail olmuşdu.

Beləliklə, ermənilərin xarici dövlətlərin və Sovet Rusiyasının fəal yardımı və köməkliyi sayəsində qədim Azərbaycan torpaqlarından azərbaycanlı əhalisini qovub çıxarmaları nəticəsində 150 mindən artıq azərbaycanlı qaçqınlıq həyatı yaşamağa məcbur oldular.

1917-1920-ci illərdə Ermənistanda olan müsəlman kəndlərinin əksəriyyəti daşnak quldurları tərəfindən darmadağın edilmiş, salamat qalan əhali isə Azərbaycana, o cümlədən Naxçıvana pənah gətirməli olmuşdu. Lakin Naxçıvanın özü də tezliklə daşnak hücumlarına məruz qaldığından onların bir çoxu, eləcə də yerli əhalinin müəyyən hissəsi öz doğma yurdlarını tərk edərək Arazın o tayına qaçmağa məcbur olmuşdu.

Lakin Ermənistan və Naxçıvan Sovetləşəndən sonra da qaçqınların öz doğma torpaqlarına qayıtmalarına Ermənistan hökuməti imkan verməmiş, onlar Naxçıvanda məskunlaşmışdılar.

# III FƏSİL
# XX ƏSRİN II YARISINDA AZƏRBAYCANLILARIN DEPORTASİYASI VƏ NAXÇIVAN

## 3.1. 1948-1953-cü illər deportasiyası və Naxçıvan

20-30-cu illərdə erməni millətçiliyi, onun lideri «Daşnaksutyun» öz təcavüzkar məqsədlərinin həyata keçirilməsi üçün real şəraitin olmadığını nəzərə alaraq bir qədər gözləmə mövqeyində durmağı üstün tutmuşdular.

Onlar üçün belə münbit şərait İkinci Dünya müharibəsinin son mərhələsində yarandı. Sovet rəhbərliyi Türkiyənin faşist Almaniyası ilə yaxın münasibətlərdə olduğunu əsas gətirərək ona qarşı iddialar irəli sürərək, boğazları öz nəzarəti altına almaq üçün bir sıra hərbi, siyasi və diplomatik addımlar atmağa başladı. Erməni diasporu, daşnaklar beynəlxalq münasibətlərdə yaranmış bu şəraiti özləri üçün əlverişli hesab edərək avantürist məqsədlərini reallaşdırmaq üçün konkret fəaliyyətə girişdilər.

Erməni millətçilərinin əsas tələbləri: 1) Türkiyəyə qarşı əvvəlki ərazi iddialarını davam etdirərək, onun şərq vilayətlərini ələ keçirmək; 2) Ermənistan SSR-in mövcud ərazisini Azərbaycan və Gürcüstan hesabına genişləndirmək; 3) Ermənistan SSR-də yaşayan yerli azərbaycanlıları oradan deportasiya etməklə onların yaşadıqları ərazilərdə xaricdə yaşayan erməniləri məskunlaşdırmaq.

Hələ Tehran konfransının gedişində erməni diasporunun nümayəndələri SSRİ Xarici İşlər Naziri V.Molotova müraciət edərək Sovet rəhbərliyindən xaricdə yaşayan ermənilərin Ermənistan SSR-ə köçməsinə razılıq verməsini xahiş etmişdilər.

Müharibə qurtardıqdan dərhal sonra erməni millətçiləri Dağlıq Qarabağın Azərbaycandan qoparılması üçün yeni qəsdə əl atdılar. Xaricdəki ermənilərin bu niyyətləri Ermənistan SSR-nin Kommunist rəhbərliyinin fəal köməyi ilə həyata keçirilirdi. 1945-ci ilin payızında Ermənistan K(b)P MK katibi H.Harut-

yunov respublika rəhbərliyi adından ÜİK (b) P MK-ə, İttifaq hökumətinə müraciət edərək Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-nin tərkibinə qatılması məsələsinə baxılmasını xahiş etdi. Həmin məktubda müəllif ölkə rəhbərliyini çaşdırmaq məqsədi ilə ağ yalanlar uydurmaqdan belə çəkinməmiş, «Dağlıq Qarabağın Ermənistan ərazisinə bitişik olduğu», vilayətin 153 minlik əhalisinin 137 minini ermənilərin təşkil etdiyi», «Dağlıq Qarabağın kənd təsərrüfatının Ermənistanın dağlıq hissəsi ilə eyni olduğu» haqqında açıq-aşkar yalan yazaraq Dağlıq Qarabağın Ermənistana qatılmasının onun inkişafına müsbət təsir göstərəcəyi, əhaliyə ana dilində mədəni-kütləvi və siyasi xidmətin yüksələcəyi, yerli kadrlara Ermənistanın ali məktəblərində öz təhsillərin ana dilində davam etdirmək imkanı verəcəyi haqqında məntiqsiz iddialar irəli sürmüşdü.

H.Harutyunovun təklifi ilə əlaqədar Azərbaycan rəhbərliyinin rəyini öyrənmək üçün ÜİK(b) P MK katibi Malenkov M.C.Bağırova teleqram göndərmişdi (15, s.169, iş 249/I, v.2).

M.C.Bağırov özünün 15 dekabr 1945-ci il tarixli cavab məktubunda əvvəlcə Dağlıq Qarabağın tarixinə qısa ekskurs edərək, onun Azərbaycan tarixində rolundan, DQMV-in yaranması şəraitindən bəhs etmiş, ermənilərin iddialarının əksinə olaraq DQ-ın Ermənistana bitişik olmadığını və Sovet hakimiyyəti dövründə muxtar vilayətin Azərbaycanın tərkibində iqtisadi, mədəni sahədə əldə etdiyi uğurlardan danışmış, eyni zamanda çevik siyasi manevr edərək Şuşa istisna edilməklə DQMV-in Ermənistan SSR-in tərkibinə daxil edilməsinə etiraz etmədiyini bildirmişdi. Lakin eyni zamanda Bağırov ermənilərin planlalarını darmadağın etmək üçün əks-hücuma keçərək Ermənistanın Azərbaycana bitişik və əhalisinin əsasən azərbaycanlılardan olan Əzizbəyov, Vedi və Qarabağlar rayonunun Azərbaycana verilməsi məsələsini təklif etmişdi. Bu rayonlarla yanaşı, M.C.Bağırov Sovet rəhbərliyindən Gürcüstan SSR-in azərbaycanlıların yaşadığı Borçalı rayonunu və Dağıstanın Dərbənd və Qasımkənd rayonlarını Azərbaycana daxil edilməsi

təklifini müzakirə etməyi xahiş edirdi (15, s.169, iş 249/I, v.3-6A).

Göründüyü kimi, Azərbaycan tərəfi ermənilərin təkliflərinə zahiri loyallıq göstərsə də, onlara qarşı əks ərazi iddiaları irəli sürməklə erməniləri neytrallaşdırmağa çalışır və birtərəfli ərazi iddialarının zəncirvari reaksiya doğuracağını ittifaq rəhbərlərinin nəzərinə çatdırırdı.

Həmin dövrdə erməni avantüristləri öz iddialarını yalnız Dağlıq Qarabağla məhdudlaşdırmayaraq, «qədim erməni ərazisi» hesab etdikləri Naxçıvanın da Ermənistana verilməsini həyasızcasına tələb edirdilər. Daşnaklar öz proqram sənədlərində, mətbuat səhifələrində «erməni məsələsinin ədalətli həlli» kimi qonşu dövlətlərin ərazilərinin ilhaqını başa düşürdülər. Bu baxımdan 1947-ci il iyun ayında Tehranda keçirilmiş Daşnaksütyun partiyasının 14-cü qurultayının direktivləri diqqəti cəlb edir. Konqresin gələcək siyasi fəaliyyət xətti adlanan hissəsinin I maddəsində başlıca məqsəd kimi vahid, müstəqil və azad Ermənistan yaradılması elan edilir, III maddədə isə bu məqsədə çatmağın əsas yolu kimi «Vilson sərhədlərində Sevr razılaşmasının həyata keçirilməsinin tələb edilməsi» bildirilirdi (15, s.221, iş 78, v.17).

Xatırladaq ki, 1920-ci ilin avqustunda Sevr müqaviləsi imzalanarkən Ermənistan sərhədləri haqqında məsələ həll edilməmiş qalmış, Atlanta dövlətləri bu məsələnin həllini ABŞ prezidenti Vilsona həvalə edərək, onun irəli sürəcəyi təkliflərlə razı olacaqlarını bildirmişdilər. Vilson isə ermənilərin bütün iddialarına şərik çıxaraq Türkiyənin Şərqi Anadolu (Trapezund, Ərzurum, Qars vilayətlərini), Azərbaycanın Naxçıvan, Qarabağ, Göyçə gölü ətrafı əraziləri, Zəngəzur, Gəncə mahalının dağlıq hissəsini Ermənistana verilməsinə razı olmuşdu. Lakin Vilsonun bu qərarı kağız üzərində qalmış, Türkiyə tərəfindən darmadağın edilən daşnaklar onunla bağladıqları Aleksandropol müqaviləsinə görə faktik olaraq Sevr müqaviləsindən imtina etməli olmuşdular.

Sevr müqaviləsi və «Vilson sərhədləri» öz əhəmiyyətini itirsə də daşnaklar sonrakı dövrlərdə inadla ona istinad edərək, bu «məsələyə münasibətdə barışmaz mövqe tutan qüvvələri erməni məsələsinin düşmənləri hesab edəcəklərini və onlara qarşı mübarizə aparacaqlarını, bununla yanaşı bu məsələnin həyata keçməsində yardımçı olan qüvvələrlə əməkdaşlıq edəcəklərini» bildirirdirlər (maddə 4).

Konqresin «İri dövlətlərə münasibətdə bizim mövqeyimiz» adlı hissəsində böyük dövlətlər və beynəlxalq ictimaiyyət erməni xalqını aldatmaqda ittiham olunur, Sovet İttifaqını isə silah gücünə «ana vətənin müstəqilliyini boğmaqda», «erməni torpaqlarını birləşdirmək üçün bircə addım belə atmamaqda» və hətta «Ermənistanın Zaqafqaziya daxilindəki sərhədlərin birləşdirmək niyyətində olmamasında» günahlandırılırdı (15, s.221, iş 78, v.19). Burada heç şübhəsiz, Azərbaycanın Yuxarı Qarabağ və Naxçıvan torpaqları nəzərdə tutulurdu.

Müharibədən sonra rəsmi Ermənistan rəhbərliyinin, eləcə də xaricdəki ermənilərin əsas təbliğat məsələlərindən biri repatriasiya məsələsi oldu. Bu zaman erməni millətçiliyi repatriasiya məsələsinin həllini «erməni məsələsinin digər tərəflərinin uğurlu həll edilməsi zərurəti» ilə bağlayırdı.

Məlumdur ki, erməni millətçi dairələrinin xaricdə yaşayan ermənilərin öz tarixi vətənlərinə qayıtması ilə bağlı Sovet rəhbərliyinə etdiyi müraciətlər cavabsız qalmamış, SSRİ Ali Soveti Rəyasət Heyətinin 1946-cı il 19 oktyabr tarixli fərmanlı ilə ermənilərin kütləvi repatriasiyası qanuniləşdirilmişdi. Maraqlıdır ki, həmin fərmanda SSRİ-yə qayıdan ermənilər emiqrant və ya deemiqrant deyil, repatriant (vətənə qayıdan) adlandırılmış, bununla da onlar digər millətlərdən fərqləndirilmişdilər. Sovet rəhbərliyi erməniləri kütləvi surətdə Azərbaycan torpaqlarında yerləşdirməklə 1) Azərbaycanın Zaqafqaziyadakı mövqeyini zəiflətmək; 2) Türkiyəyə qarşı Sovet təcavüzkarlıq planının ciddiliyini sübut etmək; 3) Stalin Milli siyasətinin müdrikliyini nümayiş etdirmək məqsədi güdürdü (109, 57).

Lakin diaspor ermənilərinin Ermənistan SSR-ə repatriasiyası yalnız diaspor üzərində şəriksiz ideoloci və siyasi təsirə malik Daşnaksütyunun «Ermənistan sərhədlərinin genişləndirilməsi» və «oradan azərbaycanlıların deportasiyası» şərtinin yerinə yetirilməsi ilə mümkün ola bilərdi. Nəticədə, daşnakların hazırladıqları ssenari həyata keçirilmiş oldu: repatriantların əksəriyyətini əməkçi kütlələr deyil, daşnak təbliğatı ilə silahlanmış ünsürlər təşkil etdi. Onlar sözdə Sovet hakimiyyətinə öz loyallıqlarını bildirsələr də, vətənə «erməni məsələsi» naminə fəaliyyətlərini davam etdirmək məqsədilə gəlmişdirlər. Z.Bünyadovun qeyd etdiyi kimi «Əsasən Ayrikyan, Manuçaryan, yaxud Daşnaksütyun MK-nin üzvünün qızı Kaputikyan kimi daşnak kütləsi köçüb gəlmişdi» (164, s.121-167).

Repatriasiya və azərbaycanlıların deportasiyası məsələsində xaricdəki daşnak rəhbərliyi ilə Ermənistan SSR rəhbərliyi arasında qibtə ediləcək bir həmrəylik mövcud idi. Hər iki tərəf repatriasiyanın yalnız Ermənistana əlavə ərazilərin verilməsi və oradan azərbaycanlıların çıxarılması şərti ilə mümkün olacağına işarə vururdular. Daşnaksütyunun adı çəkilən XIV konqresinin qəbul etdiyi direktivlərin «Repatriasiya» adlanan bölməsinin III bəndində göstərilirdi ki, «Kütləvi repatriasiya erməni torpaqlarının azad edilməsi və Ermənistanın sərhədlərinin genişləndirilməsi ilə bağlıdır» (15, s.221, iş78, v22).

Eyni zamanda daşnaklar mütəşəkkil və təminatlı koloniyalardan kütləvi mühacirətə qarşı çıxaraq SSRİ-nin özündə erməni kütlələrinin olduğunu və onların da repatriasiya planına daxil edilməsini tələb edirdilər (əlbəttə, azərbaycanlıların yaşadıqları kənd ərazilərində – A.M.).

Ermənistan SSR hakim dairələri ilə daşnakların mövqelərinin üst-üstə düşdüyünü göstərən digər dəlil: Həmin dövrdə xaricdəki daşnak müəlliflərindən biri bu barədə yazırdı: Ermənistan kommunistləri ölkənin ağır taleyi üçün bizimlə eyni dərəcədə narahatdırlar. Hansı erməni kommunisti razı olar ki, Qarabağın və Gəncənin ermənilər yaşadığı dağlıq hissələri

Azərbaycanın tərkibinə daxil olsun? Bugünkü Ermənistan xəritəsinə bir diqqət yetirək: Naxçıvan diyarının Azərbaycanla hər hansı bir coğrafi bağlılığı varmı? (15, s.221, iş 78, v.42-43).

Müəllif Gürcüstan və Türkiyəyə olan iddiaları da yada salaraq SSRİ rəhbərliyindən Türkiyədən ermənilərə məxsus torpaqların geri almağın bir sıra çətinliklərlə bağlı olduğunu, lakin «sırf daxili məsələ olan torpaqlar» (Azərbaycana və Gürcüstana aid torpaqlar – A.M.) barədə nə üçün sərəncam vermək istəmədyini soruşur. Sonra belə bir nəticəyə gəlir ki, «Ermənistan türklərin işğal etdikləri torpaqları, habelə Azərbaycana və Gürcüstana hədiyyə edilmiş torpaqları özünə qaytarmalıdır. Ermənistan kommunistlərinin bunu istəmədiyini demək düzgün olmazdı. Onlar bunu istəyirlər, lakin bacarmırlar. Bizim kimi onlar da buna rüsvayçılıq və ədalətsizlik kimi baxırlar» (15, s.221, iş 78, v.42-43).

Ermənilərin repatriasiya ilə bağlı planlarından söhbət gedən digər məqalədə isə qeyd edilirdi ki, «Kütləvi emiqrasiyanı yalnız o vaxt gerçəkləşdirmək mümkündür ki, onun tarixi torpaqları, təəsüf ki, hələlik işğalçıların (Türkiyənin – A.M.) əlində, yaxud da qonşu respublikalarda (Azərbaycanda və Gürcüstanda – A.M.) olan torpaqları erməni xalqına qaytarılsın». Məqalədə Sovet rəhbərliyindən inciklik ifadə olunur və göstərilirdi ki, Moskva xaricdəki ermənilərin yarısını Ermənistana köçürməyi planlaşdırıb, ancaq bu hələlik kağız üzərində qalmaqdadır. Axı Qarabağ, Gəncə, Axalkalaki və Naxçıvan öz əsil sahiblərinə qaytarılmadığı halda o qədər əhalini harada yerləşdirmək olar (15, s.221, iş78, v.48-49).

Göründüyü kimi daşnaklar ermənilərin repatriasiyasının yalnız qonşu ölkələrin torpaqlarına yiyələnmək hesabına həyata keçirilməsini arzulayır və ümid edirdilər. Onların bu planlarında Naxçıvan xüsusi yer tuturdu. Bu məqsədlə onlar Qərb dövlətlərini başqalarına, öz mətbuat orqanlarında belə bir sərsəm ideyanı dünya ictimaiyyətinə sırımaq istəyirdilər ki, Naxçıvansız Ermənistan məhvə məhkumdur. Bu baxımdan Saak

Ztçyan adlı daşnak publisistinin Tehranda çıxan «Alik» qəzetinin 25/26 avqust 1948-ci il tarixli (№190-191)» sayında dərc edilmiş «Naxçıvanın Ermənistan üçün əhəmiyyəti» adlı məqaləsi xarakterikdir. Məqalənin əvvəlində Ermənistan saçı dibinə qədər qırxılmış gəncə, Naxçıvanı isə həmin gəncin boğmaq üçün kəsilmiş boğazına oxşadan müəllif bunun əsas günahkarlarını Türkiyə və Sovetlər olduğunu göstərir və iddia edir ki, 1921-ci ildə türklər Moskva-Qars müqaviləsinə görə Naxçıvanın Azərbaycana məxsus olmasına nail olublar. Sonra isə məqalədə qeyd olunur ki, bu gün Sovet hökuməti 27 illik siyasi intriqadan sonra Türkiyə ilə münasibətlərini kəsib bu müqavilənin (1925-ci ildə bağlanmış sovet-türk müqaviləsi nəzərdə tutulur – A.M) qüvvədən düşdüyünü elan etdiyi bir zamanda Naxçıvanın Azərbaycana verildiyi razılaşmanı da ləğv etmək və onu Ermənistana qaytarmaq vaxtı çatmışdır. Müəllifə görə bu «Sovet İttifaqının və ermənilərin mənafelərinə uyğundur. Naxçıvan Ermənistanın tarixi və coğrafi hissəsini təşkil edir, ona qaytarılmalı olan torpaqların bir hissəsidir və İrandan öz vətənlərinə qayıdan ermənilərin yaşaması üçün ən yaxşı yer olacaqdır» (15, siy.221, iş 78, v.50). Bu ideyanı əsaslandırmaq üçün S.Ztçyan belə bir tezisi ortaya atır ki, SSRİ-ni və erməni xalqının siyasi, iqtisadi və hərbi tələbatları Naxçıvanın Ermənistana qaytarılmasını tələb edir. Guya Moskva razılaşması ilə Naxçıvan Ermənistandan gələcək bir sıra siyasi niyyətlər məqsədilə qoparılmışdır (15,s. 221, iş 78, v.50).

Oxucuları uydurma «pantürkizm» və «panislamizm» təhlükəsinə inandırmaq üçün müəllif hipotetik sovet-türk müharibəsini təsvir edir və göstərir ki, hərbi münasibətdə Naxçıvan Ermənistanın ayrılmaz hissəsini təşkil edir və Sovet İttifaqı ilə Ermənistanın təhlükəsizliyini təmin edəcək amil kimi həmişə belə olmalıdır. Müəllifin xəstə təxəyyülünə görə «gələcək müharibədə türklər Gənc Malazgirt və Karin Malazgirt Bəyazid dəmiryolu xəttlərini birləşdirəcək, bir neçə türk topu İrəvan-Leninakan dəmiryolu xəttinə son qoyacaqdır. Bəyazid-Şahtaxtı

xətti boyu Naxçıvana, Zəngəzura, Qarabağa, Bakıya aparan yollara, həmçinin Culfa-Ələt-Bakı dəmiryolu xəttini ələ keçirildikdən sonra Sovet İttifaqının hərbi qüvvələrini darmadağın edəcək və Bakının neft sənayesini məhv edəcəkdir. Müəllifin qənaətinə görə, bütün bunların qarşısını yalnız bir yolla almaq olar: Naxçıvanı Ermənistana verməklə! Əks halda sabah artıq gec olacaqdır.

«Naxçıvanan Ermənistan üçün əhəmiyyəti» adlı məqalənin müəllifi yazır: «Naxçıvan 3000 və daha çox il ərzində tarixi Ermənistanın hissəsini təşkil etmişdir. O əski tarixi Ermənistanın beşiyidir». Bundan sonra kor bolşevik rəhbərliyini vicdanlı olmağa və buraxdıqları səhvi düzəltməyə çağırılırdı (15, s.221, iş 78, v.52). Bolşeviklərin sən demə səhvi ondan ibarətdir ki, «onların Moskva razılaşmaları ilə ermənilərin vətənini parçalamış, Qarabağı, Dağlıq Gəncəni, Borçalını, Axalkalakini, Axalçıxı və Naxçıvanı onlardan almışdır».

Ermənilərin Naxçıvan barədə canfəşanlığı onun sonrakı mülahizələrində aydın olur. «Naxçıvan ermənilərin mövcudluğunun ona görə rəhnidir» ki, onların vətəni sərt dağlıq ərazidə yerləşir və uzun əsrlər boyu yalnız 3 məhsuldar vahəyə – Ararat, Taron və Xarberd vahələrinə söykənmişdir. Son iki vahələri türklər zorla onlardan almış, Ararat vahəsinin dörddə üç hissəsini isə türklər öz pantürkist hökmdarlıqlarının altına almış, qalalarına isə göz dikərək bizi boğmağa çalışırlar.

Müəllifin nəzərinə görə Ermənistana yalnız Ararat vahəsinin məhsuldar və münbit iqlimli İrəvan hissəsi məxsusdur, və 25-30 ildən sonra İrəvan əhalisi çox böyük şəhərə çevrildikdən, Kəmərli, Vaqarşapat, Oşakan, Aştarak, Dvin, Artaşat şəhərlərinin əhalisi də artdıqdan sonra, hər kvadrat kilometrə 700-800 adam yerləşdirmək lazım gələcək və onda ermənilər bu vahədən və onun zəngin məhsullarından da məhrum olacaqlar. Buna görə də müəllif belə qənaətə gəlir ki, erməni xalqının mövcudluğu naminə Naxçıvan Ermənistana qaytarılmalıdır (15, iş 221, s.78, v.52). Məqalədə Sovet rəhbərliyindən tələb edilirdi

ki, o, zülmə məruz qalan erməni kəndlilərini gətirib Naxçıvan diyarında – Naxçıvanda, Qoxtanda, Ordubadda, Yeni Culfada, Şahtaxtıda yerləşdirməli və Ermənistan ilə yenidən birləşdirməlidir. Daşnaklara görə Naxçıvan məsələsi (yenə Naxçıvanın Ermənistana verilməsi – A.M.) Türkiyəyə qarşı torpaq tələblərinin həlli üçün qapılar açmağa və zərurət olarsa Avropa ilə daha qətiyyətlə danışmaq imkanı verər (15, s.221, iş 78, v.54).

Göründüyü kimi, Naxçıvan ermənilərin öz qonşularına qarşı ərazi iddialarının əsas həlqəsini təşkil edirdi. Onlar bu iddianı gerçəkləşdirdikləri təqdirdə heç şübhəsiz digər əraziləri də tələb etmək niyyətində idilər. Qonşulara əsassız torpaq iddiaları o dövrdə xarici daşnak mətbuatının əsas mövzularından biri idi. Bu mövzunun əsas təbliğatçıları sırasında keçmiş daşnak Ermənistanın nümayənədələri, o cümlədən baş nazir S.Vratsyan da var idi.

Həmin «Alik» qəzetinin 1949-cu il 25, 27 yanvar tarixili nömrələrində S.Vratsyan Ermənistan katalikosu Georqa müraciətində Sovet hakimiyyətinin erməni xalqına, onun ərazi iddialarına, xüsusən Naxçıvan və Dağlıq Qarabağ məsələsinə münasibətini kəskin tənqid edirdi.

Öz müraciətində daşnak lideri tarixi faktları təhrif etməkdən çəkinməyərək guya Moskva və Qars müqavilələrinə əsasən Stalinin «bütün Türkiyə Ermənistanını» türklərə güzəştə getdiyini, Naxçıvan və Şəruru isə Azərbaycana hədiyə verdiyini qeyd edirdi. Müraciətdə Naxçıvanla yanaşı Dağlıq Qarabağ, Axalkalaki və s. torpaqların da adı çəkilir və Sovet hökumətindən ədalətli mühakiməni yerinə yetirmək tələb edilirdi (15, s.221, iş 77. v.59).

Qonşu ərazilərin ilhaqına yönəlik təbliğat kompaniyasında Ermənistanın yaradıcı ziyalılar yaxından iştirak edirdilər. Bu da daşnak partiyasının XIV konqresinin direktivlərinə tam uyğun idi. Sovet reciminin sərt qanunlarına baxmayaraq həmin illərdə Ermənistanda başqa millətlərin, xüsusən türklərin miili hissiyatlarını təhqir edən bir sıra əsərləq işıq üzü görmüşdü.

Lakin milli ayrı-seçkiliyi təbliğ edən bu əsərlərin müəlliflərinə qarşı Stalinin repressiv recimi dövründə belə heç bir tədbir görülmürdü. Erməni tarixçiləri, filosofları bu sahədə ədəbiyyatçılardan geri qalmırdılar (109, s.67-74).

Erməni millətçilərinin açıq antitürk təbliğatı Azərbaycan kommunist rəhbərliyini ciddi reaksiyasına səbəb olmuşdu. Azərbaycan KP MK katibi M.C.Bağırov bu barədə bir neçə dəfə ittifaq orqanlarına, hətta MK-yə müraciət etmiş, bir sıra əsərlərin fitnəkar məzmunu barədə A.Cdanova, G.Malenkova, İ.Stalinə məktub göndərmişdi. Lakin bu müraciət və məktublar bir səmərə verməmişdi. 1949-cu ilin martında Stalinə göndərdiyi digər məktubunda M.C.Bağırov daşnakların xaricdə antisovet işinin davam etdiyindən, onların Sovet Ermənistanın ərazisinin Sovet Azərbaycanı (Dağlıq Qarabağ, Naxçıvan MSSR, Kirovabad və s.) və Sovet Gürcüstanının hesabına genişləndirmək tələblərindən narahatçılığını bildirir, məktubda daşnakların fitnəkarlığını və böhtanını sübut edən bir sıra sənədlər, o cümlədən Daşnaksütyün partiyasının IV konqresinin direktivləri, «Alik» qəzetinin yuxarıda istinad edilmiş məqalələri əlavə edilmişdi. Bağırov həmin məktubunda həmçinin Stalinin diqqətini son zamanlar SSRİ-də və Ermənistan SSR-də çıxmış və Zaqafqaziyada, o cümlədən Azərbaycanda baş vermiş mühüm hadisələr haqqında kitab və məqalələrə cəlb edir və belə bir məqamı vurğulayırdı ki, qeyri-obyektiv və şübhəli kitabların məzmunu daşnak cızma-qaraları ilə eyni səslənir (15, s.221, iş 78, v.4-5). Məktubda həmin müəlliflərdən konkret olaraq M.Şaginyanın «Sovet Zaqafqaziyası», Q.Xolopovun «Buxtada işıqlar» əsərinin adı çəkilirdi. Göründüyü kimi, Azərbaycanın o dövrkü rəhbərliyi daşnak təbliğatı ilə Sovet Ermənistanı ziyalılarının azərbaycanlılar, türklər əleyhinə yönəlmiş böhtan və yalanları arasında üzvi əlaqəni aydın görürdü. Məktubun sonunda M.C.Bağırov ümidini yalnız dahi rəhbərə bağladığını qeyd edərək göstərirdi: «Sizdən başqa heç kəs bizim üçün yaranmış həssas vəziyyətdə bizə kömək edə bilməz, buna görə də

bir daha Sizə müraciət edir və bu işi aydınlaşdırmaqda bizə kömək etməyi xahiş edirəm» (15, s.221, iş 78, v.5).

Lakin Azərbaycan rəhbərliyinin bu iddialarının heç bir əməli nəticəsi yox idi. Çünki azərbaycanlıların Ermənistanda deportasiyası haqqında qərar artıq 1947-ci ilin sonlarına qəbul edilmişdi. B.Nəcəfovun belə bir fikri ilə razılaşmaq olar ki, M.C.Bağırovun Kreml rəhbərlərinə göndərdiyi məktublar konkret məqsəd-«özünü və respublikanı yeni erməni iddialarından sığortalamaq» məqsədini güdürdü (109, s.76).

Göstərilən dövrdə ərazilərini qonşu xalqların torpaqları hesabına genişləndirməyə nail olmayan ermənilər özlərinin əsas strateci məqsədlərindən birinə – azərbaycanlıları öz dədə-baba torpaqlarından deportasiyasına nail ola bildilər. Xaricdən gələn erməni mühacirlərini yerləşdirilməsi üçün Ermənistanda kifayət qədər ərazinin olmamasına, yeganə çıxış yolu kimi orada yaşayan azərbaycanlıların deportasiya olunmalarına Stalini inandırmağa və onun razılığını almağa nail oldular. M.C.Bağırovun etirazı nəinki qəbul olunmamış, əksinə «xalqlar atasının» qəzəbinə səbəb olmuşdu.

Bu qəzəbin nə ilə nəticələnə biləcəyini yaxşı dərk edən M.C.Bağırov Stalinə ünvanlanmış 10 dekabr 1947-ci il tarixli məktuba Ermənistan K(b)P MK katibi T.A.Harutyunovla birgə imza atmağa məcbur oldu. Məktubda «Mingəçevir sisteminin həyata keçirilməsi zamanı yeni torpaq sahələrinin meydana gəlməsi və pambıqçılıq rayonlarının mövcud kolxozlarında işçi qüvvəsinin çatışmaması, habelə pambıq məhsuldarlığının yüksəldilməsi vəzifəsi Azərbaycan SSR-in bu rayonlarındakı əhalisinin artırılması məsələsinin ortaya çıxarılması» əsas gətirilir, Ermənistanda yaşayan azərbaycanlı əhalinin 130 min nəfər miqdarında həmin rayonlara köçürülməsi məsələsini» real həll olduğu göstərilirdi. Məktubda deportasiyanın həqiqi səbəbi – ermənilərin repatriasiyası məsələsi yalnız ötəri xatırlanır və qeyd edilirdi ki, «Azərbaycanlı əhalinin Ermənistandan Azərbaycana köçürülməsi xarici ölkələrdən öz vətənlərinə qayıdan

ermənilərin qəbul edilməsi və yerləşdirilməsi məsələsinin xeyli asanlaşdırmış olardı» və «Azərbaycanlı əhalinin köçürülməsi nəticəsində boşalmış torpaqlar və mənzillər Ermənistana qayıdan xarici ermənilər sırasından olan kəndlilərin məskunlaşdırılması üçün istifadə oluna bilərdi» (15, s.222, iş.48, v.1-2).

M.C.Bağırovun və T.A.Harutyunovun birgə məktubu Azərbaycanlıların kütləvi deportasiyası üçün «formal əsas» oldu. 13 gündən sonra 23 dekabr 1947-ci il SSRİ Nazirlər Soveti «kolxozçuların və digər azərbyaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» tələsik qərar qəbul etdi (15, s.22, iş 48, v.14-17). Üç aydan sonra SSRİ hökumətinin qəbul etdiyi digər sənəd «Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi üzrə tədbirləri haqqında» 10 mart 1948-ci il tarixli qərarı əvvəlki qərara bir sıra düzəlişlər edərək onun müddəalarını dəqiqləşdirdi (15, siy.1, 48, v.21-25). Beləliklə, bu iki sənəd azərbaycanlıların deportasiyasının həyata keçirilməsi üçün əsas hüquqi sənədlər oldu.

Azərbaycanlıların köçürülməsi xaricdən gələn ermənilərin yerləşdirilməsi ilə izah edilsə də, əslində ən əsas məqsəd azərbaycanlıların tamamilə oradan qovulması və monoetnik Ermənistan yaratmaq olmuşdur. Ermənilərin özlərinin etiraf etdikləri kimi azərbaycanlıların köçürülməsi ilə əlaqədar boşaldılan torpaqlardan və mənzil fondundan xaricdən gələn erməni kəndlilərinin yerləşdirilməsi üçün istifadə edilmədi və həmin kəndlərin çoxu xarabalığa çevrildi.

. Göstərilən sənədlərdə köçürülmənin könüllü əsaslarla həyata keçirilməsi nəzərdə tutulsa da, əslində bu məcburi xarakter daşıdığından əsil deportasiya idi. 1948-1956-cı illər əhatə edən bu deportasiya illəri on minlərlə azərbaycanlı üçün misli görünməmiş fəlakət dövrü oldu. İqlimə uyğunlaşa bilmədikləri, adi məişət şəraiti olmadığından köçürülənlərin üçdə biri aclıq və xəstəliklər nəticəsində həlak oldu.

Ümumiyyətlə, deportasiya dövründə (1948-1953-cı illər) Ermənistandan nə qədər azərbaycanlı köçürülmüşdür: «Azərbaycan SSR-in Kür-Araz ovalığı rayonlarına Ermənistan SSR-dən köçürülmüş azərbaycanlıların sayı haqqında» Azərb.SSR Nazirlər Soveti yanında «Köçürülmə və mütəşəkkil toplanma» baş idarəsinin arayışında həmin illərdə azərbaycanlıların köçürüldüyü rayonlar haqqında məlumat verilmişdir (cəmi 34 rayon – onların əksəriyyəti aran rayonları idi): « 1948-ci ildə 8054, 1949-cu ildə 12697, 1950-ci ildə 12932, 1951-ci ildə 3774, 1952-ci ildə 5512, 1953-cü ildə 8254, 1954-cü ildə 3368, 1956-cı ildə 965 adam (cəmi 58847 adam, 13230 təsərrüfat köçürüldüyü) qeyd edilmişdir. Azərbaycan Kənd Təsərrüfat Nazirliyinin məlumatına görə 1948-53-cü illərdə Ermənistandan Kür-Araz ovalığına 53000 nəfər, və ya 12914 təsərrüfat köçürülmüşdür. Lakin bu məlumatda deportasiyanın davam etdiyi 1954-1956-cı illər qeyd edilməmişdir. A.Paşayevə görə Ermənistandan köçənlər barədə rəsmi göstəricilər əslində olduğundan xeyli aşağı olmuşdur və 1948-1953-cü illər Ermənistandan yüz mindən çox azərbaycanlı köçürülmüş və ya özü könüllü köçmüşdür (115, s.29-32). Bütün bunlar deportasiyaya məruz qalmış insanların dəqiq sayı haqqında konkret rəqəm göstərməyin mümkünsüz olduğunu göstərir. Çünki rəsmi köçürülənlərlə yanaşı, özbaşına köçənlər, eləcə də geri qayıdanlar da olmuşdur. Lakin əksər müəlliflər belə fikirlə razıdırlar ki, Ermənistandan köçənlərin sayı rəsmi məlumatlarda göstərildiyindən xeyli çox olmuşdur.

Ermənistandan azərbaycanlıların köçürülməsi prosesi, mərhələləri, nəticələri bizim tədqiqatın bilavasitə obyektinə daxil olmadığından, eləcə də bu problemin son dövrlərdə çıxmış əsərlərdə müəyyən qədər (ancaq tam yox – A.M.) işıqlandırıldığından (39, 78; 79; 109; 115; 155) biz deportasiyanın Naxçıvanla əlaqədar məqamları üzərində dayanmaq istərdik.

Azərbaycanlıların Ermənistandan deportasiyasının ideoloci-siyasi əsaslarını hazırlayarkən xaricdən gələn ermənilər

üçün şəraitin yaradılması ilə yanaşı Türkiyədən SSRİ-yə qarşı müharibə təhlükəsinin real olduğunu və gələcək müharibədə «sərhədin bu tayında yaşayan türklərin» (azərbaycanlıların - A. M.) Türkiyə tərəfində olacağı ehtimalını da irəli sürürdülər. Buna görə də təsadüfi deyildir ki, ilk qovulan azərbaycanlılar arasında Türkiyə ilə sərhəd rayonların – Artaşat, Eçmiədzin, Vedi, Meqri, Qarabağlar və s. rayonların əhalisi var idi. Bunu köçürülməyə məcbur edilən sadə azərbaycanlılar da yaxşı başa düşürdülər. Ermənistan DİN-nin agentlərinin verdiyi məlumatlar əsasında hazırlanmış arayışda bildirilirdi ki, sakinlərin əksəriyyəti köçürülməni Türkiyə ilə müharibə olacağı təqdirdə, Sovet hakimiyyətinin azərbaycanlılara etimadsızlıq aktı kimi qiymətləndirirlər (15, s.221, iş5, v.20).

Bunu Ermənistandan zorla köçürülən azərbaycanlıların M.C.Bağırova ünvanladıqları məktublar da təsdiq edir (15, s.221, iş 5, v.22-23). Rəncbər kənd sakini İbrahim Nəsirov adlı şəxsin mülahizəsinə görə Ermənistan KP MK-nin keçmiş katibi A.Xancyanın planına görə, dünyanın hər yerində ermənilər axışıb gəlib. Buna görə də, Naxçıvanı Ermənistanın tərkibinə qatmalıydılar, azərbaycanlıların hamısını da köçürməliydilər. Budur, indi Xancyanın arzusu çin olur. Bu yaxınlarda eşitdim ki, Ermənistan hökuməti Naxçıvanın Ermənistana birləşdirilməsini tələb eləyib, ancaq Azərbaycan hökuməti razı olmayıb (15, s.221; s.5, v.24-25).

Ermənistan rəhbərləri azərbaycanlıların kütləvi sürətdə köçmələri üçün onlara təzyiqlər göstərir, qorxulu şayiələr yayırdılar. Yuxarıda adı çəkilən arayışda ermənilərin yaydıqları bəzi şayələr barədə məlumat verilirdi. Məsələn Arakelyan Minas adlı şəxsin dedikləri: Azərbaycanlıların Ermənistandan köçürülməsi şübhə doğurmur. Birinci növbədə Araz və Axuryan çaylarının sahilləri boyu yaşayan azərbaycanlılar köçürüləcək, sonra Yerevan şəhərindən azərbaycanlıların köçürülməsinə başlanacaq» (15, s.221, iş5, v.29-30). Yerevan sakini Ervand Mesropyan: Azərbaycanlıları təkcə Ermənistandan deyil,

eləcə də Naxçıvan MSSR-dən də köçürmək və onu Ermənistanın ərazisinə birləşdirmək lazımdır. Fransadan gəlmiş, keçmişdə daşnak xmbapeti olmuş Smbat adlı birisi isə bəyan edirdi ki: vaxtilə daşnaklar Naxçıvan MSSR-in Ermənistana birləşdirilməsi məsələsini qoymuşdular, ancaq bir şey çıxmamışdı. İndi isə bu məsələni qaldırmağın vaxtı çatıb, çünki Ermənistanda torpaq azdır (15, s.221, iş5, v.30). Bu faktlar sübut edir ki, erməni kommunistləri və daşnaklar azərbaycanlıların deportasiyası ilə kifayətlənməyərək, eyni zamanda Naxçıvanı ələ keçirməyi, necə deyərlər «bir güllə ilə iki dovşan vurması» istəyirdilər.

Azərbaycanlıların hamısı məcburi köçürülmənin əleyhinə idi, o dövrdəki şəraitdə mümkün olan bütün vasitələrdən (ərizələrlə müraciət, sabotac, evlərin, təsərrüfat binalarının və avadanlıqların, mal-qaranın məhv edilməsi və s.) istifadə edərək müqavimət göstərirdi (15, s.221, iş5, v.20-30).

Ermənistan azərbaycanlıları əmin idilər ki, gec-tez onların hamısını öz yerlərindən qovacaqlar. Ona görə də köçürülənlərin çoxu onları Azərbaycanın dağətəyi və dağlıq rayonlarda yerləşdirməyi xahiş edirdilər. Digərləri isə direktiv plan və sərəncamları gözləmədən köçmək qərarına gəlmiş və əlverişli şəraiti olan və iqlimin əvvəl yaşadıqları rayona uyğun yerlərə köçməyə başlamışdılar. Belə əlverişli bölgə isə Dağlıq Qarabağ və Naxçıvan idi.

Vedi rayonun əhalisi öz təsərrüfatlarının və evlərinin ermənilərə çatmaması üçün onları dağıdaraq özbaşına sürətdə Naxçıvana köçürdülər. Məsələn, Geravan kəndindən Naxçıvan MSSR-ə daimi yaşamaq üçün Hüseyn Bəşir oğlu Mustafayevin və İsmayıl Mustafayevin ailələri özbaşına köçmüşdülər. Ümumiyyətlə, Vedi rayonunun əhalisi arasında köçmək əhval-ruhiyyəsi çox güclü idi. 1948-ci ilin planında bu rayondan 500 adam köçürülməsi nəzərdə tutulsa da, aprelin 28-ə artıq 9.915 adam köçmək üçün ərizə vermişdi (15, s.221, iş5, v.22).

Azərbaycanlıların Ermənistandan kütləvi sürətdə, plandan kənar, kortəbii şəkildə köçməsi barədə ilk məlumatlar 1948-ci ilin əvvəllərində daxil olmağa başladı. Onların köçdikləri bölgələr arasında Naxçıvan MSSR də var idi.

Zəngibasar rayonunun Elyas kənd kolxozunun 20.IV. 1949-cu il tarixli ümumi iclasında köçmə məsələsi müzakirə edildi. İclasda kolxozun sədri İboş Əliyev kolxozun varlı kolxoz olduğunu, belə kolxozun kəndlərə dağıdılmasının yaxşı olmadığını, bütün kolxozun bir yerdə köçərək bir kənddə yerləşməsinin təsərrüfat üçün səmərəli olduğunu nəzərə alaraq 300 dən artıq işçi əli ilə Naxçıvan MSSR Noraşen rayonuna köçməsi təklif etdi. Kolxozçulardan Bil Ağayev, Əkbər Abbasov, Baba Abbasov da Noraşen rayonunun Şənkiley və Dərə kəndlərinin iqliminin və suyunun münasib olduğunu nəzərə alaraq oraya köçmək istədiklərini bildirmişdilər. İclasın qəbul etdiyi qərarda Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətindən və Nazirlər Sovetindən kolxozun Noraşen rayonunun Şənkiley və Dərəkənd kəndlərinə köçürülməsinə və qəbul olunmasına icazə verilməsi, köçürülmənin SSRİ Nazirlər Sovetinin köçürülmə planına daxil edilməsi və dövlət yardımı ilə təmin edilməsi, eləcə də Noraşen rayon İcrayə Komitəsindən kolxozçuların tələbinin tezliklə ödənilməsi və yaz əkinin başlanması işinin təmin edilməsi xahiş edilirdi (6, s.9, v.734, v.93-93 arx.) Naxçıvan VPK katibi Y.Yusifovun imzası ilə həmin məktub Azərbaycan K/b)P MK katibi Seyidova göndərilmiş və əlavə olaraq ondan Ermənistan SSR Vedi rayonundan 150 təsərrüfatın (bütövlükdə 300 təsərrüfat) Noraşen rayonunda yerləşdirilməsinə razılıq verilməsi xahiş edilmişdi. Bundan əvvəl Vedi rayonunun Qaralar və Şıxlar kəndlərinin kolxozları da Naxçıvan rəhbərliyinə müraciət edərək Noraşen rayonunda daimi yaşamağa icazə verilməsini xahiş etmişdilər (6, s.26, iş 102, v.6).

Azərbaycan Nazirlər Sovetinin sədri T.Quliyevin tapşırığı əsasında Naxçıvan rəhbərliyi Ermənistan SSR-dən köçən azər-

baycanlı kolxozçuları qəbul etməyə hazır olan muxtar respublika kolxozlarının siyahısını hazırlayaraq Azərbaycanın müvafiq orqanlarına göndərmişdi. Bütövlükdə Muxtar respublika 733 təsərrüfat, o cümlədən Noraşen rayonu 23, Naxçıvan rayonu 164, Ordubad rayonu 125, Əbrəqunis rayonu 175, Şahbuz rayonu 95 təsərrüfat qəbul etməyə hazır idi. Bu ailələr üçün yerlərdə yaşayış binaları da ayrılmışdı (6, s.26, iş 34, v.30).

Lakin Azərbaycan rəhbərliyi köçürülmə nəzərdə tutulmayan bütün digər rayonlara olduğu kimi, Naxçıvana da kortəbii köçməyə icazə vermirdi. Əks halda köçürülmə haqqında Moskvanın plan və qrafiklərini pozduğuna görə Mərkəzin qəzəbinə tuş gələ bilərdi. Azərbaycan hakimiyyət dairələrinin öz soydaşlarına belə qeyri-insani münasibəti kommunist reciminin insanları, xüsusən rəhbər işçiləri necə mənəvi deqradasiyaya uğratdığının əyani sübutu idi. Artıq 1948-ci ilin əvvəllərindən bütün rayon partiya komitələri katiblərinə və icraiyyə komitələri sədrlərinə «tam məxfidir» qrifi ilə M.C.Bağırovun və T.Quliyevin imzası ilə direktiv məktub göndərilmişdi. Məktubda ayrı-ayrı şəxslərin və ailələrin Ermənistandan özbaşına köçərək rayonlarda yerləşdiyi, bu cür qeyri-mütəşəkkil köçürülmənin Ermənistandan köçürülən adamların Kür-Araz ovalığı rayonlarında yerləşdirilməsinin nəzərdə tutan hökumət tədbirlərinin pozmaq təhlükəsi yaratdığı qeyd olunur və rayon rəhbərlərindən özbaşına köçüb gəlmiş ailələr haqqında məlumat verilməsi tələb olunurdu. Məktubda həmçinin Ermənistandan özbaşına gələn ailələrin köçürülməsinə yol verilməməsi tapşırıldı.

Kortəbii miqrasiyanın artmasının qarşısını almaq üçün Azərbaycan hökuməti bir sıra tədbirlərə əl atır, inzibati metodlardan istifadə edirdi. Onlar qeydiyyata alınmır, işə götürülmür, köçürülmələrə aid güzəştlərdən imtina edilirdi və s.

Azərbaycan hökumətinin rayonların İK sədrlərinə göndərdiyi 29 sentyabr 1948-ci il tarixli gizli məktubda qeyd olunurdu ki, Azərbaycan SSR Nazirlər Sovetinin xəbərdarlığına baxmayaraq, son zamanlar mütəşəkkil qaydada köçürülməsi nə-

zərdə tutulmuş kolxozçuların və digər azərbaycanlı əhalinin Sizin rayonunuz üzrə özbaşına yerləşdirilməsi halları aparmışdır. Bundan sonra Ermənistandan gəlmiş, köçmə bileti olmayan şəxsləri Azərbaycan SSR Nazirlər Soveti yanında köçürülmə idarəsinin xəbəri olmadan sizin rayonunuzda yerləşdirilməsinə son qoyması tələb olunurdu (6, s.9, iş 73, v.61). Deportasiya olunan azərbaycanlıların məskunlaşmasına qadağa qoyulan rayonlar arasında Naxçıvan MSSR rayonları da var idi. Ona görə də onların burada yaşamaq üçün etdikləri müraciətlərə rədd cavabı verilirdi. Məsələn köçürmə idarəsinin rəisi Allahverdiyevin Azərbaycan SSR NS-nin sədrinin müavini Y.Abdullayevə 29 aprel 1949-cu il tarixli məktubunda Vedi rayonunun yuxarıda adları çəkilən Qaralar və Şıxlar kəndlərinin 1949-cu il köçürülmə planına daxil edilmədiyi üçün onların harasa köçürülməsi qeyri-mümkün hesab edildiyi bildirilirdi. Məktubda açıq-aşkar qeyd olunurdu ki, köçürülmə üçün imkanlar olsaydı da, həmin kolxozçuların Naxçıvan MSSR-ə köçürülməsi haqqında xahişlərini təmin etmək mümkün olmazdı, çünki «Naxçıvan Kür-Araz ovalığına daxil deyil» (6, s.269, iş 102, v.6).

Naxçıvana köçmə arzusu bəlli olduqdan sonra erməni hakimiyyət orqanları onların bu arzusunun reallaşmasına imkan verməyərək, həmin rayonların hətta 1949-cu il planına daxil edilməməsinə nail oldular. Bu kənd təsərrüfatı işlərində işçi qüvvəssinin çatışmaması ilə əsaslandırılsa da, əslində əsas məsələ azərbaycanlı əhalinin Naxçıvanda sayının daha da artmasına imkan verməmək, bu bölgəni ilhaq etmək məqsədi güdən daşnak siyasətini gələcəkdə həyata keçirmək idi. (Bu siyasət DQMV-ə köçən azərbaycanlılara münasibətdə də yeridilir, oraya köçmüş azərbaycanlılar məcburi sürətdə muxtar vilayətin ərazisindən çıxarılırdı) (115, s.32-34).

Məhz bu məqsədlə də ermənilərin səyi nəticəsində Azərbaycan hökuməti 1949-cu il sentyabrında yuxarıda göstərilən səbəbləri bəhanə gətirib, Sisyan rayonunun Şəki kolxozunun

əhalisinin Naxçıvan MSSR Şahbuz rayonuna köçməsinə icazə verməmişdi (15, s.36, iş 33, v.122).

Lakin bütün repressiv qadağalara baxmayaraq Ermənistandan qovulan azərbaycanlı əhalininin bir hissəsi Naxçıvanda məskunlaşmağa nail olmuşdu. Bunun başlıca səbəbləri Naxçıvanın Ermənistan azərbaycanlılar yaşayan rayonlar ilə yaxınlığı, nəqliyyat əlaqələrinin sıx olması, oxşar təbii şərait, qohumluq əlaqələrinin mövcudluğu, eləcə də Naxçıvan əhalisinin və rəhbərliyinin deportasiya olunan həmvətənlərinə isti və qayğıkeş münasibəti idi. Düzdür, Naxçıvanda məskunlaşan köçkünlər haqqında statistik məlumatlar və sənədlər yoxdur, buna baxmayaraq şahid idarələri, şifahi sorğular göstərir ki, hazırda Naxçıvan MR-da yaşayan əhali arasında 1948-56-cı illərdə və sonrakı dövrdə deportasiyaya məruz qalmış insanlar və onların övladları kifayət qədərdir.

1950-80-ci illərdə azərbaycanlıların Ermənistandan sıxışdırılıb çıxarılmasında yeni mərhələ oldu. Azərbaycanlıların sosial-iqtisadi, mədəni inkişaf imkanlarının məhdudlaşdırılması, Azərbaycan dilində orta məktəb, texnikum və ali məktəblərin bağlanması, məzunların ali təhsil almaq üçün Azərbaycana getməyə məcbur olmaları, qayıtdıqdan sonra isə işlə təmin olunmamaları, qəzetlərin bağlanması, azərbaycanlıların rəhbər vəzifələrdən uzaqlaşdırılması, türk toponimlərinin erməniləşdirilməsi əhalini öz doğma yurdlarını tərk etməsinə səbəb olurdu (155, s.185-89).

Onların bir çoxu həmin illərdə Naxçıvana gələrək burada təhsil almış və məskunlaşmışdılar. Eyni zamanda Ermənistanda Naxçıvanın ilhaq edilməsi üçün təbliğat kompaniyası həmin illərdə də davam edir, qonşu xalqlara ərazi iddiaları irəli sürülür, bunun siyasi-ideoloci cəhətdən əsaslandırılması istiqamətində gizli və açıq fəaliyyət göstərilirdi. Nəticədə, 80-ci illərin axırında Ermənistandan son 250 min azərbaycanlı öz tarixi torpaqlarından qovulmuş, Naxçıvan üçün isə ağır blokada, məhrumiyyətlər dövrü başlanmışdı.

## 3.2. 80-ci illərin sonunda Qərbi Azərbaycandan azərbaycanlıların qovulması. Naxçıvan bölgəsində qaçqınların yerləşdirilməsi və onlara yardım göstərilməsi

80-ci illərin II yarısından SSRİ-də həyata keçirilməyə başlayan yenidənqurma siyasəti ölkənin bütün regionlarında millətlərarası ziddiyyətləri daha da dərinləşdirdi, millətçi-separatçı qüvvələrin fəallaşmasına şərait yaratdı. Öz bədnam niyyətlərinin gerçəkləşməsi üçün yaranmış şəraitdən istifadə edən erməni millətçiləri Azərbaycana qarşı yeni ərazi iddiaları irəli sürdülər. Əsrin əvvəllərindən başlayaraq tarixi Azərbaycan torpaqlarının – İrəvan, Göyçə və Zəngəzur mahallarının işğalı ilə kifayətlənməyən ermənilər «Böyük Ermənistan» xülyasını yenidən ortaya ataraq bu dəfə Azərbaycanın digər bölgələrini – Dağlıq Qarabağ və Naxçıvanı da ələ keçirmək üçün fəaliyyətə başladılar.

1980-ci illərin sonunda Ermənistan SSR ərazisində azəri türklərinin başına gətirilən müsibətlər bəşər tarixinin ən qanlı səhifələrindən birini təşkil edir.

Hələ 1987-ci ilin oktyabr ayından başlayaraq Yerevanda DQMV-nin Ermənistana birləşdirilməsi tələbi ilə mitinqlər keçirilməyə başlandı. Ermənistanın millətçi rəhbərliyi «Daşnaksütyun» partiyasının «türksüz Ermənistan» proqramını həyata keçirməyə başladı.

1988-ci il fevralın 13-də Azərbaycanın DQMV-nin mərkəzi Xankəndində başlayan tətillər və mitinqlər daha geniş xarakter aldı. Həmin il fevralın 19-da Yerevanda mitinqlərin yeni dalğası başlandı (32, 107). Mitinq iştirakçıları «Ermənistanı türklərdən təmizləməli!», «Ermənistan yalnız ermənilər üçündür!» və s. kimi şüarlar irəli sürərək Yerevanda salamat qalmış yeganə məscidi və C.Cabbarlı adına Yerevan dram teatrını yandırdılar. Bu hadisələrə etiraz edən azərbaycanlıların evlərinə od vuruldu. Ermənistanda, Dağlıq Qarabağda yaşayan ermənilərin «acınacaqlı vəziyyətdə» olması barədə kütləvi in-

formasiya vasitələrində geniş təbliğat aparılır, Dağlıq Qarabağın Azərbaycandan alınıb Ermənistana verilməsi tələb edilirdi.

Erməni millətçiləri üçün Ermənistanda ən münbit rayonlarda yaşayan 250 mindən artıq azərbaycanlını öz tarixi-etnik torpaqlarından qovub çıxarmaq Qarabağ məsələsini həll etmək qədər vacib idi.

1988-ci ildə hadisələr başlayan zaman Azərbaycan rəhbərliyinin Ermənistanda yaşayan soydaşlarımızın təhlükəsizliyinin qorunmasına dair heç bir tədbir görməməsindən istifadə edən ermənilər əhali arasında vahimə və qorxu yaradaraq onları zorla deportasiya etməyə başladılar. Ermənistanda bu qanlı divantutmanın hazırlandığı dövrdə azərbaycanlıların ölkənin ali hakimiyyət orqanlarına saysız-hesabsız müraciətləri laqeydliklə qarşılandı. Azərbaycanlıların taleyi ilə cinayətkar erməni qrupları istədikləri kimi davrandılar və onlar erməni daşnaklarının cinayətkar hərəkətlərinin qurbanına çevrildilər.

Ermənistan KP MK, Ermənistan hökuməti, «Krunk» və «Qarabağ» kimi faşist komitələri, Eçmiədzin kilsəsinin SSRİ-dəki və ondan kənardakı nüfuzlu nümayəndələri, həmçinin erməni ekstremizminin milli ədavət və düşmənçilik toxumu səpən Z.Balayan, V.Hambarsumyan, S.Kapitukyan, S.Xanzadyan və başqaları kimi ideya rəhbərləri Moskvadakı himayədarlarının yaxından köməyi ilə qanlı vəhşilliklər törətdilər. Məhz həmin qüvvələrin çoxdan və diqqətlə hazırladığı plan üzrə Ermənistanda yaşayan azərbaycanlılar öz doğma torpaqlarından qovulmağa başladılar.

İlk növbədə azərbaycanlılara qarşı təzyiq üsullarından istifadə edərək kəndlərə gündəlik ərzaq məhsullarının verilməsini məhdudlaşdırdılar. Təhqir edilən, döyülən və qarət edilən azərbaycanlılar arasında vahimə və qorxu yaradaraq onların qaçmasına çalışırdılar. Azərbaycanlıların daha sıx yaşadıqları rayonlarda rəhbər vəzifələrə ermənilər təyin edilir, rəhbər vəzifədə olan azərbaycanlıları isə hər cür bəhanə və böhtanla vəzifədən uzaqlaşdırırdılar.

Ermənistan KP MK konfrans belə keçirmədən Krasnoselsk rayonunun 1-ci katibi Ə.Həsənovu, Vardenis rayonun 1-ic katibi Y.Rzayevi məhz azərbaycanlı olduqlarına görə vəzifələrindən azad etmişdir (30, 41). Kənd təsərrüfatında azərbaycanlıların aparıcı mövqeyinə və respublikada kənd təsərrüfatı sahəsində onlarca yüksək ixtisaslı azərbaycanlı kadr olmasına baxmayaraq respublika Dövlət Aqrar Sənaye Komitəsində bir nəfər də olsun azərbaycanlı yox idi. Azərbaycanlılar yaşadıqları yerlərdə Bakı radio verilişlərinə qulaq asmaq imkanından məhrum edilmişdilər. Ermənistanın bütün kütləvi informasiya vasitələrində, bədii ədəbiyyatda azərbaycanlılara qarşı düşmənçilik təbliğatı aparılır, millətçilik əhval-ruhiyyəsi şiddətlənirdi. Ermənistanda Azərbaycan dili təqib olunur, bu dildə oxuyub yazanlar təhqirlərə məruz qalırdılar.

Öz alçaq məqsədlərini həyata keçirmək üçün rayonlara təhkim edilmiş rəhbər işçilərə 1988-ci ilin dekabr ayına qədər Ermənistanı türklərdən təmizləmək vəzifəsi tapşırılmışdı (26, 40).

Məsələn, akademik Viktor Hambarsumyan əhalisinin 60%-dən çoxunu Azərbaycanlıların təşkil etdiyi Vardeniş (Basarkeçər) rayonuna təhkim edilmişdi (30, 41). O, rayonda yubiley adı altında gizli yığıncaqlar keçirərək ermənilərə azərbaycanlıları qovmağa çağırdı.

Ermənistanın rəhbər işçiləri rayon və kəndlərə gələrək azərbaycanlılardan çıxıb getməyi tələb edirdilər. Azərbaycanlılar inzibati orqanların işçiləri tərəfindən qovulub çıxarılır, yollarda isə silahlı quldur dəstələri onlara hücum edərək öldürürdülər. Bu cür hallar Ararat, Masis, Yexeqnadzor, Quqark, Vardenis və s. rayonlarda görünməmiş qəddarlıqla həyata keçirilirdi.

1988-ci ilin yanvar-fevral aylarında Ermənistandan qaçqınların ilk axını başladı və qısa müddət ərzində onların sayı 4 min nəfərə çatdı (39, 61).

Azərbaycanda bilavasitə ermənilər tərəfindən törədilmiş Sumqayıt hadisələrindən sonra Ermənistanda vəziyyət daha amansız şəkil aldı. Sumqayıt hadisələri Ermənistandan azərbaycanlıları tez bir zamanda son nəfərinədək zorla, ölümlə qovmaq üçün hazırlanmış və «müvəffəqiyyətlə» həyata keçirilmiş ssenarinin əsas tərkib hissələrindən idi.

Mart ayında hadisələr daha kəskin xarakter aldı. Ermənilər azərbaycanlıları qovmaqla kifayətlənmir, yeri düşdükcə öldürürdülər. İş o yerə çatmışdı ki, nəinki Ermənistanda, hətta Gürcüstanın Boqdanovka və Axalkələk rayonlarında yaşayan ermənilər Amasiya rayonunun azərbaycanlılar yaşayan kəndlərinə silahlı basqınlar edirdilər (32, 108).

1988-ci il mart ayının 10-da Yerevanın cənubunda yerləşən Mehmandar kəndinin 4 nəfər sakini ermənilər tərəfindən öldürüldü (39, 61). Məhv olmaq təhlükəsindən canlarını birtəhər qurtaran Vedibasar, Zəngibasar, Dərələyəz camaatı Şərura, Naxçıvana və Ordubada gedirdilər.

Mərkəz azərbaycanlıların sıx yaşadıqları rayonlarda daxili xidmət qoşunlarını, bölmələrini yerləşdirsə də, bu bölmələrin işi yalnız müşahidə etməkdən ibarət idi.

Hadisələrin daha kəskin xarakter aldığı bir dövrdə Ermənistan SSR Ali Soveti «Qarabağ» komitəsinin, Azərbaycan SSR Ali Soveti isə «Krunk» təşkilatının fəaliyyətinin dayandırılması haqqında qərar qəbul etsələr də onlar kağız üzərində qaldı. Məhz həmin komitə və təşkilatın rəhbərliyi altında martın 25-dən başlayaraq Ararat rayonunun Vedi, Şirazlı, Xalisa, Şidli kəndlərinə silahlı basqınlar edilirdi. Həmin basqınlar nəticəsində bir nəfər öldürülmüş, onlarla adam yaralanmış, yüzlərlə ev yandırılmışdı (39, 61).

May ayında Ermənistandan qovulanların sayı artıq 80 min nəfərdən artıq idi. Əhali quru canlarını götürüb doğma ocaqlarını tərk edirdi. May ayının 25-də azərbaycanlıların daha sıx yaşadıqları Vedibasar və Zəngibasarda təqiblər daha da gücləndi.

May ayının 12-dən 13-ə keçən gecə Şirazlı kəndinə ətraf kəndlərdən mindən artıq erməni hücum edərək kəndi talan etdilər. Bir gecədə 64 ev dağıdıldı. 330 ailənin əmlakı talan edildi, 80-dən çox adama isə bədən xəsarəti yetirildi. Şirazlı kəndinin 3 mindən artıq əhalisi canlarını bir təhər qurtarıb qonşuluqda yerləşən Şidli kəndinə pənah apardı (38, 26).

May ayının 12-də Xalisa kəndini də səhərə kimi gülləyə tutub, evlərinə od vurdular. Hər iki kəndin əhalisi bütünlüklə Araz çayı kənarına, Sovet-Türkiyə sərhəddinə toplaşdılar və 4 ay sərhəddə, açıq səma altında yaşadılar (39, 61). Baş vermiş hadisələri olduğu kimi yerlərə çatdırmaq üçün ziyalılardan ibarət bir qrup Bakıya, digər qrup isə Moskvaya yollandı. Lakin nə Azərbaycan rəhbərliyindən, nə də mərkəzdən onların harayına səs verən olmadı.

May ayının 15-də Ermənistan MK-nın II-ci katibi Koçetkov və Ali Soveti sədrinin müavini Suren Harutunyan Vediyə gələrək, güya əhalini öz kəndlərinə qaytarmaq istədiklərin bildirmiş, digər tərəfdən yerli erməniləri öyrədərək azərbaycanlıların kəndə buraxılmamalarını təşkil etmişdilər. Beləliklə, azərbaycanlıları bir daha öz doğma kəndlərinə buraxmadılar.

4 ay sərhəddə yaşayan azərbaycanlılara Ermənistan respublikasından heç bir köməklik göstərilmədi.

İyunun 15-də Yerevanda Şaumyan adına sarayda keçirilən sessiyada 100 mindən artıq nümayişçinin tələbi və təzyiqi ilə Ermənistan SSR Ali Soveti Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana birləşdirilməsi barədə qərar qəbul etdi və Azərbaycan SSR Ali Sovetinə müraciət edildi (27, 85).

1988-ci il iyun ayının 17-də Azərbaycan SSR Ali Soveti «DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR-ə verilməsi haqqında DQMV XDS deputatlarının xahişi barəsində» qərar qəbul etdi (26, 82). Qərarda DQMV-nin Azərbaycan SSR-in tərkibindən Ermənistan SSR tərkibinə verilməsinin qəbuledilməzliyi haqqında Azərbaycan SSR Ali Sovetinin Rə-

yasət heyətinin 1988-ci il 19 iyun tarixli qərarı bəyənildi və Ermənistan SSR Ali Sovetinin müraciətinin qəbuledilməz olduğu bildirildi.

Azərbaycan SSR Ali Sovetinin qəbul etdiyi qərardan sonra azğınlaşmış ermənilər yaxınlıqda yerləşən Masis rayonunun mərkəzinə, Zəngilər, Zəhmət, Dəmirçi, Dostluq, Nizami, Sarvanlar kəndlərinə basqınlar etdilər (32, 109). 3 gün ərzində Masis rayonunda 40 ev yandırıldı, 480 ailə bir saat ərzində öz doğma yurdlarından çıxarıldı (32, 163).

1988-ci il iyun ayının 29-dan 30-a keçən gecə Ararat rayonunun Arazdəyən kənd sovetinin sədri bir qrup ermənini başına toplayaraq azərbaycanlı əhaliyə qarşı silahlardan atəş açmışdılar (73, 210). Onu da qeyd etmək lazımdır ki, bütün bu hadisələr Zaqafqaziya Hərbi Dairəsinin xüsusi sərəncamı ilə yaradılmış və vəzifələri milli zəmində baş verə biləcək münaqişələrin qarşısını almaqdan ibarət olan əsgərlərin və zabitlərin gözləri qarşısında baş verirdi. Lakin postlarda dayanan əsgər və zabitlərin tərkibi erməni və ruslardan ibarət olduğundan, onlar da hər yerdə daşnaklarla əlbir olaraq azərbaycanlılara qarşı qəddarlıq edir və onları doğma ocaqlarından qovurdular.

1988-ci il iyulun 18-də SSRİ Ali Soveti Rəyasət heyətinin iclası oldu. Qorbaçovun rəhbərliyi ilə keçirilən bu iclasda Ermənistan SSR və Azərbaycan SSR Ali Sovetlərinin DQ haqqında qəbul etdikləri qərarlar müzakirə olundu. Qəbul edilmiş qərarda respublikalararası sərhədlərin dəyişdirilməsinin yolverilməz hesab edilməsinə baxmayaraq, yenə də hər şey kağız üzərində qaldı.

Erməni millətçiləri mərkəzin qərarını gözləmədən Ermənistan SSR Ali Sovetinin sessiyasını çağırmağa və həmin sessiyada DQ-ın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etməyə nail oldular (38, 50-51).

Bu qərardan sonra Ermənistandakı vəziyyət daha da gərginləşərək son həddə çatdı. Həmin gün ermənilər Zəngibasar

rayonunun özündə 200-dən artıq evi dağıtdılar, məscidə od vurub yandırdılar, qəbirstanlığı dağıtdılar. Yerevanda olan XVI əsrə aid Papaqlı məscidini və Şiləçi məhəlləsindəki azərbaycanlı uşaqların oxuduğu M.F.Axundov adına orta məktəbə od vurdular (38, 52-53).

Canını birtəhər qurtarıb Azərbaycana gələn qaçqınların müəyyən hissəsi Qarabağa – Şuşaya gedirdilər. 2 ay ərzində Ermənistanın müxtəlif yerlərindən Qarabağa 23 mindən artıq qaçqın gəldi.

Lakin qaçqınların Qarabağda yerləşdirilməsinin qarşısı Vəzirov tərəfindən canfəşanlıqla alındı. Qarabağ Vəzirovun sayəsində azərbaycanlıların qadağan zonasına çevrildi və orada yerləşən qaçqınlar çıxarılaraq Bakıya və digər rayonlara gətirildi.

1988-ci ilin oktyabr ayının 23-dən etibarən Basarkeçər (Vardenis) rayonunun azərbaycanlılar yaşayan kəndlərinə ermənilərin açıq təcavüzü başlandı. Şişqaya, Aşağı və Yuxarı Şorca, Qayabaşı, Subatan, Zağalı, Sarı Yaqub, Qaraqoyunlu, Nərimanlı, Ağ Kilsə, Zərkənd, Zod, İnək dağı və s. kəndlərin əhalisi Sarınər və Kəlbəcər dağlarını aşıb Gədəbəyə və Kəlbəcərə pənah gətirdilər (30, 170).

Basarkeçər rayonunun 36 kəndindən 27-də azərbaycanlılar bütülüklə, 3-də isə ermənilərlə qarışıq halda yaşayırdılar (38, 87). Noyabrın 22-də gecə Qanlı və Kərkibaş kəndlərində evlərə od vurub yandırdılar. Noyabrın 27-də Çaxırlı kəndinə divan tutdular. Basarkesər rayonunda 45 nəfər azərbaycanlı qətlə yetirildi (38, 91).

Bütün.bu hadisələrə ittifaq orqanları seyrçi qalır, heç bir köməklik göstərmirdilər. Əksinə, Ermənistana qayda-qanun yaradılması üçün göndərilən daxili qoşunların gözləri qarşısında azərbaycanlılar təhqir edilir, döyülür, öldürülürdülər. Hərbçilər yalnız azərbaycanlılardan ibarət maşın karvanlarını Naxçıvana və Azərbaycanın digər sərhəd rayonlarına ötürməklə öz işlərini bitmiş hesab edirdilər.

Lakin Ermənistanda yaşayan azərbaycanlılar üçün ən ağır vaxtlarda Naxçıvan rəhbərliyi və əhalisi əllərindən gələn köməkliyi göstərirdilər. Belə ki, Şirazlı, Şidli, Xalisa kəndlərinin əhalisinin Sovet-Türkiyə sərhəddinə sığındıqları zaman Naxçıvandan onlara ərzaq məhsulları göndərilir, eyni zamanda onların daşınması üçün tankların, BTR-lərin müşayiəti ilə avtobuslar göndərilirdi.

Bu dövrdə erməni mətbuatının Azərbaycandan köçən ermənilərin sayı barədə şişirdilmiş məlumatlar dərc etdirdiyi və ittifaq mətbuat orqanları vasitəsilə dünyaya yaydığı bir vaxtda Azərbaycan mətbuatı respublikadakı qaçqınların əsil sayını gizlədirdi. Lakin 1988-ci il aprelin 2-də «Sovet Naxçıvanı» qəzeti MR-da 8 mindən artıq qaçqının olduğu barədə məlumat vermişdi.

1988-ci il noyabrın 7-də Yerevanın Lenin adına meydanında keçirilən nümayişdə Ermənistan Ali Sovetinə ilin axırına qədər Ermənistanda bir nəfər də olsun azərbaycanlının qalmaması, dövlət səviyyəsində köçürülməsi tələb irəli sürüldü.

Noyabrın 9-da keçirilən Qarabağ komitəsinin qapalı iclasında azərbaycanlıların Ermənistandan çıxarılması məsələsi müzakirə olundu və Ermənistandan çıxarılan azərbaycanlıların əyin, yataq paltarı və qismən ərzaqdan başqa bir şey aparılmasına yol verilməməsi, evin, əmlakın, mal-qaranın saxlanılması qərara alındı (39, 63-64).

«Qarabağ» komitəsinin təşkil etdiyi erməni quldur dəstələri 1988-ci il noyabr ayının 15 və 16-da Masis rayonunun Aşağı Necili, noyabrın 17 və 19-da isə Zəngilər kəndlərinə hücum etdilər (33, 163). 3 gün müqavimət göstərdikdən sonra kənd əhalisi məcbur olaraq qonşu Rəncbər kəndinə tərəf çəkildi. Noyabr ayının axırlarında Sarvanlar kəndini dağıtdılar (33, 163).

«Qarabağ» komitəsinin noyabrın 9-da çıxardığı qərara əsasən noyabrın 20-dən Vedibasar və Zəngibasara gedən yollar

bağlandı. Burada yaşayan azərbaycanlılar mühasirə vəziyyətinə düşdülər. Kəndlərdə talanlar, zorakılıqlar daha da artdı

1988-ci il noyabr ayının 28-də Əzizbəyov rayonunun Qarmraşen kəndinin sakinləri erməni saqqallılarının təzyiqləri ilə yurd-yuvalarından didərgin salındılar. Həmin gün Naxçıvandan gedən 10 ədəd zirehli maşın və 10 ədəd yük maşını ilə kəndin sakinləri evlərini tərk edərək Naxçıvana gətirildilər (30, 73).

1988-ci il noyabırn 30-da Avşar və Şidli kəndləri istiqamətindən 100-ə qədər maşında erməni saqqallıları Xalisə kəndinə soxuldular (38, 67). Yalnız Naxçıvandan hərbi texnikanın gəlməsi nəticəsində əhali qırğından qurtarmış oldu. Həmin gün Xalisə kəndinin 480 ailəsi öz yurd yuvalarından qovuldular. Artıq 1988-ci il dekabrın 3-də Vedibasarda 1 nəfər də olsun azərbaycanlı qalmadı (30, 247-248).

Noyabrın 26-da Yerevanda komendant saatı elan olunsa da azərbaycanlıların təhlükəsizliyi heç bir yerdə müdafiə olunub dövlət tərəfindən qorunmurdu. Məhz həmin dövrdə şəhərin 10 km-də yerləşən Zəngibasar (Masis) rayonunun 12 azərbaycanlı kəndi tamamilə viran qoyuldu.

1988-ci ilin noyabr ayı ərzində Ermənistanın Zəngibasar, Quqark, Hamamlı (Spitak), Cəlaloğlu (Stepanovan), Noyemberyan, Sisyan, Dərələyəz (Yexenqnadər), Əzizbəyov, Amasiya rayonlarında azərbaycanlılar yaşayan kəndlərə hücumlar güclənir, onların kütləvi deportasiyasına başlanmışdı.

Zəngibasar rayonunda olan 12 azərbaycanlı kəndini iki günün içində dağıdıb, 26 min adamı evindən didərgin saldılar. 3250 ev talan edildi, 22 nəfər faciəli sürətdə öldü, 340 nəfər yaralanıb şikəst oldu (38, 87).

Quqark rayonunda noyabrın axırları-dekabrın əvvəllərində 70 nəfər azərbaycanlı öldürülmüşdür. Onlardan 21 nəfəri, o cümlədən 6 qadın, 3 uşaq Gözəldərə kəndində, 17 nəfər Vartanlı kəndində öldürülmüşdü (39, 60).

Qonşu Hamamlı (Spitak) rayonunda da azərbaycanlılara qarşı vəhşiliklər törədilmişdir. Noyabrın 27-də gecə saat 12[30] da rayon İK-nin sədri Fərhad Abucyanın göstərişi ilə şəhərdə yaşayan 360 nəfər azərbaycanlını İK binasının qarşısına yığdılar. Vəhşiləşmiş ermənilər 5 yaşından 12 yaşına qədər uşaqları dartıb analarının əllərindən alaraq diametri 1,5 metr, uzunluğu 27 metr olan boruya dolduraraq hər iki ağzını qaynaqladılar. Müqavimət göstərmək istəyən əhalinin üzərinə atəş açıldı, 19 nəfərdən çox azərbaycanlı öldürüldü (38, 95-96).

Ermənistanda azəri türklərinə qarşı dəhşətli cinayətlərin törədildiyi rayonlardan biri də Cəlaloğlu (Stepanovan) rayonu olmuşdur. Noyabrın 28-də ermənilər Kuybışev kəndinin 5 nəfər sakinini soyuq silahla öldürdülər (2, 14). Həmin gün rayonun azərbaycanlılar yaşayan Axtala, Şınıx, Böyük Ayrım, Kiçik Ayrım, Göycan kəndlərinə ermənilərin hücumu baş verdi. Böyük Ayrım kəndində 4 nəfər vəhşicəsinə ölddürüldü, 35 nəfər yaralandı (38, 123-124). Ermənilər bütün evləri qarət edərək yandırdılar, qəbirstanlığı dağıtdılar. 350 azərbaycanlı ailəsi kənddən qovuldu.

Azərbaycan və Gürcüstan ilə sərhəddə yerləşən Noyemberyan rayonunda da azərbaycanlılara dəhşətli divan tutuldu. Noyabrın 28-29-da azərbaycanlılar yaşayan Poqavan, Yuxarı Körpülü, Lənbəli (Baqrataşen), Polad, Alaçıqaya, Salah kəndlərində bir nəfər də olsun azərbaycanlı qalmadı (38, 125-148).

1988-ci il noyabrın axırlarında Sisyan rayonunun Şəki kəndinin 140, Qızılcıq kəndinin 100 təsərrüfatdan ibarət azərbaycanlı əhalisi doğma torpaqlarından didərgin salındılar.

Urud kəndinin əhalisini əsgər geyimli ermənilər avtobuslara dolduraraq kömək etmək vədi ilə aldadıb erməni kəndi olan Şələkpələkin yaxınlığında saxlayaraq adamları taladılar. Kənd əhalisi əzab-əziyyətlə Batabat dağını aşaraq Naxçıvan Muxtar Respublikasına gəldilər (38, 123-124).

Həmin dövrdə Dərələyəzin azərbaycanlılar yaşayan 14 kəndini ermənilər talan edib əhalisini qırdılar.

Noyabrın 26-dan başlayan təqiblər, zorakılıqlar nəticəsində cəmi iki gün ərzində, yəni noyabrın 28-də Əzizbəyov rayonunun 180 təsərrüfatdan ibarət olan 1052 nəfər azərbaycanlı əhalisi öz doğma yurdlarından qovuldular (38, 127-148).

Noyabrın 30-da ermənilər Gomur kəndinə basqın edərək azərbaycanlıları evlərindən çıxartdılar. Gomurlular qarlı dağdərə yolunu gecə vaxtı ikən keçib, Şahbuz rayonunun ərazisinə, Qanlı gölə gəlib çıxdılar.

1988-ci il dekabr ayının əvvəllərində Amasiya rayonunun Qarabulaq, Cicimli, Çaxmaq, Balıqlı, Güllücə, Quzukənd, Zərkənd, Qabaq kəndlərinin əhalisi Türkiyə ilə sərhəddə yerləşən İbiş, Güllübulaq kəndlərinə yığılmışdılar. 40 min nəfərdən ibarət olan bu kəndlərin əhalisini ermənilər öldürmək istəyirdilər. Lakin dekabrın 7-də baş verən zəlzələ ermənilərin bu niyyətlərini həyata keçirməyə imkan vermədi.

Azərbaycan Qaçqınlar Cəmiyyətinin tərtib etdiyi siyahıya əsasən 1988-1990-cı illər ərzində Ermənistanda 216 nəfər azərbaycanlı qətlə yetirilmişdi (30, 121). Bunların da böyük qismi (186 nəfər) «Qarabağ» münaqişəsinin elə 1-ci ilində, yəni 1988-ci ildə həlak olmuşdur. 52 nəfər aldığı xəsarət nəticəsində ölmüş, 34 nəfər işgəncə ilə öldürülmüş, 20 nəfər odlu silahla qətlə yetirilmiş, 9 nəfər yollarda qəzaya uğramış, 7 nəfər həkim qəsdi nəticəsində, 9 nəfər dəhşətli hisslərdən keçirdiyi infarkt nəticəsində ölmüş, 2 nəfər intihar etmiş, 1 nəfər asılmış, 2 nəfər maşın partladılması nəticəsində, 1 nəfəri elektrik cərəyanı ilə, 1 nəfəri suda boğub öldürmüşlər, 6 nəfər itkin düşmüş, 20 nəfər xəstəxanada yoxa çıxmış, 28 nəfər isə dağlarda borana düşüb həlak olmuşlar (2, 164). Öldürülənlərin əksəriyyətini (109 nəfər) yaşlı nəslin nümayəndələri təşkil edirdi.

Beləliklə, keçmiş İttifaq rəhbərlərinin cinayətkar fəaliyyətsizliyinin buna şərait yaratması, Azərbaycan rəhbərliyinin bu hadisələrə vaxtında düzgün qiymət verə bilməməsi nəticəsində Ermənistan rəhbərliyinin və hüquq-mühafizə orqanlarının bilavasitə iştirakı ilə 50149 ailəni təşkil edən 243.682 nəfər

azərbaycanlı qısa müddət ərzində əsrlər boyu yaşadıqları dədə-baba yurdlarından vəhşicəsinə qovuldular (14). Ermənistandan təkcə azərbaycanlılar deyil, 21.000 müsəlman kürdü qovularaq Azərbaycana pənah gətirdi. 1988-1989-cu illərdə indiki Ermənistan ərazisində azərbaycanlıların yaşadıqları 23 rayon üzrə 171, ermənilərlə qarışıq olan 94 yaşayış məskəni boşaldıldı. Nəhayət, 1991-ci il avqustun 8-də Nüvədi kəndindən də son azərbaycanlının çıxarılması nəticəsində Ermənistanda bir nəfər də olsun azərbaycanlı qalmadı. Beləliklə, Ermənistan Ali Sovetinin 22 noyabr 1988-ci il tarixli sessiyasının məxfi göstərişi həyata keçirildi (125, 73). Tarixən yurd salıb torpağın sahibi olmuş insanlar ev-eşiyindən didərgin düşüb Azərbaycanın rayonlarına səpələndilər. Ermənistandan qovulan azərbaycanlılara dəyən maddi və mənəvi zərəri hesablamaq mümkün deyil. Bununla belə tam məlum olmayan hesablamalara görə sırf azərbaycanlıların yaşadıqları ərazi 15.467 $km^2$ olmuşdur (39, 72). Bu ərazidə 216 kolxozun əmlakı, 3420 avtomaşını, 4100 traktoru, 43.000 kolxoz və sovxozun qaramalı, 526.000 qoyun-quzusu ermənilərə qaldı. 120 tarixi Azərbaycan və türk abidələri dağıdıldı. 230 məscid, müsəlmanların sitayiş etdiyi pir yeri, ocaq məbədləri yox edildi. 670 qəbristanlıq düzlənib əkin sahəsinə çevrildi. Kəndlərdə tikilmiş məktəb, klub, mağaza, idarə, uşaq evi, məişət binası, tövlələr, fermanın avadanlığı, əkin sahələri, bağ-bağçaların haqqı ödənilməmiş qaldı. 6000 bina yandırılıb dağıdıldı, əmlakları qarət edildi, 35.000 həyətyanı sahə, bağ-bağça ermənilər tərəfindən mənimsənildi, 32.000 şəxsi mal-qara, 35.000 qoyun-quzu əllərindən alındı, 25.000 yaşayış yeri əvəzsiz ermənilərə qaldı, 800 xüsusi maşın sahiblərinin əlindən alındı, 410 köç maşını qarət edildi, 32 milyon dollar dəyərində pul, istiqraz, qızıl əşyalar əllərindən alındı, 90.000-dən çox ailə kənd təsərrüfatı ilə məşğul olduqları halda, şəhərlərdə beton evlərində yaşamağa məcbur oldu, 16.000 ailə tam məskunlaşmamış qaldı, 12.000 adam əsəb və ürək xəstəliklərinə tutulub, 6410 qaçqın

düçar olduqları dərdə dözə bilməyib vaxtından əvvəl öldülər, 90.000 nəfər düşdükləri yerin havasına uyğunlaşa bilmədi və s. (38, 169-170).

DQMV və onun ətrafında baş verən hadisələrlə əlaqədar Ermənistandan və DQ-dan didərgin düşmüş 12265 ailəni təmsil edən 50460 nəfər çadırlarda, 6.876 ailəni təmsil edən 30827 nəfər qurma evlərdən ibarət qəsəbələrdə, 66.305 ailəni təmsil edən 276.714 nəfər ictimai binalarda, məntəqələrdə, uşaq bağçalarında, yataqxanalarda, 12.193 ailəni təmsil edən 47.872 nəfər sanatoriya, pansionat, istirahət evləri, turbaza və sağlamlıq düşərgələrində, 5.600 ailəni təmsil edən 25.200 nəfər qohum və tanış evlərində, 8.954 ailəni təmsil edən 35.471 nəfər zəbt olunmuş mənzillərdə, 21.791 ailəni təmsil edən 34.315 nəfər fermalarda, 1.905 ailəni təmsil edən 8.353 nəfər yük vaqonlarında, 2.731 nəfəri təmsil edən 12.974 nəfər yol kənarlarında, 1.439 ailəni təmsil edən 7.195 nəfər humanitar təşkilatlar tərəfindən tikilmiş daş qəsəbələrdə yaşamağa məcbur olmuşdur (14). Öz doğma tarixi-etnik torpaqlarından didərgin salınan 250 mindən artıq qaçqın respublikanın 51 rayonunda və 7 şəhərində yerləşdirilmişdir (26, 365).

Respublikamızın müstəqillik yoluna qədəm qoyması ilə bir vaxtda başlayan erməni təcavüzü milli faciə ilə nəticələndi və Azərbaycan xalqını kütləvi soyqırıma məruz qoydu. Mərkəzi hakimiyyətin ermənilərə köməyi nəticəsində Ermənistandan qovulmuş azərbaycanlılar Qarabağa yerləşdirilmədi. O zamankı respublika rəhbərliyinin səriştəsizliyi, Moskva qarşısındakı mütiliyi bunun həyata keçirilməsinə mane oldu. Hətta Qarabağda erməni kəndlərinin yaxınlığında çadırlar qurub yaşamaq istəyən 23 mindən artıq qaçqın Ə.Vəzirov tərəfindən oradan çıxarıldı.

Azərbaycan KP MK Ermənistan SSR-dən respublikaya gələn Azərbaycan millətinə mənsub şəxslərlə işin təşkili məsələlərini müzakirə edərək, qaçqınların yerləşdirilməsi və mənzil-məişət şəraiti məsələlərini operativ həll etmək məqsədilə

respublika nazirlər sovetinin sədri H.Seyidovun sədrliyilə respublika komissiyası təşkil etmək haqqında qərar qəbul etmişdi.

Xalq Deputatları Sovetləri İK-nin sədrləri başda olmaqla respublikanın bütün şəhər və rayonlarında müvafiq komissiyaların yaradılması zəruri hesab edilmişdi.

DQMV və onun ətrafında baş vermiş hadisələr bütün Azərbaycanda olduğu kimi, Muxtar Respublikanın da vəziyyətini ağırlaşdırdı. Qaçqınların Naxçıvana axını bu vəziyyəti daha da gərdinləşdirmişdi.

Qaçqınların yerləşdirilməsi, onların ərzaqla təmin olunması və s. məsələləri operativ həll etmək üçün Naxçıvan MSSR-də qərargah yaradıldı. Qərargah dövlət müəssisələrinin, ictimai təşkilatların, yerli əhalinin yaxından köməyi ilə didərginlərin yerləşdirilməsi üçün tədbirlər görürdü. Didərginləri öz evlərində yerləşdirmək istəyən onlarla vətəndaş hər gün qərargaha müraciət edirdi. Qaçqınların ərzaq məhsulları ilə təmin edilməsi, tibbi xidmət göstərilməsi təcili olaraq təşkil olunurdu.

Muxtar Respublika ərazisinə Ermənistandan daxil olan qaçqınlar Sədərək karantin postunda qeydiyyata alınırdılar. Mart ayının 18-dən – 24-dək 1209 ailəni təmsil edən 6839 nəfər məcburi köçkün Muxtar Respublikaya gəlmişdi (73, 44-76). Onlar Muxtar Respublikanın bir sıra rayon və kəndlərində yerləşdirilmişdi. Muxtar Respublikada yaşamaq istəməyənlər Bakıya və Azərbaycanın digər rayonlarına yola salınırdılar.

Ümumiyyətlə, 1988-ci il aprel ayının 1-dək DQMV və onun ətrafında baş vermiş hadisələrlə əlaqədar Naxçıvan MSSR-ə 9.088 nəfəri təmsil edən 1.853 ailə gəlmişdi (94, siy.37, qutu 306, iş 33, v.3-6). Həmin ailələr yerli sakinlərin evlərində, yataqxanalarda, mehmanxanalarda, ictimai binalarda, məktəblərdə yerləşdirilmişdi. Qaçqın ailələrindən 427 ailəni təmsil edən 2.493 nəfər müvəqqəti olaraq Sədərək kəndində yerləşdirilmişdi (94, siy.37, qutu 306, iş 33, v.5).

1988-ci ilin aprel ayından iyul ayına qədər Ermənistanda vəziyyətin daha da gərginləşməsi ilə əlaqədar Naxçıvan MSSR-

ə əlavə olaraq 8 min nəfərdən çox qaçqın gəldi (94, siy.37, qutu 307, iş 50, v.19-21).

Təkcə 1988-ci ilin may ayının 28-dən iyun ayının 28-dək, bir ay müddətində Muxtar Respublikaya 728 ailəni təmsil edən 3678 nəfər məcburi köçkün gəlmişdi (73, 126-175).

MR-nın hakimiyyət orqanları, yerli əhali onlara lazım olan hər cür köməkliyi göstərir, onların yerləşdirilməsini təmin edir, tibbi, ərzaq yardımı ilə təchiz edirdilər.

1988-ci il avqust ayının 24-də Naxçıvan şəhər XDS İK-nin 389 saylı qərarı ilə Ermənistan SSR-in müxtəlif rayonlarından Naxçıvana pənah gətirən və maddi vəziyyətləri daha ağır olan 10 ailəni təmsil edən 47 nəfər qaçqına 5.000 rubl məbləğində maddi yardım edildi (84, siy.7, qutu 2139). Elə həmin gün yenə də Naxçıvan şəhər XDS İK-nin 409 saylı qərarı ilə Ermənistan SSR Ararat rayonunun Nizami, Dəmirçi, Vedi kəndləri üzrə 10 ailəni təmsil edən 49 nəfərə 5.000 rubl dəyərində yardım edildi (101, siy.7, qutu 439).

Ermənistandan MR-ya gəlmiş azərbaycanlı qaçqınlarla işi təşkil etmək, onların yerləşdirilməsi və mənzil-məişət şəraiti yaradılması məsələlərini operativ həll etmək üçün Azərbaycan KP Naxçıvan Vilayət Komitəsi MR Nazirlər Sovetinin sədrinin I müavini İ.Qurbanovun sədrliyi ilə komissiyanın təşkil edilməsi haqqında qərar vermişdi.

Naxçıvan şəhər və rayon XDS-lərin İK-lərinin sədrləri başda olmaqla müvafiq komissiyalar yaradılmışdı. Həmin komissiyalar Naxçıvanda daimi yaşamağı qərara almış qaçqınlar üçün mövcud tikinti və təmir təşkilatlarının imkanlarını cəlb etməklə həmin qaçqınlar üçün ən qısa müddətdə fərdi yaşayış evlərinin tikilməsi üçün tədbirlər görürdülər. Eyni zamanda qaçqın ailələrinə maksimum insanpərvərliklə yanaşılır, onların işə düzəldilməsini, uşaqların tədris müəssisələrində və məktəbəqədər tərbiyə müəssisələrində yerləşdirilməsini təmin edir, onlara lazımi tibbi və mədəni-məişət xidmətləri göstərilməsi işini qaydaya salırdı.

Qaçqınlarla iş üzrə komissiyanın təqdim etdiyi siyahıya əsasən 1988-ci il noyabr ayının 1-dən 30-dək Ermənistan SSR-in Əzizbəyov, Ararat, Yexeqnadzor, Masis rayonlarından Naxçıvan şəhərinə gəlmiş 125 ailəni təmsil edən 688 nəfər qaçqına 34.400 rubl maddi yardım edilmişdi (101, siy.7, qutu 2136). 1988-ci il dekabr ayının 1-də Naxçıvan şəhər XDS İK-nin 617 saylı qərarı ilə Ermənistan SSR-in Əzizbəyov, Ararat və Yexeqnadzor rayonlarından didərgin düşən 21 ailəni təmsil edən 120 nəfər qaçqının hər birinə 50 rubl məbləğinə yardım edilmişdi (101, siy.7, qutu 2136).

Ermənistandan didərgin düşmüş qaçqınlara kömək məqsədilə akademik Y.H.Məmmədəliyev adına Naxçıvan DPİ xeyirxah təşəbbüs irəli sürdü. Bu təşəbbüsə qoşulan minlərlə naxçıvanlı öz kömək əlini Ermənistandan gələn qaçqınlara uzatdılar. Naxçıvan şəhər XDS İK-nin qərarı ilə şəhər mənzil-sosial bankında 70.022 saylı xüsusi hesab açıldı (131). Bir neçə gün ərzində həmin hesaba 60 min rubla yaxın pul keçirildi. Sənaye müəssisələrinin bir çoxu şənbə və bazar günləri işləyərək, qazanclarını «Yardım» fonduna köçürdülər. Ayrı-ayrı vətəndaşlardan xeyli vəsait toplandı. Qısa müddət ərzində Naxçıvan Alt Trikotac fabrikinin işçiləri 10.000 rubl, Naxçıvan DPİ-nin tələbə və müəllim heyəti 2.800 rubl, aqrar-sənaye komitəsi 2.000 rubl, xalçaçılıq kombinatı 1.000 rubl toplayaraq «Yardım» fonduna vəsait köçürmüşdülər (131). Ümumiyyətlə, qeyd etmək lazımdır ki, elə bir idarə, müəssisə, təşkilat olmamışdır ki, həmin vaxt «Yardım» fonduna vəsait köçürməsin. Bu iş sonralar da davam etdirilmişdir.

1988-ci il dekabrın 27-də Naxçıvana gələn qaçqınların sayının artması nəticəsində öz doğma yurdlarını tərk etmiş qaçqınlarla iş üzrə yeni respublika hökumət komissiyası yaradıldı (94, siy.37, qutu 308, iş 76, v.4-6).

Lakin dekabrın 27-də Vilayət PK-nin qərarı ilə komissiyanın sədri A.İ.Abdullayev Azərbaycan SSR Yerli Sənaye Naziri təyin edildiyindən onun yerinə Naxçıvan MSSR Nazirlər

Soveti Sədrinin 1-ci müavini Ə.Q. Sadıqov təyin edildi (94, siy.37, qutu 313, iş 127, v.13).

Artıq 1988-ci ilin noyabr ayında Ermənistandan MR-ya 15.000 nəfərdən artıq azərbaycanlı gəlmişdi (94, siy.37, qutu 314, iş 225, v.1-24). Onlar MR-nın şəhər və kəndlərində yerləşdirilmişlər. Naxçıvana gələn qaçqınların böyük əksəriyyəti sonradan Azərbaycanın digər şəhər və rayonlarına yola salınmış, MR-da yaşamağı qərara alan qaçqınlar üçün isə lazımi şərait yaradılmışdı. Bu məqsədlə 10 min $m^2$-dən artıq sahədə mənzil tikmək nəzərdə tutulmuşdu.

Qaçqınların yeni axını ilə əlaqədar onları daimi yaşayış yerlərinə qaytarmaq, vəziyyəti normal hala salmaq məqsədilə Naxçıvan Vilayət Partiya Komitəsinin katiblərindən və büro üzvlərindən, Naxçıvan MSSR-in İliç, Babək, Ordubad və Şahbuz rayonlarının, eyni zamanda Ermənistan SSR-in Ararat, Masis, Əzizbəyov, Yexeqnadzor, Sisiyan və Mehri rayonlarının partiya, sovet, komsomol, hüquq-mühafizə və təsərrüfat orqanları rəhbərlərindən ibarət birgə qarışıq komissiyalar yaradılmışdı (94, siy.37, qutu 314, iş 225, v.1-24). Azərbaycan rəhbərlərinin həyata keçirdikləri «tədbirlər» nəticəsində Azərbaycanın digər yerlərində olduğu kimi, 1989-cu il yanvarın 20-də Naxçıvandan getmiş erməni ailələrindən 19-u, yaxud 38 nəfəri MR-ya geri qayıtmışdır (94, siy.37, qutu 314, iş 225, v.124). Lakin Ermənistandan gəlmiş azərbaycanlılardan heç bir nəfər də olsun geri qayıda bilmədi. Çünki, onları Ermənistanda hansı faciələrin gözlədiyini yaxşı bilirdilər.

Azərbaycanlılar tamamilə Ermənistandan qovulduqdan sonra, Sovet İKP MK və SSRİ Nazirlər Soveti 1988-ci il dekabrın 6-da «Vətəndaşların daimi yaşayış yerlərini məcburi tərk etməsində Azərbaycan SSR və Ermənistan SSR-in yerli orqanlarının ayrı-ayrı vəzifələri şəxslərinin yolverilməz hərəkətləri haqqında» qərar qəbul etdi (27,276). Ermənistan rəhbərliyi özünü «sığorta» edərək azərbaycanlıların Ermənistana qayıtmasına təyinat verilməsi fikrini yaratmaq məqsədilə 1988-ci il

dekabrın 15-də SSRİ rəhbərliyinin həmin qərarını gözdən pərdə asaraq 13 nəfər rəhəbər işçini Sovet İKP sıralarından kənar etmiş, əslində isə onlar bir vəzifədən digər vəzifəyə keçirilmişdilər. Bu vaxt ermənilər Azərbaycanı tərk etməyə başlamışdılar. Məhz bu fərmanın verilməsində əsas məqsəd ermənilərin Azərbaycandan getməsinin qarşısını almaq idi.

1989-cu il yanvarın 4-də «Daimi yaşayış yerlərini tərk etmiş vətəndaşlara Azərbaycan və Ermənistan SSR Ali Sovetləri Rəyasət heyətlərinin və Nazirlər Sovetlərinin müraciəti» oldu (27, 312). Bu müraciətdən sonra Azərbaycandan Ermənistana köçən erməniləri kütləvi sürətdə Azərbaycana geri qaytarmağa başlasalarda Ermənistana bir nəfər də olsun azərbaycanlı qayıda bilmədi.

Azərbaycandan, o cümlədən, Naxçıvandan gedən ermənilərin işdən qanunsuz olaraq azad edilib-edilməməsi respublika prokurorluğu tərəfindən araşdırılır, onlar, yəni ermənilər geri qayıdana kimi iş yerlərinin saxlanılması, o cümlədən əmək haqlarının alınması təmin edilir, mənzilləri, əmlakları çox etibarlı sürətdə mühafizə edilirdi. Azərbaycandan gedən ermənilərə şərait yaradılmışdı ki, evlərini istədikləri qiymətə satsınlar. Lakin Ermənistanda isə əmlakları qarət olunan, öldürülən, təhqir olunan azərbaycanlılar haqqında heç bir tədbir görülmürdü. Ermənistandan didərgin salınan azərbaycanlılara nə evlərini satmağa, nə də dəyişməyə icazə vermirdilər. Həmin vaxtlarda 100 mindən çox azərbaycanlı evsiz-eşiksiz qalanda Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında olan ermənilərin evləri hüquq-mühafizə orqanları tərəfindən mühafizə olunurdu.

Yalnız hadisələr yeni başlayan zaman Ermənistanda yaşayan azərbaycanlıların az bir hissəsi öz evlərini Azərbaycanda yaşayan ermənilərin evləri ilə dəyişə bilmişdi. 1988-ci ildə Ararat rayonunun Kiçik Vedi, Xalisa, Şidli, Armaş, Şirazlı, Lusarat, Erosx, Sisiyan rayonunun Urut, Dəstəkert, Şəki, Qızıl Şəfəq, Sofulu, Əhtəli, Çomartlı, Murxuz, Masis rayonunun

Dəmirçi, Zəngilər, Rəncbər, Kalinin qəsəbəsi, Masis qəsəbəsi, Əzizbəyov rayonunun Karmraşen, Gülüstan, Sarvan, Yexeqnadzor rayonunun Qızılgül kəndlərindən, Çermuk və Abovyan şəhərlərindən 122 ailə, 1989-cu ildə isə 32 ailə Naxçıvan şəhəri XDS İK-nə müraciət edərək öz şəxsi evlərini Naxçıvan şəhərində yaşayan ermənilərin kommunal mənzilləri ilə dəyişmişdir (95, s.7). Nəzərə alsaq ki, MR-nın digər rayon və kəndlərində bu cür evdəyişmə halları olmuşdur, o zaman Naxçıvan MR-a gələn qaçqınların sayının 17 mindən daha çox olduğunu görərik.

Bununla yanaşı, Ermənistan SSR-in müxtəlif rayonlarındakı şəxsi evlərini Naxçıvan şəhərində yaşayan erməni ailələrinin kommunal mənzilləri ilə dəyişən və Naxçıvan MR-da daimi yaşamaq istəyən qaçqınların müəyyən bir hissəsi Naxçıvan şəhər XDS İK-nə müraciət edərək kənd təsərrüfatı ilə məşğul olmaq istədiklərini və şəhər mühitinə uyğunlaşa bilmədiklərini bildirərək, kommunal mənzillərini MR-nın müxğəlif rayonlarının kəndlərində yaşayan vətəndaşların şəxsi evləri ilə dəyişdirilməsini xahiş etmişdilər. O cümlədən 1989-cu ilin noyabr ayında Ermənistan SSR-in Ararat rayonunun Kiçik Vedi, Armaş, Xalisə kəndlərinin sakinləri kommunal mənzillərini Culfa rayonunun Qazançı, Babək payonunun Əliabad kəndlərinə və s. dəyişmişdilər (101, siy.7, q.2134).

Ermənistandan didərgin salınan qaçqınlar barədə Azərbaycan rəhbərliyi, hüquq mühafizə orqanları heç bir qəti tədbir görmür, yalnız zərər çəkən azərbaycanlıların şəxsiyyətini müəyyənləşdirib, sənədlərini toplayaraq SSRİ Prokurorluğunun Ermənistan SSR üzrə istintaq qrupuna göndərməklə kifayətlənirdilər. 1989-cu ilin yanvar ayının ortalarına qədər MR-ya gələn qaçqınlardan hüquq-mühafizə orqanlarına on minlərlə ərizə və şikayət daxil olmuşdu. Lakin qeyd edildiyi kimi, Ermənistanda törədilmiş cinayətlərin heç birinin üstü açılmamışdı. Ermənistandan MR-ya gələn qaçqınların yerləşdirilməsi, onlara əməliköməklik göstərilməsi üçün partiya, sovet və

ictimai təşkilatlar tədbirlər həyata keçirirdilər. Bu məqsədlə rayon XDS İK-ləri nəzdində qərargahlar və komissiyalar yaradılmışdı. Muxtar Respublikaya gələn qaçqınların ilkin qəbulu, yerləşdirilməsi sahəsində əsas ağırlıq İliç rayonunun üzərinə düşmüşdü. «Ermənistandan İliç rayonu ərazisinə gələn qaçqınlarla işi gücləndirmək, onların yerləşdirilməsi və mənzil-məişət şəraiti yaradılması məsələlərini operativ həll etmək üçün hələ 1988-ci il iyul ayının 27-də komissiya yaradılmışdı (97, s.12, iş 85, b.189, v.24-25).

Bu komissiyanın təşkil edilməsinə baxmayaraq, qaçqınların ehtiyaclarına və qayğılarına etinasızlıqla yanaşılır, onların yerləşdirilməsi, məişət və tibbi xidmət məsələləri vaxtında həll olunmurdu. Azərbaycan KP MK-nın «Daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuş vətəndaşların problemlərinin həll edilməsi sahəsində təxirəsalınmaz tədbirlər haqqında» 5 dekabr 1988-ci il tarixli qərarına uyğun olaraq İliç (indiki Şərur rayonu) rayon XDS İK-nin 1988-ci il 27 dekabr tarixli qərarı ilə rayonda Ermənistan SSR-dən öz daimi yaşayış yerlərini atıb gəlmiş əhali ilə iş aparan yeni komissiya yaradıldı (97, siy.12, iş 101, b.190, v.31).

1988-ci il iyun ayının 28-dən iyul ayının 9-dək Ermənistandan gələn qaçqınlardan 123 ailəni təmsil edən 529 nəfər Şərur rayonunun Dəmirçi, Yengicə, Sədərək, Oğlanqala, Arabatan, Xələc, Dizə, Tumaslı, Mahmudkənd, Aralıq, Çomaxtur, Kərimbəyli, Püsyan, Qaraburc, Gümüşlü, Şəhriyar, Düdəngə, Maxta, Yenikənd kəndlərində və rayon mərkəzində yerləşdirilmişdi. Gələn qaçqınlardan 54 ailəni təmsil edən 250 nəfər Ararat rayonundan, 44 ailəni təmsil edən 172 nəfər Masis rayonundan, 14 ailəni təmsil edən 97 nəfər Yexeqnadzor rayonundan və bir ailəni təmsil edən 10 nəfər Yerevan şəhərindən didərgin düşmüşdü (73, 223).

1988-ci ilin dekabr ayının 15-dək MR-ya gələn qaçqınlardan 800 ailəni təmsil edən 2100 nəfəri İliç rayonunun 58 kəndində yerləşdirilmişdi (97, siy.12, iş 101,b.190, v.31). 20

ailə – 95 nəfər daimi qeydiyyata alınmış, əmək qabiliyyətlilərin əksəriyyəti işlə təmin edilmişdi. Qaçqınların bir hissəsini daimi yaşayış yerləri ilə təmin etmək məqsədilə 40 hektar həyətyanı torpaq sahəsi ayrılmış və ev tikdirmək üçün hər bir ailəyə uzun müddətli ssuda verilmiş, 75 nəfər məktəb və uşaq baxçalarında yerləşdirilmiş, Rayon XDS İK-nin qərarı ilə 800 ailəyə 210 min rubl məbləğində yardım edilmişdi (97, siy.72, iş 101, b.190, v.45-49). Bundan əlavə, onlara 12,8 min rubl dəyərində pulsuz yemək, 86 min rubl dəyərində ərzaq, paltar verilmiş və müxtəlif xidmətlər göstərilmişdir. Belə ki, 1990-cı ilin may ayında 273 nəfər qaçqına 92542 rubl məbləğində maddi yardım göstərilmişdi (97, siy.13, iş 8, b.203, v.33). Yerli hökumət tərəfindən qaçqınlara 430.929 rubl nəğd pul, ərzaq və pulsuz paltar verilmişdi (97, s. 13, iş 8, b. 203, v. 34). İctimai təşkilatlar, idarə, müəssisə və təşkilatların, ayrı-ayrı vətəndaşların vasitəsilə ilə köçkünlərə maddi yardım göstərilirdi. Rayonda işsizlik problemi olmasına baxmayaraq qaçqınların əksəriyyəti işlə təmin edilirdi. Əmək qabiliyyəti olan 296 nəfərin 125 nəfəri münasib işlə təmin edilmişdir. 1990-cı ildə artıq 102 ailə daimi yaşamaq üçün rayonda qeydiyyata alınmış, 15 nəfər mənzil ilə təmin edilmişdi. Bütün bunlardan əlavə, rayona köçüb gələnlərlə iş aparmaq, onlara mənəvi dayaq olmaq məqsədilə Sosialist Əməyi Qəhrəmanı, SSRİ Ali Sovetinin deputatı İsa Əliyevin başçılığı altında müharibə və partiya veteranlarından ibarət əməli qrup yaradılmışdı.

Şərura gələn azərbaycanlılar müxtəlif vaxtlarda köçüb Bakı, Sumqayıt şəhərlərinə və Azərbaycanın ayrı-ayrı regionlarına getmişdilər. Bununla belə, rayonda 175 ailəni təmsil edən 685 nəfər məcburi köçkün qalmışdı. Onlardan 75 ailə Yexeqnadzor, 58 ailə Ararat, 16 ailə Əzizbəyov, 6 ailə Masis və 1 ailə Amasiya rayonundan gəlmişdi. Rayonda məskunlaşan azərbaycanlıların 266 nəfəri kişi, 270 nəfəri qadın, 149 nəfəri azyaşlı uşaq idi.

Bu ailələr Şərur rayonunun sovetliklərində aşağıdakı qaydada yerləşdirilmişdi: Siyaqut kənd sovetliyində 20 ailə, Sədərək kənd sovetliyində 19 ailə, Xanlıqlar kənd sovetliyində 10 ailə, Cəlilkənd kənd sovetliyində 10 ailə, Yengicə kənd sovetliyində 8 ailə, Düdəngə kənd sovetliyində 5 ailə, Oğlanqala kənd sovetliyində 4 ailə, İbadullah kənd sovetliyində 4 ailə, Axura kənd sovetliyində 4 ailə, Yaycı kənd sovetliyində 4 ailə, Şərur şəhər sovetliyində 4 ailə, Aralıq kənd sovetliyində 3 ailə – 25 nəfər, Qarxun kənd sovetliyində 3 ailə – 18 nəfər, Xok kənd sovetliyində 1 ailə (73, 271).

DQMV və onun ətrafında baş vermiş hadisələrlə bağlı Ermənistanın müxtəlif rayonlarından Ordubad rayonuna 508 nəfərdən ibarət 125 ailə gəlmişdi (80, siy.12, q.163, iş 7). Onlar hər cür qayğı ilə əhatə olunmuş və müvafiq şəraiti olan yerlərdə yerləşdirilmişdi. Məktəbyaşlı uşaqlar məktəblərə cəlb olunmuş, Parağa kəndində onlar üçün yeni natamam orta məktəb tikilmişdi. Ordubad rayonuna gələn qaçqınlardan 20 ailə «Oktyabrın 40 illiyi adına sovxoz»un ərazisində yerləşdirilmişdi (98, siy.12, q.163, iş 7, v.33).

Ordubad rayonunda dövlət tərəfindən ayrılmış vəsaitdən başqa, Dövlət Bankının rayon şöbəsində «Yurd» cəmiyyəti xətti ilə xüsusi hesab açılmış və camaatın könüllü olaraq həmin hesaba keçirdiyi vəsait hesabına başqa xeyirxah işlərlə yanaşı, qaçqın ailələrinə də hər cür yardım göstərilirdi.

Ordubad rayonunda daimi yaşamaq arzusunda olanlar üçün yaşayış evləri, torpaq sahələri və tikinti materialları ayrılır, imkan daxilində onları ixtisaslarına uyğun işlə təmin edir, maddi yardım göstərirdilər. Ordubadda konserv zavodunun, baramaaçan fabrikinin və başqa müəssisələrin əmək kollektivlərinin təşəbbüsü ilə didərginlərə yardım fonduna 150 min rubldan çox vəsait köçürülmüşdür. Ordubad rayonunun Ağdərə kəndində yeni yaşayış məhəlləsində tamamilə qaçqınlar yerləşdirilmişdi (98, s. 12, q.163, iş 7, v. 28).

1988-ci il iyul ayının 29-da Azərbaycan KP Ordubad rayon komitəsi bürosunun qərarı ilə Ermənistan SSR-dən Ordubad rayonuna gələn qaçqın azərbaycanlı ailələrinin qəbul edilməsi və yerləşdirilməsi məqsədilə rayon XDS İK sədri S.Musayevin sədrliyi ilə komissiya yaradılmışdır (98, siy.12, q.163, iş 7).

Ermənistandan didərgin düşən və Culfa rayonu ərazisində yerləşən azərbaycanlı qaçqınlarla işin təşkili üçün 25 iyul 1988-ci il tarixdə Rayon Partiya Komitəsinin bürosunun qərarı ilə rayon XDS İK sədriR.Əzimovun rəhbərliyi ilə komissiya yaradılmışdır (95, siy.12, q.149, iş 15, v.29).

Culfa rayonuna Ermənistandan 71 ailəni təmsil edən 303 nəfər qaçqın gəlmişdir ki, onlar da əsasən rayonun Şurut, Əbrəqunus, Xanağa, Milax və digər kəndlərində, xeyli hissəsi isə Culfa şəhərində müxtəlif yaşayış və inzibati binalarda yerləşdirilmişdir (95, siy.12, q.149, iş 15, v.30).

Dağlıq Qarabağ hadisələri yeni başlayan ərəfədə Babək rayonuna 230 ailəni təmsil edən 958 nəfər qaçqın gəlmişdir (98, siy.10, iş 21, b.61, v.17-20). 1988-ci ilin iyul ayında hadisələrin kəskinləşdiyi dövrdə əlavə olaraq 127 ailəni təmsil edən 586 nəfər azərbaycanlı qaçqın gəlmişdir (98, siy.10, iş 21, v.19). Gələn qaçqınlar rayonun Sovetabad (Xətai), Leninabad, Yarımça, Myasnikovabad (Əliabad), Şıxmahmud, Nehrəm, Qahab sovetliklərinin ərazisində yerləşdirilmişdir. Sonralar bu rəqəm yeni gələn qaçqınların hesabına daha da artmışdı. Belə ki, iyul ayından sonrakı dövrdə, yəni 1989-cu ilin yanvar ayınadək Babək rayonunda Ermənistan SSR-dən didərgin düşən 363 ailəni təmsil edən 2013 nəfər azərbaycanlı yerləşdirilmişdir (105, siy.10, iş 21, b.61, v.1-28). Hadisələrin daha amansız şəkil aldığı 1989-cu il ərzində qaçqınların sayı daha da artaraq 439 ailəni təmsil edən 2161 nəfərə çatmışdı (105, siy.10, iş 21, b.62). Onlardan 737 nəfər tez bir zamanda rayonda pasport qeydiyyatına alındı.

Ermənistandan didərgin düşən qaçqınlara Babək rayonunda da daim qayğı göstərilir, tibbi və ərzaq yardımı edilirdi. 506 nəfər məktəbyaşlı uşaq təhsilə cəlb edilmiş, digər rayonlarda olduğu kimi, Babək rayonunda da işsizlərin sayının çox olmasına baxmayaraq, qaçqınlardan əmək qabiliyyətlilərin xeyli hissəsi sovxoz və kolxozlarda, idarə və müəssisələrdə işlə təmin olunmuşdu. Onlara hər cür ticarət, məişət və tibbi xidmət göstərilirdi. Gələn azərbaycanlı qaçqınlar rayonun kəndlərində, yaşayış məntəqələrində, məktəblərdə, yataqxanalarda yerləşdirilmişdi. Qısa müddət ərzində onlar 3,5 ton yağ, 4230 ədəd müxtəlif konserv və digər ərzaq məhsulları ilə təmin edildilər (105, siy.10, iş 25, b.61, v.52-61). Köçkünlərə yardım məqsədilə 31.328 rubl nəğd pul ödənilmişdi (105, siy.10, iş 53, b.63, v.39-45).

1988-ci il dekabrın 6-da Ermənistan SSR-dən didərgin düşən azərbaycanlı ailələrini yerləşdirmək və onlara lazım olan xidmətləri göstərmək məqsədilə bu rayonda da Rayon PK-nin I katibi K.Suleymanovun sədrliyi ilə rayon qərargahı yaradılmışdı (105, siy.10, iş 37, b.61, v.28-29).

1989-cu il yanvarın 26-da Babək Rayon Komitəsi bürosunun qərarı ilə Ermənistan SSR-də daimi yaşayış yerlərini tərk etmiş vətəndaşlara kömək edilməsi, onlara ərzaq, yaşayış, tibbi və digər xidmətlər göstərilməsinin təmin edilməsi məqsədi ilə yeni tərkibdə hökumət komissiyası yaradıldı.

Komissiyaya Babək rayon XDS İK sədrinin müavini B.Hüseynəliyev sədrlik edirdi (86, siy.10, iş 53, b.63, v.39-45).

1989-cu ilin yanvar ayınadək Əznəbürd kəndində Ermənistandan köçüb gəlmiş 242 ailəni təmsil edən 1462 nəfər (105, siy.10, iş 21, b.63, v.15-17), Leninabad, Kültəpə və Zeynəddin kəndlərində 125 nəfər yerləşdirilmişdi. Bu kəndlərdə yerləşən 32 ailədən 18-i yaşayış evləri ilə təmin olunmuş, uşaqlar təhsilə cəlb edilmiş, işləmək arzusunda olanlar sovxozda müvafiq işlə təmin olunmuşdur. 14 ailə qohumlarının evlərində yerləşdirilmişdir. Burada yerləşən köçkünlərə maddi yardım

edilirdi. Belə ki, sovxoz işçilərinin 1 gün iməclikdə qazandıqları 1500 rubl əmək haqqı köçkünlərə yardım fonduna köçürülmüşdü. 500 rubl nəqd pul isə vəziyyəti daha ağrı olan qaçqınlara paylanmışdır (105, siy.10, iş 21, b.63, v.17-19).

Ermənistandan qaçqın düşərək Babək rayon ərazisində yerləşən gənclərdən 140 nəfəri «Artek» düşərgəsinə göndərilmişdir (105, siy.10, iş 53, b.63, v.20-22). Rayonun İstehlak Cəmiyyətinin işçiləri əmək haqqı hesabına yığdıqları 1000 rubl dəyərində ət, yağ, yumurta və s. alaraq Əliabad kəndində yerləşdirilən qaçqınlara paylamış, sovetliyin tərtib etdiyi siyahıya əsasən hər ay qaçqınlara yağ verilmişdir. Didivar kənd orta məktəbində yerləşdirilmiş qaçqınlara da bu cür yardımlar edilirdi. Rayon İK-nin İstehlak Cəmiyyətinin bank hesabına keçirdiyi 5000 rubl vəsait hesabına Əznəbürd kəndində yerləşdirilən qaçqınlara pulsuz geyim paltarları paylanmışdır (105, siy.10, iş 53, b.63, v.24-26).

Babək rayonunun Böyükdüz kəndindən bir qədər aralıda, «Ceyran bulağı» adlanan sahədə 380 qaçqın ailəsinin yerləşdirilməsi üçün yeni yaşayış sahəsi salındı. Evlərin tikintisi ilə yanaşı 360 yerlik məktəb binası, ticarət mərkəzi, 300 yerlik klub, məişət evi, hamam və başqa sosial obyektlər tikildi. Bundan başqa hər bir ailəyə 1200 $m^2$ həyətyanı torpaq sahəsi verildi (33).

DQMV və onun ətrafında baş vermiş hadisələrlə əlaqədar Ermənistandan qaçqın düşən azərbaycanlılar Şahbuz rayonunun da yaşayış məntəqələrində yerləşdirilmişdilər. Rayona gələn qaçqınlarla işi gücləndirmək, onların yerləşdirilməsi və mənzil-məişət şəraiti yaradılması məsələlərini operativ həll etmək məqsədilə 1988-ci il iyul ayının 25-də rayon komissiyası yaradılmışdır (96, siy.12, q.123, iş 12, v.121).

MR-nın digər rayonlarında olduğu kimi, Şahbuz rayonunda da yerləşən qaçqın ailələrinə yardım və kömək göstərilməsi üçün lazımi tədbirlər görülürdü. Rayon rəhbərlərinin Sisiyan və Əzizbəyov rayonlarının rəhbərləri ilə bir neçə dəfə

qaçqınların öz yerlərinə qayıtmaları ilə bağlı görüşləri keçirilsə də onlar heç bir nəticə verməmişdi.

1988-ci ilin noyabr ayında, Dağlıq Qarabağ hadisələrinin kəskinləşdiyi dövrdə Ermənistan SSR-in Əzizbəyov, Yexeqnadzor və Sisiyan rayonlarından 1500 nəfərdən çox azərbaycanlı öz daimi yaşayış yerlərini tərk edərək rayon ərazisinə gəlmişdilər (96, siy.12, q.125, iş26, v.3-22).

1988-ci ilin noyabr ayından 1989-cu ilin yanvar ayınadək olan 3 ay ərzində köçkünlərə 51.750 rubl yardım və 2000 rubl dəyərində pulsuz paltar verilmişdir (96, siy.12, q.125, iş 26, v.3-22).

Rayonda daimi yaşamaq istəyənlərə 9 hektar torpaq sahəsi ayrılmış, tikinti işləri aparmaq üçün ssuda verilmiş, pulsuz yanacaq və ərzaqla təmin olunmuşlar. Məktəbyaşlı uşaqlar təhsilə cəlb edilmiş, əmək qabiliyyətlilər sovxoz və kolxozlarda işlə təmin olunmuşdular.

Rayon ərazisində yerləşən idarə, müəssisə və təşkilatlar həftədə bir dəfə şənbə günü işləməklə qazanclarını «Yardım» fonduna köçürürdülər. Məs. Şahbuz rayon Avtomobil Təmiri Zavodunun əməkçiləri 2 dəfə şənbə günü işləməklə qazandıqları 200 rubl dəyərində vəsaiti «Yardım» fonduna köçürmüşdülər (96, siy.12, q.125, iş 26, v.23).

Ermənistandan gələn köçkünlərdən 42 ailəni təmsil edən 194 nəfər Mahmudoba kənd sovetliyini əhatə edən Nurs, Mahmudoba, Qarababa və Arınc kəndlərində yerləşdirilmişdir. Təkcə Arınc kəndində 75 nəfər qaçqın yerləşdirilmişdi (96, siy.12, q.125, iş 26, v.28). Onlara köməklik göstərilir, pul, yanacaq, ərzaq və digər yardımlar edilirdi. Şahbuz rayonunun Gömür kəndində Ermənistan SSR-in Əzizbəyov rayonundan gəlmiş 35 qaçqın ailəsi yerləşdirilmişdi (31). Qaçqın uşaqlarından 20 nəfər məktəbli «Artek» pioner düşərgəsinə göndərilmişdir.

Qeyd etmək lazımdır ki, MR-nın digər rayonlarında olduğu kimi Şahbuz rayonunda da müvəqqəti sığınacaq tapan

qaçqınların əksəriyyəti sonradan Bakı şəhərinə getmişdilər. Ona görə də burada qaçqınların sayı azalaraq, 1989-cu ilin iyun ayında 81 ailəni təmsil edən 362 nəfər olmuşdur (96, siy.12, q.125, iş 26, v.83-84).

1989-cu il yanvar ayının 27-də Ermənistan SSR-dən qaçqın düşən azərbaycanlıların ərzaqla, yaşayış mənzilləri, tibbi və digər sosial-məişət xidmətləri ilə təmin edilməsini yaxşılaşdırmaq məqsədilə Şahbuz rayon XDS İK sədri X.Abbasovun sədrliyi ilə yeni tərkibdə komissiya yaradılmışdır (96, siy.12, q.124, iş 20, v.20).

1989-cu il yanvar ayının 4-də Azərbaycan və Ermənistan KP MK-larının, Azərbaycan və Ermənistan SSR Ali Sovetləri Rəyasət heyətlərinin və Nazirlər Sovetlərinin daimi yaşayış yerlərini tərk etmiş vətəndaşlara müraciəti qəbul olundu (27, 312-314). Müraciətdə daimi yaşayış yerlərini tərk etmək məcburiyyətində olan azərbaycanlı və erməni əhalisinin tezliklə öz doğma yurdlarına qayıtmaları qeyd edilir, vətəndaşların təhlükəsizliyinə və Konstitusiya hüquqlarının qorunmasına təminatın verilməsi göstərilirdi.

Lakin, qeyd etdiyimiz kimi, bu müraciət o zaman olmuşdu ki, artıq Ermənistanda yaşayan 250 mindən artıq azərbaycanlı əhalisinin Konstitusiya hüquqları dövlət səviyyəsində pozulmuş və onlar öz tarixi-etnik torpaqlarından didərgin salınmışdılar. Təbii ki, bu müraciətin verilməsində də əsas məqsəd Azərbaycandan ermənilərin köçünün qarşısını almaq idi. Azərbaycanın o vaxtkı rəhbərliyi də Moskvanın göstərişinə əsasən hər vəchlə buna çalışırdı.

Azərbaycan SSR-də və Ermənistan SSR-də millətlərarası münasibətləri normal hala salmaq, daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuş azərbaycanlılara və ermənilərə yardım göstərmək və onların şəxsi təhlükəsizliyini təmin etmək məqsədilə SSRİ Nazirlər Soveti 1989-cu il aprelin 15-də 321 saylı xüsusi qərar qəbul etdi (27, 367).

Azərbaycanlıların və ermənilərin daimi yaşayış yerlərinə qayıtması və onlara dəymiş maddi zərərin ödənilməsi ilə əlaqədar məsələlər üzrə Azərbaycan SSR Nazirlər Soveti və Ermənistan SSR Nazirlər Sovetinin bu qərarına əsasən müəyyən edilmişdir ki, daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuş azərbaycanlılara və ermənilərə hansı yerli XD Sovetlərinin ərazisində maddi zərər vurulmuşdursa, həmin Sovetlərin İcraiyyə Komitələri zərəri yerli büdcələrin vəsaiti hesabına bütünlüklə ödəməli idilər. Eyni zamanda Azərbaycan SSR və Ermənistan SSR Nazirlər Sovetinə icazə verilmişdir ki, respublikalararası komissiyanın təqdimatı ilə daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuş azərbaycanlıların və ermənilərin dövlət sosial sığortası üzrə müavinət təyin edilməsi üçün fasiləsiz əmək stacı bərpa edilsin, habelə onlara həmin respublikaların büdcələri hesabına əvvəlki iş yeri üzrə üç aylıq əmək haqqı məbləğində birdəfəlik müavinət versinlər.

SSRİ Nazirlər Sovetinin 15 aprel 1989-cu il tarixli 321 saylı qərarının 12-ci bəndinə müvafiq olaraq Azərbaycan SSR Nazirlər Soveti Ermənistan SSR-də daimi yaşayış və iş yerlərini tərk etməyə məcbur olmuş azərbaycanlılara işdə 3 aydan artıq olmayan fasiləyə görə birdəfəlik müavinət verilməsini qaydaya salmaq üçün müəyyən işlər gördü. SSRİ Nazirlər Sovetinin qərarına müvafiq olaraq, o cümlədən respublikalararası komissiyanın razılığına əsasən respublikamıza Ermənistandan gəlmiş didərginlərə müavinəti onların əvvəllər əsasən Ermənistan SSR-də işlədikləri müəssisə və təşkilatlar ödəməli idi. Ona görə də, 1989-cu il iyul-sentyabr aylarında Ermənistan SSR-in müəssisə, idarə, təşkilat, kolxoz, sovxoz, habelə müvafiq yerli XDS İK-ləri rəhbərlərinin adına Azərbaycandan, o cümlədən Naxçıvan MR-dan 10 minlərlə ərizə göndərilmişdir ki, onlara çatacaq müavinətləri göndərsinlər. Lakin bir nəfər də olsun qaçqın Ermənistandan müavinət ala bilmədi.

Belə olduğu halda, Ermənistandan gələn didərginlərin ağır maddi vəziyyətini nəzərə alan respublikalararası komis-

siyanın Azərbaycan tərəfi SSRİ Nazirlər sovetinə təklif etdi ki, Ermənistandan gələn didərginlərə Azərbaycan SSR-in büdcəsi hesabına birdəfəlik müavinət verilməsinə icazə versin. Təbii ki, bu təklifə SSRİ Nazirlər Soveti tərəfdar çıxdı.

1989-cu il oktyabr ayının 19-da Azərbaycan SSR Ali Soveti daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuş şəxslərin qəbulu, yerləşdirilməsi və güzaranının sahmana salınması məsələlərini həll etmək və bu işdə respublikanın sovet, təsərrüfat, inzibati və ictimai təşkilatlarının fəaliyyətini əlaqələndirmək məqsədilə «Daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuş şəxslərlə iş üzrə Azərbaycan SSR Dövlət Komitəsinin yaradılması haqqında» fərman verdi (29).

1989-cu il oktyabrın 4-də Azərbaycan SSR Nazirlər Soveti qaçqınlara birdəfəlik müavinət verilməsi məsələsi ilə əlaqədar 399 saylı qərar verdi. Bu qərara müvafiq olaraq Ermənistan SSR-dən daimi yaşayış və iş yerlərini məcburi tərk etmiş və Naxçıvan şəhərinə gəlmiş azərbaycanlı vətəndaşlarına Naxçıvan şəhər XDS İK-nin 12 mart 1989-cu il tarixli 121 saylı qərarı ilə 45 min rubl, 15 mart 1989-cu il tarixli 164 saylı qərarı ilə 61,5 min rubl, 19 noyabr 1989-cu il tarixli 378 saylı qərarı ilə 61.900 rubl, 15 noyabr 1989-cu il tarixli 588 saylı qərarı ilə 96.312 rubl, 28 noyabr 1989-cu il tarixli 613 saylı qərarı ilə 50.000 rubl, 01 fevral 1990-cu il tarixli 47 saylı qərarı ilə 100.0 min rubl, 16 fevral 1990-cı il tarixli 69 saylı qərarı ilə 15.000 rubl, 12 mart 1990-cı il tarixli 124 saylı qərarı ilə 45.000 rubl, 17 may 1990-cı il tarixli 206 saylı qərarı ilə 100.0 min rubl məbləğində birdəfəlik müavinət verilmişdi (101, siy.7, arxiv 2126).

1990-cı il martın 5-də SSRİ Ali Soveti «Azərbaycan SSR-də və Ermənistan SSR-də vəziyyət və həmin regionda şəraiti normal hala salmaq tədbirləri haqqında» qərar verdi (3). Bu qərara uyğun olaraq SSRİ Nazirlər Soveti daimi yaşayış yerlərini məcburən tərk etmiş və Azərbaycan SSR-də olan vətəndaşlara yardım proqramını təsdiq etdi (28). Daimi yaşayış

